# COVID–19 AZƏRBAYCAN

İLK DALĞA

# COVID–19 AZERBAIJAN

FIRST WAVE

**COVID-19 AZƏRBAYCAN, İLK DALĞA**
Bakıda çap edilib

**COVID-19 AZERBAIJAN, FIRST WAVE**
Printed in Baku

**Məzmun konsepsiyası:** Nurlana Cəlil
**Məsləhətçi:** Prof. Dr. Qubad İbadoğlu
**Korrektor:** Firuddin Həsənov
**Tərcüməçi:** Robert Denis
**Qapaq dizaynı:** Qoşqar Nuriyev
**Səhifə dizaynı:** Qoşqar Nuriyev, Sahil Amir

**Concept:** Nurlana Jalil
**Consultant:** Prof. Dr. Gubad Ibadoglu
**Corrector:** Firuddin Hasanov
**Translator:** Robert Denis
**Caption design:** Goshgar Nuriyev
**Page design:** Goshgar Nuriyev, Sahil Amir

© 2020 İqtisadi Araşdırmalar Mərkəzi
Müəllif hüquqları qorunur

© 2020 Economic Research Center
All rights reserved

# TƏDQİQAT HEYƏTİ
# RESEARCH STAFF

## KOORDİNATOR / COORDINATOR



### Nurlana Cəlil

**Yaxşı idarəetmə üzrə Carl Friedrich Goerdeler Kolleg məzunu**
*Alumna of Carl Friedrich Goerdeler Kolleg for Good Governance*

## TƏDQİQAT EKSPERTLƏRİ / RESEARCH EXPERTS



### Emin Abbasov

**Hüquq sahəsi üzrə tədqiqatçı**
*Researcher in Law*



### Prof. Dr. Qubad İbadoğlu

**Rutgers Universiteti, İqtisadiyyat üzrə tədqiqatçı**
*Rutgers University, Researcher in Economics*



### Rəcəb İmanov

**İqtisadiyyat üzrə tədqiqatçı**
*Researcher in Economics*



### Qalib Toğrul

**İqtisadiyyat üzrə tədqiqatçı**
*Researcher in Economics*



### Jalə Bayramova

**İnsan Hüquqları üzrə tədqiqatçı**
*Human Rights Researcher*



### Leyla Həsənova

**Gender Məsələləri üzrə tədqiqatçı**
*Researcher in Gender Issues*



### Nərmin İbrahimova

**İqtisadiyyat üzrə tədqiqatçı**
*Researcher in Economics*



### Rəşad Həsənov

**İqtisadiyyat üzrə tədqiqatçı**
*Researcher in Economics*

# ÖN SÖZ

Koronavirus pandemiyası (COVID-19) bütün dünyada bir çox sahələrə ciddi təsir etməyə müvəffəq oldu və oturuşmuş həyat şərtlərini dəyişə bildi. COVID-19 təkcə insan sağlamlığına yox, insanların azadlıqları, təhlükəsizlikləri və rifahına təhdid olmaqla yanaşı, dövlətlərin yaxşı idarəetmə bacarıqlarına da qarşı meydanoxuma oldu. Beləliklə, pandemiya hökumətlərin COVID-19 təhdidinin qarşısını alma adekvatlığını və yaxşı idarəetmə bacarıqlarını bilavasitə nümayiş etdirən fürsətə çevrildi. Həmçinin Azərbaycanda da koronavirusla mübarizədə iştirakçılıq, şəffaflıq, qanun aliliyi, çeviklik, konsensus yönümlülük, bərabərlik, inklüzivlik və hesabatlılıq kimi yaxşı idarəetmə meyarlarının nə dərəcədə uğurlu tətbiq edildiyi diqqət mərkəzində oldu.

Azərbaycanda vətəndaşlar və hökumət bu pandemiyadan nə öyrəndi və potensial təhdidlərin öhdəsindən gəlmək üçün hansı təməl çatışmazlıqlar aradan qaldırılmalıdır? Bunlar, böhran sonrası dövr üçün müzakirə olunub, cavablandırılması gərəkən vacib məqamlardır. Bu gün gəlinən ilkin nəticə isə odur ki, səhiyyə, təhsil, iqtisadiyyat, sənaye, sosial müdafiə kimi vacib sahələrin dayanıqlılığının təmin edilməsi, o cümlədən yaxşı idarəetmə sistemi vətəndaşların həyat təhlükəsizliyi, azadlıqları və rifahına yönəlik (potensial) təhdidləri qismən zərərsizləşdirə bilər.

Bəs Azərbaycanda COVID-19 təhdidinin birinci dalğası necə zərərsizləşdirildi? Karantin məhdudiyyət tədbirləri qanun aliliyinə müvafiq təşkil edildimi? Koronavirusla mübarizə istiqamətində ayrılmış vəsaitlər şəffaf xərcləndimi? İnsan hüquqlarının və siyasi azadlıqların vəziyyəti necə idi? Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi necə tənzimləndi? Pandemiya dövründə sosial dəstək proqramları nə qədər səmərəli oldu? Böhran sonrası nələr edilməlidir?

Sizə təqdim olunan bu tədqiqat toplusu yuxarıdakı suallara cavab verməklə Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizənin təşkili üzrə monitorinq hesabatlarını, kənd təsərrüfatı üzrə yaranmış böhrana, habelə sosial dəstək proqramlarının səmərəliliyinə dair analitik hesabatları və post-pandemiya dövrü üçün Azərbaycan hökumətinə ünvanlanmış siyasət sənədini təqdim edir.

Beləliklə, birinci hissədə Azərbaycanda COVID-19 pandemiyası ilə bağlı karantin məhdudiyyət tədbirlərinin hüquqi qiymətləndirməsi; Dövlət büdcəsindən və Koronavirusla Mübarizəyə Dəstək Fondundan koronavirus ilə mübarizə istiqamətində ayrılmış vəsaitlərin şəffaf xərclənməsi; COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycanda insan hüquqları və siyasi azadlıqları üzrə üç monitorinq hesabatı təqdim edilir. İkinci hissədə COVID-19 pandemiyasının kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi aspektindən qiymətləndirilməsi və sosial dəstək proqramlarının səmərəliliyinin dəyərləndirilməsi üzrə analitik hesabatlar yer alır. Üçüncü hissədə isə COVID-19 böhranı və böhran sonrası dövr üçün siyasət sənədi təqdim olunur.

Bu tədqiqat işində iştirak etmiş ekspertlərə təşəkkür edir və işimizin uğurla başa çatması münasibəti ilə hər bir komanda üzvünü təbrik edirəm. Ümid edirəm ki, bu tədqiqat işi vətəndaş cəmiyyəti üçün faydalı töhfə olacaq.

*Sağlamlıq, azadlıq, təhlükəsizlik və rifah arzusuyla,*

**Nurlana Cəlil**
***Tədqiqat işinin ideya müəllifi və koordinatoru***

# FOREWORD

The coronavirus pandemic (COVID-19) has had a profound effect in many ways around the world and has altered longstanding living conditions. COVID-19 is not only a threat to human health, but also to human freedoms, security, and well-being, as well as a challenge to good governance. The pandemic has become an opportunity for governments to demonstrate their ability to respond to the COVID-19 threat and their capacity for good governance. In Azerbaijan, the focus of attention was on the extent to which good governance indicators such as participation, transparency, rule of law, responsiveness, consensus orientation, equity, inclusiveness, and accountability have been successfully applied in the response to coronavirus.

What have citizens and the government of Azerbaijan learned from this pandemic, and what key shortcomings need to be eliminated to address potential threats? These are important points that need to be discussed and addressed for the post-crisis period. Today, the preliminary conclusion is that ensuring the sustainability of important areas such as health care, education, the economy, industry, and social protection, as well as good governance, can partially neutralize (potential) threats to citizens' security, freedoms, and welfare.

But how was the first wave of the COVID-19 threat addressed in Azerbaijan? Were the quarantine restrictions set up in accordance with the rule of law? Were the funds allocated for the response to coronavirus spent transparently? What about the state of human rights and political freedoms? How were agriculture and food security regulated? How effective were social support programs during the pandemic? What must be done after the crisis?

This collection of research answers the above questions, presenting monitoring reports on the response to the COVID-19 pandemic in Azerbaijan, analytical reports on the agricultural crisis and the effectiveness of social support programs, and a policy document for the post-pandemic period addressed to the Azerbaijani government.

Part one presents three monitoring reports on a legal assessment of the quarantine restrictions related to the COVID-19 pandemic in Azerbaijan; on the transparency of the spending of funds allocated for the fight against coronavirus from the state budget and the Coronavirus Response Fund; and on human rights and political freedoms in Azerbaijan with regard to the COVID-19 pandemic. The second part contains analytical reports on an assessment of the COVID-19 pandemic from the perspective of agriculture and food security and on the effectiveness of social support programs. The third part presents a policy paper for the COVID-19 crisis and the post-crisis period.

I would like to thank the experts who participated in this research and congratulate each team member on the successful completion of our work. I hope that this study will be a useful contribution to civil society.

*Wishing you health, freedom, security, and prosperity,*

**Nurlana Jalil**
***Concept and Research Coordination***

# MÜNDƏRİCAT
# CONTENT


## 01. MONİTORİNQ HESABATLARI / MONITORING REPORTS

**Azərbaycanda COVID-19 pandemiyası ilə bağlı karantin məhdudiyyət tədbirlərinin hüquqi qiymətləndirməsi üzrə monitorinq hesabatı** / 11 — 40

*Monitoring report on legal assessment of the quarantine restrictions related to the COVID-19 pandemic in Azerbaijan* / 41 — 68

**Dövlət büdcəsindən və Koronavirusla Mübarizəyə Dəstək Fondundan COVID-19 pandemiyası ilə mübarizə istiqamətində ayrılmış vəsaitlərin şəffaf xərclənməsi üzrə monitorinq hesabatı** / 69 — 92

*Monitoring report on the transparent spending of allocations from the state budget and the Coronavirus Response Fund in the response to COVID-19* / 93 — 115

**COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycanda insan hüquqlarının və siyasi azadlıqların monitorinq hesabatı** / 117 — 131

*Monitoring report on human rights and political freedoms in Azerbaijan with regard to the COVID-19 pandemic* / 133 — 146

## 02. ANALİTİK HESABATLAR / ANALYTICAL REPORTS

**COVID-19 pandemiyasının kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi aspektindən qiymətləndirilməsi** / 151 — 174

**COVID-19 pandemiya dövründə sosial dəstək proqramlarının səmərəliliyinin qiymətləndirilməsi: Azərbaycan təcrübəsi** / 175 — 190

## 03. SİYASƏT SƏNƏDİ / POLICY PAPER

**COVID-19 böhranı və böhran sonrası dövr üçün siyasət sənədi** / 195 — 224

*Policy paper for the COVID-19 crisis and the post-crisis period* / 225 — 253

# 01

## MONİTORİNQ HESABATLARI
## MONITORING REPORTS

# AZƏRBAYCANDA COVID-19 PANDEMİYASI İLƏ BAĞLI KARANTİN MƏHDUDİYYƏT TƏDBİRLƏRİNİN HÜQUQİ QİYMƏTLƏNDİRMƏSİ ÜZRƏ MONİTORİNQ HESABATI

Emin Abbasov

## GİRİŞ

Koronavirus (COVID-19) qlobal ictimai səhiyyə böhranına cavab tədbirləri olaraq dünya ölkələri 2020-ci ilin fevral ayından etibarən insan hüquq və azadlıqları üzərində sərt təsirləri olan bir çox məhdudlaşdırıcı qaydalar müəyyən etməyə başlayıb. Azərbaycan da digər ölkələr kimi 2020-ci ilin mart ayından başlayaraq COVID-19 pandemiyasının yayılmasının sürətini azaltmaq, həmçinin pandemiyaya qarşı resurslardan səmərəli istifadə etməklə pandemiyaya daha hazırlıqlı cavab vermək üçün müxtəlif karantin məhdudiyyət tədbirləri tətbiq edib. Bu tədbirlərin bir çoxu insanların Konstitusiya və beynəlxalq insan hüquqları sənədlərində təsbit olunmuş hüquq və azadlıqlarını məhdudlaşdırılması, bir sıra hallarda isə ümumiyyətlə müəyyən müddətlərdə qadağan edilməsi ilə nəticələnib. Hazırkı hesabat Azərbaycanda COVID-19 pandemiyasının təsirlərini azaltmaq üçün dövlət tərəfindən tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin Konstitusiya və beynəlxalq insan hüquqları standartlarına uyğunluğunu və yaxşı idarəetmə indikatorları üzrə effektivliyini təhlil etməyə çalışır.

Azərbaycan Respublikası milli qanunvericiliyinin təhlili göstərir ki, ölkə Konstitusiyası və qanunlarında belə total məhdudlaşdırıcı tədbirlər yalnız Konstitusiyada göstərilən qaydada müvəqqəti olaraq istifadə edilmək şərtilə, fövqəladə vəziyyətin hüquqi rejimi tətbiq edilməklə mümkün ola bilər. Lakin Azərbaycanın COVID-19 pandemiyasının təsirlərinin azaldılmasına qarşı qərarları fövqəladə vəziyyətin xüsusi hüquqi rejimi tətbiq edilmədən, Konstitusiya və qanunlarda müəyyən edilmiş qaydaların tələblərinə uyğun olmayan formada reallaşıb.

Bu məqsədlə Nazirlər Kabineti yanında aidiyyəti dövlət qurumlarının və onların rəhbər şəxslərinin təmsil olunduğu Operativ Qərargah yaradılıb. Operativ Qərargah hüquq və azadlıqları parlamentin razılıq və nəzarəti olmadan tam və ya qismən məhdudlaşdırmaq, pandemiyaya qarşı həyata keçirilən tədbirlərin təsirlərinə məruz qalan şəxslərin əhatə dairəsini müəyyən edərək onlar barəsində sosial-iqtisadi dəstək proqramları və bu proqramlardan istifadə etmək qaydalarını müəyyən etmək, eləcə də, karantin tədbirlərinin fəaliyyətinə nəzarət etmək kimi geniş səlahiyyətlər həyata keçirib.

24 mart 2020-ci il tarixindən tətbiq edilməyə başlayan karantin məhdudiyyət tədbirləri ilə bağlı qərarların qəbul edilməsi prosesində parlamentin iştirakı Konstitusiyaya zidd olaraq təmin edilməyib. Onlayn rejimdə fəaliyyətini davam etdirsə də, parlament ölkədə Konstitusiyada təsbit olunan hüquq və azadlıqlar üzərində bir neçə dəfə müddəti uzadılan müvəqqəti qadağalara nəzarət etmək imkanında olmayıb. Bundan başqa, icra hakimiyyəti orqanı - Nazirlər Kabineti belə fövqəladə səlahiyyətləri həyata keçirmək üçün Konstitusiya ilə tələb olunduğu kimi parlamentdən razılıq almayıb. Nəticədə icra hakimiyyəti hüquq və azadlıqlar üzərində parlamentin razılıq və nəzarəti olmadan fövqəladə səlahiyyətlər həyata keçirib. Halbuki, parlament nəzarəti təcili fövqəladə tədbirlərə demokratik legitimlik qazandıra, icra hakimiyyətinin sürətli və genişlənmiş səlahiyyətlərini idarə edə və zərurət olarsa, ona təzyiq etməsi üçün vacib idi.

Karantin rejimi çərçivəsində yaşayış yerini icazə ilə tərk etmək qaydası, həyati əhəmiyyətli sahələr istisna olmaqla, bir çox sahələrdə iqtisadi fəaliyyətin dayandırılması, ölkədaxili və ölkə xaricinə səyahətin məhdudlaşdırılması, 10 nəfərdən artıq toplaşmağın, tibbi maskasız qapalı ictimai məkanlarda olmağın, dini ayinlərin icrasının, yas, toy və başqa idman və əyləncə tədbirlərinin keçirilməsinin qadağan edilməsi, o cümlədən ölkəyə geri qayıtmanın ancaq müəyyən edilmiş “mərhələli dönüş” qaydası ilə məhdudlaşdırılması kimi fövqəladə hal qaydalarına bənzər qaydalar qəbul olunub. Konstitusiyada təsbit olunan hüquqları məhdudlaşdıran bu qaydaların pozulmasına görə inzibati və cinayət məsuliyyətləri müəyyən edilib.

Operativ Qərargahın qəbul etdiyi məhdudiyyət tədbirlərinə dair qərarları qanunilik prinsipinə, eləcə də, mütənasiblik və zərurilik kimi hüquqi prinsiplərə uyğun olmayıb. Həmçinin, Operativ Qərargahın yaxşı idarəetmə üzrə meyarlara uyğunsuz fəaliyyətləri ortaya çıxmışdır. Belə ki, pandemiya əleyhinə dövlət siyasətlərinin formalaşdırılması prosesində şəffaflıq, iştirakçılıq, hesabatlılıq, inklüzivlilik və çeviklik kimi meyarların tələblərinə əməl edilməyib.

Təhlillər göstərmişdir ki, karantin məhdudiyyət tədbirlərinin mənfi təsirlərinə məruz qalan şəxslərin hüquqi statusu qanunlarla müəyyən edilmədiyi üçün təsirə məruz qalan şəxslərin hüquq və maraqlarının müdafiəsi ilə bağlı hüquqi təminatlar olmayıb. Belə ki, təsirə məruz qalan şəxslərin konkret siyahısı, həmçinin həmin kateqoriya şəxslər üçün kompensasiya və başqa dəstək proqramlarının xüsusi şərtləri və ondan istifadəyə dair məhdudiyyətlər icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən qərarla müəyyən edilmiş və müəyyən müddətdə qüvvədə olmuşdur. Bu müddət ərzində həmin dəstək proqramından yararlana bilməyən şəxslər sonradan bu hüquqdan məhrum olmuşlar.

Hesabatın ikinci fəsli Azərbaycanda tətbiq edilən karantin rejimlərinin gətirdiyi məhdudiyyət tədbirlərinin daxili qanunvericilikdə mövcud olan hüquqi əsaslarını,

həmin əsasların insan hüquq və azadlıqları standartlarına uyğunluğuna nəzər yetirir. Hesabatın üçüncü fəsli Operativ Qərargah tərəfindən tətbiq edilən məhdudiyyət tədbirlərini hüququn aliliyi, o cümlədən qanunilik, mütənasiblik və zərurilik kimi hüquqi çərçivələrə uyğunluğu təhlil edilir. Dördüncü fəsil Operativ Qərargahın fəaliyyətinin yaxşı idarəetmənin *iştirakçılıq*, şəffaflıq, *inklüzivlik*, çeviklik və *hesabatlılıq* kimi indikatorları üzrə nəzərdən keçirir. Sonuncu fəsil araşdırmanın yekun nəticələrini və bu sahədə dövlətə ictimai səhiyyə böhranlarını idarə etmək üçün mövcud qanunvericiliyi hüququn aliliyi və insan hüquqları yanaşması ilə təkmilləşdirməyi, həmçinin siyasətlərin daha keyfiyyəti idarəetmə ilə formalaşdırılması üçün tövsiyələri təqdim edir.

## AZƏRBAYCANDA FÖVQƏLADƏ VƏZİYYƏT HÜQUQİ REJİMİ VƏ EPİDEMİYA İLƏ MÜBARİZƏNİN HÜQUQİ ÇƏRÇİVƏLƏRİ

Azərbaycanda ictimai səhiyyə böhranlarının idarə edilməsi, eləcə də, əhalinin sağlamlığının qorunması sistemi əsasən 10 noyabr 1992-ci il tarixli *Sanitariya-epidemioloji salamatlıq haqqında*[1] *(№ 371)* və 26 iyun 1997-ci il tarixli *Əhalinin sağlamlığının qorunması haqqında*[2] *(№ 360-IQ)* qanunları ilə tənzimlənir. Bundan əlavə, fövqəladə vəziyyətin tətbiqi ilə bağlı 8 iyun 2004-cü il *tarixli Fövqəladə vəziyyət haqqında*[3] *(№ 681-IIQ)* xüsusi sahəvi qanun da mövcuddur. Lakin hər üç sahəvi qanunvericiliyin təhlili göstərir ki, bu qanunların tənzimlədiyi sahələr pandemiya kimi ictimai səhiyyə böhranı vəziyyətlərində bir-biri ilə əlaqəli olsalar da, bu qanunlar arasında zəruri olan əlaqələndirmə aparılmayıb və onlar bir-birinə uyğunlaşdırılmayıb. Belə ki, epidemiya əleyhinə fəaliyyətlərin həyata keçirilməsini tənzimləyən əsas qanun - *Sanitariya-epidemioloji salamatlıq haqqında* qanun - cari konstitusion hüquq sistemindən öncə qəbul edilib və sonradan konstitusiya və ratifikasiya edilmiş beynəlxalq insan hüquqları sənədlərinə uyğunlaşdırılmayıb. Bu isə praktikada hüququn aliliyi prinsipi və insan hüquqları standartlarını nəzərə almayan ictimai səhiyyə böhranı ilə mübarizə siyasətlərinin formalaşması ilə nəticələnib.

*Sanitariya-epidemioloji salamatlıq haqqında qanun* müəyyən edir ki, bu sahədəki qanunvericiliyə həm də *əhalinin sağlamlığının qorunması haqqında qanun* və əhalinin sanitariya-epidemioloji salamatlığı məsələləri barəsində digər qanunvericilik aktları daxildir. Qanun Konstitusiyadan, həmçinin Azərbaycanın bir çox beynəlxalq insan hüquqları sənədlərinə qoşulmasından əvvəl qəbul olunduğu üçün burada Konstitusiyaya və beynəlxalq hüquqi sənədlərə istinad edilməsinə dair aydın müddəalar yoxdur. Buna baxmayaraq, sözügedən qanun yüksək hüquqi qüvvəyə malik Kons-

[1] Sanitariya-epidemioloji salamatlıq haqqında qanun: http://e-qanun.az/framework/7916

[2] Əhalinin sağlamlığının qorunması haqqında qanun: http://e-qanun.az/framework/4078

[3] Fövqəladə vəziyyət haqqında qanun: http://www.e-qanun.az/alpidata/framework/data/6/f_6193.htm

titusiya və Azərbaycanın tərəf olduğu beynəlxalq müqavilələrin tələbləri nəzərə alınaraq şərh və tətbiq edilə bilər.[4]

Nazirlər Kabinetinin karantin məhdudiyyət tədbirləri ilə bağlı qərarlarından görünür ki, həmin qərarlar *sanitariya-epidemioloji salamatlıq haqqında qanunun* 25-ci maddəsinə istinad edərək qəbul edilib. Həmin qanunun 25-ci maddəsi xəstəliklərin əmələ gəlməsinin və yayılmasının qarşısını almaq sahəsində dövlət orqanlarının vəzifələrini müəyyən edir. Qanunun bu maddəsində qeyd olunur ki, "yoluxucu, parazitar, kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda Azərbaycan Respublikasının hökuməti, baş dövlət sanitariya həkimləri özlərinin səlahiyyətləri daxilində müvafiq ərazilərdə və ya obyektlərdə müəyyən olunmuş qaydada xüsusi əmək, təhsil, hərəkət, daşıma şəraiti və rejimləri tətbiq edir, lazım gəldikdə isə belə xəstəliklərin əmələ gəlməsinin, yayılmasının qarşısını almağa və onları ləğv etməyə yönəldilən zərərsizləşdirmə, dezinfeksiya, dezinseksiya, deratizasiya və dezaktivasiya işləri görürlər".

Azərbaycanda prezident olduqca geniş səlahiyyətlərə malikdir. Konstitusiyaya əsasən (Maddələr: 7, 8, 96, 109-113) prezident dövlət siyasətini müəyyənləşdirir, əhalinin və ərazinin sanitar-epidemioloji salamatlığının təmin edilməsi ilə bağlı ən vacib qərarları qəbul edir. Prezident dövlətin iqtisadi və sosial proqramlarını təsdiq edir, dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır; qanunları imzalayır və dərc edir; fövqəladə və hərbi vəziyyət elan edir; Konstitusiya ilə parlamentin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir. Prezident həmçinin öz səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan olduqca geniş məsələləri üzrə normativ və qeyri-normativ hüquqi aktlar qəbul edir.

Nazirlər Kabineti Konstitusiyanın 120-ci maddəsinin I hissəsinə uyğun olaraq, Konstitusiya və prezident aktları əsasında və onların icrası məqsədi ilə səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar formasında normativ hüquqi aktlar qəbul edir. Bundan başqa, Nazirlər Kabineti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həll edilə bilməyən olduqca geniş məsələlər üzrə də normativ hüquqi aktlar qəbul edir.

*Sanitariya-epidemioloji salamatlıq haqqında* qanununa (maddə 27) və *Səhiyyə Nazirliyi haqqında Əsasnamə*yə görə, Dövlət Sanitariya Epidemioloji Xidməti sanitar-epidemi-

[4] Konstitusiyanın 12-ci maddəsinə (II) əsasən Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Konstitusiyanın 148-ci maddəsi də (II) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müəyyən edilib. Həmçinin, Konstitusiyanın 151-ci maddəsi müəyyən edir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

oloji salamatlığı təmin edən proqramların hazırlanması, onların həyata keçirilməsinə təşkilati-metodik rəhbərlik və nəzarət edilməsi, yoluxucu, parazitar xəstəliklərin və qida zəhərlənmələrinin profilaktikası və ləğvi sahəsində, habelə ekstremal vəziyyətlər yarandıqda sanitariya-gigiyena tədbirlərinin, epidemiya əleyhinə tədbirlərintəşkili və həyata keçirilməsi kimi vəzifələri həyata keçirir.[5]

Səhiyyə Nazirliyinin Kollegiyasının 25 fevral 2016-cı il tarixli (№13) *Dövlət sanitariya-epidemioloji nəzarətinin həyata keçirilməsi ilə əlaqədar istifadə edilən sənədlərin tərtibi və tətbiqi Qaydaları*nın təsdiq edilməsi haqqında qərarı ilə sanitariya qanunvericiliyinin pozulması hallarında istifadə edilən məhdudlaşdırıcı tədbirlərin tətbiqi qaydalarını müəyyən edir. Qaydalarda sahibkarların fəaliyyətində yoxlamaların aparılması və bu subyektlərə tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin *Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanun* ilə tənzimləndiyi qeyd olunur.[6] Sahibkarlıq fəaliyyəti sahəsində tətbiq edilən sanitariya standartlarının müvafiq sahədəki əsas təminatların yer aldığı xüsusi qanuna – *Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanuna* – uyğun tətbiq edilməsi qeyd olunsa da, Nazirlər Kabinetinin COVID-19 pandemiyasının qarşısının alınması üçün qəbul etdiyi məhdudlaşdırıcı qaydaların təsir etdiyi müvafiq sahələrə dair təminatlar diqqətə alınmayıb.

Azərbaycanda karantin-təşkilat tədbirləri üzrə dövlət orqanının məhdudlaşdırıcı tədbirləri 2020-ci il 28 fevral tarixində Nazirlər Kabinetinin 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş *Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları* ilə müəyyən edilsə də, sözügedən bu qaydada müəyyən edilən məhdudlaşdırıcı tədbirlərin təsir edəcəyi hüquq və azadlıqların təminatların olduğu Konstitusiya və digər qanunvericilik aktları nəzərə alınmayıb.

Yuxarıda qeyd edildiyi kimi Nazirlər Kabinetinin COVID-19 pandemiyasının təsirlərinin azaldılması üçün qəbul etdiyi qərarlar *Sanitariya-epidemioloji salamatlıq haqqında qanun*un 25-ci maddəsinə istinad edilməklə qəbul olunsa da, sözügedən maddə Nazirlər Kabinetinə, həmçinin digər icra hakimiyyəti orqanlara Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar üzərində total məhdudlaşdırıcı qərarlar qəbul etmək səlahiyyəti verməyib. Qanunun 25-ci maddəsində qeyd edildiyi kimi müvafiq icra hakimiyyəti orqanları "özlərinin səlahiyyətləri daxilində müvafiq

[5] Dövlət sanitariya-epidemioloji xidməti orqanlarının və idarələrinin vahid sisteminə aşağıdakılar daxildir: Səhiyyə Nazirliyinin Sanitariya-Epidemioloji Nəzarəti Baş İdarəsi; Respublika Gigiyena və Epidemiologiya Mərkəzi; Naxçıvan Muxtar Respublikası, şəhər və rayon, habelə hava və su nəqliyyatı gigiyena və epidemiologiya mərkəzləri; gigiyena və epidemiologiya profilli elmi müəssisə və təşkilatları daxildir.

[6] Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında qanun, http://e-qanun.az/framework/26449

ərazilərdə və ya obyektlərdə" müəyyən olunmuş qaydada karantin tədbirləri görə bilərdilər.

Nazirlər Kabineti isə belə fövqəladə səlahiyyətləri yalnız Konstitusiyasının 112-ci maddəsi ilə müəyyən olunan fövqəladə vəziyyət xüsusi hüquqi rejiminin tətbiq edilməsi nəticəsində əldə edə bilərdi. Həmin maddəyə görə prezident təbii fəlakətlər, epidemiyalar və başqa səbəblərə görə fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Milli Məclisinin təsdiqinə verir. Fövqəladə vəziyyətin tətbiq edilməsi barədə normativ hüquqi akt Milli Məclis tərəfindən təsdiq edilmədikdə, o, rəsmi qaydada elan edildiyi andan 48 saat sonra öz qüvvəsini itirmiş olur. Başqa sözlə, belə xüsusi hüquqi rejimdən istifadə parlamentin razılığı olduqda həyata keçirilə bilərdi.

Bundan savayı, Nazirlər Kabineti tərəfindən tətbiq edilən məhdudlaşdırıcı tədbirlər *Fövqəladə Vəziyyət Haqqında Qanun*da (maddə, 8) nəzərdə tutulan sərt tədbir və məhdudiyyətlər ilə eynilik təşkil etsə də, fövqəladə vəziyyət xüsusi hüquqi rejimi tətbiq edilməyib. Beləliklə, Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində qəbul edilən kütləvi məhdudiyyətlər yalnız fövqəladə vəziyyət haqqında qanunda göstərilmiş xüsusi hüquqi rejimdə mümkün olduğundan karantin rejimi dövründə ölkədə de-fakto fövqəladə vəziyyət rejimi mövcud olub.

Nəticədə Konstitusiyada təsbit olunan hüquq və azadlıqlara kütləvi qadağa və məhdudiyyətlərin xüsusi hüquqi rejim (fövqəladə vəziyyət) tətbiq etmədən normal vəziyyət qaydalarında tətbiqi hüquqa uyğun olmadığı üçün ciddi konstitusion-hüquqi konflikt yaradıb.

Bundan başqa, *Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında* 24 dekabr 2002-ci il tarixli Konstitusiya qanununa əsasən (maddə 3) insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər. Burada nəzərdə tutulan qanun isə parlament səviyyəsində qəbul edilən qanun və yaxud parlamentin fövqəladə hallarda icra hakimiyyətinə Konstitusiyaya uyğun qaydada verdiyi səlahiyyətdən sonra xüsusi və müddətli səlahiyyət çərçivəsində qəbul edilən normativ hüquqi aktlar hesab olunur.

Parlamentlərin fövqəladə hallarda dövlətə nəzarətini tələb edən yanaşma beynəlxalq insan hüquqları sənədlərində də öz əksini tapıb. Avropa Şurası Venesiya Komissiyasının müxtəlif rəylərində qeyd edilir ki, "fövqəladə vəziyyətin mövcudluğu və müddəti parlament və məhkəmə qaydasında nəzarətə tabe olmalıdır."[7] Oxşar qayda həmçinin Avropa Şurası Parlament Assambleyasının 1713 (2005) *Üzv ölkələrdə təhlükə-*

[7] Avropa Şurasının Venesiya Komissiyası qanunun aliliyinə nəzarət vərəqəsində (CDL-AD(2016)007), 51-ci bənd) https://venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2016)007-e

*sizlik sektoruna demokratik nəzarət* adlı tövsiyəsində "müstəsna tədbirlərə parlamentlər tərəfindən nəzarət edilməlidir" şəklində də yer verilir.[8]

Azərbaycan Nazirlər Kabinetinin Konstitusiyada hüquqi əsasları müəyyən edilən səlahiyyətləri xaricində qəbul etdiyi karantin məhdudiyyət tədbirləri üzrə qərarları insan hüquq və azadlıqlar üzərində çoxsaylı məhdudiyyətlərin tətbiqi ilə nəticələndi. Bu tədbirlərin hüququn aliliyi, qanunilik və mütənasiblik kimi hüquqi prinsiplərə uyğun olub-olmaması növbəti fəsildə nəzərdən keçirilir.

## COVID-19 PANDEMİYASINA QARŞI CAVAB TƏDBİRLƏRİ: OPERATİV QƏRARGAH

### İnsan hüquq və azadlıqları: məhdudiyyətlərin konstitusion hüquqi əsasları

Azərbaycan 27 fevral 2020-ci il tarixində Koronavirus pandemiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradıb.[9] Bundan öncə isə Nazirlər Kabinetinin 2020-ci il 30 yanvar tarixli sərəncamı ilə *Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı* təsdiq edilib.[10] Daha sonra Nazirlər Kabineti tərəfindən qəbul edilən qərarlar həm bu fəaliyyət planına, həm də 2020-ci il 28 fevral tarixində Nazirlər Kabinetinin 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş *Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları*na uyğun qəbul edilib.[11]

Mart ayından etibarən tətbiq edilən sərt karantin məhdudiyyət tədbirləri əsasən Nazirlər Kabinetinin 30 yanvar 2020-ci il tarixli fəaliyyət planına və 28 fevral 2020-ci il tarixli  karantin ilə bağlı təşkilati və zəruri tədbirlərin görülməsi qaydalarına uyğun olaraq həyata keçirilsə də, 30 yanvar tarixli sərəncam ictimaiyyətə açıqlanmayıb. 28 fevral 2020-ci il tarixli qərar isə qəbul edilməsindən beş ay sonra sentyabr ayında rəsmi dərc edilib. Halbuki *Normativ hüquqi aktlar haqqında* Konstitusiya qanununa uyğun olaraq Nazirlər Kabinetinin qərarları qəbul edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməli idi.[12]

[8] AŞPA-nın 1713 (2005), 1713 (2005) saylı tövsiyəsi, Üzv dövlətlərdə təhlükəsizlik sektoruna demokratik nəzarət, səh. 38. http://www.assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17360&lang=en

[9] Nazirlər Kabinetinin Operativ Qərargahın yaradılması haqda rəsmi məlumatı: https://cabmin.gov.az/az/article/680/

[10] Nazirlər Kabinetinin Operativ Qərargahın "Azərbaycan Respublikasında yeni koronavirus (2019-nCoV) infeksiyasının yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilməsi haqqında məlumatı: https://cabmin.gov.az/az/article/704/

[11] Nazirlər Kabinetinin 28 fevral 2020-ci il tarixli, 73-1 nömrəli qərarı: http://e-qanun.az/framework/45816

[12] Normativ hüquqi aktlar haqqında Konstitusiya qanunu: http://e-qanun.az/framework/21300

İlk COVID-19 yoluxmasının qeydə alındığı 28 fevral 2020-ci il tarixindən sonra Azərbaycanda bir sıra məhdudiyyət tədbirləri tətbiq edilməyə başlayıb. 3 mart 2020-ci il tarixində ölkədə bütün təhsil müəssisələrinin fəaliyyətinin dayandırılması haqqında qərar qəbul edilib.[13]

### *Xüsusi rejim*

14 Mart 2020-ci il tarixindən etibarən Nazirlər Kabinetinin qərarı ilə bütün kütləvi tədbirlərin təxirə salınması, kinoteatrlar, teatrlar və idman zalları kimi qapalı ictimai yerlərdə fəaliyyətlərin dayandırılması, toy məclislərinin və yas mərasimlərinin qadağan edilməsi (dəfn istisna olmaqla) kimi əlavə tədbirlərin müəyyən edildiyi "xüsusi rejim" tətbiq edilib.[14]

### *Xüsusi karantin rejimi*

Operativ Qərargah ölkədə 24 mart 2020-ci il saat 00:00-dan etibarən 20 aprel saat 00:00-dək "xüsusi karantin rejimi"nin tətbiq edildiyini elan edib.[15] Operativ Qərargahın məlumatına görə xüsusi karantin rejiminin tətbiq edildiyi müddət ərzində əhalinin hərəkət azadlığının, həmçinin bir sıra iqtisadi sahələrinin fəaliyyətinin məhdudlaşdırılması da daxil olmaqla, ölkədə müxtəlif məhdudiyyət və qadağalar müəyyən olunub. Bu məhdudiyyət və qadağalara:

- Bakı da daxil olmaqla, müəyyən rayonlara giriş-çıxış məhdudiyyətləri, ictimai nəqliyyatın dayandırılması, ölkədən getmə və ölkəyə qayıtma ilə bağlı məhdudiyyətlər, 65 yaşdan yuxarı insanların evdən çıxmasına qadağalar;
- Toyların, başqa əyləncəvi tədbirlərin, idman oyunlarının, dini ritualların keçirilməsi ilə bağlı olan qadağalar;
- İctimai yerlərdə 10-dan çox insanın toplanmasının qadağan edilməsi, yalnız zəruri dükan və obyektlərin açıq qalmasına icazənin verilməsi ilə bir çox sahibkarlıq fəaliyyətinin dayandırılması və onlayn rejimdə fəaliyyətinə icazə verilməsi;
- Xüsusi iş (əmək) rejiminin tətbiqi və.s.

Nazirlər Kabinetinin 31 mart 2020-ci il tarixli *Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə* qərarına (№ 122) əsasən xüsusi karantin dövründə (2020-ci il 31 mart - 31 may) xüsusi iş (əmək) rejimi tətbiq edilib.[16]

[13] Nazirlər Kabineti yanında Operativ Qərargahın təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması haqqında məlumatı: https://cabmin.gov.az/az/article/691/

[14] Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi rejim tətbiq edilməsi haqqında məlumatı: https://cabmin.gov.az/az/article/718/

[15] Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejiminin elan edilməsi haqqında məlumatı: https://cabmin.gov.az/az/article/761/

[16] Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə Nazirlər Kabinetinin qərarı: http://e-qanun.az/framework/44831

Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli *Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında qərarı*[17] ilə tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində ölkədə hərəkət məhdudiyyəti müəyyən olunub. 5 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək tətbiq olunan hərəkət məhdudiyyətinə əsasən fəaliyyətinə icazə verilmiş sahələrdə işləyən şəxslərdən başqa hər kəsin yaşayış yerlərini (evləri) tərk etmələrinə ancaq təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaqla əlaqədar, ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə və yaxın qohumunun dəfnində iştirakla əlaqədar gün ərzində bir dəfə icazə verilməsi nəzərdə tutulub. Qaydada yaşayış yerini tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS məlumat göndərmək tələb olunurdu.

Nazirlər Kabinetinin 18 aprel 2020-ci il tarixli *Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərarı*[18] ilə (№ 144) xüsusi karantin rejiminin müddəti 4 may 2020-ci il saat 00:00-dək, 1 may 2020-ci il tarixli *Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə qərarı*[19] (№ 163) ilə xüsusi karantin rejiminin müddəti 2020-ci il 31 may saat 00:00-dək uzadılıb.

Nazirlər Kabinetinin 16 may 2020-ci il tarixli *xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə qərarı* ilə (№ 178) 2020-ci il 15 iyun saat 00:00-dək xüsusi karantin rejimi dövründə bir sıra məhdudiyyətlərin qüvvədə qalması müəyyən edilib.[20] Bu məhdudiyyətlər sonradan Nazirlər Kabinetinin 29 may 2020-ci il tarixli 190 nömrəli, 9 iyun 2020-ci il tarixli 195 nömrəli, 19 iyun 2020-ci il tarixli 207 nömrəli, 17 iyul 2020-ci il tarixli 255 nömrəli, 29 avqust 2020-ci il tarixli 311 nömrəli və 28 sentyabr 2020-ci il tarixli 359 nömrəli qərarları ilə 2020-ci il 2 noyabr tarixinə qədər uzadılıb.[21]

Nazirlər Kabinetinin 29 may 2020-ci il № 189 nömrəli qərarına əsasən sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməsi məcburi

[17] Nazirlər Kabinetinin Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında qərarı, http://e-qanun.az/framework/44832

[18] Nazirlər Kabinetinin Xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Nazirlər Kabinetinin qərarı: http://e-qanun.az/framework/44912

[19] Nazirlər Kabinetinin xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə qərarı: http://e-qanun.az/framework/44997

[20] Nazirlər Kabinetinin xüsusi karantin rejimi ilə bağlı əlaə tədbirlər barədə qərarı: http://e-qanun.az/framework/45059

[21] Nazirlər Kabinetinin Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə qərarları: http://e-qanun.az/framework/45106; http://e-qanun.az/framework/45155; http://e-qanun.az/framework/45212; http://e-qanun.az/framework/45438; http://e-qanun.az/framework/45793; http://e-qanun.az/framework/46040

qayda kimi müəyyən olunub və bu qayda ilə bağlı tələblərin pozulması inzibati xəta məsuliyyəti ilə sanskiyalaşdırılıb.[22]

### *Sərtləşdirilmiş xüsusi karantin rejimi*

Nazirlər Kabinetinin 4 iyun 2020-ci il tarixli (№ 191) qərarı ilə ölkənin bir sıra ərazilərində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə qərar qəbul edilib. Qərarla 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək bir sıra vacib əhəmiyyətli sahələr istisna olmaqla, bütün iş, xidmət, o cümlədən ticarət sahələri üzrə fəaliyyət dayandırılıb. Qərarda nəzərdə tutulan iş və xidmət sahələrində fəaliyyət göstərən şəxslərdən savayı, digər şəxslərin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilib və onların həmin yerləri tərk etməsinə yalnız həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda (təxirəsalınmaz tibbi yardım yalnız təcili tibbi yardım xidməti vasitəsilə), yaxın qohumların dəfnində iştirakla əlaqədar icazə verilib.[23] Sərtləşdirilmiş karantin rejimi Nazirlər Kabinetinin 9 iyun 2020-ci il tarixli № 196 nömrəli qərarı ilə növbəti – ikinci dəfə tətbiq edilib.[24]

Bir çox insan hüquq və azadlıqlarının məhdudlaşdırılması və qadağan edilməsi ilə nəticələnən *xüsusi rejim, xüsusi karantin rejimi* və *sərtləşdirilmiş xüsusi karantin rejimi* kimi hüquqi rejimlərin elan edilməsinə baxmayaraq bu hüquqi rejimlərin heç birinin statusu daxili qanunvericilikdə müəyyən edilməyib və rejimlər əsasında tətbiq edilən məhdudiyyət və qadağalar Konstitusiya və qanunlara uyğun olmayıb. Nəticədə Nazirlər Kabinetinin qərarları ilə tətbiq olunan xüsusi rejimlər bəzi konstitusion hüquq və azadlıqları məhdudlaşdırmasına baxmayaraq parlament və konstitusion nəzarətdən kənarda qalıb.

Yalnız bir hissəsi yuxarıda paylaşılan qərarlardan göründüyü kimi karantin dövrü ərzində tətbiq edilən məhdudiyyət tədbirləri insan hüquq və azadlıqlarına bir çox cəhətdən təsir göstərib. Belə ki, insanların yaşayış yerini tərk etməsinə, müxtəlif ərazilərə giriş və çıxışına dair qadağalar, həmçinin ölkəyə gəlmək və ölkədən getmək ilə bağlı tətbiq olunan qadağa və məhdudiyyətlər *azadlıq hüququ*na *(və hərəkət azadlığı*na*)*, bir çox iqtisadi sahələrin fəaliyyətinə tətbiq edilən qadağalar *mülkiyyət hüququ*na, başqa yerdə yaşayan ailə üzvləri ilə görüş üçün səfərlərin qadağan edilməsi, həmçinin ailə üzvlərinin dəfn mərasimində iştirak etməyə tətbiq edilən məhdudiyyətlər *şəxsi və ailə həyatı hüququ*na, dini ritualların və mərasimlərin keçirilməsinə dair qadağalar *vicdan azadlığı*na, ictimai yerlərdə 10 nəfərdən çox şəxsin bir yerə topla-

[22] Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə Nazirlər Kabinetinin qərarı: http://e-qanun.az/framework/45105

[23] Nazirlər Kabinetinin Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə qərarı: http://e-qanun.az/framework/45127

[24] Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin, Abşeron, Salyan, Kürdəmir, Yexlax və İsmayıllı rayonlarının ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə Nazirlər Kabinetinin qərarı: http://e-qanun.az/framework/45156

nılmasına dair qadağalar *sərbəst toplaşmaq azadlığı*na, məhkəmə və müxtəlif dövlət orqanlarının fəaliyyətinə tətbiq edilən məhdudiyyətlər *hüquq və azadlıqların inzibati və məhkəmə təminatı*na, eləcə də bütün növ təhsil fəaliyyətinə tətbiq edilən qadağalar *təhsil hüququ*na müdaxilələri təşkil edib.

## Fövqəladə hallarda hüquq və azadlıqlara müdaxilələrin hüququn aliliyinə uyğunluğu

### *Qanunilik prinsipi*

Qanunilik prinsipi hüququn aliliyinin vacib elementidir və insan hüquqlarının qorunmasında mühüm yer tutur. Müharibə və ya fövqəladə vəziyyət dövründə belə, bu prinsipin pozulmasına yol verilmir. Eyni zamanda, qanunilik tələbi təkcə müvafiq daxili qanuna riayət olunmaqla təmin edilmir; bu, daxili qanunun, beynəlxalq insan hüquqları sənədlərində ifadə edilmiş və ya nəzərdə tutulan ümumi prinsiplərinə uyğun olmasını tələb edir. Bu prinsip hüququn ümumi prinsiplərindən olan hüquqi müəyyənliyin tərkibi kimi də çıxış edir. Bu mənada qanun onun tətbiq ediləcəyi şəxslər baxımından əlçatan olmalı və doğura biləcəyi nəticələri öngörülə bilən olmalıdır.

Konstitusiya müəyyən edir ki, inzibati orqanlar yalnız qanunlarda göstərilən qaydada və hədlərdə hərəkət edə və qərarlar qəbul edə bilərlər. Hakimiyyət səlahiyyəti ilə hərəkət edən subyektlərin əməl etməli olduğu qanunilik tələbinin ən vacib elementi isə səlahiyyət məsələsidir. Belə ki, qanunilik tələbi hüquqi müəyyənlik prinsipinin əsas şərtlərindən biri kimi qaydaların fərdlərə öz hərəkətlərinin hüquqi nəticələrini öncədən planlaşdırmağa imkan verəcək ölçüdə müəyyən və dəqiq olmasını təmin edir. Səlahiyyət və aidiyyətin qanunla tənzimlənmiş formasına əməl edilməməsi hüquq və azadlıqlara ixtiyari müdaxiləyə, həmçinin inzibati idarəetmədə çaşqınlığa səbəb olur. Buna görə səlahiyyəti qanunda göstərilməyən qurumlar tərəfindən qəbul edilən qərarlar qanunsuz olduğu üçün ləğv edilməlidir.

Konstitusiyanın 12-ci maddəsi (II) müəyyən edir ki, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Konstitusiyanın 148-ci maddəsi belə beynəlxalq müqavilələri Azərbaycanın qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müəyyənləşdirir. Həmçinin Konstitusiyanın 151-ci maddəsi belə müqavilələrin Azərbaycan qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlara münasibətdə (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) üstünlüyünü müəyyən edir. Bundan əlavə, Konstitusiyanın 71-ci maddəsi hətta müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ölkənin beynəlxalq öhdəliklərini nəzərə alınması şərti ilə yalnız qismən və müvəqqəti məhdudlaşdırılmasına icazə verir.

Ona görə də Azərbaycanda karantin məhdudiyyətlərinin konstitusion hüquqi əsasları Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq insan hüquqları sənədləri ilə birlikdə nəzərdən keçirilməlidir.

Azərbaycanın qoşulduğu *Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın*[25] 4-cü maddəsinə əsasən fövqəladə vəziyyət zamanı və belə halın mövcudluğu rəsmən elan edilərkən dövlətlər tərəf olduqları Pakt üzrə öz öhdəliklərindən yalnız "həmin vəziyyətin tələb etdiyi ölçüdə" geri çəkilmək üçün tədbirlər görə bilərlər, bu şərtlə ki, belə tədbirlər onların beynəlxalq hüquq üzrə digər öhdəliklərinə zidd olmasın və ayrı-seçkiliyə yol verilməsinə gətirib çıxarmasın. Pakt həmçinin tələb edir ki, dövlət, geri çəkilmək hüququndan istifadə edərkən, geri çəkildiyi müddəalar barədə və belə bir qərarı doğuran səbəbləri və bu geri çəkilməyə son qoyacağı tarix barədə BMT-nin baş katibi vasitəsilə Paktda iştirak edən digər dövlətlərə dərhal məlumat verməlidir.

Azərbaycanın tərəf olduğu *İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası*nın 15-ci maddəsi də fövqəladə hallar zamanı öhdəliklərdən geri çəkilmə qaydasını müəyyən edir.[26] Konvensiyanın 15-ci maddəsinin 1-ci bəndinə əsasən müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı dövlət beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərti ilə "yalnız vəziyyətin fövqəladəliyinin şərtləndirə biləcəyi səviyyədə" Konvensiya üzrə öhdəliklərinə uyğun olmayan tədbirlər görə bilər. Konvensiya həmçinin tələb edir ki, bu geri çəkilmə hüququndan istifadə edən tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının baş katibini tam məlumatlandırmalıdır.

Azərbaycan hökuməti ölkədə fövqəladə vəziyyət xüsusi hüquqi rejimi tətbiq etmədiyi üçün sözügedən beynəlxalq müqavilələrin icazə verilən müddəalarından ölkə ərazisində geri çəkiləcəyi haqqında müvafiq müqavilə orqanlarına məlumat təqdim etməyib. Halbuki, Nazirlər Kabinetinin qərarları ilə hər iki beynəlxalq müqavilədə təsbit olunmuş bir sıra insan hüquq və azadlıqları ölkədə müvəqqəti olaraq öz qüvvəsini dayandırıb.

Yuxarıda qeyd edildiyi kimi fövqəladə vəziyyətlərdə də Konstitusiya və beynəlxalq insan hüquqları sənədlərində təsbit olunan hüquq və azadlıqlarından geri çəkilmələr və başqa digər məhdudiyyətlər "yalnız vəziyyətin fövqəladəliyinin şərtləndirə biləcəyi səviyyədə" tələbinə cavab verməli və hüququn aliliyinin, xüsusi ilə qanunilik və mütənasiblik kimi prinsiplərinə uyğun olmalıdır.

Nazirlər Kabinetinin qərarları ilə tətbiq edilən məhdudiyyət tədbirlərinin qanunilik tələbinə cavab vermədiyi və bununla da Konstitusiya və qanunlarda müəyyən

[25] Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt:https://migration.gov.az/content/pdf/5acb034968016_Mülki%20və%20siyasi%20hüquqlar%20haqqında%20Pakt.pdf

[26] İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası: https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf

edilən qaydalara uyğun olmadığı müəyyən edilmişdir. Qanunilik tələbinin pozuntusu həm Nazirlər Kabinetinin belə qərarlar qəbul etmək səlahiyyətlərinə malik olmamasında, həmçinin hüquq və azadlıqların məhdudlaşdırılmasına dair konstitusion tələb olan azadlıqların yalnız qanunla (parlament qanunları) məhdudlaşdırılması tələbinin pozulmasında ortaya çıxıb.

Karantin məhdudiyyət tədbirləri ilə bağlı qaydaların pozulmasına dair cəzaların tətbiqində də qanunilik tələblərinin pozulduğu ortaya çıxıb. Məsələn, Azərbaycanda 24 mart 2020-ci il tarixindən etibarən tətbiq edilməyə başlanan *xüsusi karantin rejimi* çərçivəsində 1 aprel 2020-ci il tarixindən etibarən tətbiq edilən hərəkət məhdudiyyəti *(hərəkətinə icazə verilən müəyyən kateqoriya sahələrdə çalışan fərdlərdən başqa digər şəxslərin yaşayış yerini gün ərzində bir dəfə iki saatlıq tərk edə bilməsi)* üzrə qaydaların icrasına nəzarəti həyata keçirən Dövlət Yol Polisinin (DYP) rəsmi internet səhifəsində[27] təqdim edilən məlumata əsasən 1 apreldən 13 aprelə qədər avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə 16483 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb olunub. Lakin DYP-nin İnzibati Xətalar Məcəlləsinin karantin qaydalarının pozulması ilə bağlı protokol tərtib etmək səlahiyyəti DYP-yə yalnız 13 aprel 2020-ci il tarixli, 987 nömrəli prezident fərmanı[28] ilə verilib. Buna baxmayaraq, DYP 13 gün ərzində 16 mindən çox hərəkət iştirakçısı haqqında inzibati məsuliyyət tədbirləri görüb.

DYP-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev mətbuata açıqlamasında qeyd edib ki, DYP tərəfindən 13 aprel tarixinə qədər İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi üzrə cərimə protokollarının tərtib edilməsinə dair DYP əməkdaşlarının müvafiq səlahiyyəti qanunda müəyyən edilmədiyi üçün həmin maddə üzrə qərar qəbul olunmayıb. Lakin DYP-nin rəsmi internet səhifəsi 1 aprel tarixindən 13 aprel tarixinə qədər gündəlik rəsmi məlumatlarında DYP tərəfindən hər gün İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilənlərin sayı haqqında məlumat təqdim edib. Yəni DYP əməkdaşlarının səlahiyyətləri qanunda müəyyən edilməsə də, onlar müvafiq inzibati xəta qanunvericiliyini tətbiq ediblər.

### *Nazirlər Kabinetinin səlahiyyəti*

Sadalanan insan hüquq və azadlıqlarına müdaxilə təşkil edən məhdudiyyət tədbirləri Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar ilə həyata keçirilib. Qərarlarını *Sanitariya-epidemioloji salamatlıq haqqında* qanununun 25-ci maddəsinə və Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli qərarı ilə müəyyən edilmiş qaydalara

[27] Daxili İşlər Nazirliyinin Baş DYP İdarəsinin 13 aprel 2020-ci il tarixli məlumatı https://dyp.gov.az/?/az/news/view/733/

[28] "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında prezident fərmanı: http://e-qanun.az/framework/44890

istinadə edərək qəbul edən Nazirlər Kabineti Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar üzərində qadağalar müəyyən etmək səlahiyyətinə malik olmayıb. Belə ki, *sanitariya-epidemioloji salamatlıq haqqında qanunun* 25-ci maddəsi epidemiya əleyhinə tədbirlər həyata keçirərkən dövlət orqanları tərəfindən yalnız özlərinin səlahiyyətləri daxilində müvafiq ərazilərdə və ya obyektlərdə hərəkət etmək səlahiyyəti verib. Konstitusiyanın 71-ci maddəsi (X)  dövlət orqanlarının yalnız Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə biləcəyini müəyyən edib.

Həmçinin *Normativ Hüquqi Aktlar haqqında Konstitusiya qanunu* (maddə, 19) müəyyən edir ki, Nazirlər Kabineti Konstitusiya və prezident aktları əsasında və onların icrası məqsədilə öz səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar (normativ hüquq akt) qəbul edir. Normativ hüquqi akt isə tənzimlənməsi Konstitusiyayla, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən qəbul edilə bilər. Yəni Nazirlər Kabineti parlament tərəfindən qəbul edilən qanuna istinad edərək hüquq və azadlıqları məhdudlaşdıran normayaratma orqanı kimi çıxış edə bilməz. Çünki Konstitusiya və *Normativ hüquqi aktlar haqqında Konstitusiya qanunu* Nazirlər Kabinetinə prezident aktları əsasında onların icrası məqsədilə normativ hüquqi aktlar qəbul etmək səlahiyyəti verib.

Bundan başqa, Konstitusiyanın 94-cü maddəsi ilə cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi Milli Məclisin səlahiyyətinə aid edilib.

Belə olan halda, Nazirlər Kabinetinin Konstitusiyada müəyyən olunan hüquq və azadlıqları məhdudlaşdıran və ya müəyyən müddətə qadağan edən qərarlar qəbul etməsi konstitusion hüquq və hüququn aliliyi müstəvisində siyasi-hüquqi konflikt hesab edilə bilər. Buna həm də konstitusiya və beynəlxalq müqavilələrdə təminat altına alınan insan hüquq və azadlıqlarına qanunda göstərilən qaydaya uyğun olmayan müdaxilə kimi baxmaq olar.

### *Mütənasiblik prinsipi*

Mütənasiblik prinsipi hüquq sistemlərində dövlətin inzibati fəaliyyətinə konstitusion və məhkəmə nəzarətini təmin edən ən vacib ümumi hüquqi prinsiplərdən biri kimi təşəkkül tapıb. Bu prinsip həmçinin dövlət məcburetmə tədbirlərinin təyin olunmasında və nəzarətində məhkəmə nəzarətinin bir elementi kimi çıxış edir. Yəni dövlət tərəfindən hüquq və azadlıqlara tətbiq edilən müdaxilələr, həmçinin cəza tədbirləri qanunilik tələbinə cavab versə belə, mütənasiblik tələbinə uyğun olmaması halında dövlətin belə qərar və hərəkətləri insanların hüquq və azadlıqlarının pozulmasına gətirib çıxara bilir.

İnzibati hüquq sistemləri dövlətin qəbul etdiyi qərarların mütənasiblik təhlilinin nə dərəcədə geniş tətbiq olunması baxımından fərqlənir. Bəzi sistemlərdə mütənasiblik prinsip etibarilə bütün hüquq qurumlarına tətbiq olunan konstitusiya və ya ümumi qanun prinsipi kimi qəbul edilir. Azərbaycan isə 2016-cı ilin referendumu ilə mütənasiblik prinsipini Konstitusiyaya əlavə edib. Konstitusion prinsip kimi çıxış edən mütənasiblik prinsipi tələb edir ki, dövlət tərəfindən hər hansı qanuni məqsədlərə çatmaq üçün tətbiq ediləcək məhdudiyyətlərin mütənasibliyi, yəni onun arzuolunan məqsədə çatmaq üçün zəruri olması və həmin məqsədə nail olmaq üçün tətbiq edilən məhdudiyyətlər arasından daha az müdaxiləedici olduğu nümayiş etdirilməlidir.

Bəs Azərbaycan hökuməti qəbul etdiyi qərarlarda mütənasiblik prinsipini gözlədimi? Operativ Qərargahın verdiyi məlumatlara əsasən 29 fevral 2020-ci il tarixindən Azərbaycan və İran İslam Respublikası, 2020-ci il 14 martdan etibarən Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edilib.[29] Daha sonra Azərbaycan və Rusiya vətəndaşlarının qarşılıqlı səfərlərini (yük maşınlarının sürücüləri istisna) 2020-ci il 18 mart saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılıb.[30] Operativ Qərargahın 4 aprel 2020-ci il tarixli qərarına əsasən 5 aprel 2020-ci il tarixindən 20 aprel 2020-ci il tarixinədək yükdaşımalar istisna olmaqla, Azərbaycan ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları dayandırılıb.[31]

Nəticədə bir çox Azərbaycan vətəndaşları Türkiyə, Rusiya və başqa ölkələrdən Azərbaycana geri qayıda bilməyiblər. Azərbaycanın hökumət orqanları ölkəyə qayıdışa tətbiq olunan məhdudiyyəti geri qayıdan vətəndaşların karantinə yerləşdirilməsi üçün resursların azlığı ilə əlaqələndirib. Mediada 1 sentyabr 2020-ci il tarixinə olan məlumatlara görə Azərbaycanın Rusiya ilə sərhəd ərazisində (Rusiyanın Dağıstan vilayətinin Kullar kəndində) mindən çox azərbaycanlı ölkəyə qayıtmaq üçün növbə gözləyirdi.[32]

Konstitusiyanın 28-ci maddəsinin IV hissəsinə əsasən Azərbaycan vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ var. Yəni Azərbaycan vətəndaşlarının ölkəyə maneəsiz qayıtmaq hüququ mütləq konstitusion hüquqdur və bu hüququn hər hansı məhdudiyyətə məruz qala biləcəyi qanunda müəyyən edilməyib. Buna baxmayaraq, hətta mütləq hüquqa tətbiq edilən məhdudiyyətin mütə-

[29] Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin bağlanmasına dair rəsmi məlumat: https://cabmin.gov.az/az/article/686/ ; Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin bağlanmasına dair rəsmi məlumat: https://cabmin.gov.az/az/article/721/

[30] Nazirlər Kabinetinin Azərbaycan və Rusiya sərhədinin bağlanması haqqında rəsmi məlumat: https://cabmin.gov.az/az/article/737/print/

[31] Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşlarının dayandırılması haqqında Nazirlər Kabinetinin qərarı: https://nk.gov.az/az/article/790/

[32] Azərbaycanlıların Rusiya ilə sərhəddə ölkəyə qayıtmaq üçün gözləmələri haqqında məqalə. https://www.kavkaz-uzel.eu/articles/353696/

nasiblik prinsipinə uyğunluğu qiymətləndirildikdə, ölkəyə qayıtmaq hüququna qoyulan məhdudiyyətin ağır humanitar vəziyyət yaratması və fərdlərin həyat və sağlamlığı üçün təhlükəli nəticələrə səbəb olması ehtimalı yüksəkdir. Bu səbəbdən tətbiq edilən məhdudiyyətlə müqayisədə daha az məhdudlaşdırıcı vasitənin mümkünlüyünün nəzərdən keçirilməsi tələb olunur. Belə ki, resurs çatışmazlığı halında geri qayıdan şəxslərin karantin müəssisələrində deyil, öz yaşayış yerlərində məcburi izolyasiyaya cəlb etmənin mümkünlüyünün nəzərə alınması mütənasiblik prinsipinə daha uyğun gələ bilərdi.

### *Zərurilik prinsipi*

Zərurilik prinsipi tələb edir ki, fövqəladə tədbirlər həmin tədbirlərin məqsədinə demokratik qərarvermənin normal qayda və prosedurlarında minimal dəyişikliklər etməklə nail olmağa imkan versin. Zərurilik prinsipi institusional fövqəladə tədbirlər kontekstində birbaşa qeyd edilməsə də, insan hüquqları sahəsində fövqəladə tədbirlərin mütənasibliyi və zəruriliyi tələbi insan hüquqları üzrə beynəlxalq sənədlərin tələbindən irəli gəlir. Fövqəladə vəziyyətdə zərurilik prinsipi həm də tələb edir ki, qanunverici orqan tərəfindən icra hakimiyyətinə verilən müstəsna səlahiyyətlər tam sərbəstlik verilməsi ilə nəticələnməməlidir.

İnsan hüquq və azadlıqlarına tətbiq edilən məhdudiyyətlərin kontekstində isə zərurilik prinsipi əsasən Avropa Məhkəməsi tərəfindən geniş istifadə edilir. Zərurilik prinsipi İnsan hüquqları haqqında Avropa Konvensiyasının bir neçə maddəsində (birbaşa və ya dolayısı ilə) əks olunub. Avropa Məhkəməsi özünün presedent hüququnda hüquqlara tətbiq edilən müdaxilələrin zərurilik prinsipinə uyğunluğunu yoxlayarkən zəruriliyin demokratik bir cəmiyyətdə "təxirəsalınmaz sosial tələbata" nə qədər cavab verib-vermədiyini nəzərdən keçirir.[33] Məsələn, Avropa Məhkəməsi karantin məhdudiyyət tədbirlərinin demokratik bir cəmiyyətdə zəruriliyinin qiymətləndirməsini apardığı 8 yanvar 2009-cu il tarixli *Kuimov Rusiyaya qarşı* (No. 32147/04) qərarında müdaxilələrin "şərtlər imkan verdiyi halda dayandırılmaqla müvəqqəti tədbir" olmalı olduğunu və "sərt və davamlı məhdudiyyətlərin ... uzun müddətdə həyata keçirilməsinin qanuni məqsədlərə qeyri-mütənasib olması ehtimalı" olduğunu vurğulayıb (para. 96).[34]

Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizə təcrübəsi göstərir ki, ölkə ərazisində tətbiq edilən total məhdudiyyət tədbirləri mütəmadi şəkildə uzadılaraq uzun müddət davam etsə də, hökumət tərəfindən fövqəladə səlahiyyətlərin təxirəsalınmaz sosial tələbata uyğun istifadə edilməsini təsdiqləyən kifayətedici məlumatlar mövcud deyil. Belə ki, tətbiq olunan bir sıra karantin məhdudiyyətlərinin

[33] bax, Smit və Qreydi Birləşmiş Krallığa qarşı, No 33985/96 və No 33986/96, 27 sentyabr 1999-cu il, §§ 88, AİHM 1999-VI.

[34] Kuimovun Rusiyaya qarşı işi üzrə Avropa Məhkəməsinin qərarı (32147/04). http://hudoc.echr.coe.int/eng?i=001-90433

nəticəsi olaraq müstəsna vəziyyətin normallaşmasını göstərən obyektiv məlumatlara rast gəlinməyib.

### Zərərçəkənlərin / təsirə məruz qalanların hüquqi statusu

Azərbaycanda tətbiq olunan karantin məhdudlaşdırıcı tədbirlər fövqəladə vəziyyət hüquqi rejimi tətbiq edilmədən həyata keçirildiyi üçün bu tədbirlərin təsirlərinə məruz qalanların hüquqi statusu, əhatə dairəsi, onların məruz qaldığı zərərlərin kompensasiyası, həmçinin onlar barəsində başqa güzəştli iqtisadi və sosial dəstək proqramlarının müəyyən edilməsi icra hakimiyyəti orqanının (prezident və nazirlər kabineti) qərarları ilə təyin edilib.

*Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası*nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 7 aprel 2020-ci il tarixli, 127 nömrəli qərarı ilə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilmə şərtləri və qaydaları müəyyən edilib.[35] Birdəfəlik ödəmənin məqsədi xüsusi karantin rejiminə görə məşğulluq sahəsində tətbiq olunan məhdudiyyətlərin təsirinə məruz qalan şəxslərin sosial müdafiəsini təmin etməkdən ibarət olsa da, çox sayda təsirə məruz qalan şəxs bu dəstək proqramından kənarda qalıb. Belə ki, birdəfəlik ödəmə proqramına müraciət etmək üçün tələb olunan şərtlər çox sayda həqiqi təsirə məruz qalan şəxsləri bu imkandan məhrum edib.  Məsələn, rəsmi açıqlamaya görə işsiz və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal məşğul şəxslərdən ibarət aztəminatlılar üçün nəzərdə tutulan birdəfəlik ödəmə (190 manat) proqramına müraciət edənlərdən 65 min şəxsin həyat yoldaşının birdəfəlik ödəmə aldığına görə onlara bu yardımın verilməsindən imtina edilib.[36]

Belə ki, qaydaya əsasən birdəfəlik ödəmə yalnız xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə ödənilməsini nəzərdə tutduğu üçün karantin dövrü bitdikdən sonra bu yardımlara hüququ çatan şəxslər, habelə adına açılmış kart hesablarına edilmiş ödənişləri vaxtında götürməmiş şəxslər bu sosial yardımlardan istifadə edə bilməyib. [37]

Bu birdəfəlik ödəmə ilə bağlı müraciətlərin qəbulu 7-27 aprel tarixlərində yalnız elektron portal vasitəsi ilə edilən müraciətlər əsasında həyata keçirilib.[38] Ölkədə

[35] İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 manat) verilməsi şərtləri və qaydasına dair Nazirlər Kabinetinin qərarı 7 aprel 2020-ci il tarixli qərarı http://e-qanun.az/framework/44865

[36] 65 min şəxsə birdəfəlik ödənişlərin (190 manat) verilməsindən imtina edilməsi haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatı https://news.day.az/az/economic/1230635.html?fbclid=I-wAR3-MuiSB-xZBvZA2kUzqZbxpkLE34Relr4ujrd92 4f8rP0 0qnAz2fZRQ

[37] Vətəndaşlara verilən birdəfəlik ödənişlərin (190 manat) bloklanması barədə məqalə https://fed.az/az/sosial/190-manata-vaxt-qoymaq-dogru-deyil-84846

[38] Birdəfəlik ödəmələr üçün (190 manat) müraciətin aparılması qaydası haqqında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatı http://sosial.gov.az/3318

tətbiq edilən karantin məhdudiyyət tədbirlərinə görə bir çox ictimai iaşə obyektləri və ictimai nəqliyyatın fəaliyyəti qadağan olduğu üçün əhalinin, xüsusi ilə kənd yerlərində məskunlaşan əhalinin internetə çıxışının məhdud olması və elektron müraciət qaydalarından məhdud istifadə bacarıqlarına görə təqdim edilən xidmətə çatımlılıq problemləri mövcud olub. Bundan başqa, elektron müraciət portalında tez-tez yaranan problemlər də müraciətlərin qəbulunda çətinliklərə səbəb olub. Koronavirus tədbirləri çərçivəsində işini itirmiş bir çox insan onlayn qeydiyyatdan keçə bilməyib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) qeydiyyat zamanı yaranan çətinliyin texniki problem olduğunu bildirib və "müraciətlərin çoxluğu ilə" əlaqələndirib.[39]

Buna baxmayaraq, təkcə aprel ayında 160 min nəfərə yaxın insana yardım verilməsindən imtina edilib.[40] İmtinalara səbəb isə Nazirlər Kabinetinin qərarında müəyyən edilən müxtəlif əsaslar olub. Halbuki həmin səbəblərə baxmayaraq, çox sayda insan sərt karantin məhdudiyyətləri nəticəsində iş yerlərini və gəlirlərini itiriblər.

Tətbiq edilən məhdudlaşdırıcı tədbirlərdən zərər çəkən əhaliyə dəstək məqsədilə işsiz və xüsusi karantin rejiminə görə işini itirən şəxslərə 190 manat ödəmənin verilməsini nəzərdə tutan proqram ilkin mərhələdə 200 min nəfər üçün nəzərdə tutulsa da, yardım üçün müraciətlərin çox olmasına görə prezidentin tapşırığı əsasında bu rəqəm 200 min nəfərdən 600 min nəfərədək artırılıb.[41] Lakin bu artımın hansı meyarlar əsasında edilməsi qeyri-müəyyən olub. İqtisadi təhlilçilərə görə ölkədə real işçi qüvvəsi barədə məlumatlar dəqiq deyil və bu da minlərlə qeyri-leqal çalışan günəmuzd işçinin dəstək almaması ilə nəticələnib. Belə ki, bir ailədə başqa şəxsin gəlirlərinin olması karantin dövründə işini itirən şəxsi bu sosial yardımdan kənarda qoyub.

Yuxarıda qeyd olunduğu kimi koronavirus pandemiyasının təsirlərinin azaldılması üçün tətbiq edilən məhdudiyyət tədbirlərinin təsirlərinə məruz qalan şəxslərin hüquqi statusu xüsusi qanun əsasında deyil, icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun olaraq təyin olunub. Bu isə karantin məhdudiyyət tədbirlərinin təsirlərinə məruz qalan bütün şəxslərin sosial dəstəkdən kənarda qalması ilə nəticələnib. Halbuki *fövqəladə vəziyyət haqqında qanun*a (maddə 22) əsasən fövqəladə vəziyyət ilə əlaqəli işlərə səfərbər olunmuş şəxslərə "əməyə görə ödənişin verilməsi, həmçinin fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müva-

[39] Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) məlumatı https://www.bbc.com/azeri/azerbaijan-52394613

[40] Birdəfəlik ödənişdən (190 manat) imtina ilə bağlı şikayət hüququnun tanınmaması barədə məqalə https://www.azadliq.org/a/koronavirus-190-manat/30579443.html

[41] Prezident İlham Əliyevin Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştiraki ilə keçirilən iclasa dair rəsmi məlumat. https://president.az/articles/36654

fiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməkliklərin göstərilməsi" müəyyən edilir. Beləliklə, fövqəladə vəziyyət hüquqi rejimi tətbiq edilmədiyi üçün Nazirlər Kabinetinin qərarları əsasında müəyyən edilən karantin məhdudiyyət tədbirlərinin təsirlərinə məruz qalan şəxslərin zərərlərinin kompensasiya edilməsi yalnız mərkəzi icra hakimiyyəti orqanının siyasi iradəsindən asılı hala düşüb.

## Mübahisələrin həllinə dair təminatların mövcud vəziyyəti

Karantin qaydalarının fərdlərə tətbiqi hallarının qanuniliyini və mütənasibliyini qiymətləndirməli olan məhkəmələr bu prosesdə məhdudlaşdırıcı qaydaların ixtiyari, zəruri olmayan hallarda və həddindən artıq çox tətbiq edilməsinə qarşı əsas və tək müdafiə vasitəsidir. İnzibati orqanların özləri üçün müstəsna səlahiyyətlər müəyyən etdiyi qərarlarının konstitusiyaya və insan hüquqları standartlarına uyğunluğunun yoxlanılması, hüquqi əsaslar olduqda onların ləğv edilməsi imkanı konstitusiyada da təsbit olunan hüquq və azadlıqların məhkəmə təminatı qaydasından irəli gəlir.

### *Sərt karantin rejiminin tətbiqindən 3 həftə öncə sanksiyalar ağırlaşdırılıb*

Azərbaycanda karantin məhdudiyyətləri tətbiq edilənə qədər 2016-cı ildə qəbul edilmiş İnzibati Xətalar Məcəlləsində müəyyən edilən (maddə 211) epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması ilə bağlı məsuliyyət yüz manatdan iki yüz manatadək məbləğdə cərimə olaraq müəyyən edilmişdi.[42] Lakin Azərbaycan parlamenti hələ sərt karantin qaydaları müəyyən edilmədən öncə, 17 mart 2020-ci il tarixli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında № 27-VIQD saylı qanun ilə karantin epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması ilə bağlı məsuliyyəti ağırlaşdırmaq qərarına gəldi.[43] Bu dəyişikliyin gətirdiyi yenilik o idi ki, fiziki şəxslər barəsində cərimələr həm hüquqi şəxslərə şamil edilir, həm də fiziki şəxslər barəsində bir ayadək inzibati həbs müəyyən edirdi. Bundan sonra parlament daha iki dəfə - 2 iyun 2020-ci il tarixində İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında № 124-VIQD saylı qanun[44] və 29 iyun tarixli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

[42] İnzibati Xətalar Məcəlləsi: http://www.e-qanun.az/code/24

[43] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi: http://e-qanun.az/framework/44785

[44] İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun: http://e-qanun.az/framework/45088. Bu qaydaya görə «... karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı ... tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə – fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir. Yeni qayda ilə həmçinin bir il ərzində təkrar törədilməsinə görə daha ağır cəza müəyyən edildi.

№ 142-VIQD saylı qanunla[45] karantin qaydaları ilə bağlı məsuliyyəti ağırlaşdıran qanuni dəyişikliklər edib.
Rəsmi mətbuatın Daxili İşlər Nazirliyinə istinadən yaydığı məlumata görə 21 iyul 2020-ci il tarixinə qədər xüsusi karantin rejiminin tələblərini pozan 195 minə yaxın şəxs haqqında inzibati məsuliyyət tədbirləri görülmüş, onlardan 788 nəfər həbs olunmuş, 193 min 560 nəfər, o cümlədən tibbi maskadan istifadə etmədiklərinə görə 17 min 820 nəfər cərimələnib.[46]

Azərbaycan elektron məhkəmə sistemindən əldə oluna bilən məhdud məlumatlar göstərir ki, Azərbaycanda karantin pozuntuları səbəbilə həddindən artıq çox sayda tətbiq olunan inzibati tənbeh cəzalarına səmərəli məhkəmə nəzarəti mövcud deyil. Belə ki, məhkəmələr karantin qaydaları ilə bağlı inzibati həbslərdən və cərimələrdən şikayətləri demək olar ki, təmin etmir və belə şikayətləri müxtəlif prosessual səbəblərdən geri qaytarıblar. Məsələn, Bakı şəhərinin 4 rayonunda (Sabunçu, Nəsimi, Binəqədi və Nizami) iyul və avqust ayları üzrə elektron məhkəmə portalında yerləşdirilən bütün məhkəmə qərarlarında vətəndaş barəsində tətbiq edilmiş inzibati tənbeh qərarları haqqında vətəndaşların ünvanladığı şikayətlərdən yalnız 1 qərar Sabunçu məhkəməsi, digəri 1 qərar isə Nəsimi rayon məhkəməsi tərəfindən ləğv edilib. Digər bütün hallarda isə şikayətlər təmin edilməyib və ya müxtəlif səbəblərlə geri qaytarılıb. Həmçinin bu müddət ərzində inzibati həbslə bağlı bütün protokollar məhkəmələr tərəfindən təmin edilib. Bundan əlavə, icra hakimiyyəti orqanlarının qəbul etdiyi normativ hüquqi aktların konstitusiyaya uyğunluğunu yoxlamalı olan Konstitusiya məhkəməsi də bu prosesdə hüquqi mövqe nümayiş etdirməyib.

İnzibati Xətalar Məcəlləsinin 31-ci maddəsinə əsasən fiziki və ya vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən xətanın xarakteri, inzibati xəta törədənin şəxsiyyətini xarakterizə edən hallar, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır. Lakin məhkəmə qərarlarının təhlili göstərib ki, şəxslər üçün ağır maddi çətinlik yarada biləcək karantin məhdudiyyət qaydalarının pozulmasına görə inzibati cərimələr tətbiq edilərkən şəxsin əmlak vəziyyəti barədə məlumatlar məhkəmə qərarlarında nəzərdən keçirilməyib. Nəticədə isə belə inzibati cərimə cəzalarının mütənasiblik və zərurilik tələblərinə uyğunluğu qeyri-müəyyən olub.

[45] İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun: http://e-qanun.az/framework/45331 Belə ki, bu dəfə karantin qaydalarının pozulması ilə bağlı cərimənin miqdarı fiziki şəxslər üçün 100 manatdan 200-400 manata, hüquqi şəxslər 2 000 manatdan 5 000 manatadək olan cərimə məbləği isə 4 000 manatdan 10 000 manatadək və fərdi qoruyucu vasitələr ilə bağlı tələblərin yerinə yetirilməməsinə görə isə fiziki şəxslər üçün 50 manat olan cərimələr 100 manata, vəzifəli şəxsləri üçün 100 manat məbləğində olan cərimələr 200 manata, hüquqi şəxslər üçün müəyyən edilmiş 200 manat cərimələr isə 400 manata qədər artırıldı.

[46] Daxili İşlər Nazirliyinin 2020-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizəyə dair məlumatı https://azertag.az/xeber/Xususi_karantin_rejiminin_teleblerini_pozan_195_mine_yaxin_sexs_haqqinda_inzibati_mesuliyyet_tedbirleri_gorulub-1543095

## COVID-19 PANDEMİYASINA QARŞI FƏALİYYƏTLƏRİN YAXŞI İDARƏETMƏ MEYARLARINA UYĞUNLUĞU

İctimai işlərin məsuliyyətli aparılması və ictimai resursların effektiv idarə edilməsi kimi xarakterizə oluna bilən yaxşı idarəetmə qaydaları bir çox beynəlxalq və regional təşkilatlar tərəfindən hazırlanan strategiyalarda, təlimatlarda öz əksini tapıb. Əsasən mərkəzi və yerli idarəetmə orqanlarına tövsiyə edilən bu qaydalara uyğun fəaliyyət dövlət orqanlarının qanun əsasında səmərəli işləyişini və bununla da vətəndaşlara daha yaxşı xidmətlər göstərməyi vəd edir. Birləşmiş Millətlər Təşkilatına görə, yaxşı idarəetmə səkkiz amil ilə ölçülür. Bura qanunun aliliyi, iştirakçılıq, şəffaflıq, çeviklik, inklüzivlik, hesabatlılıq, konsensus yönümlülük və səmərəlilik aid edilir.

Yaxşı idarəetmə üçün tələb olunan çərçivənin şərtləri idarəetmə fəaliyyətinin planlaşdırılması və həyata keçirilməsi prosesinin bu şərtlərə cavab verməsini tələb edir. Böhran şərtləri bu şərtlərin tətbiq olunması zamanı müxtəlif məhdudiyyətlər yaratsa da, konkret şərtlər daxilində bunlardan maksimum dərəcədə istifadə etmək üçün hər cür səy göstərilməlidir. İstənilən böhran şəraitində ona qarşı cavab tədbirlərinin nəticəsinin idarəçilik fəaliyyətinin səmərəliliyindən asılı olduğunu nəzərə alsaq, idarəetmə fəaliyyəti səmərəli etmək üçün mövcud olan qaydalara uyğunluq əhəmiyyət kəsb edəcəkdir.

Aşağıda yaxşı idarəetmənin iştirakçılıq, şəffaflıq, inklüzivlik, çeviklilik və hesabatlılıq kimi qaydalarından bəhs ediləcək. Qanunun aliliyi barədə hesabatın III fəslində ətraflı bəhs olunduğu üçün bu fəsildə həmin qayda nəzərdən keçirilməyəcək. Bundan başqa, yaxşı idaəretmənin digər iki qaydası - konsensus yönümlülük və səmərəlilik isə bu layihə çərçivəsindəki digər hesabatlarda təhlil edildiyi üçün burada onlardan bəhs edilmir.

### İştirakçılıq

İnsanlar həyatlarına təsir edən qərar vermə prosesində iştirak etmək hüququna malikdirlər. İctimai səhiyyə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatların təlimatları qərarvermə prosesində maraqlarına toxunulan şəxslərin iştirakının vacibliyini vurğulayır. İştirakçılıq qaydası təkcə idarəetməni səmərəli etmək məqsədindən yox, həm də vətəndaşların ictimai fəaliyyətin mərkəzində olmaqla, hər səviyyədə ictimai və siyasi qərarvermədə iştirak hüquqlarından irəli gəlir.

Pandemiya kimi ictimai səhiyyə böhranlarına qarşı cavab tədbirləri qəbul edilərkən onların təsirinə məruz qalan şəxslərin, xüsusilə də həssas qrupların iştirakçılığından imtina edildikdə bu həmin siyasətlərin səmərəliliyinə də mənfi təsir edir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı COVID-19 təlimatında qeyd edir ki, zərərçəkmiş şəxslərin qərar qəbulu prosesinə cəlb edilməsi sağlamlığın qorunmasına

yönəlmiş siyasətlərdə insanların xüsusi vəziyyətlərinin və ehtiyaclarını nəzərə alınmasında mühüm rol oynayır. Təlimatda həmçinin qadınların müxtəlif səviyyələrdə pandemiya ilə mübarizədə qərarların qəbul edilməsi prosesində təmsil olunmasının, onların fikir və biliklərinin nəzərə alınmasının vacib olduğu vurğulanır.[47]

Bütün şəxslər birbaşa və ya onların maraqlarını təmsil edən orqanlar vasitəsilə qərar qəbul etməsində iştirak edə bilərlər. Belə geniş iştirak ifadə, toplaşma və birləşmə azadlıqları üzərində qurulsa da, konkret inzibati qərarvermə prosesində maraqlarına toxunulan şəxslərin dinlənilməsi və nəzərə alınmasına dair xüsusi qaydalar da mövcuddur. Bura dövlət siyasətinin hazırlanmasında, həyata keçirilməsində və ictimai nəzarətin təşkilində iştirakçılıq qaydalarını müəyyən edən *ictimai iştirakçılıq haqqında qanunu* (22 noyabr 2013-cü il tarixli, № 816-IVQ saylı qanun) aid etmək olar.[48] Bundan başqa, bura həm də inzibati icraat prosesində qəbul olunması nəzərdə tutulan inzibati aktların qəbulu prosesində şəxslərin iştirakı və onların dinlənilməsinə dair təminatların olduğu *inzibati icraat haqqında qanun*[49] da aid edilə bilər.

Dövlət tərəfindən tətbiq ediləcək məhdudiyyətlərin yaradacağı çətinlikləri azaltmaq, müəyyən qrupların əlavə ehtiyaclarını nəzərə almaq üçün maraqlarına toxunulacaq şəxslərin bu qərarların qəbulu prosesində iştirakı vacibdir. Çünki sağlamlıq məsələləri səhiyyə sektorunun birbaşa nəzarəti xaricindəki çoxsaylı amillərlə (məsələn, təhsil, gəlir və fərdi yaşayış şərtləri) bağlıdır və burada verilən qərarlar fərdlərin sağlamlığına və başqa sektorların fəaliyyətinə təsir göstərir.

Bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da koronavirusa qarşı cavab tədbirlərini zəiflədən, vətəndaşlar arasında inamsızlığı və narahatlığı artıran dezinformasiya müşahidə olunub.[50] Bundan əlavə, dövlətin həyata keçirdiyi karantin tədbirləri bir çox əhali qruplarının, həmçinin maraqlı tərəflərin ehtiyaclarını nəzərə almayıb.

Belə ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin məlumatına əsasən koronovirus pandemiyası ilə əlaqədar yarana biləcək risklərin minimuma endirilməsi məqsədilə xüsusi karantin rejimi ərzində fəaliyyət göstərən bərpa mərkəzlərində reabilitasiya tədbirləri müvəqqəti olaraq məhdudlaşdırılıb və karantin müddəti başa çatdıqdan sonra əlilliyi olan şəxslər mütləq şəkildə reabilitasiyaya cəlb

[47] BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı COVID-19 təlimatı: http://unazerbaijan.org/az/insan-huquqlari-komissarliq-covid-19-telimat/

[48] İctimai iştirakçılıq haqqında qanun, http://e-qanun.az/framework/26879

[49] 21 oktyabr 2005-ci il tarixli, № 1036-IIQ saylı qanun, http://www.e-qanun.az/framework/11254

[50] Nazirlər Kabineti yanında Operativ Qərargahın 5 mart 2020-ci il tarixli Kütləvi İnformasiya Vasitələrinə xəbərdarlığı: https://cabmin.gov.az/az/article/695/
Nazirlər Kabineti yanında Operativ Qərargahın 2 mart 2020-ci il tarixli vətəndaşları süni ajiotaj yaratmamağa dair çağırışı: https://cabmin.gov.az/az/article/690/
Nazirlər Kabineti yanında Operativ Qərargahın 13 mart 2020-ci il tarixli "WhatsApp"da yayılan səs yazıları barədə açıqlaması: https://cabmin.gov.az/az/article/719/

olunacaq.[51] İlkin mərhələdə reabilitasiya mərkəzlərinə karantin rejimi ilə əlaqədar bərpa müalicəsi yarımçıq qalan, daha çox reabilitasiyaya ehtiyacı olan, eləcə də, daha yüksək reabilitasiya potensiallı əlilliyi olan şəxslərin qəbulu nəzərdə tutulsa da, bununla bağlı konkret hansısa qayda və meyarlar açıqlanmayıb.

Karantin məhdudiyyət tədbirləri Operativ Qərargah tərəfindən elan edilən və əsasən Nazirlər Kabinetinin qərarları ilə müəyyən olunan qaydalar ilə həyata keçirilib. Lakin Nazirlər Kabinetinin yanında Operativ Qərargahın tərkibinə, yəni qərarların hazırlanması və tətbiq edilməsi prosesində vətəndaş cəmiyyəti, parlament və ya digər maraqlı tərəflərin iştirakı təmin edilməyib, maraqlı tərəflər ilə ictimai kommunikasiya qurulmayıb. Eyni zamanda, Operativ Qərargahda konkret hansı dövlət orqanlarının və qurumlarının (onların rəhbər şəxslərinin) təmsil olunması ilə bağlı rəsmi məlumat mövcud deyil. Operativ Qərargahın qərarların qəbulu prosesində aidiyyəti dövlət orqanlarının qərarvermədə iştirak prosesi və qərarlar öncəsi müzakirələr əsasən qapalı olub.

Karantin məhdudiyyət tədbirləri ilə bağlı qərarların qəbulu zamanı gender həssaslığı və inklüzivliyi təmin edəcək, həmçinin korrupsiya nəzarəti də daxil olmaqla, maraqlı tərəflərin iştirakı qeydə alınmayıb. Məhz bu səbəbdən karantin məhdudiyyət tədbirləri zamanı məişət zorakılığının qarşısının alınması, eləcə də, əlilliyi olan şəxslərin xüsusi ehtiyaclarının ödənilməsi ilə bağlı məsələlər nəzərdən keçirilməyib və nəticədə bu sahələrə dair xüsusi qaydalar müəyyən edilməyib.

### Şəffaflıq

Şəffaflıq dövlətin həyata keçirdiyi fəaliyyətlərin qanuni olmasını və qərar qəbul edənlər üzərində ictimai nəzarəti təmin etmək üçün vacibdir. Beləliklə, şəffaflığın məqsədi ictimai fəaliyyətin, həmçinin qərarların qəbulu, icrası və nəticələri barədə aşkarlıq ilə hakimiyyət orqanlarının işini səmərəli izləməyə və töhfə verməyə imkan verəcək şəkildə ictimai məlumatların açıqlığını tələb edir.

Operativ Qərargah karantin məhdudiyyət tədbirlərinin tətbiqi nəticələrinin, xüsusilə SMS icazə, həftəsonu sərtləşdirilmiş karantin rejiminin və rayonlararası səyahət qadağalarının tətbiqinin virusun yayılmasının qarşısının alınmasında necə təsirli olmasına dair qiymətləndirmələr aparmaq üçün yetərli məlumat şəffaflığını təmin etməyib.

Operativ Qərargahın yaradılması ilə, eyni zamanda, https://koronavirusinfo.az/az saytı fəaliyyət göstərməyə başlasa da, burada bir çox zəruri məlumatlar qeyd edilməyib. Belə ki, koronavirusa yoluxanların günlər və bölgələr (Abşeron iqtisadi rayonu istisna olmaqla) üzrə dəqiq sayı heç vaxt açıqlanmayıb. Bundan başqa, bu

[51] Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin məlumatı: http://sosial.gov.az/post_359922

saytda ianə toplanması və bu vəsaitin həcmi haqqında, eləcə də, kim tərəfindən verildiyi göstərilsə də, vəsaitin hara və nə qədər xərcləndiyi barədə məlumatlar təqdim edilməyib. Operativ Qərargahın təqdim etdiyi məlumatlarda hər bir xəstəxanalar üzrə mövcud yerlərin və test edilmiş şəxslərin sayı, o cümlədən karantin dövründə pnevmoniya və ya digər səbəblər ilə xəstəxanaya yerləşdirildikdən sonra (və ya yerləşdirilmədən) vəfat edən insanların sayı da açıqlanmayıb. Eyni zamanda, Operativ Qərargahın ictimaiyyət üçün təşkil etdiyi brifinqlərdə müstəqil media nümayəndələrinin iştirakına imkan verilməyib. Bu da onunla nəticələnib ki, ictimaiyyəti maraqlandıran bir çox suallar Operativ Qərargahın media brifinqində səsləndirilməyib.

Bundan əlavə, karantin-məhdudiyyət tədbirlərinin həyata keçirilməsinə dair Nazirlər Kabinetinin *Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları* 2020-ci ilin 28 fevralında qəbul edilsə də, sentyabr ayına qədər ictimaiyyətə açıqlanmayıb. Nazirlər Kabineti özünün 2020-ci il 30 yanvar tarixli, 35s nömrəli Sərəncamı ilə təsdiq edilmiş *Azərbaycan Respublikasında yeni koronavirus (2019-nCoV) infeksiyasının yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Plan*ını da ictimaiyyətə açıqlamayıb.

Nəticədə ictimaiyyət ölkədə tətbiq edilən sərt karantin məhdudiyyət rejimlərinin əsaslılığı və mütənasibliyini müəyyənləşdirmək üçün yetərli məlumatlara sahib olmayıb.

### İnklüzivlik (bərabərlik və əhatəlilik)

İnklüzivlik cəmiyyətin bütün üzvlərinin öz hüquqlarını və qanuni maraqlarını qorumaq, həmçinin rifahlarını yaxşılaşdırmaq üçün idarəetmə prosesinə cəlb edilməyi, həmçinin cəmiyyətin bütün sahələrində təmsil olunmağı tələb edir. Pandemiya ilə mübarizə kontekstində inklüzivlik cəmiyyətin bütün həssas qruplarının (əlilliyi olan şəxslər, uşaqlar, ahıllar, LGBTIQ+ qrupları və s.) qanuni maraqlarının qorunmasını, pandemiya ilə mübarizədə qəbul edilən məhdudiyyət tədbirlərinin həssas qruplar üçün ağır nəticələrinin öncədən nəzərə alınmasına və nəticədə məhdudiyyət tədbirlərinin neqativ təsirlərinin azaldılmasına xidmət edir.

Azərbaycanda həyata keçirilən müxtəlif karantin rejimlərinin təhlilləri göstərib ki, tətbiq edilən məhdudiyyət tədbirlərindən mənfi təsirlərə daha çox məruz qalan həssas qruplar, xüsusilə potensial məişət zorakılığın qurbanları, romanlar, evsiz olan şəxslər, müxtəlif xəstəliklərdən əziyyət çəkdiyi üçün ancaq Bakıda və ya başqa ölkədə müalicə almalı olan şəxslər (məsələn, xərçəng xəstəliyindən əziyyət çəkən şəxslər üçün kimyaterapiya ilə müalicə imkanı ancaq Bakı şəhərindədir) ilə bağlı xüsusi yanaşma və istisna qaydalar müəyyən edilməyib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2020-ci ilin 6 may tarixində məişət zorakılığı hallarında cüzi artım olduğunu bildirib.[52] Lakin pandemiya ilə bağlı həyata keçirilən məhdudiyyət tədbirlərinin məişət zorakılığı ilə mübarizə fəaliyyətinə təsirlərini azaltmaq, məişət zorakılığı qurbanlarının hüquqlarının müdafiəsinin gücləndirilməsi üçün ayrıca tədbirlər nəzərdə tutulmayıb. Bununla belə, Nazirlər Kabinetinin 7 aprel 2020-ci il tarixli qərarı ilə 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların əlillik müddəti xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılıb.[53]

Bir sözlə, dövlət böhran vəziyyətlərində tətbiq etdiyi total məhdudiyyət tədbirlərində cəmiyyətin bütün üzvlərinin ehtiyaclarını nəzərə almalı və məhdudiyyətlərin tətbiqi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasını təmin etməlidir. İnklüzivliyi ististna edən karantin ilə bağlı məhdudiyyət tədbirləri zamanı sağlamlıq və sosial müdafiə də daxil olmaqla, bir sıra zəruri xidmətlərin hamı üçün əlçatanlığı təmin edilmir və belə hal xüsusi ehtiyacı olan şəxslərə qarşı ayrı-seçkiliyə səbəb olur. Məsələn, iyunun 5-dən 8-dək tətbiq olunan sərtləşdirilmiş karantin rejimi böyrək çatışmazlığından əziyyət çəkən insanlar üçün ağır keçib. Onlar dializə gedə bilmək üçün ya nəqliyyat vasitəsi tapmayıblar, ya da ki, müvafiq icazə proseduru əldə edə bilmədikləri üçün evi tərk edə bilməyiblər. Jurnalist araşdırmasında məlum olur ki, bir hemodializ xəstəsinin tibbi müalicəyə getməsinə icazəni Daxili İşlər Nazirliyindən 4 saatlıq danışıqlardan sonra əldə edə biliblər.[54]

## Çeviklik

Yaxşı idarəetmənin çeviklik qaydası qurumların ağlabatan bir müddətdə bütün maraqlı tərəflərə xidmətlərin göstərilməsini tələb edir. Bu tələb həm də bir qayda olaraq qanunun aliliyi, hesabatlılıq və şəffaflıq qaydalarının nəticəsi olaraq ortaya çıxır. Belə ki, dövlət qurumları qanundan irəli gələn öhdəliklərini ağlabatan müddətdə həyata keçirməklə mükəlləfdir. Bu həm də şəxslərin ehtiyaclarını müvəffəqiyyətlə əlaqələndirən və ardıcıl nəzərə alan dövlət siyasətləri və proqramlarını vaxtında qəbul etməyə cavabdehlik kimi də qəbul edilir. Çeviklik dövlət və vətəndaşlar arasındakı hüquqi münasibətlərin mərkəzində olmaqla şəxslərin hüquqlarının və qanuni maraqlarının həqiqi mənada qorunmasını təmin edir.

[52] Məişət zorakılığı barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmisinin mediaya verdiyi məlumat https://mikroskopmedia.com/2020/05/06/karantin-dovrunde-azerbaycanda-meiset-zorakiligi-hallari-ne-qeder-artib/

[53] Karantin müddətində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə Nazirlər Kabinetinin qərarı. https://nk.gov.az/az/document/4369/

[54] Meydan TV: "Sərt karantin günlərində ağır xəstəliyi olan insanlar nə etdi?" https://d9mc3ts4czbpr.cloudfront.net/az/article/sert-karantin-gunlerinde-agir-xesteliyi-olan-insanlar-ne-etdi/

Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində mart ayından başlayaraq bütün sərhəd ölkələri ilə giriş-çıxışlar məhdudlaşdırılıb. Sərhədlərin bağlanılması nəticəsində ölkəyə geri qayıtmağa çalışan bir çox vətəndaşlar ölkəyə vaxtında qayıda bilməyib və sərhəd keçid məntəqələrində, hava limanlarında günlərlə, bəzən aylarla gözləməli olub. Ölkəyə geri qayıtmaqda ən çətin vəziyyət Rusiya ilə dövlət sərhəddində qeydə alınıb. Bu ölkədə yaşayan azərbaycanlılar ölkəyə qayıtmaq istəsələr də, onların ağlabatan müddətdə geri qayıtması ilə bağlı tədbirlər görülməyib və sərhədin Rusiya ərazisi tərəfində çox sayda Azərbaycan vətəndaşları pis şəraitdə yaşamaq məcburiyyətində qalıb. Rusiyadan Azərbaycana qayıtmaq istəyən vətəndaşların mərhələli şəkildə geri qayıtmasını təşkil etmək üçün https://www.evegedirem.info portalı yaradıldı, lakin portal müvəqqəti (18 aprel 2020-ci il tarixindən 23 aprel 2020-ci il tarixinədək) fəaliyyət göstərib və ölkəyə giriş məqsədilə sərhəd ərazisində toplaşan çox sayda şəxsin ölkəyə girişi ağlabatan müddətdə təmin edilməyib.[55]

Bundan başqa, Azərbaycanda mart ayının 3-dən orta və ali təhsil müəsssisələrində dərslər dayandırılaraq təhsildə onlayn tədris üsuluna keçilib. Lakin şagirdlərin elektron resursları və internetə çıxışı ilə bağlı çatışmazlıqlara dair tədbirlər görülməyib. Təhsil müəssisələrinin bağlanmasından sonra distant təhsilin tətbiqi prosesində, xüsusi ilə regionlarda, kənd yerlərində internetə çıxış və elektron vasitələrlə təminatda problemlər meydana gəlib. Məsələn, Lənkəran rayonu Bəliton kəndində yaşayan şəxslərin mətbuata verdiyi açıqlamada qeyd olunur ki, məktəblilər telefon xəttinin yararsız vəziyyətdə olması və internetin zəif sürətlə işləməsi səbəbindən distant təhsildən kənarda qalıblar.[56] Lakin karantin müddətinin davam etdiyi 7 ay ərzində bu kimi problemlərin həlli ilə bağlı dövlət qurumları təsirli addımlar atmayıb və problem ağlabatan müddətdə öz həll olunmayıb.

Nəticədə dövlət orqanları pandemiyaya qarşı tətbiq etdikləri məhdudiyyət tədbirlərinin hərəkət azadlığı və təhsil hüquqları üzərindəki mənfi nəticələrinin həll olunması üçün vəd edilən ictimai xidmətlərin qarşısında duran əsas problemləri vaxtında aradan qaldırmayıb və bu xidmətlərin təqdim edilməsində məsuliyyətli davranmayıblar.

### Hesabatlılıq

Yaxşı idarəetmənin əsas tələblərindən biri kimi hesabatlılıq dövlət qurumlarının maraqlı tərəflər qarşısında öz fəaliyyətinin əldə edilmiş nəticələri haqqında məlumat təqdim etmə və məsuliyyət daşıma dərəcəsi kimi səciyyələndirilə bilər. Dövlət

[55] Xarici İşlər Nazirliyinin Rusiyada yaşayan şəxslərin qayıdışı üzrə yaradılan "Evə gedirəm" portalının təqdimatı haqqında media məlumatı. https://ona.az/az/sosial/rusiyada-yasayan-vetendaslarimizin-qayitmasi-ucun-yaradilan-eve-gedirem-portalinin-xin-de-teqdimati-olub-21122

[56] Lənkəranda distant təhsil probleminə dair məqalə https://arqument.az/az/lenkeranda-distant-tehsil-problemi-bu-kendde-telefon-ve-internet-yoxdur/

orqanları qanunla yol verilən hədlərdə və formada fəaliyyət göstərməli olduqlarına görə onların bu fəaliyyətinin müntəzəm yoxlanılması hesabatlılığın əsas funksiyasıdır. Hesabatlılıq həmçinin dövlət orqanlarının (onların rəhbər şəxslərinin) öz qərarlarına, fəaliyyətlərinə və səsləndirdikləri vədlərə görə öhdəlik daşımalı olduğunu və bu öhdəliyin pozulması zamanı məsuliyyət daşımağı nəzərdə tutur.

Yaxşı idarəetmə meyarı kimi hesabatlılıq dövlət idarəçiliyinin öz öhdəliklərini qənaətbəxş şəkildə yerinə yetirməsini təmin edən əsas vasitələrdən biri kimi çıxış edir. Bu məqsəd üçün tələb olunan mühüm elementlər kimi dövlət idarəçiliyinin qanun əsasında təşkili, ictimai məlumatların əlçatımlı olması, yoxlama sistemi və inzibati apelyasiyaların səmərəli işləməsi, eləcə də, ictimai və məhkəmə nəzarətini qeyd etmək olar. Hesabatlı bir hökumətin fəaliyyəti müəyyən bir qrupun yox, böyük əksəriyyətinin ehtiyaclarına cavab verməlidir.

Ümumdünya Səhiyyə Təşkilatı qeyd edir ki, pandemiyaya hazırlıq sahəsində qərar qəbul edənlərin hesabatlılığı qərarların həm hazırlanması mərhələsində, həm də həyata keçirilməsi zamanı çox vacibdir. Pandemiya cavab planının və büdcəsinin hazırlanması, o cümlədən onun icrası məqsədilə məsuliyyət xətlərinin aydınlaşdırılması və ictimaiyyətə çatdırılması həyata keçiriləcək tədbirlərin səmərəliliyi üçün də mühümdür. Hesabatlılıq həm də həyata keçiriləcək fəaliyyətlərin böhrana nə qədər adekvat olmasının davamlı monitorinq və qiymətləndirməsini də tələb edir.

Bu hesabatda qeyd edildiyi kimi karantin məhdudiyyət tədbirlərinin və onların mənfi nəticələrinin aradan qaldırılması üzrə görülən işlərdə hesabatlılıq üçün vacib amillərə əməl edilməyib. Belə ki, karantin tədbirlərinin tətbiqi ilə bağlı müvafiq qurumların fəaliyyəti zamanı bir çox vacib ictimai məlumatlar açıqlanmayıb. Karantin qaydalarının tətbiqi zamanı müvafiq qurumların hərəkətlərindən inzibati və məhkəmə qaydasında nəzarəti mümkün olmayıb. Həmçinin hökumətin pandemiyaya qarşı mübarizə planları və siyasətlərində korrupsiyaya qarşı mübarizəyə kifayət qədər əhəmiyyət verilməyib.

## Nəticə

Təhlillər göstərir ki, Azərbaycan hökuməti COVID-19 pandemiyası zamanı ictimai diskursun təzyiqi altında və sübutlar olmadan qəbul edilmiş sərt məhdudlaşdırıcı qaydalar, həmçinin bu qaydaların pozulması halında həddindən artıq cəza sanksiyaları tətbiq edib.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, tibb elmləri doktoru Rəşad Mahmudov mətbuata açıqlamasında vurğulayıb ki, koronavirus pandemiyası ilə mübarizədə sərt karantin rejiminin heç bir faydası olmayıb.[57] Mahmudov həmçinin qeyd

[57] Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, tibb elmləri doktoru Rəşad Mahmudovun çıxışı haqqında məqalə https://d9mc3ts4czbpr.cloudfront.net/en/article/resad-mahmudov-karantinin-faydasi-olmadi/

edib ki, "ağır, sərtləşdirilmiş karantin rejimlərinin COVID-19 virusu ilə mübarizədə heç bir faydasının olmadığı, hətta zərərinin daha çox olduğu sübut olundu. Əslində, zərərinin çox olduğunu hamı bilirdi. Tibbi nöqteyi-nəzərdən faydasına görə karantin tətbiq olunurdu, amma görüldü ki, faydası da yoxdur. Bundan sonra ən ağır, pik hadisələr olsa belə, parklarımız bağlanmayacaq." Lakin buna baxmayaraq, sərt karantin tədbirlərinin tətbiqi nəticəsində zərərə məruz qalan şəxslərin (məsələn, fəaliyyəti məhdudlaşdırılan və ya müəyyən müddətə qadağan olunan sahibkarlıq subyektləri) məruz qaldığı zərərin əvəzinin ödənilməsi üçün dövlət tərəfindən hər hansı tədbir görülməyib. Halbuki, Konstitusiyaya görə dövlət özünün qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır. (Maddə 68. IV).

Bundan başqa, sərt karantin tədbirlərinin səmərəli olmaması ilə bağlı etibarlı rəylərə baxmayaraq, eyni yanaşma əsasında sərt məhdudiyyət tədbirləri yenidən tətbiq edilməyə başlanıb. Belə ki, Nazirlər Kabinetinin 16 oktyabr 2020-ci il tarixli, 396 nömrəli *Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər barədə qərarı* ilə ölkə ərazisində təhsil fəaliyyəti 2020-ci il 19 oktyabr tarixindən 2 noyabr tarixinədək dayandırılıb.[58] Həmçinin Operativ Qərargah 16 oktyabr tarixli məlumatında koronavirusa yoluxma hallarının sürətlə artmasına görə özəl sektorda fəaliyyət göstərən müəssisələrə zəruri hesab edilən işçi heyətini məhdud sayda işə cəlb etməyi və digər işçilərin maksimum məsafədən işləməsini və ən zəruri hallar istisna olmaqla, 65 yaşdan yuxarı əməkdaşların əmək haqqı saxlanmaqla müvəqqəti olaraq işə cəlb olunmamasını tövsiyə edib.[59]

COVID-19 pandemiyasına qarşı tətbiq edilən məhdudiyyət tədbirləri Konstitusiyada təsbit olunmuş insan hüquq və azadlıqlarını məhdudlaşdırması üçün tələb olunan konstitusion və beynəlxalq insan hüquqları standartlarına uyğun olmayıb. Beləliklə, hətta fövqəladə vəziyyətdə qanunilik tələbinə əməl edilməsi tələb olunsa da, dövlətin həyata keçirdiyi karantin məhdudiyyət tədbirləri qanunilik tələbinə cavab verməyib. Bu kontekstdə *qanun* təkcə parlament aktlarını deyil, həm də, məsələn, icra hakimiyyəti orqanının fövqəladə hal barədə fərmanlarını özündə ehtiva edir, bu şərtlə ki, onların konstitusion hüquqi əsası olsun.[60]

Bundan əlavə, dövlətin hər hansı bir hərəkətinin hüququn aliliyinə uyğun olması, hakimiyyət bölgüsünə hörmət etməsi və nəticədə səhiyyə orqanları kimi icra hakimiyyəti orqanlarının dövlətin digər qolları, yəni qanunverici və məhkəmə orqanları

[58] Nazirlər Kabinetinin qərarı, https://nk.gov.az/az/document/4850/

[59] Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı, https://nk.gov.az/az/article/1129/

[60] Bax: Venesiya Komissiyası, Fövqəladə vəziyyətdə insan hüquqlarının müdafiəsinə dair rəy, CDL-AD(2006)015), 13-cü bənd. Bax: Venesiya Komissiyasının qanunun aliliyinə nəzarət vərəqəsi, (CDL-AD(2016)007), 44 və 45-ci bəndlər.

tərəfindən qanuni şəkildə yoxlanılması effektiv şəkildə təmin edilməyib. Karantin məqsədləri üçün insan hüquq və azadlıqlar üzərində məhdudlaşdırıcı tədbirlər tətbiq edilərkən qanunilik, parlament və məhkəmə nəzarəti kimi təminatlara məhəl qoyulmaması hüquq və azadlıqların dövlət hakimiyyəti qarşısında müdafiəsiz və əhəmiyyətsiz vəziyyətə düşməsi ilə nəticələnib. Belə təminatlar hüquq və azadlıqları nəzəri və xəyali deyil, praktik və səmərəli şəkildə həyata keçirilməsi üçün əhəmiyyət daşıyır. Bundan başqa, bu təminatların mübahisəsiz şəkildə gözardı edilməsi həm də hüquq və azadlıqlar üzərində tətbiq edilən özbaşına məhdudiyyət tədbirlərinin gələcəkdə normal həyat şərtlərində yenidən tətbiqi təhdidini də yaradıb.

Fövqəladə vəziyyətlərdə təcili tədbirlər həyata keçirilərkən azadlıq və təhlükəsizlik arasında doğru tarazlıq yaratmaq üçün hüququn aliliyi və beynəlxalq insan hüquqları üzrə beş vacib qaydaya uyğunluq təmin edilməlidir. Birincisi, həyata keçirilən tədbirlər qanuna uyğun olmalıdır; ikincisi, görülən tədbirlər qanuni məqsəd daşımalıdır; üçüncüsü, bu tədbirlər zərurilik tələbinə uyğun olmalıdır; dördüncüsü, mövcud olan ən az məhdudlaşdırıcı müdaxilə vasitəsi olmalıdır; və beşincisi, özbaşınalığa və ya ayrı-seçkiliyə yol verməməlidir. Konstitusiya və beynəlxalq hüquqa görə məcburi olan bu prinsiplərdən ölkənin ciddi bir təhlükə ilə üzləşdiyi fövqəladə hallar zamanı belə imtina edilməməlidir.

### Tövsiyələr

- Sanitariya-epidemioloji salamatlıq haqqında və fövqəladə vəziyyət haqqında qanunlara müvafiq sistemli dəyişikliklər edilməli və aşağıdakılar təmin edilməlidir:
    - İcra hakimiyyəti orqanlarının ictimai səhiyyə böhranlarına qarşı cavab tədbirləri üzrə səlahiyyətlərinin sərhədləri dəqiqləşdirilməli;
    - Böhran vəziyyətlərinə cavab tədbirlərinin elmi sübutlara əsaslanmasına, tədbirlərin hüququn aliliyi və insan hüquqları standartlarına, həmçinin mütənasiblik və demokratik cəmiyyətdə zərurilik kimi prinsip və qaydalara uyğunluğuna dair təminatlar müəyyən edilməli;
    - Sanitariya-epidemioloji salamatlıq məqsədləri üçün fövqəladə vəziyyət haqqında qanunda nəzərdə tutulan məhdudiyyət tədbirlərinin tətbiqində yalnız parlamentin iştirakı ilə fövqəladə vəziyyət xüsusi hüquqi rejiminin tətbiqi halında mümkün olması təmin edilməli.
- İctima səhiyyə və digər fövqəladə vəziyyət hallarında məhdudiyyət tədbirlərinin tətbiqinə cəlb olunmuş qurumlar üçün insan hüquqlarına, hüququn aliliyinə əsaslanan və icrası məcburi olan etik davranış qaydaları qəbul edilməli;

- Fövqəladə vəziyyət hallarında səlahiyyətləndirilmiş xüsusi qurumların (Operativ Qərargah kimi) fəaliyyətinə, siyasətlərin işlənib hazırlanmasına və onun tətbiqinə ictimai iştirakçılıq, şəffaflıq, hesabatlılıq, inklüzivlik və çeviklik kimi yaxşı idareətmə meyarlarının tətbiqi məcburi qayda kimi müəyyən edilməli.
- *Normativ hüquqi aktlar haqqında qanuna* və *insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Konstitusiya qanununa* əsasən icra hakimiyyəti orqanlarının fövqəladə hallarda parlament qanunu olmadan Konstitusiya və beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlar üzərində məhdudiyyət müəyyən edə bilməsinin mümkünsüzlüyünü daha aydın şəkildə ifadə edən dəyişikliklər edilməli.

# MONITORING REPORT ON LEGAL ASSESSMENT OF THE QUARANTINE RESTRICTIONS RELATED TO THE COVID-19 PANDEMIC IN AZERBAIJAN

Emin Abbasov

## INTRODUCTION

In February 2020, in response to the global coronavirus (COVID-19) public health crisis, the countries of the world began to impose a number of restrictive regulations with severe effects on human rights and freedoms. Azerbaijan, like other countries, has introduced various quarantine restrictions since March 2020 to reduce the spread of the COVID-19 pandemic, as well as to better respond to the pandemic through the efficient use of anti-pandemic resources. Many of these measures have resulted in restricting, and in some cases abolishing for a certain period of time, the human rights and freedoms enshrined in the Constitution and international human rights instruments. This report seeks to analyze the degree to which the restrictive measures taken by the government to reduce the effects of the COVID-19 pandemic in Azerbaijan are in compliance with the Constitution and international human rights standards, as well as their effectiveness with regard to good governance indicators.

An analysis of the national legislation of the Republic of Azerbaijan shows that such broad restrictive measures are possible only under the legal regime of a state of emergency, provided that they are used temporarily in accordance with the Constitution. However, Azerbaijan's decisions aimed at reducing the impact of the COVID-19 pandemic were implemented without instituting the special emergency legal regime and in a way that did not meet the requirements of the Constitution or the relevant legislation.

For this purpose, an Operational Headquarters was established under the aegis of the Cabinet of Ministers, representing the relevant government agencies and their leaders. The Operational Headquarters exercised broad powers, such as the power to restrict rights and freedoms in whole or in part without the consent or oversight of parliament, to define the scope of socio-economic aid programs for those affected by anti-pandemic measures and the rules for the use of these programs, and to oversee the implementation of quarantine measures.

In contravention of the Constitution, parliament has not participated in the decision-making process on quarantine restrictions, which began to come into force on

March 24, 2020. Although it continues to operate online, parliament has not been able to exercise control over the country's temporary restrictions on constitutional rights and freedoms, which have been extended several times. In addition, the Cabinet of Ministers, an arm of the executive branch, has not received parliamentary approval to exercise such extraordinary powers, as required by the Constitution. As a result, the executive has exercised extraordinary powers over rights and freedoms without parliamentary consent and control. Parliamentary oversight, however, was essential to give democratic legitimacy to the emergency measures, to manage the rapidly expanding powers of the executive branch, and to put pressure on the executive if necessary.

İkinci maliyyə dəstəyi zamanı bir məsələyə xüsusi diqqət yetirilib. Maliyyə dəstəyi pandemiyadan zərər çəkmiş sahələrdə çalışan, birinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait almış və dövlət başçısının çağırışına cavab olaraq, işçi saylarında ciddi azalmalara yol verməmiş vergi ödəyicilərinə 1 iyul 2020-ci il tarixinə olan işçi sayı əsas götürülməklə bir aylıq əmək haqqı fondu həcmində göstərilir və avqust və sentyabr aylarını əhatə etməklə 2 mərhələdə bərabər hissələrlə ödənilir. Maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində vergi ödəyicilərinin yenidən müraciət etmələrinə ehtiyac qalmayıb. İN yanında DVX-nin məlumatına görə, avqustun 28-i tarixinə 2-ci mərhələ çərçivəsində 234.355 muzdlu işçini əhatə edən 22.885 vergi ödəyicisinin bank hesablarına ilkin olaraq 51.939,4 milyon manat köçürülüb.[12]

**Cədvəl 2. Muzdlu işçilərə əmək haqlarının müəyyən hissəsinin ödənilməsi**
***(28.08.2020 il tarixinə, ikinci mərhələ üzrə)***

| | | |
|---|---|---|
| **1.** | 2-ci maliyyə paketi çərçivəsində ödəniş edilmiş vergi ödəyicilərinin sayı, *nəfərlə* | 22.885 |
| **2.** | Həmin vergi ödəyiciləri üzrə muzdlu işçilərin sayı, *nəfərlə* | 234.355 |
| **3.** | Ödənilmiş vəsaitin məbləği, *milyon manatla* | 51.939,4 |

**Mənbə:** İN yanında DVX

Maliyyə dəstəyi proqramının ikinci mərhələsində ödənişlə əhatə olunmuş muzdlu işçilərin sayı birinci mərhələdə vəsait almış muzdlu işçilərin sayından 12.177 nəfər çoxdur ki, bu da əmək müqavilələri bağlamış işçi saylarının artması ilə əlaqədardır. Bununla yanaşı, aprel-may-iyun ayları ərzində işçilərinin hamısını (1666 nəfər) ixtisar etmiş 553 vergi ödəyicisinə və işçilərinin sayında ciddi azalmalara yol vermiş 374 vergi ödəyicisinə maliyyə dəstəyi göstərilməsindən imtina edilib.

Monitorinqlər göstərib ki, əmək haqlarının bir hissəsinin dövlət tərəfindən ödənilməsi zamanı şəffaflıq və hesabatlılıqla bağlı tələblərə əməl olunub. Monitorinq dövründə bu məsələyə məsul dövlət qurumlarının saytları izlənilib, internet resurslarında maliyyə dəstəyinin verilməsinin gedişi ilə bağlı dərc olunan xəbər, məqalə və araşdırmalar diqqətdə saxlanılıb.

Monitorinqlər göstərib ki, həm İN-nin, həm də İN yanında DVX-nin müvafiq saytlarında bu istiqamət üzrə dövlət dəstəyi üçün müraciət etmiş vergi ödəyicilərinin,

[12] İkinci maliyyə dəstəyi proqramı çərçivəsində muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsinə başlanılıb. 19.08.2020. https://www.taxes.gov.az/az/post/1135

onların işçilərinin sayı, ödənilən məbləğlər yerləşdirilib və məlumatlar mütəmadi olaraq yenilənib.[13] Bundan əlavə, koronavirus pandemiyasından zərər çəkdiyinə görə muzdlu işçilərinə əmək haqlarının müəyyən hissəsinin ödənilməsi üçün dövlətdən maliyyə dəstəyi almış vergi ödəyicilərinin siyahısı hazırlanaraq DVX-nin saytına yerləşdirilib.[14] Monitorinq dövründə siyahının mütəmadi yeniləndiyi müşahidə edilib.

Pandemiyadan zərər çəkmiş sahələrin yekun siyahısının nazirlik tərəfindən müəyyənləşdirilməsi (fəaliyyət kodlarının açıqlanması) müəyyən vaxt apardığından ilk günlər vergi ödəyiciləri arasında müəyyən çaşqınlıq yaransa da, sonradan bu problem aradan qaldırılıb. Pandemiyadan zərər çəkmiş sahələr fəaliyyət kodları daxil olmaqla, İN-nin saytına yerləşdirilib.[15] İN tərəfindən dövlət dəstək tədbirlərinin izahı ilə bağlı kifayət qədər video və yazılı materiallar hazırlanaraq sayta qoyulub. Eyni zamanda, "Koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahibkarlara maliyyə dəstəyinin göstərilməsi mexanizmləri ilə bağlı ƏN ÇOX VERİLƏN SUALLAR" adlı bölmə yaradılıb və burada sual-cavab formasında, qısa və lakonik şəkildə hər istiqamət üzrə dəstək mexanizmləri izah olunub.[16]

### *Mikro (fərdi) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi*

Üçüncü istiqamət üzrə NK-nın təsdiq etdiyi Tədbirlər Planında pandemiyanın ziyan vurduğu fəaliyyət sahələrindəki 300 min fərdi sahibkara dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulub. Bu maliyyə yardımına iddia etmək üçün sahibkarın pandemiyadan zərər çəkmiş sahədə fəaliyyət göstərməsi tələb olunmayıb.

Maliyyə dəstəyi 2 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olan, sabit qəbz almaqla fəaliyyət göstərən, daşıma fəaliyyəti ilə məşğul olan, yaxud gəlir vergisi mükəlləfiyyəti olan və 2019-cu ildə vergilərini, məcburi dövlət sosial sığorta haqlarını və işsizlikdən sığorta haqlarını ödəmiş fərdi (mikro) sahibkarlara şamil edilib. Hər bir mikro və ya fərdi sahibkara ödənilən minimal məbləğ 250 manat təşkil edib. Maksimal məbləğ isə 5000 manat həcmində olub. Dövlət büdcəsindən ayrılan vəsaitlər həmin fərdi sahibkarların bank hesablarına köçürülüb. Bu məqsədlə İnternet

[13] İqtisadi artıma və sahibkarlara dövlət dəstəyi tədbirlərinin mexanizmləri https://www.taxes.gov.az/az/page/iqtisadi-artima-ve-sahibkarlara-dovlet-desteyi-tedbirlerinin-mexanizmleri

[14] Koronavirus (COVID-19) pandemiyasından zərər çəkdiyinə görə muzdlu işçilərə əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün dövlətdən maliyyə dəstəyi almış vergi ödəyicilərinin siyahısı. (artan yekunla, 28.08.2020-ci il tarixə olan məlumat). https://www.taxes.gov.az/files/2/covid19/M28082020.pdf, Koronavirus (COVID-19) pandemiyasından zərər çəkdiyinə görə muzdlu işçilərə əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün dövlətdən maliyyə dəstəyi almış vergi ödəyicilərinin siyahısı - II mərhələ (artan yekunla, 28.08.2020-ci il tarixə olan məlumat). https://www.taxes.gov.az/files/2/covid19/MS_2808.pdf

[15] Əmək haqlarının ödənilməsi üçün maliyyə dəstəyi proqramı ilə bağlı pandemiyadan zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növlərinin TƏSNİFATI. https://www.e-taxes.gov.az/new/downloads/Fealiyyet_kodlari_pandemiya_yeni.xlsx

[16] İqtisadi artıma və sahibkarlara dövlət dəstəyi tədbirlərinin mexanizmləri. https://economy.gov.az/article/i-qtisadi-artima-ve-sahibkarlara-dovlet-desteyi-tedbirlerinin-mexanizmleri/30857#

Vergi İdarəsində (İVİ) xüsusi bölmələr yaradılıb. Vergi ödəyiciləri maliyyə dəstəyi əldə etmək üçün İVİ-dəki şəxsi kabinetində "Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı" bölməsindən "Fərdi sahibkarlara ödənişlər üzrə müraciət" altbölməsinə daxil olaraq müvafiq müraciət formasını doldurublar. Bundan sonra onlara "Pandemiya ilə bağlı maliyyə dəstəyi proqramı" barədə bildirişlər və mobil telefonlarına SMS-lər göndərilib.

Bu istiqamət üzrə də dövlət maliyyə dəstəyi iki mərhələdə aparılıb. 20 avqust 2020-ci il tarixinə olan rəsmi məlumata görə, bu istiqamət üzrə dövlət büdcəsində nəzərdə tutulmuş 80,0 milyon manatın 63.693,9 min manatı təyinatı üzrə xərclənilib. Qeyd olunan tarixdə 107.223 vergi ödəyicisinə ödəniş edilib. 28 avqust 2020-ci il tarixində ikinci mərhələ üzrə 49.887 vergi ödəyicisi bu maliyyə dəstəyindən faydalanıb. Həmin vergi ödəyicilərinə 12.471,8 min manat ödənilib.

**Cədvəl 3. Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi**
***(28.08.2020 il tarixinə)***

| | | |
|---|---|---|
| **1.** | Bu istiqamət üzrə dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği, *milyon manatla* | 80,0 |
| **2.** | Müraciət etmiş vergi ödəyicilərinin sayı, *nəfərlə* | 119.021 |
| **3.** | Müraciəti araşdırılmış vergi ödəyicilərinin sayı, *nəfərlə* | 111.962 |
| **4.** | Maliyyə dəstəyinin məbləği, *min manatla* | 63.792,9 |
| **5.** | Faktiki ödəniş edilmiş vergi ödəyicilərinin sayı, *nəfərlə* | 107.223 |
| **6.** | Ödənilmiş vəsaitin məbləği, *min manatla* | 63.693,9 |

**Mənbə:** İN yanında DVX

**Cədvəl 4. Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi**
***(28.08.2020 il tarixinə, ikinci mərhələ üzrə)***

| | | |
|---|---|---|
| 1. | Faktiki ödəniş edilmiş vergi ödəyicilərinin sayı, *nəfərlə* | 49.887 |
| 2. | Ödənilmiş vəsaitin məbləği, *min manatla* | 12.471,8 |

**Mənbə:** İN yanında DVX

Fərdi sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi prosesi şəffaflıq və hesabatlılıq təmin olunmaqla icra edilib. Həm birinci, həm də ikinci mərhələdə maliyyə dəstəyi göstərilmiş vergi ödəyicilərinin siyahısı DVX-nin saytına yerləşdirilib və mütəmadi olaraq yenilənib. Proses hazırda da davam etdirilir. Ancaq dəstəyin hesablanması mexanizmi ilə bağlı müəyyən məqamlar vergi ödəyicilərinə qaranlıq qalıb və haqlı suallar doğurub. Təəssüf ki, bu sualların cavablandırılması İN yanında DVX tərəfindən həyata keçirilməyib. Açıqlanmayan məqam 2019-cu ildə yüksək vergi ödəyicilərinə münasibətdə ödəniləcək dəstək məbləğinin müəyyənləşdirilməsi mexanizmidir. Yalnız fərdi (mikro) sahibkarlara göstərilən maliyyə dəstəyinin minimum həddinin 250 manat, maksimum həddinin 5.000 manat olduğu açıqlanıb ki, bu

da maksimum həddin hesablanması ilə bağlı vergi ödəyicilərində və ictimaiyyətdə müəyyən sualların yaranması ilə nəticələnib .[17]

### Aztəminatlı ailələrə birdəfəlik maliyyə dəstəyinin göstərilməsi

NK-nın 7 aprel 2020-ci il tarixli, 127 nömrəli qərarı ilə Tədbirlər Planında nəzərdə tutulan daha bir maliyyə dəstəyinin qanunvericilik əsası formalaşdırılıb.[18] Adıçəkilən qərarla təsdiq olunan qayda koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar, ƏƏSMN-in mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Məşğulluq” altsistemində  işsiz kimi qeydiyyatda olan şəxslərə aylıq birdəfəlik ödəmənin verilməsi şərtlərini və qaydasını tənzimləyir. Qaydalara görə, dövlət qurumlarından aşağıdakı ödənişləri alan işsiz şəxslərə birdəfəlik ödəmə verilmir:

- ünvanlı dövlət sosial yardımı (ÜDSY) alan ailələrin üzvlərinə;
- əmək pensiyaçılarına;
- aylıq müavinət alanlara;
- aylıq təqaüd alanlara;
- özünüməşğulluğun təşkili proqramı çərçivəsində əmlak verilmiş şəxslərə;
- işsizlikdən sığorta ödənişi alanlara;
- peşə hazırlığına görə təqaüd alanlara;
- 2020-ci ildə kənd təsərrüfatı üzrə subsidiya (KTS) almış şəxslərə;
- əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan) və ya Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək müqaviləsi bildirişi” altsistemində aktiv əmək müqaviləsi bildirişi olanlara;
- əri və ya arvadı ÜDSY və ya KTS alan şəxslərə.

NK-nın təsdiq etdiyi qaydada birdəfəlik ödəmə *Məşğulluq haqqında qanun*a uyğun olaraq işsiz kimi qeydiyyata alınmış və yuxarıda sadalanan kateqoriyalara aid olmayan şəxslər üçün təyin edilib və ödənilib. Onlara aşağıdakılar aiddir:

1. 2020-ci il 1 aprel tarixinə “Məşğulluq” altsistemində (MAS) işsiz kimi qeydiyyata alınmış şəxslər;
2. Pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslər.

[17] “Vergilər” qəzeti. Dövlətin dəstəyindən sui-istifadəyə yol verilməyəcək. 15.04.2020. https://vergiler.az/news/economy/8041.html

[18] “Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası”nın təsdiq edilməsi barədə”. http://www.e-qanun.az/framework/44865

Qaydayaya əsasən birdəfəlik ödəmənin təyin olunması elektron formada ƏƏSMN tərəfindən həyata keçirilib. Birdəfəlik ödəmə pandemiya dövründə 4 dəfə həyata keçirilib: “Aprel və may aylarında hər ay ölkə üzrə 600 min şəxsə, iyul ayında 16 şəhər və rayon üzrə 283 min şəxsə bu ödəmə edilib. Avqust ayında isə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon (Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax, Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan) üzrə 190 manat birdəfəlik ödənişlərin verilməsini başa çatdırılıb. Ödəmə 272 min şəxsi əhatə edib və bunun üçün 52 milyon manat vəsait yönəldilib.”[19] Ümumilikdə COVID-19 pandemiyası dövründə 190 manat birdəfəlik ödəmə proqramı üzrə yönəldilmiş vəsaitin ümumi həcmi 333 milyon manat təşkil edib.[20] Monitorinqlər göstərib ki, 190 manatlıq birdəfəlik ödəmənin verilməsi kütləvi narazılıq və pozuntularla müşahidə olunub. Bu, ilk növbədə ölkədə işsizlərin və işaxtaranların sayı ilə bağlı statistik göstəricilərin reallığı əks etdirməməsinin nəticəsidir.

Hətta Dövlət Statistika Komitəsi (DSK) aprel ayında hər ay dərc etdiyi statistik məcmuədən işsizlik göstəricisini çıxarmağa məcbur olub. Belə ki, DSK-nın rəsmi nəşrlərində son dəfə işsizlərin sayı ilə bağlı rəsmi açıqlama yanvar-mart məcmuəsində aprelin 1-i tarixinə yerləşdirilib. Bunu nəzərə alaraq 19 iyun 2020-ci il tarixində (məktub №: 20/20) Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə 2020-ci ilin may ayının 1-i və iyun ayının 1-i vəziyyətinə dövlət məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsizsizlərin sayı ilə bağlı statistikanın (qadın və kişilərin xüsusi çəkisi göstərilməklə) tədqiqat məqsədilə istifadə olunması üçün İqtisadi Tədqiqatlar Mərkəzinə təqdim olunması barədə sorğu ünvanlanıb. Təəssüf ki, sorğu cavablandırılmayıb. Aşağıdakı cədvəldə 190 manat birfədəlik yardım ödənişinə başlanılmazdan əvvəl işsizliyin vəziyyəti təqdim olunur.

**Cədvəl 5. 2020-ci ilin ilk dörd ayında Azərbaycanda rəsmi işsizliyin səviyyəsi**

| 2020-ci il | Məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı | | İşsizlik müavinəti alanların sayı, nəfərlə | İşsizlikdən sığorta məbləği, manatla |
|---|---|---|---|---|
| | Cəmi, min nəfərlə | Onlardan qadınlar, faizlə | | |
| 1 yanvar | 81,3 | 37,7 | 540 | 276,4 |
| 1 fevral | 86,2 | 37,7 | 536 | 295,6 |
| 1 mart | 90,8 | 37,8 | 501 | 338,9 |
| 1 aprel | 100,8 | 36,9 | 510 | 309,0 |

**Mənbə:** Dövlət Statistika Komitəsi

[19] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytı. Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon üzrə 190 manat birdəfəlik ödəmə veriləcək. 06.08.2020. http://sosial.gov.az/post_362600

[20] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytı.190 manat məbləğində birdəfəlik ödənişin verilməsi yekunlaşdırıldı. 21.08.2020. http://sosial.gov.az/post_365303

Cədvəl məlumatlarına əsasən işsizlərin sayı ilə müqayisədə işsizlik müavinəti alanların sayı çox aşağıdır. Belə ki, bu nisbət 2020-ci ilin yanvar ayında 0,66 faiz, fevral ayında 0,62 faiz, mart ayında 0,55 faiz, aprel ayında 0,50 faiz təşkil edib. Göründüyü kimi cari ilin 4 ayında işsizlərin sayının artımı ilə müqayisədə işsizlik müavinəti alanların sayı azalıb və ona görə də dinamika mənfidir.

Hökumət ilkin olaraq 200 min işsizə 2 ay ərzində 190 manat verilməsini nəzərdə tutmuşdu. Lakin sonradan işsizlərin real sayının rəsmi statistik göstəricidən bir neçə dəfə çox olduğunu görən prezident bu ödəməni alanların sayının 200 min nəfərdən 600 min nəfərə qədər artırılması qərarını verdi.[21] Bu da işsizlərin tam şəkildə əhatə olunmasına imkan vermədiyindən ƏƏSMN-nin rəsmiləri yardımın işsizlərə deyil, aztəminatlı ailələrə veriləcəyini bildirdi. Bu, birdəfəlik ödəmənin verilməsi ilə bağlı NK Tədbirlər Planına zidd idi.

Pandemiya ilə bağlı Məşğulluq Mərkəzlərində vətəndaş qəbulları dayandırıldığından, müraciətlər canlı qəbul olunmadığından birdəfəlik ödəməyə yalnız onlayn müraciət etmək mümkün idi. Onlayn müraciətlərin çoxluğu isə aprel ayında bir neçə dəfə ƏƏSMN-nin *www.e-sosial.az* saytının çökməsinə səbəb olub.[22]

Aprel ayında müraciətlərin çoxluğu müraciətçilərə verilən əsassız imtinaların sayının artması ilə nəticələndi. Bu da rəsmi şəkildə işsiz status alanlar arasında 190 manatlıq ödənişi müxtəlif səbəblərdən əldə edə bilməyənlərin sayının artmasına rəvac verdi. Belə şəxslərə adlarında iki və ya daha çox əmlak və ya avtomobil aşkarlandığı, ər (arvad) haqqında təhrif olunmuş məlumat təqdim edilməsi, özünün və ya arvadının aktiv VÖEN-nin olması, əmək müqaviləsinin mövcudluğu səbəbindən imtina mesajları göndərilmişdir. Ancaq göndərilən mesajların əksəriyyətinin reallığı əks etdirməməsi imtina mesajlarının heç bir araşdırma aparmadan göndərilməsinə böyük şübhələr yaradır.

Ən çox narazılıq doğuran imtina ailənin bir üzvünün adına VÖEN-nin olması səbəbindən 190 manatın verilməməsi olmuşdur. NK-nın qərarında açıq şəkildə yazılır ki, "əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan)" birdəfəlik yardım verilmir. Lakin ƏƏSMN aktiv və ya passiv olmasına baxmayaraq, ucdantutma bütün VÖEN-i olanlara imtina verib. Bu da iki dövlət qurumu - ƏƏSMN ilə İN arasında narazılıq yaratmışdır. Narazılıqlar birbaşa vergi məsələsi ilə bağlı olduğundan və Vergi Xidmətinə yönəldiyindən İN yanında DVX-nin İqtisadi təhlil və uçota nəzarət Baş İdarəsinin rəis müavini Namiq Dərgahov xüsusi açıqlama verməyə məcbur olub: "Fəaliyyəti dayandırılmış (VÖEN-i passiv olan) şəxslər üçün birdəfəlik ödəmənin alınmasında heç bir məhdudiyyət yoxdur. Fəaliyyətini dayandırmış, yəni VÖEN-i

[21] Prezident 190 manat alanların sayını 3 dəfə artırdı. 17.04.2020. https://banker.az/prezident-190-manat-alanlarin-sayini-3-d%C9%99f%C9%99-artirdi/

[22] www.e-sosial.az portalı çökdü. 07.04.2020. https://fed.az/az/ikt/wwwe-sosialaz-portali-cokdu-77558

passiv olan fiziki şəxslər birdəfəlik ödəmənin alınması üçün müvafiq qaydada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilərlər. Birdəfəlik ödəmələrin verilməsi üçün fiziki şəxsin adına olan passiv VÖEN-in ləğvini tələb etməyin heç bir hüquqi əsası yoxdur. Vətəndaşın VÖEN-nin olması onun avtomatik olaraq gəlir, qazanc əldə etməsi kimi başa düşülməməlidir. Bunun üçün fəaliyyət göstərmək, işləmək lazımdır. Yardım və ya ödəniş verilərkən onu almaq istəyən şəxsin hansısa sənədinin və ya nömrəsinin olub-olmaması yox, onun gəlirinin, qazancının olub-olmaması, aztəminatlı olub-olmaması əsas kimi götürülməlidir."[23]

Hətta DVX-nin rəsmi açıqlamasından sonra belə, ƏƏSMN passiv VÖEN-i olanlara imtina mesajları göndərməyə davam edib. Birdəfəlik yardımın verilməsi başlanıldıqda layihənin ekspertləri Qubad İbadoğlu və Qalib Toğrul tərəfindən sosial şəbəkələrdə və saytlarda 190 manat birdəfəlik yardım alanların siyahısının dərc olunması təklifi ilə bağlı aktiv kampaniya başlanılıb, butəklif sosial şəbəkələrdə böyük dəstək qazanıb.[24]

6 may 2020-ci ildə birdəfəlik müavinət alanların siyahısı nazirliyin saytında dərc olunub.[25] Ancaq siyahının açıqlanması da müzakirələrə son qoymayıb. Siyahıda yardımı alanlar barədə məlumatlar yarımçıq təqdim olunub və meyarlara uyğun gəlməyən onlarla şəxsin adları aşkar edilib.[26] Maraqlıdır ki, ƏƏSMN-in həyata keçirdiyi digər sosial yardımlar üzrə açıqladığı siyahılarda yardım alan şəxslərin özləri və ünvanları barədə məlumatlar tam olaraq göstərilsə də, birdəfəlik ödəmələr alan şəxslər barədə bu məlumatlar açıq şəkildə təqdim olunmayıb. Qubad İbadoğlu təklif edib ki, 190 manat alanların siyahısı yaşayış yerləri üzrə ünvanları, doğum tarixləri ilə birlikdə dərc edilməlidir. Lakin nazirlik onun bu təklifini təmin etməyib.

### Tibbi ləvazimatların və avadanlıqların idxalı ilə bağlı büdcə vəsaitlərinin xərclənməsinin izlənilməsi və şəffaflığının qiymətləndirilməsi

Prezident Əliyevin 9 aprel 2020-ci il tarixli Sərəncamı ilə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması və onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat

[23] İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İqtisadi təhlil və uçota nəzarət Baş İdarəsinin rəis müavini Namiq Dərgahovun şərhi. 23.04.2020. https://www.taxes.gov.az/az/post/1041

[24] İşsizliyə görə yardım alanların siyahısı dərc edilsin. 14.04.2020. https://www.azadliq.org/a/koronavirus-190-manat/30579443.html,https://www.azadliq.org/a/i%CC%87%C5%9Fsizliy%C9%99-g%C3%B6r%C9%99-yard%C4%B1m-alanlar%C4%B1n-siyah%C4%B1s%C4%B1-d%C9%99rc-edilsin-t%C9%99klif/30574512.html

[25] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi saytı. Birdəfəlik ödəmə ilə təmin edimiş şəxslərin siyahısı. http://sosial.gov.az/FWsiyah%C4%B1s%C4%B1/Siyahi600.pdf

[26] 190 manat alanların siyahısında şübhəli məqamlar. https://www.youtube.com/watch?v=YOyX1-wAWKE, http://ekonews.az/190-manat-alanlarin-siyahisinda-subheli-meqamlar-abasovlar-fotolar/, http://azpolitika.info/?p=590338, https://hit.az/az/read/3464/, https://www.kommersant.az/news/seconomy/24240.html

Fondundan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə 97 milyon manat ayrılıb.[27] Sərəncamda MN-ə tapşırılıb ki, nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin. Bu sərəncamda "zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü" dedikdə ölkəyə COVID-19 testini aparmağa imkan verən laboratoriyalar, testlər, kimyəvi reaktivlər, tənəffüs aparatları və sair nəzərdə tutulur.

Prezidentin Ehtiyat Fondundan əlavə, tibbi ləvazimatların əldə edilməsi məqsədilə Avropa İttifaqı da ölkəmizə maliyyə ayırıb. COVID-19 pandemiyasına görə zəruri tibbi ləvazimatların alınması üçün "Şərq Tərəfdaşlığı" ölkələrinə (Gürcüstana 183 milyon, Belarusa 60 milyon, Moldovaya 87 milyon, Ukraynaya 190 milyon, Ermənistana 92 milyon avro), o cümlədən Azərbaycana (14 milyon avro) maliyyə yardımı edib.[28]

Milli Məclis (MM) *Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu*nu qəbul etdikdən sonra prezident tərəfindən 12 avqust 2020-ci il tarixli, 1131 №-li Fərmanla təsdiq olunub.

Dəyişikliklərdən sonra nəzərdə tutulub ki, səhiyyə sahəsi üzrə əlavə tələbatın ödənilməsinə 369 milyon manat ayrılsın. Bu məbləğin içərisində koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə tibb işçilərinə verilən müddətli əlavənin maliyyələşdirilməsi, karantin nəzarətinə götürülmüş şəxslərə karantin müəssisələrində göstərilən xidmətlərə görə yaranmış xərclərin, stasionar müalicə tədbirlərinə cəlb edilmiş Tədris Cərrahiyyə Klinikasının və Tədris Terapevtik Klinikasının, Mərkəzi Neftçilər Xəstəxanasının, yeni tikilən modul tipli xəstəxanaların saxlanılması ilə yanaşı, zəruri tibb ləvazimatların, avadanlıqların və başqa ehtiyacların tədarükü xərcləri də var.[29]

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (İTS DA), o cümlədən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxsə (TƏBİB) büdcədən ayrılan vəsaitlərin xərclənməsi ilə bağlı İTS DA-nın saytında (TƏBİB-in ayrıca saytı yoxdur) heç bir informasiya yerləşdirilməyib. Zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü qanuna uyğun olaraq tender yolu ilə həyata keçirilməli, bu işi icra edib, zəruri avadanlıq və ləvazimatları ölkəyə gətirəcək şirkətin adı müvafiq prosedurdan sonra elan edilməli idi.[30]

[27] Koronavirus pandemiyasına qarşı Azərbaycan Respublikasında həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://its.gov.az/uploads/law/78/277813.pdf

[28] Leyla Əliyevanın müsahibəsi. "Dövlət səviyyəsində rəqabət hissi yoxdur" https://www.astna.biz/ext/news/2020/4/subsc/geo-europe/az/1403.htm

[29] "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsinə dair İZAHAT. file:///C:/Users/hp/Downloads/5f2486962c071.pdf

[30] "Dövlət satınalamaları haqqında" Azərbaycan Respublikası Qanunu. http://www.e-qanun.az/framework/1029

Hazırda dövlət satınalmaları elektron şəkildə www.tender.gov.az saytı vasitəsilə icra olunur. Lakin monitorinq dövründə saytda bu barədə hər hansı məlumata rast gəlinməyib. Ümumiyyətlə, internet resurslarında TƏBİB-in xərcləmələri ilə bağlı heç bir rəsmi məlumat tapılmayıb. Bunu nəzərə alaraq TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlıya sorğu ilə müraciət edilib. Sorğuda aşağıdakı sualların cavablandırılması xahiş olunurdu:

- 97 milyon manatlıq tibbi avadanlıqların və ləvazimatların alınıb ölkəyə gətirilməsi hansı şirkət tərəfindən icra olunmuşdur və həmin şirkətin seçimi necə həyata keçirilmişdir?
- Vəsait hesabına hansı ölkələrdən neçə ədəd və hansı qiymətə tibbi avadanlıqlar və ləvazimatlar alınmışdır?
- Alınan tibbi avadanlıqlar və ləvazimatlar "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki hansı tibb müəssisələrinin sərəncamına verilmişdir?
- İlk modul tipli xəstəxananın qurulmasına hansı mənbələrdən, nə qədər vəsait xərclənmişdir, işin icraçısının seçimi necə həyata keçirilmişdir və daha 9 modul tipli xəstəxananın qurulması hansı ərazilərdə, kim tərəfindən icra olunacaqdır?

Eyni mövzuda informasiya sorğusu İqtisadiyyat naziri Mikayıl Cabbarova, Səhiyyə naziri Oqtay Şirəliyevə və Maliyyə naziri Samir Şərifova da ünvanlanıb. Təəssüf ki, İqtisadiyyat Nazirliyi istisna olmaqla, digər 3 qurum sorğunu cavablandırmayıb. İqtisadiyyat Nazirliyindən daxil olan məktubda pandemiyaya qarşı mübarizə məqsədilə vəsaitin dövlət büdcəsindən MN-ə ayrıldığı və sorğunun aidiyyəti üzrə cavablandırılması üçün MN-ə və İTS DA-ya müraciət edilməsi məsləhət görülürdü.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında bildirib ki, "ölkədəki test ehtiyatı tender qaydalarına uyğun əldə edilib. Alınan bütün testlər Almaniya istehsalıdır. Testin maya dəyəri 40 manat civarındadır. Bura mütəxəssislərin əməyi daxil deyil".[31] Təəssüf ki, Bayramlı tenderin hansı şəkildə keçirilməsi, testlərin və digər ləvazimat və avadanlıqların hansı şirkət tərəfindən ölkəyə gətirilməsi haqqında danışmayıb. Bu da məsələ ətrafında müstəqil jurnalist araşdırmalarının aparılmasına və alternativ mənbələrə istinad edilməsinə səbəb olmuşdur.[32]

Tender keçirilməsə belə, ölkəyə tibbi avadanlıq və ləvazimatların gətirilməsi davam etdirilir. Baş nazir Əli Əsədov NK-nin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi

[31] Koronavirus testinin maya dəyəri açıqlanıb. https://apa.az/az/sosial_xeberler/Koronavirus-testlrinin-maya-dyri-aciqlanib-592454

[32] Ramin Bayramlıya aid klinika COVID-19 testləri edir. 24.06.2020. https://www.meydan.tv/az/article/tebib-sedri-ramin-bayramliya-aid-klinika-covid-19-testleri-edir-arasdirma/

inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib ki, "son vaxtlar 300-dən çox süni tənəffüs aparatı gətirilib. Həmçinin tibbi xidmətə müraciətlərin sayının artması nəzərə alınaraq 84 təcili tibbi yardım maşını alınaraq ölkəyə gətirilib, iyul-avqust aylarında daha 100 avtomobil gətiriləcək. Son aylar ölkədə koronavirus testi vermək üçün laboratoriyaların sayı 6-dan 30-a, gündəlik test vermək imkanı isə 1000-dən 10 000-ə çatdırılıb. Yaxın vaxtlarda isə yeni laboratoriyaların hesabına bu rəqəm 12-13 min olacaq."[33]

Koronavirus pandemiyası ilə mübarizədə iştirak edən tibb və qeyri-tibb işçilərinə ödənilən müddətli əlavələr istisna olmaqla, İTS DA-nın saytında xərcləmələrlə bağlı hər hansı məlumat yoxdur. Agentlik 2020-ci ilin iyun ayında ölkəyə ümumilikdə 41 ədəd olmaqla, 39 ədəd yeni, müasir avadanlıqlarla təchiz olunan təcili tibbi yardım avtomobili və 2 ədəd Ambulans-Perinatal gətirilməsi ilə bağlı mətbuat açıqlaması yayıb. Agentliyin saytına yerləşdirilən məlumatda onların dəyəri ilə bağlı heç bir informasiya yoxdur.[34] Agentlik idxal olunan avtomobillərin qiyməti, idxalçı şirkət və digər maliyyə məsələləri ilə bağlı mətbuat açıqlaması yaysa da, təəssüf ki, həmin press-relizi öz saytına yerləşdirməyib.[35]

### Tibbi ləvazimatların istehsalı ilə bağlı büdcə vəsaitlərinin xərclənməsi prosesində şəffaflığının qiymətləndirilməsi

Qlobal pandemiya elan edildikdən sonra Azərbaycanda bir müddət maska qıtlığı yaşanıb. Bunun aradan qaldırılması məqsədilə prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsi tapşırığı verib. Tibbi maska istehsalı üçün avadanlıq və xammalın ilk partiyası dövlət xətti ilə Türkiyədən gətirilib. *Bakı Tekstil Fabriki* tərəfindən yaradılan ilk tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində təmin edilib və ona Sənaye Parkının rezidenti statusu verilib: "İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 milyon manat güzəştli kredit verilib. Müəssisənin yaradılması üçün investisiya xərcləri 3,9 milyon manat təşkil edib."[36]

[33] Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.15.07.2020. http://www.azerbaijan-news.az/view-193478/prezident-ilham-eliyevin-sedrliyi-ile-nazirler-kabinetinin-2020-ci-ilin-birinci-yarisinin-sosial-iqtisadi-inkisafinin-yekunlarina-ve-qarsida-duran-vezifelere-hesr-olunan-iclasi-kecirilib

[34] İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəyə 41 təcili tibbi yardım avtomobili və Ambulans-Perinatal gətirilib.18.06.2020. https://its.gov.az/bloq/icbari-tibbi-sigorta-uzre-dovlet-agentliyi-terefinden-olkeye-41-tecili-tibbi-yardim-avtomobili-ve-ambulans-perinatal-getirilib

[35] Yeni alınan 41 təcili yardım maşınının qiyməti açıqlandı.09.06.2020. https://musavat.com/news/yeni-alinan-41-tecili-yardim-masininin-qiymeti-aciqlandi_711249.html

[36] İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib. 06.04.2020. http://edf.gov.az/az/news/2619

İyunun əvvəlinə olan məlumata görə, müəssisədə 4 milyondan çox tibbi maska istehsal edilib ki, bu da ölkə üzrə ümumi maska istehsalının 76%-ni təşkil edir. Qeyd edilən tarixə 2,2 milyon ədəd tibbi maska satılıb.[37] Çox təəssüf ki, müəssisənin sonrakı fəaliyyəti ilə bağlı statistik rəqəmlər açıqlanmayıb.

Mayın 12-də isə Sumqayıtda *Gilan Tekstil Park*ı tibbi maska fabriki və tikiş fabrikinin nəzdində gündəlik istehsal gücü 140 min ədəd maska istehsalı olan qoruyucu kombinezonların istehsalı müəssisəsi fəaliyyətə başlayıb: "Fabrik mərhələli şəkildə bu göstəricini 300 minə qədər artıracaq. Sumqayıt Texnologiyalar Parkı (STP) və *Smart Home* şirkəti Elektron Dezinfeksiya Tuneli istehsal edir. Dezinfeksiya Tunelinə quraşdırılan 200 litrlik məhlul ilə təqribən 6500-7000 insanın dezinfeksiya olunması mümkündür. STP-nin Elektrik Avadanlıqları Zavodu gündə 25-30 ədəd məhsul istehsal edir. Sifarişlər artdıqca istehsal həcminin də artırılması mümkündür."[38]

Göründüyü kimi tibbi ləvazimatların istehsalı ilə məşğul olan müəssisələr sənaye parklarının rezidentləridir ki, bu da onların məmur himayəsi altında fəaliyyət göstərən şirkətlər olduğunun sübutudur. Çünki belə sənaye parklarında təsadüfi müəssisələrin qeydə alınması və güzəştlərdən istifadə etməsi qeyri-mümkündür.

İlk maska istehsalçısı olan *Bakı Tekstil Fabriki*nin avadanlıqları və istehsal üçün istifadə etdiyi xammal dövlət büdcəsi hesabına xaricdən gətirilib. Ancaq rəsmi məlumatlarda özəl sektordan maska istehsalçısı kimi niyə məhz *Bakı Tekstil Fabriki*nin seçilməsi və bunun hansı meyarlar əsasında aparılması barədə bəhs edilmir. Bu, dövlət özəl-sektor tərəfdaşlığının kriteriyalarına uyğun gələn bir əməkdaşlıq formasından daha çox, monopolist şirkətlərin himayə edilməsi nümunəsinə uyğundur. Büdcə vəsaiti hesabına alınan xammalın və avadanlığın özəl sektoru təmsil edən şirkətə hansı şərtlər müqabilində verilməsi barədə də heç bir rəsmi informasiya yoxdur.

İN-in Sahibkarlığın İnkişafı Fondunun saytında[39] "Bakı Tekstil Fabriki" MMC-nin seçildiyi investisiya layihəsi barədə məlumata rast gəlinməyib. Saytda 1.2 milyonluq güzəştli kreditin verilməsi barədə də hər hansı informasiya yerləşdirilməyib. Yalnız açılış mərasimindən xəbər verilib.[40] Eyni fikirləri *Gilan Tekstil Park*ının tibbi maska fabriki və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsi barədə də səsləndirmək mümkündür.

---

[37] KİV nümayəndələri tibbi maska istehsalı prosesi ilə tanış olublar. 13.06.2020. https://economy.gov.az/article/ki-v-numayendeleri-tibbi-maska-istehsali-prosesi-ile-tanish-olublar/30982

[38] Gilan Tekstil Parkı qoruyucu kombinezonların istehsalına başlayıb. 15.06.2020. https://apa.az/az/sosial_xeberler/Gilan-Tekstil-Park-qoruyucu-kombinezonlarin-istehsalina-baslayib-tibbi-maska-istehsalina-hazirliq-gorur-colorredVIDEOcolor-581349

[39] Sahibkarlığın İnkişafı Fondunun rəsmi səhifəsi. http://edf.gov.az/

[40] İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib. 06.04.2020. http://edf.gov.az/az/news/2619

## KORONAVİRUSLA MÜBARİZƏYƏ DƏSTƏK FONDUNUN VƏ SAİTİNİN FORMALAŞDIRILMASI, ONDAN İSTİFADƏ İSTİQAMƏTLƏRİ VƏ İCTİMAİ NƏZARƏT ŞURASININ FƏALİYYƏTİNİN VƏ ŞƏFFAFLIĞIN TƏMİNATININ QİYMƏTLƏNDİRİLMƏSİ

Koronavirusla Mübarizəyə Dəstək Fondu Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılıb.[41] Fərmanda yeni növ koronavirus infeksiyasının yayılma coğrafiyasının genişlənməsinin ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri etdiyi və əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi vacibliyi vurğulanır. Həmçinin korporativ sosial məsuliyyətin, dövlət – vətəndaş birliyininin nümunəsi kimi koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması qərara alınır. Sənəddə Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi "koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək" şəklində ifadə olunub.

Fərmanla *Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası* da təsdiq olunub.[42] Qaydaya uyğun olaraq Fondun vəsaitinin sərəncamçısı NK-dir. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır: Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti; fiziki və hüquqi şəxslərin könüllü ödəmələri; qanunla qadağan olunmayan digər mənbələr.

Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyində xüsusi xəzinə hesabı açılıb. Fondun vəsaitindən koronavirusla mübarizə üzrə aşağıdakı istiqamətlərdə istifadə olunması nəzərdə tutulur:

1. tibb sahəsində çalışan işçilərin mükafatlandırılmasına və onlara maddi yardım göstərilməsinə;
2. tibb müəssisələrinin infrastrukturunun təkmilləşdirilməsinə və maddi-texniki bazasının gücləndirilməsinə (o cümlədən texnoloji qurğuların, cihazların, avadanlığın, nəqliyyat vasitələrinin, mal və materialların, habelə digər tibbi ləvazimatın alınmasına);

[41] "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Fərmanı. https://president.az/articles/36216

[42] Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir https://president.az/articles/36217

3. xüsusi rejimli tibb müəssisələrinin formalaşdırılmasına;
4. nəzarət və monitorinqlərin təşkilinə və həyata keçirilməsinə;
5. tibb sahəsində elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə;
6. tibb sahəsində mütəxəssislərin hazırlanmasına;
7. təbliğat və maarifləndirmə işlərinə;
8. koronavirusla mübarizə istiqamətində həyata keçirilən digər tədbirlərə.

Fondun vəsaitindən istifadə yuxarıda qeyd olunan xərc istiqamətlərinə uyğun olaraq, NK-nin müəyyən etdiyi gəlir və xərclər smetası əsasında həyata keçiriləcək. Fondun fəaliyyət müddəti ilkin olaraq 2020-ci il dekabrın 31-dək olan dövrü əhatə edir. Ancaq bu müddət prezident tərəfindən uzadıla bilər. Qaydaya görə, Fondun fəaliyyəti başa çatdıqdan sonra xüsusi xəzinə hesabında xərclənməmiş vəsait qalarsa, həmin məbləğ ya qeyd olunan xərc istiqamətlərinin maliyyələşdirilməsinə yönəldilir, ya da dövlət büdcəsinə qaytarılır. Fondun vəsaitinin formalaşdırılması ilə bağlı valyuta məhdudiyyəti yoxdur, ianələrin Azərbaycan manatı və xarici valyutalarla edilməsi mümkündür.

Baş nazir Əli Əsədovun sərəncamı[43] ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunda toplanmış vəsaitdən istifadə zamanı şəffaflığın təmin edilməsi və vəsaitdən istifadə barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında ictimaiyyəti təmsil edən 5 və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahı təmsil edən 2 nümayəndə daxil olmaqla, 7 üzvdən ibarət aşağıdakı tərkibdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurası yaradılıb:

1. Ziyad Səmədzadə – AMEA-nın həqiqi üzvü, Azərbaycan İqtisadçılar İttifaqının sədri
2. Şəfiqə Məmmədova –Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri
3. Fərhad Bədəlbəyli – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru
4. Gəray Gəraybəyli – Azərbaycan Tibb Universitetinin rektoru
5. Zemfira Meftahəddinova – Olimpiya çempionu, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü
6. Aydın İsayev –Maliyyə Nazirliyi Aparatının Vergi siyasəti və gəlirlər şöbəsi müdirinin müavini – sektor müdiri

[43] Baş nazirin "Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitindən səmərəli istifadə ilə bağlı tədbirlər haqqında" 11 aprel 2020-ci il tarixli sərəncamı. https://nk.gov.az/az/document/4379/

7. Rasim İsmayılov –İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Maliyyə Baş İdarəsi rəisinin müavini.

Şura Fondun vəsaiti hesabına prezidentin 2020-ci il 19 mart tarixli, 963 nömrəli Fərmanı ilə təsdiq edilmiş *Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası*nın 2.7-ci bəndində nəzərdə tutulan xərc istiqamətləri üzrə daxil olan sifarişləri 2 iş günü ərzində təsdiq edir və buna dair müvafiq Protokolu satınalan təşkilata göndərir.

Sərəncama uyğun olaraq Şura Fondu vəsaitinin istifadəsi barədə ayda iki dəfə "http://covid19fund.gov.az/az/" saytında məlumat dərc etməlidir.

11 sentyabr 2020-ci il tarixinə Fonda 3381 hüquqi şəxsin və 12298 fiziki şəxsin ianələri hesabına 114.196.675 manat vəsait köçürülüb.

Bu günədək Şuranın bir iclası keçirilib. NK-nın yaydığı rəsmi press-relizə görə, mayın 5-də baş tutan iclasda Fondun fəaliyyəti, toplanmış maliyyə vəsaitlərinin təyinatı üzrə istifadəsi zamanı şəffaflıq və hesabatlılıq məsələləri müzakirə olunub.[44] Bildirilib ki, ianələrin məbləğindən və ödənişi həyata keçirənin sosial statusundan asılı olmayaraq, Fonda köçürülən vəsaitlər haqqında məlumat ictimaiyyətə açıqdır və gündəlik olaraq rəsmi internet saytında yerləşdirilir. İndiyədək Fonda toplanmış vəsaitlərdən hər hansı formada istifadə edilməyib.

Fondun idarə olunması ilə bağlı qanunvericilik aktlarından göründüyü kimi toplanan vəsaitlərlə bağlı əsas sərəncamverici orqan Şuradır. Dövlət qurumları qanunvericiliklə nəzərdə tutulan xərc istiqamətləri üzrə satınalma həyata keçirmək üçün sifarişləri Şuraya təqdim etməlidir. Əgər Şura sadə səs çoxluğu ilə sifarişi təsdiq edərsə, o zaman iclasın protokolu satınalan dövlət qurumuna göndəriləcək. Fondun vəsaitlərindən istifadədə sifarişlərin qanunvericilikdə nəzərdə tutulan təsdiqetmə prosedurunun formal olmaması üçün Şuranın ictimaiyyəti təmsil edən 5 üzvünün müstəqil vətəndaş cəmiyyəti nümayəndələrindən formalaşdırlması daha doğru olardı.

Ziyad Səmədzadə, Şəfiqə Məmmədova və Zemfira Meftahəddinova kimi kağız üzərində ictimai təşkilat hesab edilən, bununla belə, əslində, müstəqillikdən uzaq, dövlət büdcəsi hesabına maliyyələşən qurumların rəhbərlərinin, eyni zamanda, ictimai vəsaitlərin xərclənməsinə nəzarət sahəsində heç biri təcrübəsi olmayan rektorların – Fərhad Bədəlbəyli və Gəray Gəraybəylinin dövlət təşkilatlarından daxil olan sifarişləri araşdırmaq üçün nə həvəsləri, nə təcrübələri, nə də müstəqillikləri yetərlidir. Yaxşı olardı ki, Şuraya müstəqil vətəndaş cəmiyyətini təmsil edən, ictimai vəsaitlərin xərclənməsinə nəzarət sahəsində çoxillik təcrübəsi olan qeyri-hökumət təşki-

[44] Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının ilk iclası keçirilib. 05 may 2020. https://nk.gov.az/az/article/837/

latlarından nümayəndələr daxil edilsin. Bu, Şuranın qərarlarının mötəbərliyinə və müstəqilliyinə, vəsaitlərin təyinatı üzrə səmərəli xərclənəcəyinə ictimaiyyətdə inam yaradardı.

Fondun vəsaitlərinin idarə olunması ilə bağlı digər bir təhlükəli məqam satınalmanın tender yolu ilə deyil, Şuranın təsdiq etdiyi sifarişlərə uyğun olaraq, satınalma müqavilələri əsasında bir mənbədən satınalma metodundan istifadə olunaraq həyata keçirilməsidir.

*"Dövlət satınalmaları haqqında" qanun*un 50-ci maddəsinə uyğun olaraq satınalan təşkilat təklifi və qiymət kotirovkasını cəlb etmək yolu ilə malları (işləri və xidmətləri) bir malgöndərəndən (podratçıdan) satın ala bilər.[45] Malgöndərən (podratçı) tərəfindən təklif edilən malların (işlərin və xidmətlərin) qiymətlərinin müəyyənləşdirilməsi məqsədi ilə satınalan təşkilat bu qanunun 27-ci maddəsinə və "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətlərinin hesablanması üsulları"nın təsdiq edilməsi haqqında NK-nın qərarına[46] uyğun olaraq onların ehtimal olunan qiymətini hesablayır.

Qanunvericiliklə bir mənbədən satınalma üsulundan istifadə ilə bağlı konkret hallar nəzərdə tutulub. Belə hallara satın alınan malların yalnız bir malgöndərəndə olması, malların əvəzedicisinin olmaması, satın alınmanın təcili həyata keçirilməsi, fövqəladə hallarla əlaqədar həmin mallara təcili tələbatın yaranması aiddir.

Qanunvericiliklə bir mənbədən satınalma üsulunu tətbiq etmək üçün sifarişçi dövlət qurumu İN-dən icazə almalıdır. İN-nin son vaxtlardakı fəaliyyəti nazirliyin şəffaflıq və hesabatlılıqla bağlı tələblərə əməl edəcəyinə, sifarişlərə öyrənilərək icazə veriləcəyinə müəyyən ümidlər yaradır. Ancaq bütün hallarda bir mənbədən satınalmaya ancaq zəruri hallarda gedilməsi daha doğru olardı. Çünki qeyd olunan satınalma üsulunda malların ehtimal olunan qiymətlərindən istifadə olunması malların dəyərinin süni şəkildə şişirdilməsinə, son nəticədə özəl sektorun və ictimaiyyətin ianələri hesabına formalaşmış Fondun vəsaitlərdən istifadənin səmərəsizliyinə gətirib çıxara bilər.

## NƏTİCƏLƏR

Pandemiyaya qarşı mübarizə və onun aztəminatlı ailələrə, əhalinin gəlirlərinə və iqtisadiyyata (xüsusilə özəl sektora) mənfi təsirlərinin minimumlaşdırılması məqsədilə dövlət büdcəsindən xərcləmələrin monitorinqi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

[45] 27 dekabr 2001-ci il tarixli, 245-IIQ №-li "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu. http://www.e-qanun.az/framework/1029

[46] "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətlərinin hesablanması üsulları"nın təsdiq edilməsi haqqında NK-nın 18 mart 2019-cu il, 106 №-li qərarı. https://nk.gov.az/az/document/3529/print/

1. İN istisna olmaqla, digər dövlət qurumları koronavirusla mübarizə məqsədilə ayrılmış büdcə vəsaitlərinin şəffaf xərclənməsini həyata keçirməyib;
2. Fərdi (mikro) sahibkarlara verilən dəstəyin maksimum məbləğinin hesablanması mexanizmi İN tərəfindən açıqlanmayıb;
3. Büdcə vəsaitlərinin xərclənməsi istiqamətləri ilə bağlı ictimai açıq informasiyalar dövlət qurumlarının saytında yerləşdirilməyib;
4. Dövlət qurumlarının büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı hesabatlılığı aşağı səviyyədədir;
5. Həyata keçirilən dəstək tədbirləri inklüziv deyil, pandemiyadan zərər çəkmiş özəl sektoru və aztəminatlı ailələri tam əhatə etməyib;
6. ƏƏSMN tərəfindən 190 manatlıq birdəfəlik ödəmənin verilməsi zamanı NK tərəfindən qəbul olunmuş meyarlar kobud şəkildə pozulub, əsasən də qaydalara zidd olaraq passiv VÖEN-i olanların müraciətlərinə kütləvi şəkildə imtina verilib, yardımı almaq hüququ olan şəxslərin əksəriyyəti nazirlik rəsmiləri tərəfindən gətirilən əsassız bəhanələrlə bu prosesdən kənarda qalıb. Eyni zamanda, yardımı almağa  hüququ olmayan bəzi şəxslər bundan faydalanıblar;
7. Dövlət vəsaitlərinin xərclənməsi prosesinə ictimai nəzarət təmin olunmayıb, ictimai iştirakçılıq yox səviyyəsindədir;
8. Mərkəzi icra hakimiyyəti orqanları yanında mövcud ictimai şuralar fəaliyyətsizdir. Xüsusilə də ƏƏSMN yanında ictimai şura 190 manatlıq birdəfəlik ödəmənin verilməsi zamanı yaranan narazılıqlara heç bir reaksiya verməyib, prosesin şəffaf həyata keçirilməsi istiqamətində hər hansı təşəbbüs göstərməyib;
9. Tenderlər ya keçirilmir, ya da “Satınalmalar haqqında” Azərbaycan Respublikası qanununun tələblərinə müvafiq icra edilmir. Bu, xüsusilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (o cümlədən TƏBİB-in) fəaliyyətində daha bariz şəkildə müşahidə olunub.
10. Dövlət qurumları ictimai əhəmiyyətli açıq məlumatlarla bağlı informasiya sorğularını cavablandırmamaqla “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini kobud şəkildə pozublar;
11. İN-nin saytında tibbi ləvazimatların istehsalı ilə əlaqədar keçirilmiş investisiya müsabiqəsi barədə məlumat yerləşdirilməyib.
12. Koronavirusla Mübarizəyə Dəstək Fondunda toplanmış vəsaitdən istifadə zamanı şəffaflığın təmin edilməsi və vəsaitdən istifadə barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə yaradılmış İctimai Nəzarət Şurasının tərkibində ictimai sektorun təmsilçisi yoxdur. İctimaiyyəti təmsil etdiyi qeyd olunan 5 üzvün hamısı büdcədən maliyyələşən təşkilatların rəhbərləridir.

## TƏKLİFLƏR

1. Dövlət qurumlarının hesabatlılığı ilə bağlı standartlar hazırlansın. Standartlarda ictimai vəsaitlərin xərclənməsi sahəsində hesabatın verilməsinə xüsusi tələblər müəyyənləşdirilsin;
2. İctimai əhəmiyyətli, açıq informasiyaların dövlət qurumlarının saytına yerləşdirilməsinə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu tərəfindən nəzarət gücləndirilsin. Bununla bağlı Ombudsman aparatı tərəfindən mütəmadi monitorinqlər aparılsın və nəticələri ictimaiyyətə açıqlansın;
3. İctimai iştirakçılığın xüsusi forması olan, dövlət qurumları yanında fəaliyyət göstərən ictimai şuraların yenidən, şəffaf seçki yolu ilə formalaşdırılması təmin edilsin;
4. Azərbaycan Respublikası Prezidentinin "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli, 816-IVQ nömrəli Qanununun tətbiqi barədə Fərmanının 1.1.2. bəndinin tələbləri (Qanunun pozulmasına görə inzibati məsuliyyəti müəyyən edən qanun layihəsini hazırlanması) təmin edilsin;
5. Fəaliyyətinə ictimai nəzarət ediləcək mərkəzi icra hakimiyyəti orqanlarının siyahısının təsdiq edilməsi barədə qanunvericiliyin tələbləri yerinə yetirilsin[47];
6. İctimai şuraların və vətəndaş cəmiyyəti institutlarının dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, qərarların qəbulunda, mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində iştirakına imkan yaradılsın;
7. Pandemiyaya ilə mübarizə sahəsində ayrılmış vəsaitlərin xərclənməsinin bu sahədə ixtisaslaşmış QHT-lər tərəfindən monitorinq edilərək qiymətləndirilməsi üçün QHT-lərə Dövlət Dəstəyi Şurasından vəsaitin ayrılması təmin edilsin;
8. Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitlərinin xərclənməsi sahəsində şəffaflığı təmin etmək üçün Fondun İctimai Nəzarət Şurasının tərkibinə yenidən baxılsın, tanınmış vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin Şurada təmsil olunması təmin edilsin;
9. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (o cümlədən TƏBİB-in) satınalmalarında şəffaflıq təmin edilsin;
10. Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitlərinin xərclənməsi bir mənbədən satınalma üsulu ilə deyil, tender yolu ilə həyata keçirilməsinin təmin edilməsi üçün NK-nın qaydalarında müvafiq dəyişikliklər edilsin.

[47] "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli, 816-IVQ nömrəli qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il tarixli, 89 № -li Fərmanı. http://e-qanun.gov.az/framework/27044

# MONITORING REPORT ON THE TRANSPARENT SPENDING OF ALLOCATIONS FROM THE STATE BUDGET AND THE CORONAVIRUS RESPONSE FUND IN THE RESPONSE TO COVID-19

Prof. Dr. Gubad Ibadoghlu, Rajab Imanov, Galib Toghrul

## OVERVIEW

This monitoring report examines the spending of public funds allocated for the fight against coronavirus and monitors the level of transparency and accountability of government agencies in the Republic of Azerbaijan since COVID-19 was declared a global pandemic by the World Health Organization.

In accordance with the President of the Republic of Azerbaijan's March 19, 2020 order, "On several measures to reduce the negative impacts of the Coronavirus (COVID-19) pandemic, and of the accompanying sharp fluctuations in world energy and stock markets, on the economy, macroeconomic stability, employment, and businesses of the Republic of Azerbaijan," separate studies and transparency assessments of spending were carried out on each focus area identified by the Action Plan, which had been formulated and approved by the Cabinet of Ministers based on the proposals of 4 working groups.

This report makes detailed assessments of expenditures, as well as of the actions (or inaction) of state agencies on the matter of efficient and transparent spending in the targeted areas which were allocated funds from the state budget — 1) the provision of state guarantees on bank loans to businesses operating in sectors affected by the coronavirus pandemic, and subsidizing interest rates on new loans and on existing loan portfolios, 2) the partial payment of employee salaries in sectors affected by the pandemic, 3) pandemic-related state financial support for individual (micro) entrepreneurs, and 4) state support for low-income families and the unemployed.

The report also covers the establishment of the Coronavirus Response Fund, the procurement and expenditure of funds, the Fund's accountability requirements, the principles of the establishment of a Public Oversight Board to oversee expenditures, the powers and independence of the Board, the approval of orders from government agencies, the shortcomings of single-source procurement, and the risks of the method for determining the probable prices of goods.

At the end of the report, the results of monitoring have been summarized, the findings listed, and proposals based on the results presented for submission to gov-

2. to improve the infrastructure and strengthen the material and technical resources of medical institutions (including the purchase of technological appliances, devices, equipment, vehicles, goods and materials, as well as other medical supplies);
3. to establish special regime medical institutions;
4. for the organization and implementation of oversight and monitoring;
5. to finance scientific research in the field of medicine;
6. to train specialists in the field of medicine;
7. for informational and awareness-raising activities;
8. for other measures taken to combat coronavirus.

The Fund's reserves will be used in accordance with the above-mentioned focus areas of expenditure and on the basis of income and expenditure estimates determined by the CM. The Fund will be in operation until December 31, 2020, but this period may be extended by the President. As a rule, if unspent funds remain in the special treasury account after the Fund's operations have ceased, this amount is either used to finance the abovementioned focus areas of expenditure or returned to the state budget. There are no currenacy restrictions on the procurement of funds — donations can be made in Azerbaijani manats or foreign currencies.

In order to ensure transparency in the use of reserves collected by the Coronavirus Support Fund and to regularly inform the public about the use of funds, by an order[43] of Prime Minister Ali Asadov a Public Oversight Board of the Coronavirus Response Fund was established under the auspices of the CM, including 5 representatives of the public and 2 representatives of the Operational Headquarters under the auspices of the Cabinet of Ministers of the Azerbaijan RepublicThe members of the Public Oversight Board are as follows:

1. Ziyad Samadzadeh - full member of the Azerbaijan National Academy of Sciences, chairman of the Economists Union of Azerbaijan
2. Shafiga Mammadova - Chairman of the Filmmakers Union of Azerbaijan
3. Farhad Badalbeyli - Rector of the Uzeyir Hajibayli Baku Music Academy

[43] Order of the Prime Minister "On measures for the effective use of reserves of the Coronavirus Response Fund" dated April 11, 2020. https://nk.gov.az/az/document/4379/

4. Garay Garaybayli - Rector of Azerbaijan Medical University
5. Zemfira Meftahaddinova - Olympic champion, member of the Executive Committee of the National Olympic Committee
6. Aydin Isayev - Deputy Head of the Tax Policy and Revenue Department of the Ministry of Finance - Head of Sector
7. Rasim Ismayilov — Deputy Head of the Main Finance Department of the State Tax Service under the auspices of the Ministry of the Economy.

Within 2 working days, the Council approves requests for the Fund's resources in the focus areas of expenditure cited in clause 2.7 of the *Procedure for the procurement, management, and use of the finances of the Coronavirus Support Fund*, approved by Presidential Decree № 963 of March 19, 2020, and sends a relevant Protocol to the procuring entity.

According to the PM's order, the Board must publish data on the use of the Fund's reserves twice a month on the website http://covid19fund.gov.az/az/.

As of September 11, 2020, donations totaling 114,196,675 AZN had been transferred to the Fund from 3,381 legal entities and 12,298 individuals.

To date, the Board has held one meeting. According to an official CM press release, the meeting, held on May 5, discussed the Fund's activities, as well as transparency and accountability in the proper use of the funds collected.[44] It was announced that data about the money transferred to the Fund is open to the public and posted daily on the official website, regardless of the amount of the donations and the social status of the donor. So far, the money collected by the Fund has not been used in any way.

As can be seen from the legislation on the management of the Fund, the main body managing the finances is the Board. Government agencies must submit orders to the Board for procurement in the focus areas of expenditure provided by law. If the Board approves the order by a simple majority, then the minutes of the meeting will be sent to the procuring state agency. To ensure that the procedure for the approval of orders for the use of the Fund's reserves is not merely a rubber stamp, it would be better to choose persons representing independent organizations as the 5 members of the public serving on the Council.

Ziyad Samadzadeh, Shafiga Mammadova, and Zemfira Meftahaddinova are rectors of organizations which are considered public only on paper, but which in reality are far from independent and funded by the state. At the same time, they have no experience in the field of the oversight of public spending. Farhad Badalbayli and

[44] The Public Oversight Board of the Coronavirus Response Fund held its first meeting. May 5, 2020. https://nk.gov.az/az/article/837/

Garay Garaybayli have neither the desire, nor the experience, nor the independence required to investigate orders from government agencies. It would be good if the Board included civil society representatives from non-governmental organizations with extensive experience in monitoring public spending. This would create public confidence in the validity and independence of the Board's decisions and in the efficient use of funds.

Another dangerous aspect of the Fund's asset management is that procurement is carried out through a single-source procurement method based on procurement contracts in accordance with orders approved by the Council, rather than through tenders.

In accordance with Article 50 of the *Law on Public Procurement*, the procuring entity may purchase goods (works and services) from a consignor (contractor) by attracting bids and quotations.[45] In order to determine the prices of goods (works and services) offered by the consignor (contractor), the procuring entity calculates the probable value in accordance with Article 27 of this Law and the decision of the CM on the approval of "The methods for calculating the probable prices of goods (works and services)."

The legislation provides for the use of single-source procurement in specific cases. Such cases include the availability of the purchased goods from only one consignor, the absence of a substitute for the goods, the urgency of the purchase, or an urgent need for these goods due to an emergency.

In order to implement the single-source procurement method by law, the procuring state agency must obtain permission from the MoE. The recent activities of the MoE raise some hopes that the ministry will comply with the requirements for transparency and accountability, and that orders will be studied and approved. But in any case, it would be better to buy from a single source only when absolutely necessary. The use of probable prices for goods in this procurement method can artificially inflate the value of the goods, and ultimately lead to the inefficiency of the use of the Fund's reserves, raised through donations from the private sector and the public.

## CONCLUSION

A monitoring of state budget expenditures made in response to the pandemic in order to minimize its negative impact on low-income families, incomes, and the economy (especially the private sector) leads to the following conclusions:

1. With the exception of the MoE, other government agencies did not spend state funds allocated for the fight against coronavirus in a transparent manner;

[45] Law of the Republic of Azerbaijan "On Public Procurement" № 245-IIQ of December 27, 2001. http://www.e-qanun.az/framework/1029

2. The mechanism for calculating the maximum amount of support provided to individual (micro) entrepreneurs has not been disclosed by the MoE;
3. Public data on the expenditure of state funds has not been posted on the websites of government agencies;
4. The accountability of government agencies for the expenditure of state funds is low;
5. The support measures implemented are not inclusive and do not fully cover the private sector and low-income families affected by the pandemic;
6. The MLSPP grossly violated the criteria adopted by the CM in issuing lump-sum payments of 190 AZN, in particular, by rejecting en masse the appeals of those with inactive TINs, and excluding from the process most of those eligible for assistance on groundless pretexts. At the same time, some people benefited who were not eligible for assistance;
7. Public control over the process of public spending has not been established, and public participation is non-existent;
8. Existing public boards under the auspices of central executive authorities are inactive. In particular, the public board under the auspices of the MLSPP did not react to the dissatisfaction caused by the 190 AZN lump-sum payment process, and did not take any initiative to make it transparent;
9. Tenders are either not held or are not implemented in accordance with the requirements of the law of the Republic of Azerbaijan “On Procurement.” This is especially evident in the activities of the State Agency for Compulsory Medical Insurance (including MTUMA);
10. Government agencies grossly violated the requirements of the Law of the Republic of Azerbaijan “On Access to Information” by not responding to information requests related to open data of public significance;
11. No information is available on the investment competition held in connection with the production of medical supplies on the website of the MoE;
12. There is no public sector representative on the Public Oversight Board, which was established to ensure transparency in the use of funds collected by the Coronavirus Response Fund and to regularly inform the public about the use of funds. All 5 members representing the public are heads of state-funded organizations.

## RECOMMENDATIONS

1. Develop standards for the accountability of government agencies. The standards should define special requirements for reporting in the field of public spending;
2. Strengthen the control of the Commissioner for Human Rights (Ombudsman) over the posting of public information on the websites of government agencies. In this regard, the Ombudsman's Office should conduct regular monitoring and make the results public;
3. Ensure the re-establishment through transparent elections of public boards as a special form of public participation operating under the auspices of government agencies;
4. Fulfill the requirements of clause 1.1.2. of the Decree of the President of the Republic of Azerbaijan On the Application of the Law of the Republic of Azerbaijan № 816-IVQ "On Public Participation" dated November 22, 2013 (preparation of a draft law establishing administrative liability for violation of the law);
5. Comply with the requirements of the legislation on the approval of the list of central executive bodies whose activities will be subject to public control;[46]
6. Create opportunities for the participation of public boards and civil society institutions in the preparation and implementation of state policy, decision-making, and the organization of public control over the activities of central executive bodies;
7. Ensure the allocation of funds from the Council of State Support to NGOs for the monitoring and evaluation, by NGOs specializing in this field, of the expenditure of funds allocated in the field of pandemic control;
8. To ensure transparency in the spending of the Coronavirus Support Fund's reserves, review the composition of the Fund's Public Oversight Board to ensure that representatives of well-known civil society institutions are represented on the Board;
9. Ensure transparency in the procurements made by the State Agency for Compulsory Medical Insurance (including MTUMA);
10. Make relevant changes to the CM's rules to ensure that the spending of the Coronavirus Response Fund is carried out through a tender, rather than through a single source.

[46] Decree № 89 of the President of the Republic of Azerbaijan dated January 16, 2014 "On the application of the Law of the Republic of Azerbaijan № 816-IVQ dated November 22, 2013 'On public participation.'" http://e-qanun.gov.az/framework/27044

# COVID-19 PANDEMİYASI İLƏ ƏLAQƏDAR AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ VƏ SİYASİ AZADLIQLARIN MONİTORİNQ HESABATI

Jalə Bayramova, Leyla Həsənova

## GİRİŞ

Bütün dünyanı təsiri altına alan koronavirus pandemiya dövründə Azərbaycanda sosial, siyasi, iqtisadi problemlərlə yanaşı, siyasi fəallara qarşı münasibətdə, jurnalistlərin informasiya əldə etmə imkanlarında və hüququn icrasında fərdlərin mənsubiyyətinə görə ayrı-seçkilik qoyulub. Eyni zamanda, informasiya azadlığını məhdudlaşdırmaq və pandemiyanın yayılmasına səbəb olanları cəzalandırmaq məqsədi daşıyan yeni qanunlara əlavələr qəbul edilib. Karantin dövründə siyasi fəallara qarşı repressiya və onların təcrid olunması tendensiyası özünü göstərib və həssas qrupları əhatə edən heç bir inklüziv proqram irəli sürülməyib.

Bu hesabat əsasən mətbuatda dərc edilən məqalə və xəbərlər, dövlət qurumları və qeyri-hökumət təşkilatlarından əldə olunmuş məlumatlar, sorğu və ictimai fəallardan alınmış müsahibələr əsasında hazırlanıb. Həmçinin COVID-19 pandemiyasına qarşı hökumətin həyata keçirdiyi tədbirlərin hüquqi bazasını təşkil edən qanunlar və onlarda icra səviyyəsi araşdırılıb. Eləcə də insan haqları hüquqşünası və 2 fiziki məhdudiyyətli aktivistə müraciət edilib.

Hesabatda əvvəl COVID-19 karantin dövründə siyasi fəallar, jurnalistlər və ümumilikdə vətəndaşların təməl hüquq və azadlıqlarının legitim olmayan məqsədlərlə məhdudlaşdırılması və karantinin həssas qruplara təsirləri haqqında ümumi mənzərə verilib. Eyni zamanda, karantin müddətində informasiya azadlığı, jurnalist fəaliyyətinin dəyərləndirilməsi, vətəndaşların siyasi iştirakçılığı, onların siyasi kimliklərinə görə ayrı-seçkilik, siyasi partiya üzvlərinin yaşadıqları məhdudiyyətlər, qanuna edilmiş yeni dəyişikliklərin analiz olunması, eləcə də dövlətin həssas qruplar üçün həyata keçirdiyi proqramlar və alınan tədbirlərin effektivliyi qiymətləndirilir.

## HÜQUQİ DƏYİŞİKLİKLƏR

17 mart 2020-ci ildə İnzibati Xətalar Məcəlləsinə[1] və Cinayət Məcəlləsinə[2] yeni epidemiya ilə əlaqədar maddələr əlavə olunub. İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinə və Cinayət Məcəlləsinin 139.1-ci maddəsinə əsasən epidemiya əleyhinə

[1] İnzibati Xətalar Məcəlləsinə əlavələr, 27-VİQD, 17 mart 2020-ci il. http://e-qanun.az/framework/44785

[2] Cinayət Məcəlləsinə əlavələr, 28-VİQD, 17 mart 2020-ci il http://e-qanun.az/framework/44784

rejimin, sanitariya və karantin rejimlərinin pozulmasına görə sanksiyalar nəzərdə tutulub. Bu yeni əlavə edilən normalar koronavirus pandemiyası dövründə tətbiq edilən xüsusi karantin qaydalarının pozulması zamanı vətəndaşların inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi məqsədi daşıyır. Lakin karantinin pozulmasına görə sanksiya kimi həbs cəzasından istifadə etmək BMT və Avropa Şurasının ekspertlərinin tövsiyələrinə ziddir.[3] Hüquqların həddindən artıq məhdudlaşdırılması və daha sonra qəbul edilən icazə sistemləri vətəndaşların hərəkət etmə hüquqlarını kobud şəkildə pozur. Həmçinin bu maddələr müxtəlif siyasi liderlər və hüquqşünaslar tərəfindən tənqid olundu, çünki qəbul edilən maddələrin legitim əsasla deyil, siyasi fəalları cəzalandırmaq məqsədi ilə icra olunacağı hesab edilirdi. *Human Rights Watch* bildirdi ki, insanların karantin rejiminin pozulmasına görə həbsi məhbusların sayını artıraraq virusun yayılmasını sürətləndirə bilər.[4]

17 mart 2020-ci il tarixində Cinayət və İnzibati Xətalar Məcəlləsi ilə yanaşı, İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında *qanun*a da dəyişiklik əlavə olundu.[5] Bu dəyişikliyə əsasən həmin qanunun 13-2.3 və 13-4-cü maddəsinin mətninə "informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçiləri" sözləri əlavə olunaraq qanunda göstərilən məsuliyyətlər sosial şəbəkə istifadəçilərinə də şamil edilir. Hüquqşünaslar bu qanunda da baş verən dəyişikliklərin əsas məqsədinin siyasi fəalları cəzalandırmaq olduğunu düşünürlər. Məsələn, Ələsgər Məmmədli bildirdi ki, legitim məqsədlə paylaşılacaq məlumatların məhdudlaşdırılması normaldır, lakin problem ondadır ki, məhdudiyyət gətirildikdən sonra onun icrasının tapşırıldığı qurumların bu sahədə peşəkarlığı yoxdur və əvvəlki qanuna əsasən bloklanan saytlar məhz hökuməti narahat edən məlumatlar yaydıqları üçün bloklanıb. Bundan əlavə, Xalid Bağırov hesab edirdi ki, edilən dəyişikliklər hakimiyyətin müdaxilə imkanlarının dairəsini genişləndirir və bu imkanın hakimiyyət tərəfindən ölçüsüz və spekulyativ şəkildə istifadə olunmayacağına zəmanət yoxdur. Xalid Ağaliyev isə bildirdi ki, Azərbaycan hökumətinin ifadə azadlığını qorumadığını nəzərə alsaq, baş verən dəyişikliklər ictimai maraqlar baxımından faydalı deyil. Həmçinin sözügedən hüquqşünaslar vurğulayırdılar ki, sosial şəbəkə və saytlarda yayılan çaşdırıcı məlumatların əsas səbəbi elə hakimiyyətin özünün insanlara açıq olmaması, xalqla təmasdan qaçması və həqiqəti yetərincə paylaşmamasıdır.[6]

[3] Human Rights Watch, 2020. Azərbaycan Pandemiya Dövründə Repressiya, 26 iyun. https://www.hrw.org/az/news/2020/06/26/340900

[4] Turan, 2020. Bakı müxalifətçilərin təqibi üçün pandemiyadan istifadə edir. Turan.az, 16 aprel. http://www.turan.az/ext/news/2020/4/free/politics%20news/az/123256.htm

[5] İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın Mühafizəsi haqqında qanuna dəyişiklik. 30-VİQD saylı, 17 mart 2020 http://e-qanun.az/framework/44788

[6] Meydan, 2020. Xalid Ağaliyev: "Son dəyişiklər ifadə azadlığı qanunlarını sərtləşdirmək siyasətinin davamıdır" Meydan, 18 mart https://d9mc3ts4czbpr.cloudfront.net/en/article/xalid-agaliyev-son-deyisiklikler-ifade-azadligi-qanunlarini-sertlesdirmek-siyasetinin-davamidir/

Bu hesabatda göstərilən misallarda da müşahidə etmək olar ki, baş verən dəyişiklik müəyyən şəxsləri cəzalandırmaq və susdurmaq məqsədi daşıyırdı. Buna görə də edilən dəyişiklər məqsədinə uyğun olaraq ifadə azadlığının məhdudlaşdırılması kimi qiymətləndirilə bilər.

## CƏRİMƏLƏRİN HESABLANMASI VƏ KARANTİN REJİMİNİN TƏTBİQİ

Dövlət orqanları sorğulara cavab vermədiyi üçün yalnız mətbuatdakı monitorinqə əsaslanan hallar analiz edilib. “Meydan TV”, “Azadlıq radiosu”, “Amerikanın səsi” və “BBC” internet media qurumlarında karantin dövrünə dair hadisələri monitorinq etdikdə bir çox vətəndaşların pandemiya zamanı karantin rejiminin pozulmasına görə cərimələnməsi və ya saxlanılması təcrübəsi ilə rastlaşmaq mümkündür. Ümumilikdə dövlət orqanları tərəfindən açıq paylaşılan məlumata baxdıqda aprel ayının 1-dən may ayının 9-dək Dövlət Yol Polisi tərəfindən avtomobil yollarında xüsusi karantin rejiminin pozulması səbəb ilə 50,174 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib. Daha sonra isə 6 iyun 2020-ci il tarixindən 10 avqust tarixinə kimi 39,034 hərəkət iştirakçısı İnzibati Xətalar Məcəlləsinin yeni əlavə edilən 211-ci maddəsinə (karantin rejiminin pozulması) əsasən məsuliyyətə cəlb olunublar. Ayrı-ayrı şəhərlərlə bağlı inzibati məsuliyyətə cəlb edilmə sayını öyrənmək üçün göndərilən informasiya sorğularına cavab almaq mümkün olmayıb. Bakı şəhər Baş Polis İdarəsinin paylaşdığı məlumatlar isə daimi olmadığı üçün yekun rəqəm barədə qərara gəlmək mümkün deyil. Lakin karantin dövründə gün ərzində orta hesabla 200 nəfərdən çox vətəndaş cərimələnib. Bəzi günlərdə isə bu say 1000 nəfəri keçib.

Karantin qaydalarını pozan bəzi vətəndaşlar, bu kimi halların ilk dəfə baş verdiyi və ciddi fəsadlar yarada bilmədiyi üçün öncə xəbərdarlıq edilməli olduğu halda nəinki cərimələnib, həmçinin polis tərəfindən zorakılığa məruz qalıblar. Bakı şəhərində sərt karantin rejiminin tətbiq edildiyi 6-7 iyul tarixlərində vətəndaşların zibil atmaq kimi vacib ehtiyaclarına görə qeydiyyatda olduğu ünvanları tərk etməsi və buna görə polis tərəfindən zorakılığa məruz qalmasına dair bir çox video görüntü yayıldı. Bu görüntülər ilk dəfə baş verən zorakılıq halını görüb buna reaksiya verən vətəndaşların yenidən, daha şiddətli zorakılığa məruz qaldıqlarını göstərir. Məsələn, 6 iyul tarixində Yasamal rayon sakinləri qonşularının polis tərəfindən döyülərək mülki maşına mindirildiyini gördükdə buna etiraz edib. Növbəti gün 7 iyul səhər saatlarında Çevik Polis Alayı həmin binanı mühasirəyə alıblar.[7] Bina sakinlərinin sözlərinə görə, polis əməkdaşları bloklara daxil olaraq sakinləri evlərindən zorla çıxararaq aparıblar. Çevik Polis Alayının bu davranışı iyunun 7-də bir neçə gəncin karantin qaydalarını pozarkən saxladıqları zaman mərtəbələrdən etiraz əlaməti olaraq zibil atılması ilə izah edilib. Saxlanılma zamanı bəzi vətəndaşlar gecə geyimlərində olublar, bir çoxları isə təhqir olunub və zorakılığa məruz qalıblar. Baş verən hadisə ilə bağlı bü-

[7] Meydan, 2020. Bakıda polis binanı mühasirəyə aldı, saxlanılanlar var. Meydan, 8 iyun https://www.meydan.tv/az/article/bakida-polis-binani-muhasireye-aldi-saxlanilanlar-var/?ref=list-news

tün video görüntülər polis əməkdaşları tərəfindən qeydə alınıb və sosial şəbəkədə yayılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidməti 11 nəfərin saxlanıldığını bildirib. Qeyri-rəsmi mənbələrə görə isə tutulan şəxslər polis əməkdaşları tərəfindən işgəncəyə məruz qalıblar.[8]

Baş verən bu kimi hadisələr polis əməkdaşlarının səlahiyyətlərinin sui-istifadəsi hallarına yol açır və araşdırılmadığı təqdirdə bu tip halların geniş yayılmasına səbəb olur.

## KARANTİN MƏHDUDİYYƏTLƏRİNİN TƏTBİQİNDƏKİ AYRI-SEÇKİLİK

Siyasi aktivistlər də polis tərəfindən zorakılığa məruz qalıb. Onlar pandemiyadan öncə də siyasi represiya qurbanı olsalar da[9], repressiyaya məruz qalan şəxslərin sayı karantin dövründə daha da artdı. Aşağıda sadalanan halların hər birində aktivistlərin sərbəst toplaşmaq hüquqları pozulub.

Məsələn, 1 iyun tarixində təhsil haqqına etiraz üçün Təhsil Nazirliyinə görüşə gələn 7 gənc aktivist nazirlikdən çıxdıqdandan sonra polis bölməsinə aparılıb.[10] Onların 6-sı İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsini pozmaqda ittiham edilərək 100-200 manat cərimələniblər. Lakin digər aktivist Rüstəm İsmayılbəyli haqqında İnzibati Xətalar Məcəlləsinin 535.1 (polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ) və 211-ci maddələri ilə 15 sutka inzibati həbs cəzası çıxarılıb.[11] İsmayılbəylinin 15 sutka inzibati həbs cəzası tamam olsa da, ona yalnız saçlarını kəsdikdən sonra həbsxanadan buraxılacağı deyilib.[12] Həmin etiraz aksiyasında cərimələnənlərdən biri – aktivist və keçmiş siyasi məhbus Qiyas İbrahimov 7 iyun tarixində pandemiya qaydalarının sərtləşdirilməsi ilə bağlı baş vermiş polis zorakılığına etiraz edən zaman saxlanılıb, zorakılığa məruz qalıb və xırda xuliqanlıq maddəsi ilə cərimələnib.[13] Həmçinin Prezident Administrasiyasının qarşısında ak-

[8] Meydan, 2020. Gülər Süleymanova: "Oğlumu 30 nəfər 5 saat döyüb, indi deyirlər polisi bağışla" Meydan Tv, 9 İyun https://www.meydan.tv/az/article/guler-suleymanova-oglumu-30-nefer-5-saat-doyub-indi-deyirler-polisi-bagisla/?ref=list-news ; həmçinin bax, Meydan, 2020. Xətai rayonunda polislə vətəndaş arasında qarşıdurma yaranıb. Meydan TV, 8 iyul https://www.meydan.tv/az/article/xetai-rayonunda-polisle-vetendaslar-arasinda-qarsidurma-yasanib/?ref=list-news

[9] Human Rights Watch, 2019. "Azərbaycan, 2018-ci ildə baş verənlərin xülasəsi" https://www.hrw.org/world-report/2019/country-chapters/azerbaijan

[10] Meydan 2020. Təhsil haqlarına etiraz edənlərdən saxlanılanlar var. Meydan TV, 1 iyun https://www.meydan.tv/az/article/tehsil-haqlarina-etiraz-edenlerden-saxlanilanlar-var/?ref=list-news

[11] Meydan 2020. Gənc fəal təhsil məhbusu oldu. Meydan TV, 1 iyun https://www.meydan.tv/az/article/genc-feal-tehsil-mehbusu-oldu/?ref=list-news

[12] Meydan 2020. Rüstəm İsmayılbəyli: saçlarıma toxunmadan buraxmayacaqlarını dedilər. Meydan TV, 16 iyun https://www.meydan.tv/az/article/rustem-ismayilbeyli-saclarima-toxunmadan-buraxmayacaqlarini-dediler/?ref=search

[13] Meydan 2020. Qiyas İbrahimov inzibati həbs cəzası ala bilər. Meydan TV, 9 iyun https://www.meydan.tv/az/article/qiyas-ibrahimov-inzibati-hebs-cezasi-ala-biler/?ref=list-news

siya keçirərək İlham Əliyevə istefa tələb edən Nicat İbrahim Cinayət Məcəlləsinin 139-1.1 maddəsi ilə - koronavirus olduğu halda, küçəyə çıxıb başqalarının da həyatına təhlükə yaratmaqda ittiham olunaraq həbs edilib.[14] Bundan başqa iki fəal – Fərrux Məmmədzadə və Elgiz Qəhrəman 12 iyul tarixində Bakı şəhərində baş tutmuş *Orduya dəstək* yürüşündə iştirak etdikləri üçün saxlanılıblar.[15] Fərrux Məmmədzadə həqiqətən də yürüşdə iştirak edib və ifadəsi alınaraq buraxılıb, Elgiz Qəhrəman isə yürüşdə iştirak etmədiyini bildirib. Həmin yürüşlə əlaqədar bir neçə jurnalist və onların yaxınları da saxlanılıb. Bu saxlanılmaların məqsədi şəxslərin qorxudulması və pandemiya zamanı siyasi repressiyanın davam etməsidir.[16]

Baş verən polis zorakılığı hadisələrindən sonra beynəlxalq təşkilatlar müxtəlif bəyanatlarla çıxış etməyə başlayıb. *Human Rights House Foundation*, *Freedom House*, *Network of Human Rights Houses* ölkədə karantin başlayandan bəri Azərbaycan hakimiyyətinin dinc aksiyalara, habelə müstəqil və müxalif səslərə qarşı artan hücumları ilə bağlı narahatlığını ifadə edib, hakimiyyətin müxalifəti təqib etmək üçün pandemiyadan sui-istifadə etdiyini vurğulayıblar.[17] Avropa Şurası Parlament Assambleyasının (AŞPA) məruzəçiləri Azərbaycanda kütləvi həbslərlə bağlı birgə bəyanatla çıxış edib.[18] Bu sənəddə Azərbaycanda baş verən qanunsuz həbslər pislənib, bu həbslərdə prosedural təminatı olmayan inzibati həbslərdən geniş tətbiq olduğu qeyd olunub. Azərbaycan hökuməti qanunvericilikdən sui-istifadə edərək siyasi motivlərlə həbslərə şərait yaratmasına görə günahlandırılıb.

## KARANTİN DÖVRÜNDƏ SİYASİ PARTİYALAR VƏ HƏRƏKATLARIN ÜZLƏŞDİYİ MƏHDUDİYYƏTLƏR

Monitorinq zamanı koronavirus ilə əlaqədar ilk məhdudiyyətin tətbiq edildiyi siyasi qurumun D18 hərəkatı olduğu müəyyənləşib. Mart ayının 8-i D18 hərəkatının sədri Ruslan İzzətli məlumat yayıb ki, səhər saatlarında 4 polis maşını hərəkatın ofisinin yaxınlığında dayanıb və onlara koronavirus səbəbilə ofisi boşaltmalı olduğu bildi-

[14] Meydan 2020. İlham Əliyevə istefa tələb edən şəxsə qarşı koronavirus yayma ittihamı. Meydan TV, 28 iyul. https://www.meydan.tv/az/article/ilham-eliyeve-istefa-teleb-eden-sexse-qarsi-koronavirus-yayma-ittihami/?ref=list-news

[15] Pərvanə Bayramova. 2020. NİDA fəalının ifadəsi alınaraq sərbəst buraxılıb. Amerikanın Səsi. 5 avqust. https://www.amerikaninsesi.org/a/ni%CC%87da-f%C9%99al%C4%B1-saxlan%C4%B1l%C4%B1b/5531437.html

[16] Meydan 2020. Elgiz Qəhrəman aksiyayla bağlı ifadə verib. Meydan TV, 18 iyul https://www.meydan.tv/az/article/elgiz-qehreman-aksiyayla-bagli-ifade-verdi/?ref=list-news

[17] Human Rights House Foundation və Network of Human Rights Houses. 2020. COVID-19 virusunun qarşısını almaq adı altında Azərbaycan hakimiyyətinin repressiyası. Human Rights House Foundation. 15 iyun https://humanrightshouse.org/statements/crackdowns-by-azerbaijan-authorities-under-the-guise-of-covid-19-response/ və Əzizə Göyüşzadə. 2020. Mark Berendt: "Hökumət qeyri-mütənasib gücdən və zorakılıqdan istifadə etdi". Amerikanın Səsi. 30 iyul. https://www.amerikaninsesi.org/a/5522728.html

[18] Avropa Şurası Parlament Asambleyisanın məruzəçisi Sunna Evarsdottir. Azərbaycanda aksiyaçıların kütləvi həbsləri haqqında məlumatlara məruzəçinin cavabı. Avropa Şurası Parlament Assambleyiası. 30 iyul 2020. https://pace.coe.int/en/news/7971/rapporteurs-respond-to-reports-of-mass-arrests-of-demonstrators-in-azerbaijan

rilib.[19] Həmin tarixdə hərəkatın ofisinin bağlanmasına səbəb olacaq qanunvericilik norması mövcud olmayıb və ofisin tərk edilməsi ilə bağlı əsaslandırmada heç bir səbəb göstərilməyib. Lakin İzzətli bu hadisə ilə bağlı şikayət ünvanlamayıb. Baş verən hadisə ilə bağlı gətirilən əsasın qanunda yer almaması və yalnız D18 hərəkatının ofisinə tətbiq edildiyi üçün hərəkatın fəaliyyətinə qarşı qoyulan məhdudiyyət qanunsuz olaraq qiymətləndirilə bilər.

Müsəlman Birliyi Hərəkatının üzvləri 20 mart tarixində *28 May* metro stansiyasının yaxınlığında üzərində hərəkatın adı yazılan köynəklər ilə koronavirusdan qorunmağın yollarının əks olunduğu broşürlər paylayarkən polis tərəfindən saxlanılıblar.[20] Bu aksiya dağıdılsa da, daha sonra aksiya iştirakçısı Samir Babayev yenidən saxlanılaraq İnzibati Xətalar Məcəlləsinin 535.1 maddəsi ilə təqsirli bilinib və 30 sutka inzibati həbs cəzası alıb. Digər fəal isə yardım payladığı zaman saxlanılıb, işgəncələrə məruz qaldığını iddia edib və 12 aprel tarixində İnzibati Xətalar Məcəlləsinin 211 və 535.1 maddələri ilə təqsirli hesab olunub.[21]

Karantin zamanı Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) 60-dan çox üzvü saxlanılıb. Saxlanılan üzvlər qanunvericiliyə yeni əlavə edilən İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə də ittiham olunub. AXCP ilə bağlı həbslər prezident İlham Əliyevin müxtəlif çıxışlarından sonra sürətlə artıb. Öncə 19 mart tarixində Əliyev müxalifəti "5-ci kolon" adlandırıb.[22] Onun bu çıxışı beynəlxalq mətbuat və vətəndaş cəmiyyəti tərəfindən müxalifəti təhdid etmək kimi qiymətləndirilib.[23] Növbəti dəfə Əliyev iyulun 15-də Nazirlər Komitəsinin iclasında[24] AXCP-ni Qarabağla bağlı problemlərdə günahlandırıb və dərhal sonra partiyanın 45-dən çox üzvü saxlanılıb.[25] Onlar Cinayət Məcəlləsinin 186.2.1-ci, 223-cü, 315-ci maddələri ilə təqsirli

[19] Meydan 2020. D18 Hərəkatı ofisindən çıxarıldı. Meydan TV, 8 mart https://www.meydan.tv/az/article/d18-hrkat-yerldiyi-ofisdn-xarld/?ref=list-news

[20] Meydan 2020. Bakıda pulsuz maskalar paylayan inanclı fəala 30 sutka həbs cəzası kəsildi. Meydan TV, 17 aprel. https://www.meydan.tv/az/article/bakida-pulsuz-maskalar-paylayan-inancli-feala-30-sutka-hebs-ceza-si-kesildi/?ref=list-news

[21] Meydan 2020. "Polislər dedilər ki, əgər telefonun kodunu verməsən, dubinkanı arxana soxacağıq" Meydan TV, 22 mart https://www.meydan.tv/az/article/polisler-dediler-ki-eger-telefonun-kodunu-vermesen-dubink-ani-arxana-soxacagiq/?ref=list-news

[22] İlham Əliyevin Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbriki. 19 mart 2020. President.az https://president.az/articles/36212

[23] Amerikanın səsi. 2020. AŞPA həmməruzəçiləri: Azərbaycan hökuməti pandemiyadan sui-istifadə edir. Amerikanınsesi.org, 26 mart. https://www.amerikaninsesi.org/a/a%C5%9Fpa-h%C9%99mm%C9%99ruz%C9%99%C3%A7il%C9%99ri-az%C9%99rbaycan-h%C3%B6k%C3%BCm%C9%99ti-pandemiyadan-sui-isti-fad%C9%99-edir-/5346458.html

[24] İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. 15 iyul 2020. President.az https://president.az/articles/39645

[25] Meydan. 2020 AXCP-nin daha 3 üzvü barəsində həbs qərarı. Meydan Tv, 20 iyul https://www.meydan.tv/az/article/axcp-nin-daha-3-uzvu-baresinde-hebs-qerari/?ref=list-news;Tapdıq Fərhadoğlu 2020. AXCP fəallarının həbsi davam edir. Amerikanınsesi.org. 22 iyul. https://www.amerikaninsesi.org/a/ax-

hesab olunublar. Bunlardan İnzibati Xətalar Məcəlləsinin 388-1.1, 531.1-ci və 510.1-ci maddəsi, həmçinin yeni əlavə olunan İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə ittiham olunma halları çoxluq təşkil edib.[26] Saxlanılanların əksəriyyətinə işgəncə verildiyi iddia edilib. Həmçinin DİN saxlanılan şəxslərin vəkilləri ilə görüşünə imkan yaratmayaraq siyasi əqidələrinə görə AXCP üzvlərinə qarşı ayrı-seçkilik edilib.[27] AXCP fəalı olan Cavid Məmmədzadə qoruyucu maskanın üzərində Məhəmməd Əmin Rəsulzadənin fotosu olduğu üçün saxlanılaraq İnzibati Xətalar Məcəlləsinin 211 və 535.1 maddələri ilə təqsirli bilinib.[28] Bununla yanaşı, AXCP hərəkatının bir çox siyasi fəalı sosial şəbəkədəki statuslarına görə saxlanılıblar.[29] AXCP sədri Əli Kərimli bildirib ki, onun və ailəsinin internetə çıxış imkanı və bəzi sosial şəbəkələrə girişi bloklanıb. Beləliklə, Kərimlinin məlumat əldə etmək hüququ məhdudlaşdırılıb.

AXCP-yə qarşı baş verən repressiyadan narahat olan bir çox beynəlxalq qurumlar bəyanat yayıb. AŞPA Azərbaycanda müxalifət fəallarının kütləvi həbslərinə reaksiyasında repressiyaya cavabdeh rəsmilərə qarşı sanksiyalar tətbiq edilməsinə çağırıb.[30] Eləcə də *Human Rights Watch* AXCP fəallarının həbsindən narahatlığını ifadə edərək onların sərbəst buraxılmalı olduğu haqda bəyanat yayıb.[31]

Baş verən hadisələr əsasında Azərbaycan Respublikası tərəfindən AXCP üzvü olan şəxslərə qarşı münasibət nəticəsində onların Avropa İnsan Hüquqları Konvensiyası-

cp-f%C9%99allar%C4%B1n%C4%B1n-h%C9%99bsi-davam-edir-/5512928.html;Tapdıq Fərhadoğlu. 2020. AXCP fəallarının apelyasiya şikayəti təmin edilməyib. Amerikanınsəsi.org. 31 iyul. https://www.amerikaninsesi.org/a/axcp-f%C9%99allar%C4%B1n%C4%B1n-apellyasiya-%C5%9Fikay%C9%99ti-t%C9%99min-edilm%C9%99yib-/5524987.html; Tapdıq Fərhadoğlu. 2020. 14 iyul aksiyasından sonra AXCP-nin 6 fəalı saxlanılıb. amerikanınsesi.org 17 iyul. https://www.amerikaninsesi.org/a/iyul-aksiyas%C4%B1nda-sonra-axcp-nin-6-f%C9%99al%C4%B1-saxlan%C4%B1l%C4%B1b-/5506594.html

26 Meydan. 2020 AXCP-nin daha iki fəalı həbs olundu. Meydan TV, 22 aprel. https://www.meydan.tv/az/article/axcp-nin-daha-iki-feali-hebs-olundu/?ref=list-news ; Meydan. 2020. Daha bir AXCP üzvü inzibati cəza aldı. Meydan Tv, 11 avqust https://www.meydan.tv/az/article/daha-bir-axcp-uzvu-inzibati-ceza-aldi/?ref=list-news ; Meydan. 2020. Xalq Cəbhəsi Partiyasının fəalı 15 sutkalıq inzibati həbs edilib. Meydan Tv, 29 may https://www.meydan.tv/az/article/xalq-cebhesi-partiyasinin-feali-15-sutkaliq-inzibati-hebs-edilib/?ref=list-news; Meydan. 2020. AXCP-nin daha bir üzvü polisə müqavimət ittihamı ilə həbs edildi. Meydan Tv, 17 aprel https://www.meydan.tv/az/article/axcp-nin-daha-bir-uzvu-polise-muqavimet-ittihamiyla-hebs-edildi/?ref=list-news

27 Meydan. 2020 Bir gündə 6 AXCP üzvü saxlanılıb. Meydan Tv, 20 iyul https://www.meydan.tv/az/article/bir-gunde-6-axcp-uzvu-saxlanilib/?ref=list-news

28 Meydan. 2020. Rəsulzadənin şəklinə görə həbs. Meydan TV, 27 iyul https://www.meydan.tv/az/article/resulzadenin-sekline-gore-hebs/?ref=list-news

29 Meydan 2020. Daha bir AXCP üzvü həbs cəzası aldı. Meydan TV, 25 aprel https://www.meydan.tv/az/article/daha-bir-axcp-uzvu-hebs-cezasi-aldi/?ref=list-news

30 Avropa Şurası Parlament Assambleyisanın məruzəçisi Sunna Evarsdottir. Azərbaycanda aksiyaçıların kütləvi həbsləri haqqında məlumatlara məruzəçinin cavabı. Avropa Şurası Parlament Assambleyiası. 30 iyul 2020. https://pace.coe.int/en/news/7971/rapporteurs-respond-to-reports-of-mass-arrests-of-demonstrators-in-azerbaijan

31 Meydan 2020. HRW: Azərbaycan müxalifəti amansız basqı altındadır. Meydan TV, 19 avqust https://www.meydan.tv/az/article/hrw-azerbaycan-muxalifeti-amansiz-basqi-altindadir/?ref=list-news

nın 2-ci, 3-cü, 6-cı, 8-ci, 11-ci, 14-cü, 18-ci maddələrinin və Konvensiyanın 1-ci protokolunun 1-ci maddəsinin pozulması hallarının baş verməsi müşahidə olunub.

## KARANTİN ZAMANI İNFORMASİYAYA ÇIXIŞ İMKANLARININ TƏHLİLİ

Karantin zamanı ölkədə koronavirusla bağlı bütün informasiya mənbələri bir mərkəzdən –TƏBİB dövlət orqanından idarə olunub və TƏBİB-in təsdiqləmədiyi məlumatı yayan şəxslər cəzalandırılıb. Koronavirusla bağlı sosial şəbəkələrdə şəxsi təcrübələri, yaxud da qeyri-rəsmi mənbələrdən aldıqları məlumatları paylaşan vətəndaşlar, həmçinin TƏBİB-dən başqa mənbələrə istinad edib xəbər yayan jurnalistlər İnzibati Xətalar Məcəlləsinin 388-1 maddəsi ilə ittiham edilib. Mətbuatın monitorinqi zamanı yüzlərlə şəxsin polis bölməsinə çağırıldığı aşkarlanıb. Əksər hallarda bu şəxslərin hansı məlumatlara görə çağırıldıqları bildirilməyib.

Bundan əlavə, sosial şəbəkədə paylaşılan məlumatlara əsasən dövlət orqanlarının əməkdaşları ictimai hədə-qorxu gəlməyə başlayıblar. DİN-in Mətbuat Xidmətinin rəhbəri Ehsan Zahidov bildirib ki, sosial şəbəkələrdə dövlətçiliyin və xalqın əleyhinə təxribat xarakterli məlumatlar yayan, insanları kütləvi etirazlara sövq edən şəxslər cəzalandırılacaqlar.[32] Dövlət rəsmiləri tərəfindən hədələyici açıqlamalar ölkə sərhədlərinin pandemiya səbəbilə bağlandığı andan davam edir.[33]

Ümumilikdə məlumatın bir əldə birləşməsi vətəndaşların informasiya hüququna çıxışının qarşısını alır, onların özlərini sərbəst şəkildə ifadə etməsinə imkan vermir və ölkədə əsas məlumat mənbəyi olan, lakin məhkəmə tərəfindən bloklanan media mənbələrinin məlumatları vətəndaşlara ötürməsini çətinləşdirərək ifadə azadlığını kobud şəkildə pozur.

## JURNALİSTLƏRİN FƏALİYYƏTİNİN MƏHDUDLAŞDIRILMASI

*Sərhədsiz Reportyorlar Təşkilat*ının Şərqi Avropa və Mərkəzi Asiya bürosunun 2020-ci il üçün *Mətbuat azadlığı indeksi*ndə Azərbaycan 180 ölkədən 168-ci pillədə yer alıb.[34] Pandemiya zamanı yeni karantin qaydalarına əsasən yalnız əmək müqaviləsi rəsmi qeydə alınan jurnalistlər fəaliyyət göstərə və rayonlara çəkiliş etmək üçün gedə bilər. Ölkədə rayonlara çıxışın qadağan olunduğu və hər bir şəxsə gün ərzində yalnız 2 saat çölə çıxmağa icazə verildiyi zaman əmək müqaviləsi qeydə alınmayan, yəni heç bir media qurumuna bağlı olmayan və ya hökumət tərəfindən fəaliyyəti qadağan edilmiş media qurumlarında işləyən (məsələn, Meydan TV) jurnalistlər öz peşə fəaliyyətlərini tam həyata keçirə və Bakıdan kənarda çəkiliş apara bilmirdilər. Buna

[32] Meydan. 2020. DİN rəsmisi fəalları hədələyir. Bu şəxslər haqda əsaslı ölçü götürüləcək. Meydan TV, 10 iyun DİN rəsmisi fəalları hədələyir: Bu şəxslər haqda əsaslı ölçü götürüləcək

[33] Azadlıq. 2020. Prezidentin 5-cikolon sözlərinə iki fərqli baxış. Azadlıq.org, 22 mart https://www.azadliq.org/a/prezidentin-5-ci-kalon-sozlerine-iki-ferqli-baxish/30502042.html

[34] Sərhədsiz Reportyorlar Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya bürosu. 2020 "2020-ci il üçün Mətbuat azadlığı indeksi" https://rsf.org/en/ranking

görə də regionlarda baş verən hadisələrin işıqlandırılmasında bütün ölkə mediası dövlət qurumlarının yaydığı press-relizlərə əsaslanmalı oldu.

Lakin jurnalistlərin mütləq əmək müqaviləsi ilə fəaliyyət göstərməsinə dair qanun yoxdur. Jurnalistlər müxtəlif mətbuat orqanlarında könüllü, xüsusi müqavilə ilə, yaxud özəl şəxs kimi qeydiyyatdan keçmədən məhsullarını yaya bilərlər.[35] Qoyulan qadağa nəticəsində ölkədəki müstəqil jurnalistlər, əmək müqaviləsi olmayan və yalnız özü işləyən jurnalistlər fəaliyyət göstərə bilməyiblər. Bu da məlumatın yalnız hökumət yönümlü və idarə olunan mətbuatdan gəlməsinə səbəb olur və vətəndaşların məlumat əldə etmək hüquqlarının pozulması ilə nəticələnir. Bundan əlavə, fəaliyyət göstərməyə çalışan jurnalistlər müxtəlif formada polis zorakılığı ilə üzləşib və dəfələrlə saxlanılıblar.[36] Bir sıra müstəqil mətbuat qurumunun veb səhifələri kiber hücuma məruz qalıb və onların dərc etdiyi bir sıra materiallar silinib.[37]

## GENDER MƏSƏLƏLƏRİ

Pandemiya müddətində məktəblərin bağlanması, virusla mübarizə üçün tövsiyə olunan gigiyena şərtlərinin yaradılması, 65 yaşdan yuxarı vətəndaşlar üçün gətirilən qadağalar və ev xaricində göstərilən xidmətlərin məhdud olması qadınların işlərini daha da artırdı.[38] Belə ki, qlobal miqyasda BMT də daxil olmaqla, bir çox beynəlxalq təşkilat karantinin qadınların əleyhinə olduğunu bildirdi. Məsələn, hazırda dünya üzrə səhiyyə və sosial xidmət işçilərinin təxmini 70%-ni qadınlar təşkil edir, bu da əsasən cəmiyyətlərdə bərqərar olmuş sosial normalardan və qadınların üzərinə qoyulmuş gender rollarından irəli gələn amildir.[39] COVID-19 qlobal səhiyyə böhranı, dünya iqtisadiyyatının və gündəlik tələbatlarımızın təminatının əhəmiyyətli bir hissəsinin qadınlarla qız uşaqlarının görünməz və ödənişsiz əməyi üzərində qurulduğunu göstərdi. Uşaqların məktəbə getməməsi, dayandırılmış səhiyyə xidmətləri nəticəsində xəstə insanların ehtiyaclarının ev şəraitində ödənilməsi zərurəti ailədəki qadınların ev işlərini, yəni görünməz əməyini daha da artırdı.[40]

[35] Sozcu. 2020. Arif Əliyev: Nazirlər Kabinetinin qərarı qeyri-qanunidir və media azadlığına məhdudiyyətdir. Sozcu. 7 aprel. https://sozcu.az/arif-liyev-nazirler-kabinetinin-qerari-qeyri-qanunidir-ve-media-azadligina-mehdudiyyetdir/

[36] Toplum Tv, 2020. Əli Kərimlidən müsahibə alan jurnalist döyülüb. Toplum TV, 21 aprel. https://toplum.tv/az/eli-kerimliden-musahibe-alan-jurnalist-dyulub/#.X2FufJMzau4 ; Meydan 2020. Azadlıq qazetinin əməkdaşı Əli Kərimlinin evindən çıxarkən saxlanılıb. Meydan TV, 17 aprel https://www.meydan.tv/az/article/azadliq-qezetinin-emekdasi-eli-kerimlinin-evinden-cixarken-saxlanilib/?ref=list-news

[37] Meydan. 2020. "Hakimiyyət "Turan" agentliyinə olan kiberhücumlara aydınlıq gətirməlidir" Meydan TV, 20 may "Hakimiyyət "Turan" agentliyinə olan kiberhücumlara aydınlıq gətirməlidir"

[38] "Care Work and Care Jobs For The Future of Decent Work", Geneva, International Labour Organization, 2018

[39] UNFPA"Koronavirus böhranına gender prizmasından baxış: BMT-nin Əhali Fondu pandemiya ilə mübarizədə qadınların rolunu yüksək qiymətləndirir". UNFPA, 2020, 19 aprel https://azerbaijan.unfpa.org/az/news/koronavirus-b%C3%B6hran%C4%B1na-gender-prizmas%C4%B1ndan-bax%C4%B1%C5%9F-bmt-nin-%C9%99hali-fondu-pandemiya-il%C9%99-m%C3%BCbariz%C9%99d%C9%99

[40] Policy Brief: The Impact of COVID-19 on Women, United Nations, 2020 https://www.unwomen.org/-/media/headquarters/attachments/sections/library/publications/2020/policy-brief-the-impact-of-covid-19-on-women-en.pdf?la=en&vs=1406

### Karantin dövründə qadınların üzləşdiyi problemlər

Azərbaycanda karantin dövründə qadınların zorakılığa məruz qalma riskini azaldacaq və ya zorakılığa məruz qaldıqdan sonra onların təhlükəsizliyini təmin edə biləcəkləri hansısa inklüziv proqram hazırlanmayıb. Nə şəhərlərin polis bölmələrində, nə xəstəxanalarda, nə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində karantin dövründə qadınların qarşılaşdığı iqtisadi və sosial problemlər üçün xüsusi qaynar xətt yaradılıb, nə də zorakılığa məruz qalan qadınlara təcili dəstək göstərmək üçün tədbirlər təşkil edilib. Yalnız iyul ayında ƏƏSMN tabeliyində yaradılan Sosial Xidmətlər Agentliyi vasitəsilə məişət zorakılığının qarşısının alınması ilə bağlı dövlət agentliyi yaradıldı. Agentlik fəaliyyətini *Məişət zorakılığının qarşısının alınması haqqında qanun*a uyğun şəkildə təşkil edəcəyi və məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, onlara psixoloji yardım göstərilməsi üçün müvafiq işlər aparacağını bildirsə də, hansısa real fəaliyyət həyata keçirməyib.[41]

Hökumətin tətbiq etdiyi xüsusi karantin rejiminə görə işsiz qalan və qazancını itirən qeyri-formal işləyən şəxslər üçün birdəfəlik ödəmə (190 AZN) proqramı çərçivəsində 600 min aztəminatlı şəxsə aprel ayı üzrə birdəfəlik ödəniş köçürülüb. Həmin ödənişi alan vətəndaşların 55 faizini kişilər, 45 faizinin qadınlar təşkil edib.[42] Qeyd edək ki, ƏƏSMN karantin dövründəki fəaliyyətlərinin gender bölgüsü üzrə nəticələri ilə bağlı ünvanladığımız sorğuya cavab vermədi. Bu səbəbdən birdəfəlik ödəmənin edilməsi üçün müəyyənləşdirilən kriteriyalara iqtisadi, psixoloji dəstəyə ehtiyacı olan neçə qadının uyğun olduğu  və onların bu ödəmədən faydalanıb-faydalanmadığı, həmçinin birdəfəlik ödəmənin onların özünə, yoxsa zorakı ailə üzvlərinə çatıb-çatmadığı məlum deyil.[43] Bununla yanaşı, Koronavirusla Mübarizəyə Dəstək Fondunun büdcəsindən qadın sığınacaqlarına və məhz zorakılığa məruz qalan qadınların ehtiyacları üçün ayrılan büdcə haqqında heç bir məlumatın olmaması onu deməyə əsas verir ki, karantin dövründə zərər görən qadınlara dəstək göstərilməsi üçün büdcə nəzərdə tutulmayıb.

Karantin dövrünə aid gender-əsaslı informasiya əldə etmək üçün müraciət olunan əsas qurumlardan biri Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi idi.

[41] Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunu http://www.anl.az/down/meqale/azerbaycan/2010/oktyabr/135634.htm; ƏƏSMN, "Yeni Agentlik məişət zorakılığından zərər çəkmişlərin sosial müdafiəsi və psixoloji yardımla təminatı üçün də tədbirlər görəcək" ; ƏƏSMN, Bakı, 2020, 17 iyul http://sosial.gov.az/post_357914?fbclid=IwAR0aYh1oPqcS9BjFBj9dyFF3OuBgMI5LfSQr-lAE9YCw4DbroHdrLS7ZQitM

[42] ƏƏSMN, "Birdəfəlik ödəmə alanların cins, bölgə və yaş qrupları üzrə bölgüsü necədir?", Bakı, 2020, may. http://sosial.gov.az/3432

[43] Əlavə olaraq, hesabat üçün İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinə (İAMİ) karantin dövründə aldıqları müraciətlər və bu dövrdəki fəaliyyətləri ilə əlaqəli göndərdiyimiz sorğuya adekvat cavab verilmir və lazımi bütün informasiya üçün saytları önərilirdi.. Lakin təəssüf ki, idarənin saytında məlumatların keyfiyyəti və saytın yenilənmə tezliyi ilə əlaqəli problemlər mövcuddur. Saytda idarənin fəaliyyəti haqqında hesabatlara çatımlılıq mümkün olmadığı kimi, saytın son yenilənməsi də 19.05.2020 tarixinə aid idi. Bu səbəbdən idarənin karantin dövründəki faəliyyəti ilə bağlı heç bir məlumat əldə edə bilmədik.

AQUPDK tərəfindən sorğumuza verilən cavaba əsasən AQUPDK-nin nəzdindəki mərkəzlərə mart-iyun karantin ayları arasında 2524 nəfər müraciət edib və bu müraciətlərin 1640-ı qadınlar tərəfindən olub. Müraciətlər daha çox psixoloji təzyiq, uşaqlarda davranış pozuntuları, mövcud vəziyyətə adaptasiya, ünvanlı sosial yardım, pandemiya dövründə işsizliklə bağlı müavinət kimi məsələlərlə bağlı olsa da, AQUPDK tərəfindən verilən cavabda qeyd edilir ki, göstərilən dəstək əsasən müraciətçilərin kommunal xərclərin elektron qaydada ödənilməsi, idarə və təşkilatlara onlayn müraciətlərlə əlaqəli texniki dəstəkdən ibarət olub. Ailədaxili psixoloji gərginliklə əlaqədar və ya uşaqlarla münasibətdə yaranan çətinliklə bağlı müraciət edənlərə isə mərkəzin psixoloqları tərəfindən onlayn formada və ya telefon vasitəsilə yardım göstərilib.

Dövlət qurumlarına göndərdiyimiz sorğuların cavablarından və müşahidələrimizdən gəldiyimiz qənaətə əsasən deyə bilərik ki, karantin dövründə dövlət strukturları qadınların təhlükəsizliyini təmin edəcək proqram hazırlamayıb. Bunu deməyə əsas verən ən vacib nüans qadınların zorakılıq halları ilə üzləşdiyi zaman müraciət edə biləcəkləri heç bir qaynar xəttin olmaması idi. Digər tərəfdən qaynar xətlər olsaydı belə, zorakılıq və təzyiqə məruz qalan qadınların həmin qaynar xətlərə müraciət etmə imkanlarının olub-olmayacağı sual altındadır. Karantin dövrü ərzində verilən və dövlət qurumlarının da yekdilliklə dəstəklədiyi *Evdə qal!* sosial mesajı inklüziv və adekvat olmadığı kimi qadınlar üçün əlavə təhlükə yaradacaq səslənişə çevrildi. Belə olan halda, zorakı şəxs ilə eyni evdə yaşayan qadın evdən çıxmaq qadağası olduğuna görə özünü müdafiə edə bilmək imkanından məhrum olur. Dövlətin bütün bunlarla bağlı heç bir konstruktiv strategiyası olmadı. Bu səbəbdən karantin dövründə yaradılan qeyri-adekvat şərtlər və standartlar qadınlara qarşı zorakılığın artmasına birbaşa təsir edən faktorlardan idi.

### Karantin dövründə LGBTIQ+ vətəndaşların üzləşdiyi problemlər

Beynəlxalq insan hüquqları hesabatlarına əsasən Azərbaycanda hökumət tərəfindən ədalətli məhkəmə, söz azadlığı və sərbəst toplaşmaq azadlığı da daxil olmaqla, insan haqları sistematik olaraq pozulmaqdadır. İnsan haqları təşkilatları və təşəbbüs qrupları fəaliyyətlərində davamlı olaraq maneələrlə üzləşirlər. 2014-cü ildən ölkədə insan haqlarının qorunması ilə məşğul olan təşkilatların beynəlxalq fondların maliyyəsindən istifadə etmək imkanları məhdudlaşdırılıb. Bu isə o deməkdir ki, LGBTIQ+ təşkilatların fəaliyyət göstərməsi üçün də kifayət qədər resurs mövcud deyil.[44]

Son 5 ildir Azərbaycan Avropada LGBTIQ+ vətəndaşların yaşaması üçün ən pis ölkə kimi müəyyən olunub. Belə ki, Azərbaycan Beynəlxalq Gey, Lezbiyan, Biseksual, Trans və İnterseks Assosiasiyasının (İLGA) hüquqi bərabərlik meyarlarının

[44] QueeRadar, "COVID-19 dövründə LGBTIQ+nin vəziyyəti", 2020 https://issuu.com/queeradar/docs/report_aze

yalnız 5%-nə cavab verir, ölkədə LGBTIQ+ vətəndaşlar nifrət cinayətləri və diskriminasiyaya qarşı müdafiə olunmurlar.[45] Belə ki, onlara qarşı olan nifrət cinayətləri və təzyiqlərlə əlaqəli Azərbaycan hüquq sistemində spesifik bir qanun yoxdur.[46] Vətəndaşın yaşamaq hüququna müdaxilələrlə əlaqəli  məlumatlar onun həm siyasi, həm də ictimai sferada haqlarının təmin edilməsi barəsində problemlərin olduğunu göstərməkdədir. Bu halda LGBTIQ+ vətəndaşların məruz qaldığı təzyiq və zorakılıqların nəticəsində onların hüquqlarının təmin edilməməsi, habelə şikayətlərinə baxılmaması kimi hallar onların Azərbaycanda həyat standartlarının aşağı olduğunu göstərir.

Azərbaycanda LGBTIQ+ vətəndaşların hüquqlarını qoruyan bir neçə təşkilat mövcuddur. Bunlardan bəziləri dövlət, bəziləri isə vətəndaş cəmiyyəti tərəfindən yaradılıb. *Azərbaycan Gender və Tərəqqi İctimai Birliyi* kimi birinci növ qurumlara LGBTIQ+ vətəndaşlar adətən müraciət etmirlər, çünki bu növ dövlət yönümlü QHT-lərə onlarda haqlı olaraq inam yoxdur. Adıçəkilən təşkilata göndərdiyimiz sorğuda da bizə bildirdilər ki, karantin dövründə heç bir LGBTIQ+ vətəndaş müraciət etməyib. Lakin vətəndaş cəmiyyəti tərəfindən qurulan təşkilatların, o cümlədən LGBTIQ+ haqlarını müdafiə edən hüquqşünasların fəaliyyətinə nəzər yetirdikdə LGBTIQ+ vətəndaşların onlara müraciət etdiyi üzə çıxır. *Idahot Azerbaijan*ın verdiyi məlumata əsasən karantin dövründə ona 26 nəfər dəstək üçün müraciət edib və bu müraciətlərin məzmunu əsasən məişət zəminində baş verən zorakılıqlarla əlaqəli olub. Çünki karantin dövründə onların çoxu işsiz qaldığından öz ailələrinin yanına qayıtmalı olublar və bir çoxu ailələri tərəfindən zorakılıq və psixoloji təzyiqlərə məruz qalıb. Digər bir təşkilat, *Nəfəs LGBT Alliance* sorğumuza verdiyi cavabda bildirib ki, ona 100-ə yaxın insan kirayə haqları və ərzağa olan ehtiyaclarını ödəməklə bağlı müraciət etsə də, məhdud imkanlara görə təkcə 25 nəfərə yardım edilib. Bu müraciətlər əsasən karantin dövründə seks işçisi kimi işləyə bilməyən translar tərəfindən olub.

2019-cu ilin sonlarında Çin Xalq Respublikasında başlayan COVID-19 pandemiyası sürətlə bütün dünyaya yayıldı. 2020-ci ilin ilk doqquz ayı ərzində dünya ölkələri, eləcə də Azərbaycan koronavirus pandemiyasından həm insan itkisi və çoxlu sayda virusa yoluxan xəstələr, həm də iqtisadi böhran baxımından əziyyət çəkdi. Demək olar ki, iqtisadiyyatın bütün sahələri bu və ya digər formada koronavirus pandemiyasının təsirlərinə məruz qaldı. Koronavirus pandemiyasının xidmət sahəsinə vurduğu zərər öz növbəsində kənd təsərrüfatına olan tələbata da ciddi təsir göstərdi. Belə ki, virusun kəskin şəkildə yayılmasının qarşısını almaq məqsədilə dünya ölkələrində, həmçinin Azərbaycanda xüsusi karantin rejimi elan edildi və insanların kütləvi şəkildə toplanmasına imkan verməmək üçün xidmət sahələri, o cümlədən kafe, restoranlar, toy və yas mərasimləri qadağan edildi, ölkələrarası giriş-çıxış və ölkədaxili hərəkət məhdudlaşdırıldı. Xüsusi karantin tədbirləri nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının alıcılıq qabiliyyəti aşağı düşdü. Bundan əlavə, insanlarda qorxu yarandığı üçün, çörək və un məmulatlarına olan tələbat qısamüddətli dövr aralığında artdı. Ona görə də cari ilin müxtəlif vaxtlarında xüsusi karantin rejiminin kəskinləşməsi və ya yumşaldılmasından asılı olaraq kənd təsərrüfatı məhsullarının alıcılıq qabiliyyətinin dinamikası dəyişdi. Qeyd olunan məsələlər Azərbaycanda koronavirus pandemiyası dövründə kənd təsərrüfatı sahəsinin hazırlıq prosesi, eləcə də bu sahənin üzləşdiyi problemləri qabartdı.

Bu hesabat pandemiya dövründə kənd təsərrüfatının üzləşdiyi təsirləri daxili və xarici bazarda analiz edir. Araşdırma əsasında ilkin olaraq koronavirus pandemiyası şəraitində Azərbaycanda makro iqtisadi dinamikaya ümumi şəkildə baxılıb və əvvəlki ilin statistik göstəriciləri ilə müqayisəli təhlilər aparılıb. Daha sonra pandemiyanın kənd təsərrüfatı sektoruna olan təsirləri, o cümlədən bu sahədə məşğulluq məsələlərinə aydınlıq gətirilib. Bundan əlavə, cari ildə COVID-19 pandemiyasının kənd təsərrüfatının ayrı-ayrı sahələrinə olan təsirləri aylıq statistik məlumatlar əsasında analiz edilərək, artım göstəriciləri hesablanıb. Pandemiya şəraiti ilə əlaqədar olaraq daxili bazardakı tələbatın aşağı düşməsi, tədarük və təchizat zəncirindəki və

həmçinin ixracatda yaranan çətinliklər müəyyən olunub. Nəhayət, pandemiyanın ərzaq təhlükəsizliyi baxımından təsirləri analiz edilib.

Hökumətin pandemiya ilə mübarizə tədbirləri fonunda kənd təsərrüfatı sektoruna dəstək tədbirlərinə elektron portalın yaradılaraq işsizlərin qeydiyyatının aparılması, aqrar sektorda çalışanların ölkədaxili hərəkətinin təmin edilməsi qaydalarının tətbiqi, fermerlərə subsidiyaların verilməsi, gübrə təminatının davamlılığının təmin edilməsi, taxılbiçən kombaynların sayının artırılması kimi dəstək tədbirləri aiddir. Bundan əlavə, Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının birgə fəaliyyəti nəticəsində aqrar sektorda davamlılığın təmin edilməsi üçün nəzarət mexanizmləri icra edilib.

Araşdırmanın gəldiyi nəticəyə əsasən COVID-19 pandemiyası dövründə Azərbaycanda kənd təsərrüfatı sektorunda artım müşahidə edilib. Buna baxmayaraq, sektorun dəyər zəncirinin ayrı-ayrı halqalarında mənfi təsirlər özünü büruzə verib. Belə ki, aqrar sektorun böyümə dinamikası cari ilin yanvar-aprel aylarında 3.8 faiz olub və hökumətin 4.8 faiz artım kimi proqnozlaşdırdığı aqrar sektorda müvafiq göstəricisi yanvar-sentyabr aylarında 1.5 faizə düşüb. Bitkiçilik sahəsində isə pandemiyanın mənfi təsirləri daha qabarıq olub. Buna səbəb hökumətin hərəkət qaydasına edilən yumşaldılmaların və yaranan işsizliklə bağlı sosial təminatın verilməsinə rəğmən aqrar sektorda həm qeyri-rəsmi işçilərin olması, həm də kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olanların minik avtomobillərindən istifadəyə qadağa olduğundan Bakı bazarlarına mal çıxara bilməmələri idi.

İdxal-ixrac əməliyyatlarında birbaşa maneələr olmasa da, ümumilikdə pandemiya səbəbilə mülki vətəndaşların ölkə xaricinə çıxışına tətbiq edilən qadağalar mənfi təsir göstərib. Müvafiq çətinliklər daha çox fərdi sahibkarlıq subyektlərinin və ev təsərrüfatlarının öz məhsullarını realizə etməsində müşahidə edilib. Eləcə də maliyyə vəsaitlərinə əlçatanlığın aşağı olması, fermerlərin mikrokreditlərə çıxış imkanlarının az olması, ümumilikdə fermerlərin fəaliyyətində çətinliklərə gətirib çıxarıb. Böyümə tempinin zəifləməsi, yığım imkanlarının azalması və artan risklər cari ilin ilk doqquz ayında aqrar sektorda investisiya qoyuluşlarının 30 faizədək azalmasına səbəb olub.

Xidmət sahəsində yaranan ciddi durğunluq səbəbilə daxili bazarda kənd təsərrüfatı məhsullarının topdan satışının həyata keçirildiyi toy, yas mərasimlərinin qadağası nəticəsində kəskin azalmanın müşahidə edilib. Buraya pandemiyanın müxtəlif dövrlərində kafe və restoranların fəaliyyətinə qoyulan qadağalar və ya yumşaldılma tədbirləri fonunda aqrar məhsullara olan tələbatın dinamikasının dəyişməsi kimi məsələlər daxildir. İaşə obyektlərinin fəaliyyətinə icazələrin verildiyi halda belə sosial məsafənin gözlənilməsinə görə həmin obyektlər tam gücü ilə çalışmayıb.

Tədqiqatın nəticələri onu göstərir ki, fərdi sahibkarlar və ev təsərrüfatlarından məhsul qəbulunda minimum limitlərinin müəyyənləşməsinə, fərdi sahibkarların və ev təsərrüfatlarının məhsulları saxlama xərclərinin kompensasiyasına, mövsümü və tematik yarmarkaların keçirilməsi ənənəsinin bərpa edilməsinə, eləcə də maarifləndirmə və təşviqat tədbirlərinin artırılmasına ehtiyac vardır.

Layihə komandası birgə müzakirələr şəklində kənd təsərrüfatı sahəsini COVID-19 koronavirus pandemiyası şəraitində daha dolğun və əhatəli formada araşdırmaq məqsədilə kənd təsərrüfatı sahəsi üzrə ekspert rəyləri, onlayn resurslar, o cümlədən rəsmi dövlət orqanlarının statistik göstəriciləri və beynəlxalq təcrübə əsasında bu hesabatı hazırlanıb.

## COVID-19 PANDEMİYASININ İQTİSADİ TƏSİRLƏRİNİN KƏND TƏSƏRRÜFATI ASPEKTİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ

COVID-19 pandemiyası ilə mübarizədə görülən tədbirlərin çevikliyini təmin etmək, mütəmadi brifinqlər vasitəsilə ölkə iqtisadiyyatının müxtəlif sahələri üzrə baş verən dinamikanı izləmək və onu geniş kütləyə çatdırmaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Ölkə iqtisadiyyatının müxtəlif sahələrində olduğu kimi kənd təsərrüfatı da pandemiyanın təsirinə məruz qaldı və hökumət aqrar istehsalda fasilələrin yaranmaması üçün müxtəlif tədbirlər planı hazırlayaraq icra etdi.

### Pandemiya dövründə makroiqtisadi dinamika

COVID-19 pandemiyası Azərbaycan iqtisadiyyatına təsirsiz ötmədi və əvvəlki il ilə müqayisədə iqtisadiyyatın bütün sahələri üzrə makroiqtisadi dinamikada azalma müşahidə edildi. Dövlət Statistika Komitəsinin (DSK) 2020-ci ilin yanvar-sentyabr aylarına olan göstəricilərinə əsasən ölkə üzrə ümumi daxili məhsul (ÜDM) istehsalı 52,1 milyard manat təşkil edib ki, bu göstərici 2019-cu ilin eyni dövrü ilə müqayisədə 3.9 faiz azdır.[1] Ölkə üzrə makroiqtisadi dinamika aşağıdakı cədvəldə daha detallı qeyd olunur.

[1] AZSTAT, 2020-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri, baxış tarixi 19.10.2020, 4. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1

**Cədvəl 1. 2020-ci ilin yanvar-sentyabr ayları üzrə makroiqtisadi göstəricilər**

| **Göstəricinin adı** | **2020-ci ilin yanvar-sentyabr ayları, *faktiki*** | **2020-ci ilin yanvar-sentyabr ayları 2019-cu ilin yanvar-sentyabr aylarına nisbətən, *faizlə*** | **2019-cu ilin yanvar-sentyabr ayları 2018-ci ilin yanvar-sentyabr aylarına nisbətən, *faizlə*** |
|---|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat<br>O cümlədən qeyri neft-qaz ÜDM | 52 074,0<br>36 319,6 | 96,1<br>97,6 | 102,5<br>103,5 |
| Əhalinin hər bir nəfərinə düşən ÜDM, manat | 5 222,5 | 95,3 | 101,6 |
| Sənaye məhsulu, milyon manat<br>O cümlədən qeyri neft-qaz sənayesi | 27 754,7<br>9 157,3 | 95,5<br>110,8 | 101,7<br>115,6 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat<br>O cümlədən qeyri neft-qaz sektoruna<br>Ondan qeyri neft-qaz sənayesinə | 10 430,2<br>6 039,0<br>1 153,1 | 96,2<br>85,9<br>75,9 | 98,1<br>108,9<br>110,6 |
| Kənd təsərrüfatı məhsulu, milyon manat<br>O cümlədən: bitkiçilik heyvandarlıq | 6 835,1<br>3 604,7<br>3 230,4 | 101,5<br>100,1<br>103,1 | 107,1<br>111,0<br>103,1 |
| Nəqliyyat sektorunda yük daşınması, milyon ton | 140,6 | 81,5 | 101,6 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin | 931,7 | 62,6 | 102,1 |
| Pərakəndə ticarət dövriyyəsi, milyon manat | 28 054,9 | 98,4 | 103,0 |
| Dövlət büdcəsinin gəlirləri, milyon manat | 17 964,5 | 106,5 | 105,3 |
| Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat | 4 173,0 | 98,3 | 105,3 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 710,2* | 120,5** | 108,9*** |
| İstehlak qiymətlərinin indeksi | x | 102,9 | 102,6 |
| **Xarici ticarət dövriyyəsi (1), milyon ABŞ $**<br>faktiki qiymətlərlə<br>müqayisəli qiymətlərlə | 15 667,8*<br>x | 70,2**<br>77,1** | 110,0***<br>103,1*** |
| **O cümlədən: ixrac**<br>faktiki qiymətlərlə<br>müqayisəli qiymətlərlə | 8 977,3*<br>x | 69,3**<br>91,1** | 96,4***<br>100,6*** |
| **Ondan qeyri neft-qaz ixracı**<br>faktiki qiymətlərlə<br>müqayisəli qiymətlərlə | 1 153,2*<br>x | 90,3**<br>81,6** | 115,1***<br>110,5*** |
| **idxal**<br>faktiki qiymətlərlə<br>müqayisəli qiymətlərlə | 6 690,5*<br>x | 71,3**<br>57,8** | 136,7***<br>107,9*** |

**Mənbə: DSK, 2020**

**Qeyd:**
**2020-ci ilin yanvar-avqust ayları.*
*** 2020-ci ilin yanvar-avqust ayları 2019-cu ilin yanvar-avqust aylarına nisbətən.*
**** 2020-ci ilin yanvar-avqust ayları 2018-ci ilin yanvar-avqust aylarına nisbətən.*
*(1) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.*

Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə əsas makroiqtisadi göstəricilər üzrə cari ilin kənd təsərrüfatının ümumi məhsulu 1.5 faiz, heyvandarlıq məhsulları 3.1 faiz və bitkiçilik üzrə 0.1 faiz artımla müşahidə edilir. Kəskin azalmaların müşahidə edildiyi sahə əsasən xidmət sektorudur. Əhaliyə göstərilən ödənişli xidmətlər kateqoriyası üzrə ötən ilin eyni dövrü ilə müqayisədə 25.7 faiz azalma olub. Həmçinin nəqliyyat sektorununda, sərnişin daşınmasında 37.4 faiz və yükdaşınmasında 18.8 faiz azalma müşahidə edilir. DSK-nın rəsmi məlumatına əsasən Azərbaycanda kənd təsərrüfatında işləyən əhalinin sayı 2014-cü ildə 37.1 faiz təşkil edib, 2019-cu ildə bu rəqəm 36 faiz idi, kənd təsərrüfatında çalışan əhalinin payı əsasən regionlarda yaşayan əhalinin üzərinə düşür.[2]

Cari ilin ilk doqquz ayında COVID-19 pandemiyasının hələ də səngimədiyini nəzərə alaraq kənd təsərrüfatının iqtisadi dinamikasını nəzərdən keçirsək, görürərik ki, DSK-nın yaydığı məlumata əsasən 2020-ci ilin yanvar-may aylarında kənd təsərrüfatının ÜDM-də payı 2165,1 milyon manat təşkil edib. Göstəricinin 1721,9 milyon manatı heyvandarlıq, 443,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Əvvəlki ilin birinci rübü ilə müqayisədə bu sektorun istehsalında 3.6 faiz artım olub.[3]

Pandemiya aqrar məhsulların istehlakına da mənfi təsir göstərdi. Ekspertlərin rəyinə görə 2020-ci ildə kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın daxili bazarda azalması şadlıq saraylarının, kafe və restoranların, xidmət obyektlərinin və əyləncə mərkəzlərinin xüsusi karantin rejimi ilə əlaqədar bağlanması nəticəsində artdı. Toy və yas mərasimlərinin keçirilməsinə qoyulan məhdudiyyətlər kənd təsərrüfatı məhsullarının topdansatış alıcılarının kəskin azalmasına və işsizlərinin sayının kütləvi şəkildə artmasına səbəb oldu. Lakin bununla əlaqədar yaradılan portal vasitəsilə işsizlərin qeydiyyata alınması və beləliklə, ünvanlı sosial yardım alanların sayının 70 mindən çox olması müsbət hal kimi qiymətləndirilir. Həmçinin yaranmış yeni nəsil pandemiya ilə mübarizə tədbirləri fonunda prezidentin ehtiyat fondundan 97 milyon manat vəsaitin ayrıldığını və əlavə 150 milyon manat vəsaitin isə ayrılmasının nəzərdə tutulduğunu diqqətə alaraq COVID-19 pandemiyası fonunda ölkə iqtisadiyyatının makroiqtisadi dayanıqlılığı yüksək qiymətləndirilərək pandemiyaya qarşı görülən tədbirlərin çevikliyi də müsbət addım kimi qeyd edilir.

[2] Azstat, "Dövlət əhəmiyyətli mühüm tədbir - Kənd təsərrüfatının siyahıyaalınması", 18.03.2014. https://www.stat.gov.az/news/index.php?id=2201 ; Azstat, "Əmək Bazarı" Statistik məcmuə/2020, baxış tarixi: 20.12.2020, 26. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/labour_2020.zip

[3] Milli.az, "Azərbaycanda pandemiya dövründə kənd təsərrüfatı məhsullarının istehsalı artıb", 23.06.2020. https://news.milli.az/country/860303.html

Ekspertlərin vurğuladığı məsələlərdən biri də COVID-19 pandemiyası ilə əlaqədar dünyanın 150-dən çox ölkəsinin Beynəlxalq Valyuta Fondu və Dünya Bankına ölkə iqtisadiyyatlarını stabilləşdirmək üçün müraciət etməsidir. Bu müşahidələr fonunda Azərbaycanın makroiqtisadi göstəricilərinin birinci rüb üzrə artımla müşahidə olunması və ilin əvvəlindən pandemiya ilə mübarizə tədbirləri əsasında islahatlar həyata keçirilməsi də qeyd olunur. Belə ki, bu dövrdə ölkədə inflyasiya 3 faiz olub. Pandemiyanın təsirlərinin azaldılması, həmçinin həssas təbəqəyə aid vətəndaşlar üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə 2,5 milyard manatlıq dəstək paketinin təsdiqlənməsi də vurğulanır.[4]

Azərbaycanda pandemiya şəraitində kənd təsərrüfatı sektorunda cari ilin ilk iki ayında azalma müşahidə edilib. Hökumət onlayn resurlardan istifadə edərək sözügedən sektorun dayanıqlılığını təmin etmək məqsədilə bir sıra addımlar atsa da sektorda qeyri-rəsmi fəaliyyətin geniş yayılması və uçotun zəif təşkili kimi amillər dəstəkləyici tədbirlərin əlçatanlığı və əhatəliliyinə mənfi təsir göstərib.

**Pandemiya ilə mübarizə tədbirlərinin aqrar istehsala təsirləri**

DSK-nın məlumatına əsasən 2020-ci ilin ilk doqquz ayı ərzində ölkə ərazisində kənd təsərrüfatı sahəsinin faktiki qiymətlərlə dəyəri 6835,1 milyon manat təşkil edir. Burada 3230,4 milyon manat heyvandarlıq, 3604,7 milyon manat isə bitkiçilik məhsullarının payına düşür. Bu sahənin 52.7 faizi bitkiçilik, 47.3 faizi isə heyvandarlığı əhatə edir.[5] 2019-cu ilin ilk doqquz ayı ilə müqayisədə kənd təsərrüfatı istehsalı 1.5 faiz, heyvandalıq üzrə 3.1 faiz, bitkiçilik üzrə isə 0.1 faiz artım müşahidə olunub.[6]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) yaydığı məlumata əsasən kənd təsərrüfatının koronavirus pandemiyası dövründə fasiləsiz hərəkətinin təmin edilməsi üçün fermerlərə subsidiyaların verilməsi, onların gübrələrlə təmin edilməsi, taxılbiçən kombaynların fermerlərin istifadəsinə verilməsi kimi məsələlər aktual olub. Bu sahədə yaranmış əsas çətinliklər kimi quraqlığın olması və bununla əlaqədar su təchizatında yaranmış problemlər, o cümlədən əsasən fermerlərin müraciət etdikləri kiçikhəcmli kreditlərin verilməsində yaranan məhdudiyyətlər gündəmdə olub. Banklar fermerlərə güzəştli kreditlərin verilməsi üçün Bakıda mənzil girovu

[4] Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, "Anar Hüseynov: Azərbaycanda ərzaq qıtlığının yaşanması üçün heç bir obyektiv əsas yoxdur", 03.04.2020. https://www.agro.gov.az/az/news/anar-hueseynov-azerbaycanda-erzaq-qitliginin-yasanmasi-uecuen-hec-bir-obyektiv-esas-yoxdur ; Fact-info.az, "Anar Məmmədov: 2020-ci ilin birinci rübünün sosial-iqtisadi inkişaf dinamikası inkişaf və tərəqqi ilə müşahidə olunub", 15.04.2020. https://fact-info.az/news?id=9679 ; Vergiler.az "Azərbaycan öz maliyyə imkanları hesabına bütün iqtisadi və sosial hədəfləri yerinə yetirməyə qadirdir", 15.04.2020. https://vergiler.az/news/economy/8050.html

[5] AZSTAT, 2020-ci ilin yanvar-sentyabr ayları, 47.

[6] Yenə orada, 48.

tələb edirlər, bu isə kreditin əldə edilməsi üçün çox böyük maneədir.[7] Buna görə də prezident İlham Əliyev kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə vəsaitlərinə çıxış imkanlarının yaxşılaşdırılması üçün aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi məqsədilə Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 30 milyon manat vəsait ayırıb.[8]

Koronavirus pandemiyasının yaranması ilə əlaqədar maliyyə təşkilatları və banklar tərəfindən kənd təsərrüfatına ayrılan kreditləşmə ilə bağlı problemlər yaranıb. Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən icra olunan və İsveçrə İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) tərəfindən maliyyələşdirilən *Azərbaycan İnvestisiya Mühiti və Aqrobiznesin Rəqabətliliyi Layihəsi* çərçivəsində koronavirus pandemiyası dövründə kənd təsərrüfatı sektorundakı dinamikanı qiymətləndirmək və kreditləşmədə yaranan problemləri müəyyən etmək məqsədilə sorğu həyata keçirilib. Sorğunun nəticələrinə əsasən kreditləşmədə yaranan problemlərin əsas səbəbləri bunlardır: (1) daxili bazarda kənd təsərrüfatı məhsullarının satışında müşahidə olunan azalmalar; Azalmanın səbəblərindən biri toy məclislərinin qadağan olunması ilə ət məhsullarının satışında yaranan fasilələr, yaxud satış zəncirinin ümumiyyətlə qırılması olub. Respondetlərin dediklərinə görə onlar maliyyə vəsaitlərinin kreditlər vasitəsilə əldə etməyə ehtiyatla yanaşıblar, çünki istehsal etdikləri məhsulların daxili bazarda satacaqlarına əmin olmayıblar. (2) Karantin rejimi ilə əlaqədar hökumətin sərt və ya yumşaldılmış tədbirlər planının həyata keçirilməsi nəticəsində bazarda stabillik pozulub.[9]

Ekspertlərin fikrincə Azərbaycan hökuməti pandemiya ilə mübarizə tədbirləri çərçivəsində kənd təsərrüfatı məhsullarına olan tələbatı daha çox yerli istehsal hesabına ödəmək niyyətindədir. Beləliklə, pandemiya şəraiti istehlakçı tələbinin ödənilməsi məqsədilə daxili istehsalın artırılması və bu sahə üzrə məşğul əhalinin iş yerlərində qalması tendensiyası ilə müşahidə olunacaq.[10] O cümlədən pandemiyanın kənd təsərrüfatına əsas təsirlərindən biri də istehlak məhsullarına olan tələbatın artması və kənd təsərrüfatı məhsullarının qiymətində artımın müşahidə edilməsidir. Hazırda bu məsələ təkcə Azərbaycanda deyil, dünya bazarında da özünü göstərməkdədir. Buna səbəb məhsulların daşınması prosesində müəyyən

[7] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib", 15.04.2020. http://sosial.gov.az/3344

[8] Prezident.az, "Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", 14.04.2020. https://president.az/articles/36524

[9] Banker.az, "IFC Azərbaycan kənd təsərrüfatında kreditləşməyə mane olan səbəbləri tapıb", 13.10.2020. https://banker.az/ifc-azərbaycan-kənd-təsərrufatinda-kreditləsməyə-mane-olan-səbəbləri-tapib/

[10] Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi KTN, "Azərbaycanda pandemiya dövründə kənd təsərrüfatı məhsullarının istehsalı artıb - AzTV", 30.06.2020. https://www.youtube.com/watch?v=RLsrxOIbGaE

ləngiləmələrin yaranmasıdır. Həmçinin ilkin mərhələdə pandemiya gözlənilməz və heç kimin tanış olmadığı bir böhran olduğundan insanlarda ərzaq qıtlığının yarana biləcəyi ilə bağlı psixoloji gərginlik də yaradıb. Məsələn, çörəyə olan ehtiyac birdən-birə artdı və bu həmin məhsula olan tələbatı kəskin artırdı. İnsanların lazım olduğundan daha çox məhsul istehlak etmə vərdişlərinin yaranması bazarda yeyinti məhsullarına olan tələbatı süni şəkildə artırdı və bu da öz növbəsində bu sektorda qiymət artımlarına səbəb oldu.

### Sosial karantin tədbirləri fonunda kənd təsərrüfatında məşğulluq

2020-ci ilin yanvar-sentyabr aylarının makroiqtisadi göstəricilərinə əsasən ölkə əhalisinin kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə muzdla çalışanların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9.2 faiz artaraq 57.600 nəfərə, dövlət sektorunda 3.3 faiz azalaraq 26.100 nəfərə, özəl sektorda isə 22.6 faiz artaraq 31.500 nəfərə çatıb. Özəl sektorda muzdla çalışanların sayının artmasına əsas səbəb hərəkətin rəsmi əmək fəaliyyəti ilə əlaqədələndirilməsi oldu. Belə ki, bir sıra müəssisələr işçi heyyətini işə çıxması üçün qısa müddətdə çalışanlarla əmək müqaviləsi bağlayaraq (əmək münasibətlərini məcburi şərtlər daxilində rəsmiləşdirərək) onlara onlayn platforması üzərində hərəkət icazəsi verdi. 2020-ci ilin yanvar-avqust ayları üzrə kənd təsərrüfatında bir işçiyə düşən orta aylıq iş saatlarının miqdarı 0.3 faiz azalaraq 147.9 saat təşkil edib.[11] Həmçinin 2020-ci ilin oktyabr ayının əvvəlinə ölkə üzrə fərdi sahibkarlıq subyeklərinin 32 faizi, yaxud 333.180 fərdi sahibkar aqrar sektorda fəaliyyət göstərib ki, bu da pandemiyanın yayılmağa başladığı fevral ayı ilə müqayisədə 35.8 faiz artıqdır.[12]

Koronavirus pandemiyası şəraitində kənd təsərrüfatına olan mənfi təsiri minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin qərarı əsasında kənd təsərrüfatı və yardımçı sahələrdə ümumi fəaliyyətin və çalışanların hərəkət qaydası müəyyən edildi.[13] Məhdudiyyətlərin şamil edildiyi fəaliyyət sahələri bunlardır: kənd təsərrüfatı məhsullarının istehsalı, idxalı, tədarükü, təchizatı ilə bağlı fəaliyyətlər; heyvandarlıq və bitkiçilik sahəsində fermer fəaliyyəti; aqrotexniki və baytarlıq xidmətlərinin göstərilməsi; heyvanlar üçün yem satış məntəqələrinin fəaliyyəti.

Qeyd olunan fəaliyyətlər üzrə hərəkətinə icazə verilən qruplar arasında olan fermerlərin (kənd təsərrüfatı məhsullarının istehsalçıları), tədarükçülərin və təchizatçıların, o cümlədən mövsümi işçilərin (budama, alaqlama, məhsul yığımı və s. sahələrdə) rayon və şəhərdaxili, həmçinin rayonlar və şəhərlərarası marşrutlar üzrə fəaliyyə-

[11] AZSTAT, 2020-ci ilin yanvar-sentyabr ayları, 5.

[12] Yenə orada, 115-16.

[13] Azərbaycan Respublikası Nazirlər Kabineti, "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında", 02.04.2020. https://nk.gov.az/az/document/4365/

ti tənzimlənir. Lakin sözügedən dövlət müdaxiləsi heç də fermerlərin məhsullarını Bakıya və ya digər şəhərlərə apararaq satmasına tam dəstək verə bilmədi. Qaydaya əsasən kənd təsərrüfatı ilə məşğul olan şəxslər yerli icra orqanlarından icazə arayışı alaraq tam sərbəst formada hərəkət edə bilərdilər. Karantin dövründə Bakıda qeydiyyatda olmayan şəxslərin şəhərə zərurət olmadığı hallarda girişi qadağan edildi. Kənd təsərrufatı məhsullarının Bakı şəhərinə minik avtobillərlə daşınması bu qadağanın sui-istifadəsi hallarına səbəb ola biləcəyindən bu məhsulların yalnız orta və iri tonnajlı nəqliyyat vasitələriylə daşınmasına icazə verildi. Bu səbəbdən kiçik sahibkarlıqla məşğul olan fermerlər məhsullarını Bakı bazarına gətirməkdə böyük çətinlik çəkdi. Kənd Təsərrüfatı Nazirliyinin buna cavabı isə bir neçə fermerin birləşərək orta və ya irihəcmli nəqliyyat vasitəsi kirayələyərək məhsullarını Bakıya gətirməyi tövsiyə etməsi odu.[14]

Hökumət kənd təsərrüfatında fasilələrin baş verməməsi üçün müvafiq qərarla birbaşa müdaxilə etdi, lakin bu problemi tam olaraq həll edə bilmədi. Aqrar sahədəki boşluqlar nəzərə alınmadığı üçün kiçik fermer təsərrüfatı ilə məşğul olanlar bu qərardan faydalana bilmədi.

## PANDEMİYANIN KƏND TƏSƏRRÜFATINDA DƏYƏR ZƏNCİRİNİN AYRI-AYRI HALQALARINA TƏSİRİ

COVID-19 pandemiyası iqtisadiyyatın digər sahələrində olduğu kimi kənd təsərrüfatında da dəyər zəncirinin ayrı-ayrı halqaları arasında ənənəvi tsiklin pozulması ilə nəticələnib. Belə ki, pandemiya ilə mübarizə tədbirləri çərçivəsində qəbul edilən qərarlar aqrar sektorda dəyər zənciri üzrə fəaliyyətlərin yerinə yetirilməsində fasilələrə səbəb olub. Bu isə öz növbəsində zəncirlərarası koordinasiyanın pozulması ilə nəticələnib. Pandemiya kənd təsərrüfatı sahəsində tədarük və təchizat sahələri ilə müqayisədə istehsalat prosesinə daha az təsir göstərib.

### Pandemiyanın kənd təsərrüfatı sahəsində istehsala təsiri

Azərbaycan iqtisadiyyatının may ayından etibarən resessiyaya daxil olmasına (2020-ci ilin yanvar-sentyabr aylarında ÜDM istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3.9 faiz, adambaşına ÜDM istehsalı isə 4.7 faiz azalıb[15]) baxmayaraq aqrar sektorda böyümə dinamikası qeydə alınıb. Pandemiyanın yayıldığı ilk dövrlərin (fevral-aprel) aqrar sektorda passiv təsərrüfatçılıq dövrü olması onun mənfi təsirlərini zəiflədən əsas amillərdən hesab edilir. Aqrar sahə üzrə ekspert Nicat Nəsirli aprel ayında hesab edirdi ki, kənd təsərrüfatı digər sektorlarla müqayisədə pandemiyanın

[14] BBC news, "Azərbaycanda koronavirus karantini: "məhsulumuzu gətirib Bakıda sata bilmirik"", 13.04.2020. https://www.bbc.com/azeri/azerbaijan-52271956

[15] AZSTAT, "2020-ci ilin yanvar-sentyabr ayları, 11.

təsadüf etdiyi zaman baxımından daha şanslıdır: "Pandemiya elə dövrə təsadüf edib ki, payız əkinləri çoxdan başa çatıb. İndi yazlıq bitkilərə aqrotexniki qulluq dövrüdür, bu isə sırf texnika ilə gedən prosesdir, kütləvi fəaliyyətə ehtiyac yoxdur. Bir də yazlıq bitkilərin əkin dövrüdür. Bu mənada xoşbəxtlikdir ki, kütləvi fəaliyyətə ehtiyac yoxdur."[16]

Lakin cari ilin ilk iki ayında (pandemiyadan əvvəl) əldə edilən artım səviyyəsini qorumaq mümkün olmayıb. 2020-ci ilin yanvar-fevral aylarında kənd təsərrüfatında ÜDM istehsalında əvvəlki il ilə müqayisədə 3.6 faiz artım[17] qeydə alınsa da, sonrakı aylarda müvafiq temp zəifləmiş, yanvar-sentyabr aylarında isə müvafiq göstərici 1.5 faiz olub. Pandemiya bitkiçilik fəaliyyətinə daha ciddi təsir göstərib; cari ilin yanvar-sentyabr aylarında heyvandarlıq sahəsində 3.1 faiz artım müşahidə edildiyi halda, bitkiçilik sahəsində cəmi 0.1 faiz böyümə qeydə alınıb.[18] Buna səbəb heyvandarlıqla müqayisədə bitkiçilik sahəsində insan əməyinin kütləvi istifadəsinə ehtiyacın olmasıdır. Pandemiya dövründə Azərbaycanda aqrar sektorun üstünlüklərindən biri də sektorun əmək qüvvəsi baxımından idxaldan asılı olmaması məsələsi oldu. Kənd Təsərrüfatı Nazirliyi hesab edir ki, pandemiya Azərbaycana aqrar sektora inkişaf etmiş dövlətlərlə müqayisədə daha az təsir göstərir, çünki aqrar sektor əmək qüvvəsi baxımından xaricdən asılı deyil.[19]

**Diaqram 1: 2020-ci ilin ayları üzrə kənd təsərrüfatının və onun seqmentlərində ÜDM istehsalının əvvəlki illə müqayisədə dinamikası, faiz**




**Mənbə: DSK, 2020**

16 Kaspi.az, "Koronavirus ölkənin kənd təsərrüfatına necə təsir edəcək?", 02.04.2020. http://kaspi.az/az/koronavirus-lkenin-kend-teserrufatina-nece-tesir-edecek

17 AZSTAT, 2020-ci ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri", 10.03.2020, 14. https://www.stat.gov.az/news/source/2020_2ay.zip

18 AZSTAT, "2020-ci ilin yanvar-sentyabr ayları, 11.

19 Kaspi.az, "Koronavirus ölkənin kənd təsərrüfatına necə təsir edəcək?"

Azərbaycan hökuməti kənd təsərrüfatı üzrə tətbiqlərdə nisbətən ehtiyatlı davranmağa çalışdı. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyəti, əkinçilik və məhsul yığımı kimi fəaliyyət sahələri Nazirlər Kabinetinin müvafiq qərarında fəaliyyətinə icazə verilən sahələr sırasına daxil edildi.[20] Lakin aqrar sahə üzrə ekspert Vahid Məhərrəmli mart-may aylarında 65 yaşdan yuxarı olan şəxslərə evdən çıxmaq qadağasının tətbiqini və yaşayış məskənləri arasında hərəkətin məhdudlaşdırılmasını işçi qüvvəsinin hərəkətinə maneə yaratmaqla əkinçilik sahəsinə mənfi təsir etdiyi qənaətindədir. Onun fikrincə xüsusilə də kəndlərdə vətəndaşların öz yaşadığı yerdə deyil, başqa kəndlərdə əmək fəaliyyətinə üstünlük verməsi amili fermer təsərrüfatları üçün iş gücü çətinliyi yaratdı.[21]

Pandemiya kənd təsərrüfatında uzun illər ərzində formalaşmış digər bir problemi – qeyri-rəsmi məşğulluğu bir daha gündəmə gətirdi. Karantin tədbirləri zamanı hərəkət icazəsinin əmək fəaliyyətini təsdiq edən rəsmi sənədlər əsasında təmin edilməsini nəzərə alsaq, bu sahədə çalışanların böyük əksəriyyəti müvafiq üstünlüklərdən istifadə edə bilməyib. Çünki bu sahədə muzdla çalışanların əhəmiyyətli hissəsinin əməyini təsdiqləyən rəsmi sənədləri (əmək müqaviləsi) yoxdur. Təsadüfi deyil ki, ölkə üzrə hər 3 nəfərdən birinin məşğulluğunu təmin edən kənd təsərrüfatı sahəsində cəmi 58.5 min nəfər muzdla işləyənlər vardır.[22] Başqa sözlə, məşğulluğun 1/3 hissəsindən çoxunu əhatə edən sahənin muzdlu əmək bazarında payı cəmi 3.5 faizdir.[23]

Aprel ayından başlayaraq bitkiçilik sahəsinin böyümə tempində kəskin azalma qeydə alındı. Müvafiq dövr mövsüm dövrü hesab edilir və məhsulun toplanması prosesini əhatə edir. Yəni aprel-may aylarında karantin tədbirlərindən qaynaqlanan səbəblərdən əkin sahələrində aqrotexniki tələblərə tam əməl edilə bilməməsi, vaxtlı-vaxtında xidmətin göstərilməməsi kimi səbəblər bu sahədə proqnozlaşdırılan artıma neqativ təsir göstərdi. Pandemiyadan əvvəlki konyuktur nəzərə alınmaqla hökumət 2020-ci ildə kənd təsərrüfatında 4.8 faiz artım proqnozlaşdırır.[24]Aqrar sektorda böyümə tempinin zəifləməsi bu sahəyə investisiya qoyuluşlarına da təsirsiz

[20] Nazirlər Kabineti, "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi barədə Qərarı", 31.03.2020. https://cabmin.gov.az/media/files/2e418d0ddb442e2adaeb5b6ce30444f8.pdf

[21] Amerikanın Səsi (VOA) Azərbaycanca, "Vahid Məhərrəmli: Pandemiyanın aqrar sahəyə ciddi təsirləri var", 04.05.2020. https://www.amerikaninsesi.org/a/vahid-m%C9%99h%C9%99rr%C9%99mli-pandemiyan%C4%B1n-aqrar-sah%C9%99y%C9%99-ciddi-t%C9%99sirl%C9%99ri-var-/5403981.html

[22] AZSTAT, Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü", baxış tarixi: 19.09.2020. https://www.stat.gov.az/source/agriculture/az/1.4.xls

[23] AZSTAT, 2020-ci ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri", 14.08.2020, 85-86. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1

[24] Maliyyə Nazirliyi, "2020-ci il və sonrakı üç il üzrə makroiqtisadi proqnozlar", baxış tarixi: 19.09.2020. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5dad5bfc9e366.pdf

ötüşmədi. Cari ilin ilk 9 ayı ərzində əsas kapitala investisiya qoyuluşu 286.3 milyon manat olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 29.2 faiz azdır. Nəticədə aqrar sektorun iqtisadiyyatda payı 7.6 faiz olduğu halda əsas kapitala investisiya qoyuluşlarının cəmi 2.7 faizi bu sahənin payına düşdü.[25]

### Tədarük və təchizat zəncirində yaranan çətinliklər

Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyevin sözlərinə görə pandemiya kənd təsərrüfatına ciddi təsir etməyib. Onun fikrincə pandemiya dövründə kənd təsərrüfatı fəaliyyətləri üzrə ciddi məhdudiyyətlərin qoyulmaması, bağlarda, istixanalarda bütün kənd təsərrüfatı işçilərinin çalışmasına şəraitin yaradılması, yeni elektron kənd təsərrüfatı informasiya sisteminin istifadəyə verilməsi, subsidiyalara onlayn müraciət mexanizminin yaradılması kimi məqamlar fermerlərin işini rahatlaşdırıb və sektorda heç bir problem olmayıb.[26] Lakin qeyri-rəsmi məşğulluğun geniş yayılması, aqrar sektorda fəaliyyət göstərən müəssisələrin sektorda payının zəif olması (cəmi məhsul istehsalında 9.4 faiz, 2018, AZSTAT), bitkiçilik üzrə məhsul istehsalının 91.8 faizinin və heyvandarlıq sahəsi üzrə istehsalın isə 89.6 faizinin fərdi sahibkarlıq subyektlərinin və ev təsərrüfatlarının payına düşməsi kimi amillər pandemiyanın kənd təsərrüfatına təsirlərinə birmənalı baxışın düzgün olmadığı qənaəti yaradır.[27] Çünki qəbul edilən karantin tədbirləri ev təsərrüfatlarının fəaliyyətinin müəyyən mərhələlərdə məhdudlaşdırılması ilə nəticələnib.

Pandemiya kənd təsərrüfatı sahəsində tədarük fəaliyyətinə təsirsiz ötüşmədi. Belə ki, iyul ayının sonuna olan məlumata görə ötən il ilə müqayisədə payızlıq və yazlıq dənli və paxlalı bitkilər üzrə 8.5 faiz, dən üçün günəbaxan üzrə 22 faiz, bostan bitkiləri üzrə 1.1 faiz, tərəvəz məhsulları üzrə isə 0.5 faiz daha az məhsul yığımı olub. Müvafiq indikator üzrə yalnız dən üçün qarğıdalı (22.2 faiz) və şəkər çuğunduru üzrə (79.7 faiz) artım qeydə alınıb. Ümumilikdə isə 2020-ci ilin 7 ayı ərzində 1 milyon 50 min hektar sahədə məhsul yığımı başa çatıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 7.4 faiz azdır. Müvafiq dövr ərzində isə 5 milyon 254 min ton məhsul yığılıb ki, bu da 2019-cu illə müqayisədə 3.3 faiz azdır (Cədvəl 2).

---

[25] AZSTAT, "2020-ci ilin yanvar-sentyabr ayları, 42.

[26] Report.az, "Pandemiya meyvə-tərəvəz istehsalına və ixracına necə təsir edib?", 27.07.2020. https://report.az/ask/pandemiya-meyve-terevez-istehsalina-ve-ixracina-nece-tesir-edib/

[27] AZSTAT, Kənd təsərrüfatının ümumi məhsulunun strukturu, baxış tarixi: 20.09.2020. https://www.stat.gov.az/source/agriculture/az/1.10.xls

Cədvəl 2: Bitkiçilik məhsullarının yığımı üzrə dinamika (yanvar-iyul)

| | Yığılmış sahə, Hektar | | Yığım sahəsi əkin sahəsinə nisbətən, faizlə | | Yığılmış məhsul, ton | |
|---|---|---|---|---|---|---|
| | 2020 | 2019 | 2020 | 2019 | 2020 | 2019 |
| Payızlıq və yazlıq dənli və paxlalı bitkilər,cəmi | 940107.5 | 1027387.8 | 97.1 | 98.8 | 2894196.1 | 3219998.7 |
| Dən üçün qarğıdalı | 3666.4 | 3000.4 | 10.6 | 9.1 | 18399.6 | 14362.3 |
| Dən üçün günəbaxan | 1171.1 | 1499.4 | 10.3 | 9.1 | 2456.7 | 2811.6 |
| Şəkər çuğunduru | 511.5 | 284.6 | 10.3 | 3.9 | 15339.4 | 5396.7 |
| Kartof | 37786.3 | 34211.6 | 61 | 60.1 | 611683.1 | 576315.2 |
| Tərəvəz | 49802.4 | 50050.6 | 74.8 | 72.2 | 1075068.5 | 1011441.6 |
| Bostan bitkiləri | 17134.4 | 17332 | 85.6 | 81.1 | 363175.4 | 349756.9 |
| Meyvə və giləmeyvə | - | - | - | - | 263503.6 | 243984.1 |
| Üzüm | - | - | - | - | 7549 | 5714.7 |
| Yaşıl çay yarğpağı | - | - | - | - | 603 | 476 |
| Tütün yarpağı | - | - | - | - | 2485.6 | 2348.7 |

**Mənbə: DSK, 2020**

Azərbaycan hökumətinin pandemiya ilə mübarizə tədbirləri çərçivəsində qəbul etdiyi qərarlar aqrar sektorun təchizat zəncirində müəyyən fasilələrin yaranmasına səbəb oldu. Regionlararası hərəkətin məhdudlaşdırılması və xüsusi ilə də kənd təsərrüfatı məhsulları üçün əsas bazar hesab edilən Bakı, Sumqayıt, Gəncə kimi böyük şəhərlərə fərdi qaydada (fiziki şəxslər üçün) giriş-çıxışın qadağan edilməsi ev təsərrüfatlarının öz məhsullarının son istehlakçıya çatdırılmasında çətinliklər yaratdı. Karantin dövründə yalnız yük maşınları ilə məhsulların daşınması imkanının yaradılması səbəbindən əksər istehsalçıların bazara birbaşa çıxışı imkanını məhdudlaşdırdı.[28] Çünki Azərbaycanda ev təsərrüfatları öz məhsullarını adətən fərdi qaydada və fərdi avtomobilləri ilə bazarlara çıxarır.[29] Nəqliyyatla əlaqədar yaranan problemlər nəticəsində istehsalçılar öz məhsullarını real bazar dəyərindən aşağı qiymətə satmaq məcburiyyəti ilə üzləşdi. Kənd Təsərrüfatı Nazirliyinin rəsmiləri isə fərdi avtomobillərlə məhsulların daşınmasına icazənin verilməməsi haqqında qərarı sui-istifadə hallarının olması ilə izah ediblər.[30]

[28] APA İnformasiya Agentliyi, "BDYPİ sərtləşdirilmiş xüsusi karantin rejimində kənd təsərrüfatı məhsullarının daşınması qaydasını açıqlayıb", 22.06.2020. https://apa.az/az/sosial_xeberler/BDYPI-srtlsdirilmis-xususi-karantin-rejimind-knd-tsrrufati-mhsullarinin-dasinmasi-qaydasini-aciqlayib-593038

[29] Report.az, "Pandemiya meyvə-tərəvəz istehsalına və ixracına necə təsir edib?", 27.07.2020.

[30] BBC News Azərbaycanca, "Azərbaycanda koronavirus karantini."

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ölkələr səviyyəsində qəbul edilən hərəkətin məhdudlaşdırılması, o cümlədən sərhədlərin bağlanması tədbirlərinin ərzaq təchizatı zəncirini poza biləcəyi ilə əlaqədar dünya ictimaiyyətini ilk günlərdən məlumatlandırdı. ÜTT və FAO hesab edir ki, "onlar kənd təsərrüfatı və qida sənayesi işçilərinin hərəkətini çətinləşdirə və ərzaq konteynerlərinin sərhəddə qalma müddətini uzada bilər. Bu isə məhsulların xarab olmasına və qida tullantılarının artmasına gətirib çıxaracaq. Əgər belə bir ssenari reallaşarsa, bu, ən çox həssas qruplara və qida çatışmazlığından əziyyət çəkən insanlara təsir edən ərzaq təchizatı zəncirini poza bilər."[31]

## Mövsümilik, istehlakda yaranan fasilələr və ixracın təşkili problemləri

İlk dövrlərdə pandemiyanın yaz aylarına təsadüf etməsi aqrar sektor aspektindən üstünlük (şans) hesab edilirdi. Lakin mübarizə tədbirlərinin qısamüddətli dövrdə effekt verməməsi pandemiyanın aqrar fəaliyyətin bütün mərhələlərinə, eləcə də məhsul yığımı mövsümünə mənfi təsir edib. Prosesin davamlılığı isə bu təsirlərin daha da artacağını proqnozlaşdırmağa əsas verir. Tədqiqatın davam etdiyi bu günlərdə pandemiya həm yoluxma, həm də ölüm sayı ilə Azərbaycanda tarixi maksimumlarını ard-arda yeniləməkdə idi.[32]

Məhsul yığımını əhatə edən aylar ərzində hökumətin qəbul etdiyi karantin qərarları nəticəsində iaşə sektorunun fəaliyyətinə tətbiq edilən məhdudiyyətlər kənd təsərrüfatı məhsullarına tələbin əhəmiyyətli dərəcədə azalmasına səbəb oldu. Müvafiq indikatorlar rəsmi statistikada öz əksini tapmasa da, iaşə xidmətləri üzrə dövriyyənin əhəmiyyətli dərəcədə azalması, kütləvi tədbirlərin təşkili fəaliyyətinin, o cümlədən yasların və toyların keçirilməsinin qadağan edilməsi daxili bazarlarda meyvə-tərəvəzə tələbatı aşağı salıb.

**Cədvəl 3: Pandemiya dövründə ictimai iaşə dövriyyəsinin dinamikası**

| *Aylar* | *2019-cu ilin müvafiq dövrünə nisbətdə dinamika* |
|---|---|
| *Aprel/2020* | 4 dəfə azalma |
| *May/2020* | 3.2 dəfə azalma |
| İyun/2020 | 4.3 dəfə azalma |
| İyul/2020 | 3.7 dəfə azalma |
| *Avqust/2020* | 2.1 dəfə azalma |
| *Sentyabr/2020* | 2 dəfə azalma |

**Mənbə: DSK, 2020**

[31] Birləşmiş Millətlər Təşkilatı, "Ərzaq məhsullarının ticarətinə və bazarlara COVID-19 pandemiyasının təsirinin azaldılması", 27.03.2020. https://azerbaijan.un.org/index.php/az/51345-rzaq-mhsullarinin-ticartin-v-bazarlara-covid-19-un-tsirinin-azaldilmasi

[32] Koronovirusinfo, https://koronavirusinfo.az/storage/app/l8Hbto4bE933OdJPJUr7KjfQzjJZbt372lFtvaLh.pdf

DSK-nın məlumatına görə cari ilin yanvar-sentyabr aylarında iaşə xidmətləri üzrə dövriyyə 529 milyon manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2.1 dəfə azdır.[33] İkinci cədvəldə əksini tapan məlumatlardan aydın olur ki, iaşə sektoru üzrə dövriyyənin azalması nəinki kənd təsərrüfatı üçün qeyri-mövsüm dövrü hesab edilən aprel ayında, həmçinin may, iyun, iyul, avqust və sentyabr aylarında da kəskin formada davam edib. İaşə müəssisələrinin fəaliyyətini dayandırması səbəbindən ciddi çətinliklə üzləşmiş sahələrdən biri də ət istehsalı sahəsidir. Kafelərin, restoranların işləməməsi, kütləvi tədbirlərin təşkilinə məhdudiyyətin tətbiqi digər məhsullar kimi ətə olan tələbatın da azalmasına səbəb olub.[34]

İstehsalçı üçün digər problemlərdən biri isə mövsümi yarmarkaların fəaliyyətinin dayandırılması hesab edilir. Yarmarkalar xüsusilə də kiçik təsərrüfatlar üçün öz məhsullarını realizə etmək imkanı yaradırdı. Cari ildə isə kəndli müvafiq bazar imkanından istifadə edə bilmir. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədarük və Təchizat ASC-dən verilən məlumata əsasən mövsümi yarmarkaların (məsələn: bal yarmarkası) fəaliyyət göstərməməsinin səbəbi ölkədə koronavirus infeksiyası ilə bağlı Operativ Qərargahın kütləvi tədbirlərin keçirilməsini qadağan etməsidir. Yarmarkaların yenidən təşkili ancaq bu cür tədbirlərin keçirilməsinə icazə veriləndən sonra mümkün olacaqdır.[35]

Pandemiya ilə mübarizə tədbirləri çərçivəsində hökumətin, o cümlədən Operativ Qərargahın bir sıra qərarları kimi yarmarkaların təşkili məsələsində də anlaşılmazlıq və qeyri-ardıcıllıq müşahidə edilir. Necə olur ki, karantin tədbirlərinin tətbiqi dövründə (23-24 may tarixlərində) Bakı şəhərində 3 ərazidə Ramazan bayramı ilə əlaqədar kənd təsərrüfatı məhsulları yarmarkalarının təşkili[36] mümkün olur, amma tematik və mövsümi yarmarkaların keçirilməsi kütləvi tədbir kateqoriyasına aid edilməklə qadağan edilir?

Daxili bazarlarla yanaşı xarici bazarlarda da tələbatın azalması yerli istehsalçılar üçün məhsulun realizəsi prosesini əhəmiyyətli dərəcədə pisləşdirdi. Pandemiya ilə əlaqədar həm Azərbaycanda, həm də xarici dövlətlərdə şərab məhsullarına tələbat azalıb. Azalmanın səbəblərinə iaşə xidmətlərinə məhdudiyyətinin tətbiqi və alıcılıq qabiliyyətinin zəifləməsi kimi amillər daxildir. Nəticədə istehsal müəssisələrinin anbarlarında əlavə ehtiyatlar yaranıb. Bu isə şərab istehsalı müəssisələrinin məh-

[33] AZSTAT, 2020-ci ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri, 15.09.2020, 63. https://www.stat.gov.az/news/source/2020_9ay.zip

[34] Hafta.az, "Rayonlarda kəndli mal-qarasını sata bilmir – SƏBƏB", 17.08.2020. https://hafta.az/rayonlar-da-kendli-mal-qarasini-sata-bilmir-sebeb-285366-xeber.html

[35] Trend İnformasiya Agentliyi, Ölkədə mövsümi yarmarkaların fəaliyyəti dayandırılıb, 09.09.2020. https://az.trend.az/business/3296377.html

[36] AZTV, "Paytaxtda "Kənddən şəhərə" Ramazan yarmarkaları açılıb", 23.05.2020. http://www.aztv.az/az/news/7216/paytaxtda-kendden-sehere-ramazan-yarmarkalari-acilib

sul almaq imkanını məhdudlaşdırıb, texniki və süfrə üzümlərinə tələbat zəifləyib.[37] 2020-ci ilin birinci yarısında Azərbaycanın şərab sənayesi 243.6 min dekalitr məhsul ixrac edib.[38] Bu isə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə (2019-cu il, 498 min dekalitr) 51.1 faiz azdır.[39]

Ümumiyyətlə isə kənd təsərrüfatı məhsullarının ixracında əhəmiyyətli paya malik olan pomidorun (17.9 faiz, yanvar-iyul) və albalı, gilas meyvələrinin (15.2 faiz, yanvar-iyul) ixracında artım qeydə alınsa da,[40] əksər kənd təsərrüfatı məhsulları üzrə azalma dinamikası müşahidə edildi. 2019-cu ilin eyni dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-avqust aylarında ət və qida üçün yararlı ət əlavələri üzrə ixrac 83.7% faiz, yaxud 456.7 min ABŞ dolları, dənli bitkilər üzrə ixrac 99.1 faiz, yaxud 3 milyon 6.8 min ABŞ dolları, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları üzrə ixrac 43.4 faiz və ya17 milyon 437 min ABŞ dolları həcmində azalıb (Cədvəl 5).

**Cədvəl 4: Bir sıra məhsullar üzrə ixracın dinamikası, yanvar-avqust**

| Mal qruplarının adı | 2020-ci il, min ABŞ dolları ilə | 2019-cu il, min ABŞ dolları ilə | Dinamika |
|---|---|---|---|
| Ət və qida üçün yararlı ət əlavələri | 88.87 | 545.58 | -83.7% |
| Süd məhsulları; quş yumurtası; təbii bal, başqa yerdə adı çəkilməyən və təsnif olunmayan heyvan mənşəli ərzaq məhsulları | 10 749.55 | 12 049.68 | -10.8% |
| Yeməli meyvələr və qoz-fındıq; sitrus meyvələrinin qabıqları və ya qovun qabıqcıqları | 162 347.40 | 176 022.07 | -7.8% |
| Dənli bitkilər | 30.16 | 3 037.01 | -99.1% |
| Yağlı toxum və bar; digər toxumlar, bar və taxıl; dərman bitkiləri və texniki məqsədlər üçün bitkilər; saman və yem | 1 890.95 | 3 283.31 | -42.4% |
| Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları | 11 736.98 | 20 730.48 | -43.4% |
| Pambıq | 91 702.18 | 109 139.80 | -16% |

**Mənbə: Dövlət Gömrük Komitəsi, 2020**

Kənd təsərrüfatı məhsullarının ixracında real azalma statistik göstəricilərdə əks olunanla müqayisədə daha çoxdur. Ənənəvi olaraq fərdi təsərrüfatlar, ev təsərrüfat-

[37] Report İnformasiya Agentliyi, "Azərbaycanda emal müəssisələrinin üzümə tələbatı azalıb", 12.09.2020. https://report.az/ask/azerbaycanda-emal-muessiseleri-terefinden-uzumlere-telebat-zeifleyib/

[38] AZSTAT, Azərbaycanın xarici ticarət əlaqələri (yanvar - iyun, 2020). https://www.stat.gov.az/source/trade/az/bulleten/2020/f_trade_06_2020.zip

[39] AZSTAT, Azərbaycanın xarici ticarət əlaqələri (yanvar - iyun, 2019). https://www.stat.gov.az/source/trade/az/bulleten/2019/f_trade_Ilrub_2019.zip

[40] Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "İxrac İcmalı, avqust 2020", baxış tarixi: 20.09.2020, 7. http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2020/08_ExportReview-2020_.pdf

ları öz məhsullarını daha çox fiziki şəxs kimi ölkədən aparıb Gürcüstan və Rusiya bazarlarında birbaşa satırdılar. Məhsulların qeyd edilən formada xarici bazarlara daşınmasının uçotu tam olaraq aparılmırdı. Lakin pandemiya ilə mübarizə məqsədilə ölkə sərhədlərinin bağlanması fiziki şəxslərin ölkə sərhədlərindən keçməsi imkanlarını məhdudlaşdırıb ki, bu da aqrar məhsulların uçotdan kənar dövriyyəsini mümkünsüz edib. Artıq kiçik və mikro təsərrüfatlar öz məhsullarını xarici bazarlara daşıya bilmirlər.

## Aqrar məhsullar üzrə istehsal qiymətləri indeksi və istehlak qiymətləri indeksinin dinamikası

Pandemiya dövründə kənd təsərrüfatı məhsullarının istehsal qiymətlərində əhəmiyyətli artım qeydə alındı. 2020-ci ilin yanvar-sentyabr aylarında istehsalçı qiymətlərində ötən ilin eyni dövrü ilə müqayisədə 7.3 faiz, o cümlədən çoxillik bitkilər üzrə 13.3 faiz, birillik bitkilər üzrə 7.6 faiz, heyvandarlıq məhsulları üzrə 5.7 faiz, balıq və balıq məhsulları üzrə isə 2.7 faiz artım qeydə alınıb.[41]

**Cədvəl 5: Kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi, əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə**

| | Yanvar | Mart | May | İyun | İyul | Avqust | Sentyabr |
|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı məhsulları | 108.5 | 109.1 | 107.6 | 109.6 | 106.0 | 104.5 | 102.4 |
| Birillik bitkilər,cəmi | 115.6 | 110.3 | 107.1 | 111.5 | 101.7 | 103.8 | 100.4 |
| Çoxillik bitkilər,cəmi | 112.4 | 114.7 | 115.1 | 112.3 | 110.9 | 110.9 | 110.4 |
| Heyvandarlıq məhsulları,cəmi | 102.9 | 106.8 | 106.2 | 107.5 | 107.6 | 103.6 | 102.2 |
| İribuynuzlu mal-qara və onların məhsulları | 104.8 | 107.7 | 104.7 | 106.1 | 105.2 | 102.1 | 101.7 |
| Qoyun və keçilər, onların çiy südü və yunu,cəmi | 102.5 | 102.5 | 105.3 | 105.8 | 105.5 | 102.1 | 101.9 |
| Ev quşları və yumurtalar,cəmi | 97.0 | 110.0 | 112.4 | 115.0 | 118.6 | 109.8 | 103.6 |
| Ev quşları | 87.6 | 100.6 | 100.1 | 100.2 | 100.1 | 99.9 | 100.2 |
| Yumurta | 92.6 | 109.9 | 126.2 | 139.3 | 166.5 | 135.4 | 127 |
| Balıq və balıq məhsulları | 101.8 | 100.9 | 102.6 | 103.4 | 103.0 | 103.3 | 103.6 |

**Mənbə: DSK, 2020**

[41] AZSTAT, 2020-ci ilin yanvar-sentyabr ayları, istehsalçı qiymətləri indeksi, baxış tarixi: 19.10.2020. https://www.stat.gov.az/source/price_tarif/az/P/2020/P_09_2020.xls

İstehsalçı qiymətlərinin aylıq müqayisəsi göstərir ki, subtropik meyvələr, kol meyvələri və qoz-fındıq, mal əti, iribuynuzlu mal-qaranın çiy südü, yumurta kimi məhsullar üzrə istehsal xərclərində pandemiya dövründə daha ciddi artım müşahidə edilib. COVID-19 pandemiyası səbəbindən aqrar sektorda dəyər zəncirində yaranan çətinliklər və istehsal xərclərinin artması istehlak qiymətlərinə də ciddi təsir göstərdi. Cari ilin yanvar-sentyabr aylarında tərəvəz qiymətlərində 7.7 faiz, meyvələrdə 9 faiz, süd və süd məhsullarında 6.9 faiz artım baş verdi. Pandemiyanın sosial təcrid tədbirləri ilə əhatə olunduğu aylarda istehlak qiymətlərində daha kəskin artım qeydə alındı.

**Cədvəl 6: İstehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri**

| Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Məhsulun adı** | **Yanvar** | **Fevral** | **Mart** | **Aprel** | **May** | **İyun** | **İyul** | **avqust** | **sentyabr** |
| Ət və ət məhsulları | 103,4 | 103,2 | 103,5 | 104,2 | 104,6 | 104,7 | 104,5 | 103,4 | 102,7 |
| Balıq və balıq  məhsulları | 104,8 | 104,8 | 107,3 | 106,6 | 105,5 | 105,2 | 104,3 | 104,8 | 104,5 |
| Süd məhsulları, yumurta | 109,0 | 108,1 | 108,2 | 106,7 | 103,3 | 107,0 | 107,9 | 107,1 | 105,3 |
| Meyvələr | 100,7 | 103,6 | 108,2 | 112,1 | 112,8 | 111,6 | 110,2 | 110,1 | 110,9 |
| Tərəvəzlər | 110,7 | 110,1 | 114,2 | 110,6 | 110,1 | 104,8 | 99,3 | 104,7 | 102,3 |

**Mənbə: DSK, 2020**

Azərbaycanda kənd təsərrüfatı kooperasiyalarının zəif təşəkkülü və istehsalçıların əhəmiyyətli hissəsinin fərdi sahibkarlar, kəndli və ev təsərrüfatları olması istehlak qiymətlərinin artmasına təsir göstərən digər mühüm faktorlardan biridir. Sadalanan səbəblər istehsalçı və istehlakçı arasında vasitəçisiz münasibətin qurulması imkanını çətinləşdirməklə xüsusilə də iri şəhərlərdə, həmçinin paytaxt Bakı şəhərində inhisarçı qiymətlərinin yaranmasına səbəb olur.

**Diaqram 2: İstehlak məhsullarının və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri, əvvəlki ilin eyni dövrü ilə müqayisədə**




**Mənbə: DSK, 2020**

Kənd təsərrüfatı məhsullarının qiymətlərində artım, əhalinin azalan gəlirləri fonunda baş verdi. Alıcılıq gücünün azalması bir tərəfdən qiymət artımı istiqamətində yaranan təzyiqləri nisbətən zəflətmiş, digər tərəfdən isə artan qiymət kənd təsərrüfatı məhsullarının əlçatanlığına mənfi təsir göstərdi. Bütün bunlar pandemiyaya qarşı preventiv mübarizə üsulu kimi sağlam və keyfiyyətli qidalanmanın tövsiyə edildiyi bir zamanda baş verdi və ailə büdcələri üzərində maliyyə yükünü daha da artırdı.

## Cari konyukturun ərzaq təhlükəsizliyi aspektindən qiymətləndirilməsi

FAO və ÜTT hesab edir ki, vətəndaşlarının müdafiəsi üçün fəaliyyət göstərərkən ölkələr ticarəti daha az məhdudlaşdırıcı tədbirlər həyata keçirməli, karantin müddətlərində ərzaq çatışmazlığının qarşısını almaq üçün ticarət axınının mümkün qədər azad olmasına səy göstərməlidirlər.[42]

Bu istiqamətdə müsbət məqamlardan biri ondan ibarətdir ki, Azərbaycan hökuməti ilk gündən etibarən yük daşımalara, o cümlədən də ərzaq məhsullarının idxalına hər hansı sərhəd məhdudiyyətləri tətbiq etmədi. Mümkün risklərin aradan qaldırılması məqsədilə xüsusi qaydalar hazırlandı və nəzarət mexanizmləri yaradıldı.[43] Ərzaq təhlükəsizliyi aspektindən qiymətləndirdikdə idxal prosesində məhdudiyyətin tətbiq edilməməsi vacib faktorlardan hesab edilir. Azərbaycan ərzaq məhsulları ilə təminat sahəsində xarici bazarlardan asılı ölkələrdəndir. Belə ki, 2018-ci ildə bütün növ dənli bitkilər üzrə cəmi tələbat 4.4 milyon ton olduğu halda yerli istehsal 3.2 milyon ton, yaxud cəmi tələbatın 73 faizi həcmində oldu. 2018-ci ildə 1.2 milyon ton dənli bitki idxal edilib.[44] Müvafiq vəziyyət heyvandarlıq məhsulları üzrə də müşahidə olunub. Belə ki, hesabat dövründə ət və ət məhsulları üzrə idxaldan asılılıq 20.9 faiz, süd və süd məhsulları üzrə 52.9 faiz, balıq və balıq məhsulları üzrə 16.6 faiz olub (Cədvəl 7). Sahə  üzrə ekspert Vahid Məhərrəmli bildirir ki, Azərbaycanda yalnız tərəvəzə olan tələbat yerli istehsal hesabına ödənir.[45]

**Cədvəl 7: 2018-ci ildə heyvandarlıq məhsulları üzrə daxili tələbatın ödənilməsi səviyyəsi**

| | İstehsal, ton | Tələbat, ton | Daxili tələbatın yerli istehsal hesabına öədnilən hissəsi, % |
|---|---|---|---|
| Ət və ət məhsulları, cəmi | 326,024 | 412,117 | 79.1 |
| Mal əti və ət məhsulları | 135,620 | 176,399 | 76.9 |

42 Birləşmiş Millətlər Təşkilatı, "Ərzaq məhsullarının ticarətinə və bazarlara COVID--19 virusunun təsirinin azaldılması."

43 AZTV, "Prezident: "Azərbaycanda koronavirusun yayılması ehtimalı o qədər də yüksək deyil", 03.03.2020. http://www.aztv.az/az/news/5606/prezident-azerbaycanda-koronavirusun-yayilmasi-ehtimali-o-qeder-de-yuksek-deyil

44 AZSTAT, "2018-ci ildə Azərbaycanın icmal ərzaq balansı, bitkiçilik məhsulları üzrə", baxış tarixi: 19.09.2020. https://www.stat.gov.az/source/food_balances/az/001.xls

45 Amerikanın Səsi (VOA) Azərbaycanca, "Vahid Məhərrəmli: Pandemiyanın aqrar sahəyə ciddi təsirləri var."

| | | | |
|---|---|---|---|
| Qoyun və keçi əti,ət məhsulları | 80,800 | 82,260 | 98.2 |
| Donuz əti və ət məhsulları | 483 | 10,273 | 4.7 |
| Quş əti və ət məhsulları | 109,121 | 143,185 | 76.2 |
| Süd və süd məhsullarının cəmi | 2,080,437 | 4,420,379 | 47.1 |
| Yumurta, min ədəd | 1,676,213 | 1,650,616 | 101.6 |
| Balıq və balıq məhsulları | 61,879 | 74,172 | 83.4 |
| Pendir | 50,081 | 57,783 | 86.7 |

**Mənbə: DSK, 2020**

Sadalanan faktlar göstərir ki, pandemiya fonunda azalan istehsal və investisiya qoyuluşu ərzaq təhlükəsizliyi üzrə riskləri artırır, kənd təsərrüfatı məhsulları bazarında müşahidə edilən xarici fluktasiyaların təsirlərinə açıqdır. Bundan başqa, artan qiymətlər aqrar məhsulların əlçatanlığına neqativ təsir göstərir. İqtisadçı Qubad İbadoğu pandemiyanın kənd təsərrüfatı təsirlərini daha makro səviyyədə gündəmə gətirərək bildirib ki, "kənd təsərrüfatı qida sənayesinin əsas xammal bazasını təşkil etdiyinə görə pandemiyanın xüsusilə də ailə kəndli təsərrüfatlarına vurduğu ziyan gələcəkdə qida təminatında da problemlər yaradacaq. Digər tərəfdən  də əhalinin yarısına qədərinin kənddə yaşadığını, kənd təsərrüfatı istehsalçılarının əsasən ailə kəndli təsərrüfatlarından ibarət olduğunu nəzərə alsaq, onların da əksəriyyətinin zərərə düşməsi aqrar rayonlarda yoxsulluğu və işsizliyi daha da dərinləşdirəcəkdir."[46] Hazırda kənd təsərrüfatında digər problem iqlim dəyişiklərindən qaynaqlanan quraqlıqdır. Aqrar sektor bir tərəfdən pandemiyanın yaratdığı konyukturda (investisiya qoyuluşlarının azalması, ixracat problemlərindən qaynaqlanan gəlir daralması) resessiya riski, digər tərəfdən isə xroniki quraqlıq və hökumətin su təsərrüfatının idarə edilməsi siyasətində müşahidə edilən ciddi nöqsanlar səbəbindən dayanıqlı inkişaf çətinlikləri ilə üz-üzədir.

## NƏTİCƏ

Təhlillər zamanı aqrar sektorda dəyər zəncirinin müxtəlif halqalarında pandemiyanın mənfi təsirləri müşahidə edildi. Müvafiq təsirlər ilk növbədə sektorun böyümə dinamikasında özünü büruzə verir. Belə ki, cari ilin yanvar-aprel aylarında 3.8 faiz böyümə qeydə alınan və hökumətin 4.8 faiz artım proqnozlaşdırdığı aqrar sektorda müvafiq göstərici yanvar-sentyabr aylarında 1.5 faiz olub. İlk aylarda aqrar sektorda aktiv təsərrüfatçılıq dövrünün olmaması və sektorun əmək qüvvəsi baxımından xaricdən zəif asılılığı pandemiyanın bu sektora inkişaf etmiş dövlətlərlə müqayisədə daha az təsir etməsinə səbəb olub.

[46] Contact.az, "Pandemiyaya qarşı sosial-iqtisadi siyasətin dərsləri", 10.07.2020. https://www.contact.az/ext/news/2020/7/free/analytics/az/125603.htm

Pandemiya bitkiçilik fəaliyyətinə daha ciddi təsir göstərib. Heyvandarlıqla müqayisədə bitkiçilik sahəsində insan əməyindən daha çox istifadə edilir və əmək qüvvəsinin hərəkəti istiaqamətində yaranan çətinliklər səbəbindən əkin sahələrində aqrotexniki normalar vaxtında icra edilmədi. Hökumətin daha ehtiyatlı qərarlar qəbul etməsinə baxmayaraq işçi qüvvəsinin hərəkətində problemlərin yaranması kənd təsərrüfatında əmək fəaliyyətinin əhəmiyyətli hissəsinin qeyri-rəsmi olmasından qaynaqlandı.

Pandemiya aqrar sahə üzrə tədarük fəaliyyətində gecikmələrə səbəb oldu. İyul ayının sonuna olan məlumata görə məhsul yığımı başa çatmış sahələr ötən ilin eyni dövrü ilə müqayisədə 7.4 faiz, cəmi yığılmış məhsul miqdarı isə 3.3 faiz az olub.

Pandemiyanın təsirlərinin azaldılması məqsədilə Azərbaycan hökumətinin qəbul etdiyi qərarlar aqrar sektorda təchizat prosesinin təşkilinə mənfi təsir edib. Regionlararası hərəkətə, xüsusilə də aqrar məhsullar üzrə əsas bazarlara (Bakı, Sumqayıt, Gəncə) fərdi qaydada (fiziki şəxslər üçün) giriş-çıxışın qadağan edilməsi və karantin dövründə fərdi avtomobillərlə yük daşınmasına məhdudiyyətin tətbiq edilməsi, əksər istehsalçıların, o cümlədən fərdi sahibkarların və ev təsərrüfatlarının öz məhsullarını bazara çıxarmasına maneə yaratdı. Mövsümi yarmarkaların fəaliyyətinin dayandırılması istehsalçı və tədarükçülər üçün məhsullarını realizə etmək imkanının daha da pisləşməsinə səbəb oldu.

İdxal-ixrac əməliyyatlarında hər hansı məhdudiyyətin tətbiq edilməməsinə baxmayaraq mülki vətəndaşlarının ölkə xaricinə çıxışına tətbiq edilən qadağalar fərdi sahibkarlıq subyektlərinin və ev təsərrüfatlarının öz məhsullarını realizə etməsi imkanını məhdudlaşdırdı.

Pandemiyanın yaratdığı yeni konyuktur aqrar sektorun maliyyə mənbələrinə çıxış imkanlarını daha da pisləşdirdi. Artan risk fonunda kredit təşkilatlarının kənd təsərrüfatının kreditləşdirməsində tərəddüdləri artmış, istehsal edilən məhsulun satış bazarları ilə əlaqədar narahatlıqlar, karantin qərarlarının proqnozlaşdırılan olmaması və bazar stabilliyinin pozulması kimi amillər kredit şərtlərinin ağırlaşdırılmasını şərtləndirdi. Böyümə tempinin zəifləməsi, yığım imkanlarının və maliyyə əlçatanlığının azalması və artan risklər cari ilin ilk doqquz ayında aqrar sektorda investisiya qoyuluşlarının 30 faizədək azalmasına səbəb oldu.

Turizm sektorunda müşahidə edilən durğunluq, iaşə xidmətləri üzrə dövriyyənin xeyli azalması, kütləvi tədbirlərin təşkili fəaliyyətinin, o cümlədən yasların və toyların keçirilməsinin qadağan edilməsi daxili bazarlarda kənd təsərrüfatı məhsullarına tələbatı əhəmiyyətli dərəcədə aşağı saldı.

İstehsal mühitinin pisləşməsi səbəbindən istehsalçı qiymətlərində ciddi artımlar müşahidə edildi. Aqrar sektorda dəyər zəncirində yaranan çətinliklər, həmçinin məh-

sulun realizə xərclərinin və istehsal qiymətlərinin artması istehlak qiymətlərinin də artması ilə nəticələndi. Bu isə azalan gəlirlər fonunda ailə büdcələri üzərində əlavə maliyyə yükü yaratdı, ərzaq məhsullarının əlçatanlığını zəiflətdi və keyfiyyətli qidalanma imkanını məhdudlaşdırmaqla qida təhlükəsizliyi aspektindən əsaslı risklərə səbəb oldu.

Ümumilikdə isə pandemiyaya görə azalan istehsal və investisiya qoyuluşu ərzaq təhlükəsizliyi istiqamətində riskləri daha da artırdı. Azərbaycanın kənd təsərrüfatı məhsullarına tələbin ödənilməsi baxımından xarici bazarlardan yüksək asılılığı isə ərzaq təhlükəsizliyi aspektindən ölkənin fluktasiyalara qarşı mövqeyini zəiflətdi.

## TÖVSİYƏLƏR

Beynəlxalq təcrübə və cari konyuktur nəzərə alınmaqla Azərbaycanda kənd təsərrüfatının pandemiya və postpandemiya dövründə dayanıqlı inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, xarici şoklara davamlılığının artırılması, sektorda tənzimləmə və təşviq mexanizmlərinin təkmilləşdirilməsi, həmçinin qida əlçatanlığının təmin edilməsi məqsədilə aşağıdakılar təklif edilir:

**Qısamüddətli - pandemiya dövründə yaranan qısamüddətli təzyiqlərin neytrallaşdırılması məqsədilə:**

1. Saxlanma müddəti daha çox olan qida məhsullarının istehsalının dəstəklənməsi – təcrübə göstərir ki, hər hansı risklər, o cümlədən qıtlıq və quraqlıq təhlükəsi yarandıqda, müharibələr zamanı və yaxud pandemiya dövründə insanlar saxlanma müddəti daha uzun olan qida məhsullarının (konservləşdirilmiş qidalar və s) istehlakına üstünlük verir. Buna görə də yeyinti sənayesinin spesifik sahələri üzrə xüsusi təşviqlərin təklif edilməsi yolu ilə bu sahələrdə inkişafı daha da sürətləndirmək mümkündür. Nəzərə almaq lazımdır ki, müəyyən emal prosesindən keçmiş məhsulların istehsalı eyni zamanda ölkə iqtisadiyyatında əlavə dəyərin yaranması imkanlarını genişləndirir.
2. Ərzaq kartlarının tətbiqi – pandemiyanın davam etdiyi müddətdə aztəminatlı ailələrə ayda bir dəfə olmaqla ərzaq təyinatlı birbaşa maliyyə dəstəyinin göstərilməsi məqsədilə ərzaq kartları təqdim oluna bilər. Ərzaq kartlarına yüklənən vəsaitlər yalnız qida məhsullarının istehlakı zamanı istifadəsi mümkün olmalıdır və bu kartlarla yalnız yerli mənşəli qida məhsullarının istehlakı təmin edilə bilər. Bu yolla həm azalan gəlirlər fonunda əhalinin qida təminatının yaxşılaşdırılması, eləcə də tələbin dəstəklənməsi yolu ilə istehsal üzərində yaranan təzyiqlərin müəyyən qisminin neytrallaşdırılması mümkündür.
3. "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin tədarük prosesində fərdi sahibkarlar və ev təsərrüfatlarından məhsul qəbulunun

minimum limitlərinin müəyyən edilməsi - bu yolla kiçik istehsalçıların fəaliyyəti dəstəklənə, məhsulların realizəsi imkanları arta, dolayısı ilə aqrar fəaliyyətlə məşğul olanların maliyyə təminatının dayanıqlı əsasları yaradıla bilər.

4. Fərdi sahibkarların və ev təsərrüfatlarının məhsulları saxlama xərclərinin kompensasiya edilməsi – bu mexanizm vasitəsi ilə istehlakın və ixrac imkanlarının azalması səbəbindən yığılıb qalan məhsulların istifadəyə yararsız hala düşməsinin qarşısının alınması, həmin məhsulların uyğun şəraitdə saxlanmasının təmin edilməsi, bununla da müvafiq kateqoriyaya daxil olan istehsalçıların zərər etməsinin qarşısının alınması mümkündür.

5. Mövsümi və tematik yarmarkaların keçirilməsi ənənəsinin bərpa edilməsi – konkret sanitar və gigiyena normaları müəyyən etməklə mövsüm və tematik yarmarkaların bərpa edilməsi istehsalçıların öz məhsullarını son istehlakçılara çatdırması imkanlarını artırar, həmçinin qiymət optimallığının təmin edilməsi üçün daha əlverişli şərait yarada bilər.

6. Maarifləndirmə tədbirlərinin intensivliyinin artırılması - koronavirus pandemiyasının kənd təsərrüfatına olan təsirlərinin minimumlaşdırılması məqsədilə bu sahəyə tətbiq edilən güzəştlərin, yaradılan yeni dəstək mexanizmlərinin, eləcə də mikrokreditlərin əldə edilməsi prosesinin asanlaşdırılması kimi yeniliklərin daha dolğun və düzgün kommunikasiyası üçün imkanlar yarada bilər. Bununla yanaşı, həmin yenilikləri kənd təsərrüfatı sahəsində işləyənlərə çatdırmaqla bu imkanlardan yararlanmanın səviyyəsini yüksəltmək mümkündür.

**Uzunmüddətli - pandemiya və postpandemiya dövründə aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi məqsədilə:**

1. **Ekstensiv və ənənəvi təsərrüfatçılıq modelindən inklüziv və intensiv təsərrüfatçılığa keçid strategiyasının hazırlanması, işğaldan azad edilən ərazilərdə kənd təsərrüfatının innovasiya əsaslı və yaşıl böyümə konsepsiyasının parametrləri nəzərə alınmaqla təşkili** – qeyd edilən strategiyanın icrası aqrar sektorda məhsuldarlığının əhəmiyyətli səviyyədə yüksəlməsi və məhsul vahidinə maya dəyəri xərclərinin optimallaşdırılmasını şərtləndirəcəkdir. Bundan başqa, ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə yanaşı ixrac qabiliyyətli kənd təsərrüfatının qurulmasına da müsbət təsir göstərəcəkdir.

2. **Qiymət və gəlir risklərindən sığortalanma mexanizmlərinin yaradılması** – aqrar sığortanın tətbiqi prosesinin sürətləndirilməsi və sığorta məhsullarının sayının artırılması, o cümlədən qiymət və gəlir risklərinə qarşı sığorta mexanizmlərinin təklif edilməsi yolu ilə aqrar fəaliyyətlər üzrə risklərin azaldılması və sərmayə qoyuluşlarının stimullaşdırılması, həmçinin sektorda fəaliyyət göstərən subyektlərin maliyyə dayanıqlığının təmin edilməsi mümkündür.

3. **Kənd təsərrüfatı sahəsində uçotun təkmilləşdirilməsi, hesabatlılığın təmin edilməsi və inzibatçılığın sadələşdirilməsi** – müvafiq addımların atılması sektorda mövcud vəziyyətin qiymətləndirilməsi, istehsalçıların müdafiə, o cümlədən sığorta mexanizminə çıxış imkanının artırılması, hökumətin hədəfli inkişaf strategiyalarının hazırlanması kimi istiqamətlərdə ciddi əsaslar yaradacaqdır.
4. **Kənd təsərrüfatında əmək fəaliyyətinin leqallaşdırılmasının genişləndirilməsi** – bunun həm işçi qüvvəsinin sosial təminat mexanizmlərinə çıxış imkanlarının artırılmasına, həmçinin karantin və bənzəri hallarda onların hərəkətinin daha rahat şəkildə təşkil edilməsinə nail olmaq mümkündür.
5. **Sosial müavinətlərə çıxış imkanlarının təkmilləşdirilməsi** – bu zaman əsas məqsəd kənd təsərrüfatı sahəsində əmək müqaviləsi olmadan çalışanlar üçün sosial müavinətlərə əlçatanlığın təmin edilməsi olmalıdır. Bu isə öz növbəsində əmək ehtiyatlarının qorunub saxlanması və yoxsulluqla mübarizədə əhəmiyyətli alətə çevrilə bilər.
6. **Xidmətlərin onlayn əsaslarla göstərilməsi təcrübəsinin genişləndirilməsi** – bu yolla prosesdə subyektivlik faktorlarının zəiflədilməsi, korrupsiya elementlərinin azaldılması, xidmətlərin əlçatanlığının daha da yaxşılaşdırılması və əlavə xərclərin qarşısının alınması mümkün olacaqdır.

# COVID-19 PANDEMİYA DÖVRÜNDƏ SOSİAL DƏSTƏK PROQRAMLARININ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: AZƏRBAYCAN TƏCRÜBƏSİ

Prof. Dr. Qubad İbadoğlu

## GİRİŞ

2020-ci il fevral ayının 28-də Azərbaycanda rəsmi olaraq qeydə alınan koronavirus hökümətin cari il üçün nəzərdə tutulan sosial-iqtisadi siyasətində bir sıra dəyişiklikləri zəruri etdi. Odur ki, sizə təqdim olunan bu hesabatda COVİD-19 pandemiyası dövründə Azərbaycan hökümətin xüsusilə də əhalinin sosial müdafiəsi sahəsində həyata keçirdiyi cavab tədbirlərinin səmərəliliyi təhlil olunur. Hökümətin cavab tədbirlərindən biri pandemiya dövründə məşğulluğun qorunması sayıla bilər. Bu hesabatın da başlıca məqsədi Azərbaycan hökümətinin pandemiyanın əvvəlindən hədəflədiyi məşğulluğun qorunmasına nə dərəcədə nail olmasını qiymətləndirməkdir. Bu istiqamətdə açıqlanan rəsmi məlumatlar geniş ictimaiyyətdə şübhə doğurduğundan hesabatın təhlil hissəsində 600 respondent arasında aparılan sorğulardan əldə edilmiş nəticələrə üstünlük verilib.[1] Bununla yanaşı, sosial sahədə dövlət siyasətinin əsasını təşkil edən ənənəvi dəstək proqramları, o cümlədən ünvanlı sosial yardım, ödənişli ictimai işlər, özünüməşğulluq proqramları da nəzərdən keçirilir.

Öncə pandemiya dövründə hökümətin həyata keçirdiyi cavab tədbirlərinin institutsional və maliyyə təminatına diqqət yetirək. Pandemiya dövründə həyata keçirilən tədbirlərə əksər dövlət orqanları cəlb edilsə də koronavirusa qarşı profilaktik tədbirlərin görülməsi üçün hakimiyyətdən gələn təşəbbüsləri əlaqələndirmək məqsədilə Nazirlər Kabinetinin nəzdində Operativ Qərargah yaradıldı.[2] Qərargahın vəzifələrindən biri də dünya təcrübəsini öyrənmək idi. Məhz bu əsasda ilk qərar prezident İlham Əliyevin sərəncamı ilə Nazirlər Kabinetinin bu məsələlərin icrasına dair Tədbirlər Planının təsdiq olunması hesab oluna bilər.[3] Tədbirlər Planında nəzərdə tutulan sosial dəstək proqramlarını aşağıdakı kimi təsnifləşdirmək olar.

[1] Sorğular üçün bax, Q. İbadoğlu, Q, Toğrul və R. İmanov, "COVID-19 böhranı və böhran sonrası dövr üçün siyasət sənədi." Səh. 217-226, *COVID-19 Azərbaycan İlk Dalğa,* İqtisadi Araşdırmalar Mərkəzi, Bakı), 2020.

[2] Azərbaycan Respublikasi Nazirlər Kabinetinin rəsmi internet səhifəsi, https://nk.gov.az/az/article/680/print/

[3] Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/articles/36228

1. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, pandemiya ilə əlaqədar sosial müdafiə və sosial təminat üzrə maliyyə dəstəyinin göstərilməsi üçün Dövlət Məşğulluq Xidməti (DMX) orqanlarında işsiz kimi qeydiyyata alınan 200 min şəxsə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik yardımın verilməsi;
2. Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi;
3. Əhaliyə güzəştli işıq limitinin 100 kvts. həcmində artırılması;
4. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqlarının 2020-ci tədris ilinin yaz və payız semestrləri üzrə də ödənilməsi.

Tədbilər Planında planlaşdırılan tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard manat nəzərdə tutulmuşdu. Bununla əlaqədar olaraq Maliyyə Naziri Samir Şərifov bildirdi ki, cari ilin 6 ayı ərzində pandemiya ilə mübarizə tədbirləri, onun ölkə iqtisadiyyatında yaratdığı mənfi təsirlərin azaldılması üçün dövlət büdcəsindən 1 milyard 409 milyon manat vəsait ayrılıb və 2020-ci il iyul ayının 1-dək ayrılmış vəsaitdən 752 milyon manatının maliyyələşdirilməsi təmin olunub.[4]

## MALİYYƏ MƏNBƏLƏRİNİN TƏHLİLİ

Tədbirlər Planında nəzərdə tutulan sosial və iqtisadi dəstək proqramlarının maliyyələşdirilməsi 2020-ci ilin dövlət büdcəsindən həyata keçirilib. Ötən il təsdiq olunmuş büdcədə pandemiya ilə əlaqədar olan xərclər nəzərə alınmadığına görə, COVİD-19 pandemiyasının yaratdığı əlavə xərcləri tənzimləmək üçün dövlət büdcəsinə düzəliş edilib.[5] Büdcəyə düzəliş nəticəsində təsdiq edilmiş göstəriciyə nisbətən büdcənin cəmi xərcləri 597,5 milyon manat və ya 2,2 faiz artırılaraq 27 492,2 milyon manat manata çatdırılıb. Düzəliş edilmiş yeni büdcə 2019-cu ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 3066,3 milyon manat və ya 12,6 faiz çox olub. Düzəliş edilmiş büdcədə COVİD-19 pandemiyası ilə əlaqədar olaraq əlavə tələb olunan 1371,5 milyon manat zəruri xərclərin 369,0 milyon manatı səhiyyə sahəsi üzrə əlavə tələbatın ödənilməsi, 238,0 milyon manatı pandemiya ilə əlaqədar sosial müdafiə və

[4] Nazirlər Kabinetinin 2020-ci iln 1-ci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirənin materialları,http://www.azerbaijan-news.az/view-193478/prezident-ilham-eliyevin-sedrliyi-ile-nazirler-kabinetinin-2020-ci-ilin-birinci-yarisinin-sosial-iqtisadi-inkisafinin-yekunlarina-ve-qarsida-duran-vezifelere-hesr-olunan-iclasi-kecirilib

[5] "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanunun tətbiqi və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://president.az/articles/40460

sosial təminat üzrə maliyyə dəstəyinin davam etdirilməsi, 136,6 milyon manatı pandemiya ilə əlaqədar dövlət şirkətlərinə maliyyə dəstəyinin davam etdirilməsi, 100,0 milyon manatı sahibkarlara dövlət tərəfindən maliyyə dəstəyinin davam etdirilməsi, 2,8 milyon manatı pandemiya dövründə ölkəyə qayıdan vətəndaşların sərhəddə yaradılmış səyyar düşərgələrdə karantindən keçmələri üçün nəzərdə tutuldu.[6]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) açıqlamasına görə, aprel-may aylarında, habelə sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə 3-cü (iyun), 4-cü (avqust) və 5-ci (noyabr) dəfə birdəfəlik yardımların verilməsinə ümumilikdə 350 milyon manatdan çox vəsait sərf olunub.[7] 26 oktyabr 2020-ci il tarixinə muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün 204,6 milyon manat, fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi üçün isə 77 milyon manat vəsait vergi ödəyicilərinin bank hesablarına köçürülüb. İki mərhələdə həyata keçirilmiş maliyyə dəstəyi proqramlarından 130 mindən çox vergi ödəyicisi yararlanıb, proqramlar 344 mindən çox vətəndaşı əhatə edib.[8]

## SOSİAL MÜDAFİƏ PROQRAMLARININ TƏHLİLİ

Tədbirlər Planında nəzərdə tutulan tədbirlərdən əlavə, müntəzəm olaraq həyata keçirilən sosial müdafiə proqramlarına pandemiya dövründə diqqət daha da artırılıb. Belə ki özünüməşğulluq proqramına 2018-ci ildə 7300-ə yaxın, 2019-cu ildə 10 mindən çox ailə cəlb edilib; 2020-ci ildə isə nəfər əlilliyi olan şəxslərdən ibarət 12 min ailə bu proqram çərçivəsində kiçik təsərrüfat və müəssisələr qurub.[9] Bu ilin ilk 11 ayında, yəni pandemiya dövründə özünüməşğulluq proqramından faydalananların sayı ötən illə müqayisədə 2 min ailəyədək artırılıb və onların arasında əlilliyi olan şəxslərə daha çox üstünlük verilib. Ünvanlı Dövlət Sosial Yardımı proqramına (ÜDSY) 2018-ci ildə 40 min, 2019-cu ildə 72 min ailə cəlb edildiyi halda 2020-ci ilin 11 ayında onların sayı 74.4 min ailəyə və ya 312 min nəfərə çatdırılıb və bununla əlaqədar olaraq 197 milyon manat vəsait xərclənib.[10] Bu proqram çərçivəsində də faydalananların sayı pandemiya dövründə əvvəlki illərlə müqayisədə çoxalıb. Belə ki, 2020-ci ilin 11 ayında ÜDSY-ə cəlb olunanların sayı əvvəlki illə müqayisədə 2,4

[6] "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasınını Qanun layihəsinə dair izahat, http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5f2486962c071.pdf

[7] Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 190 manat birdəfəlik ödəmə vəsaitlərinin köçürülməsi başa çatdı http://sosial.gov.az/post_391626

[8] İqtisadiyyat Nazirliyi, Sərtləşdirilmiş karantin rejimi tətbiq edilən rayon və şəhərlərdə fəaliyyət göstərən sahibkarlara yenidən maliyyə dəstəyi göstəriləcək, https://www.economy.gov.az/article/sertleshdirilmish-karantin-rejimi-tetbiq-edilen-rayon-ve-sheherlerde-fealiyyet-gosteren-sahibkarlara-yeniden-maliyye-desteyi/31375

[9] Bu il 1600-dək əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib, http://sosial.gov.az/post_397109

[10] 11 ayda sosial təminat üzrə ötən ilin eyni dövrünə nisbətən 932 milyon manat çox olmaqla 5 milyard 264 milyon manat yardım edilib, http://sosial.gov.az/post_409347

min, 2018-ci ilə nisbətən isə 34,4 min ailə artırılıb. 2019-cu ildə ölkə üzrə 38 min ödənişli ictimai iş yeri yaradılığı halda cari ildə 90 min nəfərin ödənişli ictimai iş yerləri ilə təmin edilməsi nəzərdə tutulub.[11] Bu isə o deməkdir ki, pandemiya dövründə ödənişli ictimai iş yerlərinə cəlb edilənlərin sayı 52 min nəfər çox olub.

COVİD-19 pandemiyası dövründə hökümətin hədəflədiyi əsas vəzifə məşğulluğun qorunmasıdır. Bu tədbirlər arasında DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə birdəfəlik yardımın verilməsi əhatə dairəsinə və maliyyə tutumuna görə seçilirdi. Belə ki, Tədbirlər Planında nəzərdə tutulan kompensasiya məbləğinin ödənilməsi üçün 200 min işsizə 70 milyon manatlıq birdəfəlik yardım ödənilməsi planlaşdırılmışdı. Tədbirlər Planına görə, birdəfəlik yardım müavinət almayan bütün işsizlərə verilməli idi və elə bu səbəbdən də işsizlərin sayı 200 min nəfər göstərilmişdi. Buna səbəb Dövlət Statistika Komitəsinin (DSK) 2020-ci il aprel ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 100,8 min nəfər göstərməsi olmuşdu.[12]DSK-nın hesabatında qeyd olunurdu ki, işsizlərin 36,9 faizini qadınlar təşkil edib, işsizlikdən sığorta ödənişi yalnız 510 nəfərə ödənilib və ödənilmiş sığortanın orta aylıq məbləği 309,0 manat təşkil edib. Aşağıdakı cədvəldə birdəfəlik yardımın başlanılmamışdan əvvəl DSK-nın DMX orqanlarında rəsmi qeydiyyatda olan işsizliyin vəziyyətinə dair rəsmi məlumatları təqdim olunur.

**Cədvəl 1: 2020-ci ilin ilk dörd ayında DMX orqanlarında rəsmi qeydiyyatda olan işsizliyin səviyyəsi.**

| 2020-ci il | Məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı | | İşsizlik müavinəti alanların sayı, nəfərlə | İşsizlikdən sığorta məbləği, manatla |
|---|---|---|---|---|
| | Cəmi, min nəfərlə | Onlardan qadınlar, faizlə | | |
| 1 yanvar | 81,3 | 37,7 | 540 | 276,4 |
| 1 fevral | 86,2 | 37,7 | 536 | 295,6 |
| 1 mart | 90,8 | 37,8 | 501 | 338,9 |
| 1 aprel | 100,8 | 36,9 | 510 | 309,0 |

Mənbə: DSK[13]

Rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı bu ilin yalnız 1-ci rübü üzrə açıqlanıb və ən son göstərici aprel ayının 1-ə açıqlanıb. Eyni zamanda məlum olur ki, rəsmi işsizlərin sayı ilə müqayisədə işsizlik müavinəti alanların sayı çox aşağıdır. Belə ki, bu nisbət 2020-ci ilin yanvar ayında 0,66 faiz, fevral ayında 0,62 faiz, mart ayında 0,55 faiz, aprel ayında 0,50 faiz təşkil edib. Cari ilin 1-ci rübündə işsizlərin sayının artımı

[11] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "DOST" mərkəzləri http://dost.gov.az/page/dost-job-center

[12] "2020-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri", https://www.stat.gov.az/news/macroeconomy.php?page=7

[13] DSK 2020-ci ilin aprel ayından sonra DMX orqanlarında rəsmi qeydiyyatda olan işsizlərin sayı ilə bağlı məlumatları açıqlamadığından cədvəl bu ilin 1-ci rübünün materialları əsasında tərtib olunub.

ilə müqayisədə  işsizlik müavinəti alanların sayı azalıb və onlar arasında korelyasiya mənfi dinamikanı əks etdirir.

İşsizlikdən sığorta olunanların sayının az olmasına gəlincə, 1 yanvar 2018-ci il tarixdən qüvvəyə minmiş İşsizlikdən sığorta haqqında *qanun*na əsasən dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər.[14] Bu isə o deməkdir ki, işsiz kimi qeydiyyata düşənlərin heç də hamısına işsizlikdən sığorta haqqı ödənilmir. Hesab edirəm ki, qanunun bu maddəsində müvafiq dəyişikliklər edilməli, işsizlərin hamısı  üçün işsizlikdən sığorta haqqı tanınmalıdır.

DSK mövcud gerçəkliyi əks etdirməyən hesabatı Nazirlər Kabinetinin təsdiq etdiyi tədbirlər Planında səhv hesablamalara gətirib çıxardı. Belə ki, prezident sərəncamı ilə təsdiq olunan Tədbirlər Planında 200 min nəfər üçün 70 milyon manat  birdəfəlik yardım nəzərdə tutuldu. Lakin qısa müddətdə işsiz kimi DMX-də onlayn qeydiyyatdan keçənlərin sayının dəfələrlə atması nəticəsində hökümət prezidentin göstərişi ilə birdəfəlik yardımın 600 min işsizə verilməsinə başladı.[15] Bu yardım faktiki olaraq 600 min nəfərə şamil olunsa da bütün işsizləri əhatə etmədi və onlar üçün nəzərdə tutulan birdəfəlik yardımın ödənilməsi zamanı işsizlər arasından seçim edilməsinə gətirib çıxardı. ƏƏSMN naziri Sahil Babayeviv açıqladığı məlumatlardan bəlli oldu ki, bu yardımı almaq üçün müraciət edən 635 min nəfərdən çox işsiz şəxsə imtina cavabı verilib. Babayev bunu həmin işsizlərin aztəminatlılar qrupuna aid olmaması ilə izah edib.[16] Halbuki, Tədbirlər Planında aydın şəkildə bu vəsaitin DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə ödənilməsi nəzərdə tutulurdu. Buna baxmayaraq, aprelin 7-də Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara görə, dövlət qurumlarından aşağıdakı ödənişləri alan işsiz şəxslərə birdəfəlik yardım verilmir: "ÜDSY alan ailələrin üzvlərinə; Əmək pensiyaçılarına; Aylıq müavinət alanlara; Aylıq təqaüd alanlara; Özünüməşğulluğun təşkili proqramı çərçivəsində əmlak verilmiş şəxslərə; İşsizlikdən sığorta ödənişi alanlara; Peşə hazırlığına görə təqaüd alanlara; 2020-ci ildə kənd təsərrüfatı üzrə subsidiya (KTS) almış şəxslərə; Əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan) və ya Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin Əmək müqaviləsi bildirişi altsistemində aktiv əmək müqaviləsi bildirişi olanlara; Əri və ya arvadı ÜDSY və ya KTS alan şəxslərə."[17]

[14] "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının  Qanunu, http://e-qanun.gov.az/framework/36310; İşsizlikdən sığorta ödənişi,  http://sosial.gov.az/ishsizlikdensigortaodenishi

[15] Birdəfəlik ödəniş edilmiş 600 min şəxsin siyahısı,  http://sosial.gov.az/FWsiyah%C4%B1s%C4%B1/Siyahi600.pdf

[16] Sahil Babayev: "Birdəfəlik ödəmə alanlardan 8 faizi 20 yaşa qədər olanlardır" https://apa.az/az/sosial_xeberler/Sahil-Babayev-Birdflik-odm-alanlardan-8-faizi-20-yasa-qdr-olanlardir-585208

[17] Nazirlər Kabinetinin qərarı, https://cabmin.gov.az/az/document/4371/

Beləliklə də, Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalarda birdəfəlik yardım *Məşğulluq haqqında* qanuna uyğun olaraq işsiz kimi qeydiyyata alınmış və yuxarıda sadalana kateqoriyaya aid olmayan şəxslərə təyin olunur və ödənilir. Onlara aşağıdakılar aiddir: 2020-ci il 1 aprel tarixinə *Məşğulluq altsistemi*ndə (MAS) işsiz kimi qeydiyyata alınmış şəxslər; pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslər.

DSK-nın məlumatına görə, "DSK-nın 2020-ci il dekabrın 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5251,6 min nəfər olub, onlardan 4886,2 min nəfərini məşğul əhali təşkil edib. Muzdla çalışan işçilərin sayı 1685,3 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 914,9 min nəfər, qeyri-dövlət sektorunda isə 770,4 min nəfər təşkil edib. Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü göstərir ki, onların 36 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq da çalışır. Nəzərə alsaq ki, sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri *Məşğulluq haqqında* Azərbaycan qanunun 4.1.3. maddəsinə görə məşğul şəxslərə aiddir və onların da sayı 1759 min (4886,2 x 36 %) nəfərdir, onda belə çıxır ki, yerdə qalan 1441,9 min nəfər əhali ya özünüməşğul, ya işsiz, ya da gizli məşğuldur. Hazırda gizli məşğul olanların da işsiz qaldığını nəzərə alsaq və onları da iş axtaranların siyahısına daxil etsək onda Azərbaycanda faktiki işsizlik səviyyəsi birdəfəlik yardım üçün nəzərdə tutulan işsizlərin sayından dəfələrlə çoxdur."[18] Həmçinin *e-sosial* portalının istifadəsində yaranan texniki problemlər və onlayn müraciət sisteminin tez-tez yüklənməsi vətəndaşların işini daha da çətinləşdirib və bir çoxları müraciətlərini qeydiyyatdan keçirə bilməyiblər.[19]

## BİRDƏFƏLİK YARDIM PRORQAMININ SƏMƏRƏLİLİYİNİN, ÜNVANLIĞININ VƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İşsiz kimi qeydiyyata alınan şəxslərə birdəfəlik yardımın verilməsinin səmərəliliyinin, ünvanlığının və təsirinin qiymətləndirilməsi üçün 600 respondent (300 nəfər - 190 manat sosial yardım alanlar; 300 nəfər - 190 manat sosial yardım almaq üçün müraciət edib, imtina cavabı alanlar) arasında 2020-ci ilin iyun-avqust aylarında qarışıq formada (onlayn və fərdi görüşlərdə üzbəüz anketlər üzrə) keçirilmiş sorğuların təhlili göstərir ki, respondentlərin sosial müdafiə proqramlarına müraciət imkanları, informasiyalara çıxış, ərizələrin qəbulu və şəffaflıq, eləcə də əldə edilmiş yardımların yetərliliyi ilə bağlı çətinlikləri olub.

Birdəfəlik yardım alan 300 respondentin 70,6 faizini kişilər, 29,4 faizini qadınlar təşkil edib. Respondentlərin əksəriyyəti, 83 faizi 25-50 yaş qrupu arasında olub, onlardan 52 faizi evli, 22 faizi subay, 16 faizi dul və 10 faizi boşanmışlardır. Respon-

[18] Birdəfəlik yardım paketindən hansı kateqoriyalı işsizlər və necə faydalanacaq? https://www.turan.az/ext/news/2020/4/free/analytics/az/123049.htm

[19] Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin e-sosial portalı, www.e-gov.az

dentlərin 36,3 faizinin ailə tərkibi  5 nəfər və daha çox, 29,33 faizininki 4 nəfər, 17,6 faizininki 3 nəfər, 10,7 faizininki 2 nəfər, yerdə qalan 6 faizininki isə 1 nəfərdən ibarət olub. Göründüyü kimi, birdəfəlik yardım alanlar əsasən çoxuşaqlı ailələrin təmsilçiləri olublar. Respondetlərin yarısı Bakıda, digər yarısı da regionlarda yaşayanlardır. Respondentlərin işsizlik müddətinə gəlincə, 27 faizin 5 il və daha çox müddətdir işsiz olması, 15 fazinə qədərinin son 2 ayda, 11,3 faizinin isə son 1 ildə işini itirməsi bəlli olur. Onların cavabından məlum olur ki, 60,7 faizinin ailəsində işləyən şəxs yoxdur.

Sorğu pandemiya öncəsi də Azərbaycanda işsizliyin sistem xarakterli olduğunu göstərir. Bu, iqtisadiyyatın strukturundan irəli gəlir. Belə ki, 2019-cu iqtisadiyyatında iş qüvvəsinin 1 faizinin çalışdığı mədən sənayesində ÜDM-in 37 faizi istehsal olunub. Eyni zamanda *Məşğulluq haqqında qanun*una görə, aqrar sektorda torpaq mülkiyyətçiləri faktiki olaraq məşğul olmasa da işsiz sayılmırlar.[20]

**Qrafik 1: Hazırda ailənizin aylıq gəlirləri nə qədərdir? (manatla)**




Qrafik 1-dən göründüyü kimi, ölkədə orta aylıq əmək haqqı 712 manat olduğu dövrdə respondentlərin təmsil etdiyi  hər beş ailənin ikisinin pandemiya qədər heç bir gəliri olmayıb. Sorğuda iştirak edənlərin 53 faizinin  ailəsinin gəlirləri  isə orta aylıq əmək haqqından aşağı olub ki, onların da 36,6 faizi 190-400 manat arasında gəlirlərə malik olub. 7,3 faiz respondentin ailəsinin gəlirlərinin orta aylıq əmək haqqından yüksək olması ehtiyacı olmayıb sosial yardım alanların xüsusi çəkisinin də o ətrafda olmasını göstərir.

Birdəfəlik yardım alan respondetlərə ünvanlanan *bu günədək  dövlətin hər hansı yardım proqramından faydalanmısınızmı* sualının cavablarından məlum olur ki, onların 50 faizə qədəri ilk dəfə sosial yardım proqramına müraciət edib, 32,3 faizi əvvəllər

[20] "Məşğulluq haqqında" Azərbaycan qanunu, http://sosial.gov.az/mewqulluqqanunu

başqa proqramlara müraciət etsə də imtina cavabı alıb, yalnız 18 faizi bundan əvvəl sosial yardım aldığını qeyd edib. Bu isə o qənaətə gəlməyə əsas verir ki, pandemiya ilk mərhələlərində əhalinin yarısına qədərini təsirləndirdiyinə görə, onlar ilk dəfə olaraq birdəfəlik yardım proqramına müraciət ediblər, belə çıxır ki, onların əvvəllər dövlətin dəstəyinə ehtyacı olmayıb.

Pandemiyadan əvvəl sosial yardım alanların 42 faizə qədəri ünvanlı sosial yardım və ya özünüməşğulluq proqramından əmlak aldığını, 58 faizdən çoxu isə müavinət aldığını bildirib. Bu nisbət Azərbaycanda yoxsul əhalinin 5,1 faiz deyil, 18 faiz ətrafında olması qənaətinə gətirib çıxarır.

**Qrafik 2: İşsiz kimi qeydiyyata nə zaman düşmüsünüz?**




Qrafik 2-dən göründüyü kimi, işsiz kimi rəsmi olaraq qeydiyyata düşənlər birdəfəlik yardım alanların 72,33 faizini təşkil edib. Bu fakt 2 qənaətə gəlməyə imkan verir. Birincisi, pandemiya işsizliyi artırıb. İkincisi, pandemiya dövründə nəzərdə tutulan sosial müavinət əvvəldən işsiz olanları da pandemiya dövründə birdəfəlik yardım almaq üçün qeydiyyata düşməyə sövq edib. Yəqin ki, belə yüksək göstəricininin formalaşmasında hər iki amilin rolu vardır, lakin digər sualların da cavablarının təhlili göstərir ki, birincinin, yəni pandemiyanın rolu daha böyükdür.

*Siz birdəfəlik müavinət almaq üçün necə müraciət etmisiniz* sualına respondentlərin 89 faizi internet üzərindən elektron qaydada cavabını verib. Onların 7 faizi *işsiz statusunu pandemiyadan əvvəl almışdım*, 4 faizi isə *məşğulluq mərkəzinə birbaşa müraciət etmişəm* cavablarını verib. Göründüyü kimi respondentlərin 93 faizi pandemiya dövründə işsiz kimi qeydiyyata onlayn qeydiyyatla və məşğulluq mərkəzinə birbaşa müraciət etməklə düşüb. Elektron qeydiyyatdan keçərək işsiz statusu və birdəfəlik yardım alan respondentlərin 66 faizi e-sosial internet portalında qeydiyyat sisteminin çox çətin olmasından gileylənib. Onların təxmini yarısı bu çətinliyi sistemin müraciətləri qəbul etməməsi, digər yarısı isə sistemin donması və ya çökməsi ilə əlaqələndirib.

Onlayn qeydiyyat sistemində yaranmış problemlərlə bağlı həmin dövrdə yerli mətbuatda da xeyli məlumatlar dərc olunub. Bundan sonra ƏƏSMN açıqlama verib ki,

“burada işsiz şəxs statusunun kimə şamil edilməsi əsas məsələdir. İşsiz şəxs işi və qazancı olmayan, işsiz kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir. Bu tədbirdən istifadə etmək istəyən muzdlu şəxslər də, məşğul şəxslər də portala müraciət edirlər və bu da portalın əlavə yüklənməsinə gətirib çıxardır. Hazırda sistemin təkmilləşdirilməsi ilə bağlı iş həyata keçirilir və çox qısa zamanda həll olunacaq.”[21] Sonradan Nazirlik sistemdə yüklənmələrin və əlavə çətinliklərin qarşısını almaq üçün müraciətlərin rayonlar üzrə qrafikini açıqlayıb[22] Müraciətlə rayonlar üzrə qrafiki açıqlanandan sonra ƏƏSMN-in sistemində yüklənmə halları səngiməyə başladı. Lakin rayonlar üzrə müxtəlif günlər üzrə müraciət qrupu son nəticədə ərzilərin qəbulu, emalı və işsiz statusunun verilməsinə dair nəticələrinin açıqlanmasının gecikdirilməsinə gətirib çıxartdı.

Bu sorğuda iştirak edənlərin rəyləri nəticəsində birdəfəlik yardımın hara və necə xərclənməsi də müəyyənləşdirilib. Məlum olub ki, pandemiya dövründə müavinət alanların 61 faizi onu yalnız ərzağa, 26 faizi ərzağa və kommunal xərclərə, 6 faizi ərzağa və dərmana, 7 faizi isə kredit borclarının ödənilməsnə xərcləyib.

**Qrafik 3. Aldığınız yardım ailənizin neçə günlük xərcini ödədi?**




Ayrılmış yardım böyük əskəriyyət üçün yetərli olmayıb. Belə ki, respondentlərin yalnız 2,33 faizi bu vəsaitdən ayrılmış müddət ərzində faydalandığını bildirib. Bütün respondentlərin 20 faizə qədəri yardımın 3-5 gün ərzində, 57 faizdən çoxu isə 1 həftə ərzində tükəndiyini bildirib. Yerdə qalan 20 faiz respondent yardımın 2-3 həftəyə çatdığını bildirsə də, bu da yardımın yetərli olmadığını deməyə əsas verir. Görünür ki, yardım müəyyənləşdirilərkən aztəminatlı işsizlərin sosial ehtiyacları tam şəkildə nəzərə alınmayıb. Bu sorğu pandemiya dövründə birdəfəlik yardım alanların yardım kəsiləndən sonra gələcək planlarını da açıqlayıb. Məlum olub ki, respondetlərin 52,3 faizi iş axataracaq, 20,3 faizi yardım almaq üçün təkrar müraciət edəcək, 11,3 faizi kredit götürəcək və 16,1 faizinin isə heç bir planı yoxdur.

[21] www.e-sosial.az portalı – Çökdü, https://www.fed.az/az/ikt/wwwe-sosialaz-portali-cokdu-77558; Nazirlikdən e-sosial.az-ın "çökmə"siylə bağlı – Açıqlama, https://fed.az/az/sosial/nazirlikden-e-sosialaz-in-cokmesi-yle-bagli-aciqlama-77574 vurğu əlavə edilib.

[22] İşsiz şəxslərin qeydiyyata alınmaları üçün elektron qaydada müraciət günləri açıqlanıb, https://report.az/sosial-mudafie/i-ssiz-sexslerin-qeydiyyata-alinmalari-ucun-elektron-qaydada-muraciet-gunleri-aciqlanib/

Yardım üçün müraciət edib yardımı almayanlar arasında keçirilən sorğuda maraqlı nəticələr çıxıb. Respondentlərin 70,3 faizi kişi, 29,7 faizi isə qadın olub, onların 72 faisini  25-50 yaşlılar təşkil edib. Sorğu iştirakçılarının 27,4 faizini subaylar, 61,1 faizini evlilər, 4,5 faizini dullar, 7 faizini isə boşanmışlar təşkil edib. Onların 40 faizə qədərinin ailə tərkibi 4 nəfərdən, 22 faizdən çoxununku 5 nəfərdən, 25,7 faizininki 3 nəfərdən, 9 faizininki  2 nəfərdən, 3 faizininki isə 1 nəfərdən ibarət olub. Regional tərkibə gəlincə, əvvəlki sorğuda olduğu kimi respondentlər arasında Bakı və regionlar arasında balans yaradılıb.

Respondentlərin 30,67 faizi 5 ilə qədər və ondan çox müddətdə işsiz olduğunu bildirib, onlardan cəmi 7 faizi işini son 2 ayda, 12,3 faizi son 1 ildə, 9,7 faizi son 2 ildə, 15 faizi son 3 ildə, 25,3 faizi isə son 4 ildə itirdiyini bildirib. *Ailənizdə tələbə varmı* sualına respondentlərin 74,3 faizi *xeyr*, 25,7 faizi *bəli*; *Ailənizdə  işləyən varmı* sualına isə onların 68,7 faizi *xeyr*, 31,3 faizi *bəli* cavablarını verib.

**Qrafik 4. Hazırda ailənizin aylıq gəlirləri nə qədərdir?**




Qrafik 4-də göründüyü  kimi, birdəfəlik yardım üçün müraciət edib, bu yardımı almayanların 37 faizi ailədə heç bir gəliri olmadığını bildirib. Respondentlərin cəmi 4,7 faizinin ailəsinin gəlirləri respublika üzrə orta aylıq əmək haqqı səviyyəsinə bərabər və ya ondan yuxarı olub. Sorğuda iştirak edən 300  nəfərdən 43 nəfərinin və ya 14,3 faiznin  ailə gəlirləri isə 250 manatdan 300 manatadək olub.

Respondentlərin 50,4 faizi bugünədək dövlətin hər hansı yardım proqramından faydalanmayıb, yalnız 32,6 faiz bu məqsədlə müraciət etdiyini, amma müsbət cavab almadığını, onların yalnız 17 faizi isə sosial yardım aldığını bildirib. Sonuncuların dövlətdən aldığı yardım proqramlarının tərkibi isə belə olub.

Qrafik 5. Hansı dövlət proqramlarından faydalanmısınız?




Birdəfəlik yardım üçün müraciət edib, bu yardımı almayan 300 nəfər arasında əvvəllər yardım almış 51 nəfərin 25,5 faizi ünvanlı sosial yardım, 23,5 faizi məcburi köçkün kimi çörək pulu, 17,7 faiz işsizlik müavinəti adığını bildirib. Maraqlıdır ki, sorğuda iştirak edənlərin 79 faizi işsiz kimi qeydiyyata birdəfəlik yardım almaq üçün düşüb. Həmçinin yardımı alanların arasında keçirilən sorğudan da məlum olmuşdur ki, respondentlərin 93 faizi pandemiya dövründə işsiz kimi qeydiyyatdan keçib. Hər iki sorğuda iştirak edən şəxslərin mütləq əksəriyyəti yardım ala bilmək üçün internet üzərindən elektron qaydada qeydiyyatan keçib. İmtina olunanlar arasından respondentlərin 79 faizinin və yardım alanlar arasından isə 93 faizinin pandemiya dövründə işsiz kimi qeydiyyatdan keçməsi **sübut edir ki,** pandemiyanın iş yerlərinin saxlanmasına neqativ təsir göstərib.

Respondentlər təxmini üçdə ikisi qeydiyyatdan keçməyin çətin olduğunu bildirib, çətinliyin əsas səbəbi kimi isə sistemin müraciətləri qəbul etməməsi (22.82%), sistemin donması (33%) və çökməsini (44.18%) göstəriblər.

Qrafik 6: Birfəfəlik yardım proqramından imtinanın səbəbləri




Qrafikdən göründüyü kimi, birdəfəlik yardıma əlçatanlığın azadıdılması məqsədilə müxtəlif məhdudlaşdırıcı filtrlədən istifadə edilib. Onlardan arasında ən geniş yayılanı müracət edən şəxsin özünün və ya həyat yoldaşınızın adına aktiv VÖEN olmasıdır. Halbuki, araşdırmalar nəticəsində məlum olub ki, bir çox işsizlər vaxtılə açdıqları VÖEN-i bağlamaq üçün Vergi Xidmətinə müraciət etsələr də onların müraciəti icra olunmayıb və özlərinin də xəbəri olmadan VÖEN-ləri aktiv saxlanılıb. VÖEN-in bağlanması iş yerinin ixtisarı kimi qeydiyyata düşdüyünə görə, rəsmi orqanlar bir çox hallarda VÖEN-ləri 5 il müddətinə müvəqqəti dondurmağa üstünlük verib. Digər tərəfdən elə həmin səbəbdən, yəni iş yerlərinin ixtisarının qarşını almaq üçün bəzi işsizlər iş yerlərini tərk etməsinə baxmayaraq onların adlarına aktiv əmək müqaviləsi qüvvədə saxlanılıb. Bununla yanaşı, işsizlərin adına avtomobilin olması və onların birdən çox mənzilə sahiblik etməsi də yardımın verilməsindən imtinaya gətirib çıxarmışdır. Halbuki, işsizlik statusunun verilməsində dair normaları müəyyənləşdirən *Məşğulluq haqqında* qanunun 4.1.3. maddəsinə görə, işsizin adına əmlakın olması onun statusunun dəyişməsinə təsir göstərmir.

Bundan başqa müraciət edənlərin bir qisminə də həmin qanunun 4.1.3. maddəsinə istinad**ən onların a**dına və ya həyat yoldaşının adına pay torpağı olması səbəbi ilə imtina cavabı verilib. Qanunun həmin maddəsində görə, kənd təsərrüfatına yararlı

torpaq sahibləri məşğul sayılmasına baxmayaraq, burada hətta həyətyanı sahənin mövcudluğundan belə imtina cavabının verilməsində əsas kimi istifadə edilib. Nəhayət, müraciət edənlərin bir qismi də özünün  və ya həyat yoldaşının sosial ödəniş (müavinət, pensiya, ünvanlı sosial yardım, məcburi köçkün müavinəti və sair) almasına görə imtina cavabı alıb. Bu, əslində ailədə gəlirlərin az olmasının göstəricisi sayılmalı idi. Belə ki, Qarabağ müharibəsi iştirakçılarının aylıq müavinəti 80 manatdır. 80 manat müavinət almasına görə, işsiz və aztəminatlı şəxsin pandemiya dövründə 190 manatlıq ödənişdən məhrum edilməsi məqbul hesab edilə bilməz. Eyni hal 33 və 60 manat yardım alan məcburi köçkünlərə də şamil olunduğundan onlar da birdəfəlik yardım proqramından kənarlaşdırılıb.

Göründüyü kimi, bu sahədə dövlət siyasətinin əsas hədəfi heç də pandemiya dövründə bütün işsizlərin sosial müdafəsinin effektiv təşkili üzərində deyil, daha az vəsait xərclənməsi üçün bir çox işsizlərin müxtəlif vasitələrlə proqramdan kənarlaşdırılması olub.ƏƏSMN-nin açıqlamasında məlum olur ki, ən azı 635 min nəfər işsiz bu və digər səbəblərdən proqramdan kənarlaşdırılıb. Elə buna görə də  DMX-də qeydiyyata düşən işsizlərin sayı ilə bağlı də rəsmi məlumatların açıqlaqlanması bu ilin aprel ayından dayandırılıb.

Respondentlərin 86 faizi imtinanın səbəbi ilə razı olmadığı halda, 14 faizi tam və ya qismən razı qaldığını bildirib. Razı qalmayanların 56 faizi narazılıqları ilə bağlı heç bir quruma müraciət etməyib, 17,7 faizi isə ƏƏSMN-ə müraciət etdiyini deyib. Aldıqları cavabdan razı qalmayan respondentlərin 12 faizi gələcəkdə şikayət etməyi düşündüyünü qeyd edib. Yardımın bölüşdürülməsinin ədalətli və şəffaf olması ilə respondetlərin 84,3 faizi razılaşmayıb, 15 faizi qismən, 0,7 faizi isə tam razı qaldığını bildirib.

## HÖKUMƏTİN SOSİAL SİYASƏTİİNİN MÖVCUD DURUMU

Hökumət pandemiya dövründə sosial müdafiə sahəsində **həm ənənəvi proqramların əhatə dairəsini genişləndirməyə**, **həm də işiszlik  sığortası qaydasında** birdəfəlik yardım proqramının tətbiqinə üstünlük verib. Hər iki istiqamətdə təşəbbüslərin reallaşdırılması zamanı hökümət mövcud vəziyyətin düzgün statistik xarakteristikası və texniki təminat sahəsində problemlərlə üzləşib.

**İnformasiya təminatı** sahəsində ən ciddi problem məşğulluq və işsizlik statistikası ilə bağlı olub. İşsizlərin haqqında məlumat bazasının düzgün olmaması ilə yanaşı, sonradan yaranan işsizlərin qeydiyyatında müşahidə olunan problemlər işsizlərin sığortası sahəsində dövlət dəstəyi kimi həyata keçirilən birfədəlik yardım proqramının effektini xeyli azaldıb.  Bu sahədə mövcud statistik bazanın yalnız rəsmi göstəricilərə əsaslanması, eləcə də yaradılan iş yerlərinin şişirdilməsi, bağlanan iş yerlərinin isə gizlədilməsi pandemiya şəraitində məşğulluq və işsizlik statistikasının mövcud gerçəkliklə uzlaşdırılmasında problem yaradıb. Məsələn, pandemiya dövründə həm

inkişaf və həm də inkilşaf etməkdə olan ölkələrdə iş yerlərinin ixtisarı müşahidə edildiyi halda Azərbaycanın rəsmi statistikası 2020-ci ilin mart ayından dekabr ayınadək olan dövrdə təxminən 80 min yeni iş yeri yaradıldığını bəyan edib.[23] Bu məlumat isə dövr ərzində ƏƏSMN-nin elektron bazasına daxil edilən əmək müqavilələri bildirişlərinin sayı əsasında hesablanıb.[24]

Fikrimizcə, əmək müqavilələri bildirişlərinin sayı əsasında heablanan yeni açılan iş yerlərinin bir hissəsi xüsusi karantin rejimi dövründə tətbiq edilən SMS icazənin nəticəsidir. Belə ki, Nazirlər Kabinetinin qərarı[25] ilə pandemiya dövründə işləməsinə icazə verilən bir çox müəssisələr "iş yerləri" yaratmaqla məşğuldur. Bu iş yerlərinin bir çoxu əvvəllər də mövcud olub, sadəcə passiv xarakter daşıyıb, SMS icazə ilə əlaqədar olaraq aktivləşdirilib. Özəl sektorda bu vaxta qədər qeydiyyatsız fəaliyyət göstərən qeyri-leqal işçilər xüsusi karantin rejimi iləbağlı tətbiq edilən məhdudiyyətlərə görə fəaliyyət icazəsi almaq üçün əmək müqaviləsi bağlamağa və onları ƏƏSMN-nin elektron bazasına daxil etməyə məcbur olub.

Bununla yanaşı, özəl sektorda qanunsuz fəaliyyət göstərən işçilərin bir qismi çalışdıqları özəl sektorda xüsusi karantin rejimi ilə bağlı fəaliyyət icazəsi ala bilməyib. Buna görə də onlar  fəaliyyətinə icazə verilən taksi və kuryer fəaliyyəti kimi digər sahələrdə formal iş yerlərində rəsmiləşməklə digər işlərdə çalışmaqda davam edirlər. Nəhayət, bu ilin son 10 ayında yeni yaranan iş yerlərinin 70 mini büdəcədən ayrılan vəsait hesabına ödənişli ictimai iş yerlərinin hesabınadır. İlin əvvəlində 38 min ictimai iş yaradılsa da  və pandemiya dövründə işsizlər üçün  əlavə olaraq 52 min ikiaylıq olmaqla  bütövlükdə 90 min ödənişli ictimai iş yerləri yaradılıb. Bu günə qədər artıq 38 min davamlı iş yerlərinin 95 faizi, 52 min ikiaylıq iş yerinin isə 50 faizi tam şəkildə işçilərlə təmin edilib.[26]

Pandemiya dövründə işsizlərə dəstək proqramının çərçivəsində özünüməşğulluq proqramı  da genişləndirilərək 12 min ailəni əhatə edib. Bu proqrama Dünya Bankı

[23] Alman-Azərbaycan Xarici Ticarət Palatası tərəfindən "KPMG Azerbaijan" şirkəti ilə əməkdaşlıq çərçivəsində nəşr olunan "Azərbaycanda Xarici Biznes 2020" hesabatının rəsmi təqdimatındanda İqtisadiyyat naziri Mikayıl Cabbarovun çıxışı https://apa.az/az/maliyye_xeberleri/Nazir-Gozlnilmz-olsa-da-pandemiya-sraitind-martin-vvlindn-olkd-80-min-is-yeri-acilib-619758

[24] "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2013-ü il 27 dekabr tarixli qanun və həmin qanunun tətbiqi ilə bağlı imzalanmış 2014-cü il 3 fevral tarixli fərmanı  ilə  ƏƏSMN-də  yaradılmış elektron informasiya sistemi işəgötürənlərlə işçilər arasında yaranmış əmək münasibətlərinin operativ uçotunu aparır.

[25] Nazirlər Kabinetinin 2020-ci il 8 dekabr tarixli 488 nömrəli Qərarına 1 nömrəli əlavə ilə təsdiq edilmiş  "Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş xüsusi karantin rejimi dövründə işlərin davam etdirilməsi zəruri olan fəaliyyət sahələrinin  siyahısı, https://apa.az/az/sosial_xeberler/Xususi-srtlsdirilmis-karantin-muddti-dovrund-faliyytin-icaz-veriln-sahlr-mlum-olub-618679

[26] Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas, http://www.azerbaijan-news.az/view-193478/prezident-ilham-eliyevin-sedrliyi-ile-nazirler-kabinetinin-2020-ci-ilin-birinci-yarisinin-sosial-iqtisadi-inkisafinin-yekunlarina-ve-qarsida-duran-vezifelere-hesr-olunan-iclasi-kecirilib

və BMT-nin İnkişaf Proqramı da qoşulub. Cari ildə 12 min vətəndaşın özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur. *İlin 6 ayında 3 min 500 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Lakin karantin müddəti ərzində vətəndaşların təlimlərə cəlb edilməsi və təlimi bitirdikdən sonra biznes planlarını müdafiə etməsi mümkün olmayıb.*

Birdəfəlik yardım alan və onu almaq üçün müraciət etsə də imtina cavabı verilən bütövlükdə 600 respondent arasında keçirilmiş sorğu göstərdi ki, hər iki qrup respondentlər e-sosial.az[27] saytı ilə müraciətləri zamanı texniki çətinliklərlə qarşılaşıb. Belə ki, elektron hökümət portalında yüklənmə halları nəticəsində onlayn sistem donub. Bununla yanaşı, mətbuatda və sosial şəbəkələrdə e-sosial.az saytının çökməsindən işsiz kimi qeydiyyatdan keçmək istəyən çoxlu sayda şəxsin şikayəti dərc olunub. Bu şikayətlərə cavab olaraq ƏƏSMN-nin təmsilçisi bildirib ki "işsiz kimi qeydiyyata alınmaq üçün vətəndaşlar tərəfindən elektron sistemə daxil olan müraciətlərin təhlili göstərir ki, bir çox hallarda bu müraciətlər qanunvericiliklə işsiz statusuna uyğun olmayanlar (hətta faktiki iş yeri, qazancı olanlar) tərəfindən edilir. Aid oldu-olmadı hər kəs sistemə daxil olmağa çalışır. Ona görə də yüklənməyə səbəb olub."[28] Bu həm də onu göstərir ki, nazirlik tərəfindən işsizlərin onlayn sistemdən istifadə etməsi üçün maarifləndirici videoçarxları təqdim və izahedici materialları dərc olunmayıb. Digər tərəfdən də bəlli olur ki, qurulmuş sistem çoxsaylı müraciətləri eyni zamanda qəbul etmək üçün lazım olan texniki parametrlərə malik deyil.

Azərbaycanda COVİD-19 pandemiyasının neqativ təsirləri daha çox aztəminatlı təbəqəyə, əsasən də işsizlərə olub. 600 respondent arasında keçirilmiş sorğunun nəticələrinin təhlili göstərir ki, bu təsirlərin neytrallaşdırılması üçün nəzərdə tutulan sosial müdafiə proqramları, xüsusilə də işsizlər üçün tətbiq edilən birdəfəlik yardım paketi yetərincə səmərə verməyib. Bunun başlıca səbəblərinə ayrılmış vəsaitin yetərli olmaması və davamlı ödənilməməsidir. Belə ki, yalnız aprel-may aylarında birdəfəlik yardım 600 min işsizə ödənilib. Sonrada isə bu yardım paketindən bütün ölkə deyil, sərt karantin rejimində saxlanılan regionlar faydalana bilib. Məsələn, iyun ayı üçün ödəniş xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlar (Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları) üzrə aprel-may aylarında birdəfəlik yardım almış şəxslərə şamil olunub. Bu dövr üçün yardımlar həmin bölgələr üzrə işsiz və xüsusi karantin rejimində işini itirən qeyri-formal işləyən aztəminatlılardan ibarət 278 min şəxsi əhatə edib və bu məqsədlə 53 milyon manat vəsait sərf olunub. Avqust ayında sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 13 şəhər və rayon (Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərləri və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz,

[27] İşsiz şəxslərin qeydiyyatı elektron sistem - www.e-sosial.az portalındakı e-xidmətlər bölməsində Vətəndaşların işaxtaran və işsiz kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması və qeydiyyatın ləğv edilməsi e-xidməti tərəfindən aparılır.

[28] Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov açıqlaması, https://news24.az/sosial/38429

Salyan) üzrə yaşayış birdəfəlik yardım proqramı həyata keçirilib. Bu məqsədlə də 278 min işsizə 53 milyon manat vəsait xərclənib.

Bundan sonra sentyabr və oktyabr ayları üzrə birdəfəlik yardım proqramı heç bir işsizə şamil olunmayıb. Noyabr ayında isə Şəki, Lənkəran, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz bölgələrində xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə birdəfəlik yardım verilib. Bu zaman birdəfəlik yardım 10 şəhər və rayon üzrə 96 min 587 işsizi əhatə edib.

## NƏTİCƏ ƏVƏZİ

Hər iki sorğu göstərir ki, birdəfəlik yardımın ayrılması inzibatçılıq baxımından yaxşı təşkil olunmayıb. Onun əldə edilməsinə müraciət edənlər bir sıra texniki çətinliklərlə üzləşib, eyni zamanda proqrama müraciət edənlər qərar qəbul edilmə prosedurlarında şəffaflıq və ədalətlilik prinsiplərinə əməl edilmədiyindən şikayətləniblər. Bununla yanaşı ödənilən məbləğ ehtiyacların qarşılanması üçün kifayət etməyib. Bundan əlavə, birdəfəlik yardımın ödənilməsi müddəti də pandemiya dövrünü tam əhatə etməyib. Başlanğıcda 2 ay müntəzəm ödənilən sosial yardım sonradan regionlar üzrə fərqləndirilməklə və fasilələrlə ödənilib. Bu isə pandemiyadan və digər səbəblərdən yaranan işsizliyin sosial müdafiəsi üçün yetərli sayıla bilməz.

COVİD-19 pandemiyası davam edir. Nazirlər Kabinetinin yeni qərarına[29] görə, 14 dekabrdan növbəti ilin 18 yanvarına qədər ölkənin bütün ərazisində bu Qərarın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla digər iş və xidmət sahələrinin fəaliyyəti dayandırılıb. Bu qərarla siyahısı təsdiq edilən dövlət orqanlarında çalışan şəxslərin onlayn icazə aldıqdan sonra hərəkətinə imkan verilir. Bu dövr ərzində yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS sistemi və ya *E-Təbib* mobil tətbiqi vasitəsilə icazə alınması tələb olunur. Bu isə işsizlər üçün nəzərdə tutulmuş birdəfəlik yardım proqramının davam etdriilməsini labüd edir. Artıq bu proqram çərçivəsində işsizlərə ayda 190 manat deyil, 2021-ci il üçün təsdiq edilmiş yaşayış minimumum dəyəri məbləğində vəsait ödənilməlidir. Gələn il üçün yaşayış minimumu ölkə üzrə 196,0 manat qəbul edilib. Bu isə o deməkdir ki, növbəti ildən birdəfəlik yardım proqramı çərçivəsində ödənişlər 196 manat təşkil etməlidir.

[29] Azərbaycan Respublikasının Nazirlər Kabinetinin " Azərbaycan Respublikasında 2020-ci il dekabrın 14-dən xüsusi karantin rejiminin sərtləşdirilməsi haqqında" qərarı, https://nk.gov.az/az/document/4987/

# 03

SİYASƏT SƏNƏDİ

POLICY PAPER

# COVID-19 BÖHRANI VƏ BÖHRAN SONRASI DÖVR ÜÇÜN SİYASƏT SƏNƏDİ

Prof. Dr. Qubad İbadoğlu, Qalib Toğrul, Rəcəb İmanov

## İCMAL

Bu siyasət sənədi Azərbaycan hökumətinin COVID-19 pandemiyasının sahibkarlığa neqativ təsirlərinin azaldılması və bu dövrdə aztəminatlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində görülən işlərin maliyyə və fəaliyyətlər üzərindən səmərəliliyinin qiymətləndirilməsi və aidiyyəti *dövlət orqanları üçün təkliflərin hazırlanmasın*a həsr olunub. Bu sənədin hazırlanması üçün aparılan tədqiqat çərçivəsində xarici, xüsusilə də təbii resurslarla zəngin ölkələrin COVID-19 pandemiyasına cavab tədbirləri və inkişaf etmiş ölkələrin mütərəqqi təcrübəsi öyrənilib. Araşdırma nəticə və təkliflər bölməsi ilə yekunlaşır.

## GİRİŞ

Dünyada geniş yayılmış koronavirus pandemiyası milli səviyyədə ölkə, beynəlxalq səviyyədə isə qlobal iqtisadiyyata və inteqrasiyaya zərər vurmaqda davam edir. Virusla mübarizə bir tərəfdən büdcə gəlirlərinin formalaşmasının azalması, digər tərəfdən də büdcə xərclərinin artması ilə nəticələnir. Hər iki təsirin neqativ olması bir sıra ölkələrdə ciddi maliyyə çətinlikləri yaratmaqdadır. Odur ki, Beynəlxalq Valyuta Fondu (BVF) inkişaf etməkdə olan ölkələrə bu istiqamətdə maliyyə yardımını 1 trilyon dollara qədər artırdığını bəyan edib.[1] BVF-nin qiymətləndirmələrinə əsasən inkişaf etməkdə olan ölkələrdə koronavirusla mübarizə üçün 2.5 trilyon dollar vəsait xərclənməlidir.[2] İnkişaf etmiş ölkələrin maliyyə imkanlarının genişliyi və xüsusi fondlarının mövcudluğu onların beynəlxalq maliyyə kredit təşkilatlarının yardımı olmadan da koronavirusla mübarizə aparmasına şərait yaradır. Belə ölkələrdən bir çoxu iqtisadi böhrana hazırlıq görür, koronavirusla mübarizəni gücləndirməklə yanaşı, ondan zərər çəkən əhaliyə və biznesə yardım paketlərini genişləndirirlər. Bu proqramların əsas məqsədi böhran dövründə məcmu tələb və məcmu təklif arasında tarazlığı qorumaq, böhranın təsirlərindən müdafiə sistemi formalaşdırmaqdır.

Azərbaycanda koronavirusla mübarizə beynəlxalq maliyyə-kredit təşkilatlarının dəstəyi olmadan aparılır. Hökumət daxilində bu istiqamətdə aparılan müzakirələrdən sonra *Koronavi-*

[1] "The Great Lockdown: Worst Economic Downturn Since the Great Depression", İMF 23 March 2020, https://www.imf.org/en/News/Articles/2020/03/23/pr2098-imf-managing-director-statement-following-a-g20-ministerial-call-on-the-coronavirus-emergency

[2] Opening Remarks at a Press Briefing by Kristalina Georgieva following a Conference Call of the International Monetary and Financial Committee (IMFC), İMF 27 March 2020 https://www.imf.org/en/News/Articles/2020/03/27/sp032720-opening-remarks-at-press-briefing-following-imfc-conference-call

*rus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında* 19 mart 2020-ci ildə Prezidentin 1950 saylı Sərəncamı (bundan sonra *sərəncam*) imzalanıb. Sərəncamla bu sahədə tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci il dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard manat ayrılıb.

Bununla yanaşı, *Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında* Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Fərmanı (bundan sonra *fərman*) ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb.[3] 1 noyabr 2020-ci il tarixə olan son məlumata görə Fonda 113.769.304 manat vəsait daxil olub ki, onun da 20 milyon manatı Prezidentin Ehtiyat Fondundan[4] ayrılıb, yerdə qalan vəsaitin 86.378.932 manatını hüquqi şəxslərin, 7.373.694 manatını isə fiziki şəxslərin ianələri təşkil edib.[5] Bundan başqa, Avropa İttifaqı zəruri tibbi ləvazimatların alınması üçün Azərbaycana 14 milyon avro dəstək göstərib.[6] Gürcüstana 183 milyon, Belarusa 60 milyon, Moldovaya 87 milyon, Ukraynaya 190 milyon, Ermənistana 92 milyon, Azərbaycana isə 14 milyon avro dəstək göstərilib.

Bu siyasət yazısında COVID-19 pandemiyasına qarşı hökumətin həyata keçirdiyi tədbirlərin və ayırdığı maliyyə vəsaitlərinin şəffaflığı qiymətləndirilir. Bununla yanaşı, həm sahibkarlara köməyin, həm də muzdlu işçilərinin əməyinin bir hissəsinin ödənilməsinin, eləcə də sosial müdafiə sahəsində xərclənən dəstək paketinin davamlılığı ilə səmərəliliyi qiymətləndirilir və hökumətə siyasət təklifləri təqdim olunur.

## METODOLOGİYA

Siyasət sənədinin hazırlanmasının bazasını masa araşdırması və empirik tədqiqatlar təşkil edir. Masa araşdırması zamanı COVID-19 pandemiyasına qarşı hökumətin həyata keçirdiyi tədbirlərin hüquqi bazasını təşkil edən qanunlarla normativ aktlar və onların icrası öyrənilib. Bununla yanaşı, masa araşdırması çərçivəsində COVID-19 pandemiyasına qarşı hökumətin xərcləmələrinə və vəsaitlərin bölüşdürülməsinə dair müxtəlif və mötəbər mənbələrdə dərc

[3] Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 mart 2020-ci il, https://president.az/articles/36228; Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 mart 2020-ci il, https://president.az/articles/36216 ; Koronavirusla Mübarizəyə Dəstək Fondunun rəsmi isnternet səhifəsi http://covid19fund.gov.az/az/

[4] Azərbaycan Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 mart 2020-ci il https://president.az/articles/36215

[5] Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə verənlərin siyahısı, http://covid19fund.gov.az/az/donation

[6] "EU allocates €14m to Azerbaijan to fight coronavirus, Azernews qəzeti", 9 aprel 2020-ci il, https://www.azernews.az/nation/163913.html

edilmiş statistik məlumatların, rəsmi informasiya bülletenlərinin və aidiyyəti dövlət orqanlarının dövrü hesabatları təhlil edilib[7]. Bu zaman dövlət büdcəsinin icrasına dair aylıq, rüblük və yarımillik hesabat materialları, MN-nin COVID-19 pandemiyasına qarşı hökumətin həyata keçirdiyi tədbirlər planına ayrılmış vəsaitlərin xərclənməsinə, eləcə də İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Müdafiəsi Nazirliyinin (ƏƏSMN) ayrılmış vəsaitlərin bölüşdürülməsinə dair açıqlamaları nəzərdən keçirilib. Tədqiqatın informasiya və məlumat bazasını Nazirlər Kabinetinin üzvlərinin iştirakı ilə prezidentin yanında keçirilən COVID-19 pandemiyasına qarşı hökumətin gördüyü işlərin hesabatına həsr olunmuş müşavirələrdəki çıxışlarda, səslənən fikirlər və açıqlanan rəqəmlər təşkil edir. Masa araşdırması çərçivəsində mütərrəqqi ölkələrin, eyni zamanda, təbii resurslarla zəngin ölkələrin və post-sovet məkanında yerləşən bir sıra dövlətlərin COVID-19 pandemiyasına qarşı həyata keçirdiyi tədbirlər də dərindən öyrənilib və onların uğurlutəcrübəsi seçilərək ayrıca bölmə şəklindətəqdimedilib. Araşdırmanın siyasət təkliflərinin hazırlanması zamanı da beynəlxalq təcrübə materiallarından istifadə olunub.

Bundan başqa, siyasət sənədinin hazırlanmasında empirik tədqiqatlar çərçivəsində keçirilmiş sorğunun nəticələrindən də istifadə olunub. Sorğu 4 fərqli qrup (190 manat sosial yardım alanlar; 190 manat sosial yardım almaq üçün müraciət edib, imtina cavabı alanlar; kiçik və fərdi sahibkarlar; muzdlu işçilər) üzrə bərabər paylanmaqla bütövlükdə 1200 respondent arasında keçirilib. Sorğu nəticəsində sosial müdafiə və sahibkarlara dəstək məqsədli dövlətin yardım proqramlarına müraciət imkanları, informasiyalara çıxış, ərizələrin qəbulu və şəffaflıq, eləcə də əldə edilmiş yardımların yetərliliyi ilə yanaşı səmərəliliyi və nəticəliliyi də qiymətləndirilib.

Sorğu anketinin (Bax: Əlavə 1, 2, 3, 4) hər biri ən azı 12 sualdan ibarət olub. Sorğular 4 ay ərzində (iyun-sentyabr 2020-ci il) Bakı, Oğuz, Şəki, Salyan, Hacıqabul, İmişli və Sabirabadda hər qrup üzrə bərabər bölünərək aparılıb. Rayonların seçilməsi zamanı demoqrafik göstəricilər, əhalinin həyat səviyyəsi, işsizlik və yoxsulluğun səviyyəsi, eyni zamanda, sahibkarların sayı əsas götürülüb. Sorğunun müddətinin uzun olması pandemiya dövründə sərt karantin rejiminə görə tətbiq edilən hərəkət məhdudiyyətləri ilə izah oluna bilər. Sahibkarlar və muzdlu işçilər arasında keçirilən sorğular həm də işçilərin işə fasiləli çıxmasına görə daha uzun müddət tələb edib. Buna baxmayaraq, sahibkarlar və muzdlu işçilər arasında sorğu suallarının cavablandırılması səviyyəsi 190 manatlıq yardım alan və ya həmin yardımdan imtina cavabı alanlarla müqayisədə aşağı oldu.

## PANDEMİYANIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRLƏRİ

### Pandemiyanın sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər

Dünya Səhiyyə Təşkilatı COVID-19 virusunu qlobal pandemiya elan edəndən 8 gün sonra, 19 mart 2020-ci ildə prezident İlham Əliyev sərəncam imzalayaraq koronavirusun iqtisadiy-

[7] Koronavirusla mübarizəyə dəstək fondunun rəsmi internet saytı http://covid19fund.gov.az/az/

yata mənfi təsirlərinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi məqsədilə 2020-ci il üçün dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard 409 milyon manat ayırıb.[8] Ayrılmış vəsaitin 6 ay ərzində 752 milyon manatı xərclənib. Maliyyə naziri Samir Şərifov bildirib[9] ki, "bu mənbədən səhiyyə sahəsinə ayrılmış 250 milyon manat vəsaitdən 149 milyon manat, sosial-iqtisadi dəstək tədbirləri üzrə ayrılmış 570 milyon manat vəsaitdən 281 milyon manat, sosial təminat dəstək tədbirləri üzrə ayrılmış 309 milyon manat vəsaitdən 244 milyon manat, dövlət şirkətlərinə maliyyə dəstəyinin göstərilməsi ilə bağlı ayrılmış 280 milyon vəsaitdən isə 118 milyon manat artıq istifadə edilib."

Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsinə və sahibkarlara dəstək iki mərhələdə həyata keçirilib. Sərəncamın 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən hər iki mərhələ üzrə 28 sentyabr tarixinə İqtisadiyyat Nazirliyinin muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus pandemiyasından zərər çəkmiş sahibkarlara göstərilmiş maliyyə dəstəyi barədə məlumatları artan yekunla 1-ci cədvəldə verilib.[10]

**Cədvəl 1. Muzdlu işçilərə əmək haqqının müəyyən hissəsinin ödənilməsi**

| Tədbirin icrası üzrə nəzərdə tutulmuş vəsaitin məbləği | 215.0 milyon manat |
|---|---|
| Müraciət etmiş vergi ödəyicilərinin sayı<br>Vergi ödəyiciləri üzrə muzdlu işçilərin sayı | 29.268 vergi ödəyicisi<br>275.765 nəfər |
| Maliyyə dəstəyinin məbləği | 99.778,2 min manat |
| Faktiki ödəniş edilmiş vergi ödəyicilərinin sayı | 25.031 vergi ödəyicisi |
| Həmin vergi ödəyiciləri üzrə muzdlu işçilərin sayı | 216.571 nəfər |
| Ödənilmiş vəsaitin məbləği,<br>o cümlədən 2-ci ay üzrə ödənilmiş vəsaitin məbləği (50%) | 98.894,4 min manat<br>49.130,5 min manat |

Mənbə: İqtisadiyyat Nazirliyi

Göründüyü kimi tədbirin icrası üçün nəzərdə tutulmuş 215 milyon manat vəsaitin faktiki olaraq 28 sentyabr 2020-ci il tarixinə 46 faizi istifadə edilib. Bu məqsədlə nəzərdə tutulan vəsaitin 54 faizi və ya 116 milyon manatdan çoxu xərclənməmiş qalsa da, müraciət etmiş 29.268 vergi ödəyicisindən faktiki olaraq 25.031 nəfərinə ödəniş edilib. Beləliklə, 275.765 nəfər işçidən yalnız 216.571 nəfəri nəzərdə tutulmuş kompensasiya məbləğini əldə edə bilib.

8 Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 mart 2020-ci il, https://president.az/articles/36228

9 Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası, http://xalqqazeti.com/mobile/az/news/52102

10 İqtisadi artıma və sahibkarlara dövlət dəstəyi tədbirlərinin mexanizmləri, 08.10.2020-ci ildə İqtisadiyyat Nazirliyi tərəfindən yenilənib, https://economy.gov.az/article/i-qtisadi-artima-ve-sahibkarlara-dovlet-desteyi-tedbirlerinin-mexanizmleri/30857#

Cədvəl 2-də Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına əsasən hər iki mərhələ üzrə artan yekunla 28 sentyabr tarixinə İqtisadiyyat Nazirliyi tərəfindən koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş fərdi (mikro) sahibkarlara göstərilmiş maliyyə dəstəyi barədə 28.09.2020-ci il tarixinə olan məlumatlar artan yekunla təqdim olunur.

**Cədvəl 2. Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi**

| Tədbirin icrası üzrə nəzərdə tutulmuş vəsaitin məbləği | 80.0 milyon manat |
|---|---|
| Müraciət etmiş vergi ödəyicilərinin sayı | 119.024 vergi ödəyicisi |
| Müraciəti araşdırılmış vergi ödəyicilərinin sayı | 111.986 vergi ödəyicisi |
| Maliyyə dəstəyinin məbləği | 63.804,2 min manat |
| Faktiki ödəniş edilmiş vergi ödəyicilərinin sayı | 107.256 vergi ödəyicisi |
| Ödənilmiş vəsaitin məbləği | 63.709,2 min manat |

Mənbə: İqtisadiyyat Nazirliyi

Göründüyü kimi fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi üçün nəzərdə tutulmuş 80 milyon manatdan 63.709,2 min manatı və ya 79,6 faizi xərclənib. Bu məqsəd üçün müraciət etmiş 119.024 vergi ödəyicilərindən 111.986 vergi ödəyicisinə maliyyə dəstəyinin göstərilməsinə dair qərar verilsə də, hesabat tarixinə yalnız 107.256 vergi ödəyicisinə faktiki olaraq ödəniş edilib.

29.062 iri vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 118.551 fərdi (mikro) sahibkar, ümumilikdə isə147.613 vergi ödəyicisi müraciət edib. Muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi çərçivəsində 219.768 işçini əhatə edən 25.233 sahibkarın müraciəti təsdiqlənib və ayrılacaq maliyyə vəsaitinin bank hesablarına köçürülməsi üçün MN-ə təqdim edilib, digər vergi ödəyiciləri üzrə araşdırmalar isə davam edir. İndiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 99.13 milyon manat, o cümlədən 2-ci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 49.56 milyon manat təşkil edir. İyulun 28-nə MN-nin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 24.825 vergi ödəyicisinə 215.689 nəfər muzdlu işçinin əmək haqqı üzrə 97,95 milyon manat, eləcə də2-ci ay üzrə 48,5 milyon manat vəsaitin köçürülməsi təmin edilib.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 118.551 vergi ödəyicisindən müraciət daxil olub, 111.067 müraciət təsdiqlənib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün MN-ə təqdim edilib. Təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 63.6 milyon manat təşkil edir. İyulun 28-nə MN-nin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən artıq 63.5 milyon manat vəsaitin 106.765 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilib.

Muzdlu işçilərin əmək haqlarına 2-ci mərhələ üzrə maliyyə dəstəyi pandemiyadan zərər çəkmiş sahələrdə çalışan, birinci maliyyə dəstəyi proqramı çərçivəsində vəsait almış və

işçi saylarında ciddi azalmalara yol verməmiş vergi ödəyicilərinə 1 iyul 2020-ci il tarixinə olan işçi sayı əsas götürülməklə bir aylıq əmək haqqı fondu həcmində göstərilir. Maliyyə dəstəyinin ikinci mərhələsi çərçivəsində vergi ödəyicilərinin yenidən müraciət etmələrinə ehtiyac yoxdur və vəsaitlər avqust və sentyabr aylarını əhatə etməklə 2 mərhələdə bərabər hissələrlə ödənilir.

Avqust ayında yeni maliyyə dəstəyi çərcivəsində 234.355 muzdlu işçini əhatə edən 22.885 vergi ödəyicisinə 51.9 milyon. manat vəsait ödənilib. Maliyyə dəstəyi proqramının ikinci mərhələsində ödənişlə əhatə olunmuş muzdlu işçilərin sayı birinci mərhələdə vəsait almış muzdlu işçilərin sayından 18.245 nəfər çoxdur. İqtisadiyyat Nazirliyinin rəsmi açıqlamasında bu, şəffaflaşdırma nəticəsində əmək müqavilələri bağlamış işçi saylarının artması ilə izah olunur. İkinci maliyyə dəstəyi çərcivəsində avqust ayında 49.887 fərdi (mikro) sahibkara 12,4 milyon. manat birdəfəlik maliyyə dəstəyi göstərilib.

Bundan əlavə, Nazirlər Kabinetinin Tədbirlər Planına müvafiq olaraq birbaşa maliyyə dəstəyi ilə yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar müvəqqəti vergi rejimi tətbiq edilməyə başlayıb.[11] Bu güzəştlərin müddəti 2020-ci il yanvarın 1-dən etibarən bir il müddətinə müəyyən edilib.

Bununla yanaşı, koronavirus pandemiyasının təsirinə məruz qalan və müvəqqəti vergi rejimi tətbiq edilən fəaliyyət sahələrində çalışan:

1. Vergi ödəyicilərinə 2020-ci il yanvarın 1-dən etibarən bir il müddətinə bir sıra vergi güzəştləri tətbiq edilir. Bu güzəştlər vergi ödəyicilərinin seçdikləri vergitutma metodundan asılı olaraq tətbiq edilir. Mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən ödəyicilər üzrə əldə edilmiş mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştləri verilib.
2. Sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti və sərnişin daşımalarını həyata keçirən vergi ödəyiciləri üzrə sadələşdirilmiş verginin məbləği üzrə 50 faiz güzəşt tətbiq edilir. İctimai iaşə sahəsində verginin dərəcəsi 8 faizdən 4 faizə endirilib.
3. Fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsi 14 faizdən 7 faizə endirilib.

Koronavirus pandemiyasının mənfi təsir etdiyi və müvəqqəti vergi rejiminin tətbiq olunduğu iqtisadi fəaliyyət sahələri üzrə vergi bəyannamələrinin və hesabatlarının təqdim edilməsinə, habelə vergi ödəmələrinin həyata keçirilməsinə bir sıra vergi tətillərinin verilməsi nəzərdə tutulur. Bu güzəştlər aşağıdakılardır:

[11] Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) vergi güzəştləri və tətilləri mexanizmi, 08.06.2020-ci ildə İqtisadiyyat Nazirliyi tərəfindən yenilənib. https://economy.gov.az/article/pandemiyadan%20zerer%20chekmish%20sahelerde%20fealiyyet%20gosteren%20sahibkarliq%20subyektlerine%20o%20cumleden%20kichik%20ve%20orta%20sahibkarliga%20vergi/30874

1. 1 il müddətinə cari vergi ödəmələrindən və cari vergi ödəmələri ilə bağlı arayışların verilməsindən azad edilməsi. 2019-cu il üçün son verginin ödənilməsi müddətinin 1 sentyabr 2020-ci il tarixinədək uzadılması;
2. Mikro sahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin əvvəlki il üzrə hesablanmış mənfəət (gəlir) və əmlak vergilərinin ödənilməsi müddətinin cari ilin 1 sentyabr tarixinədək uzadılması;
3. Ödənilməmiş vergi, məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanması 2020-ci ilin 1 aprel tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınması;
4. ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən 2020-ci il üzrə sadələşdirilmiş vergi metodunu seçmək hüququnun 20 aprel tarixindən 1 sentyabr tarixinədək uzadılması.

Yekun olaraq onu da qeyd edək ki, koronavirus pandemiyasının təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq sadələşdirilmiş vergi ödəyicisi olan mikro sahibkarlara aşağıdakı güzəştlər tətbiq edilir:

1. Sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi (verginin dərəcəsi 2 faizdən 1 faizə salınır);
2. 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş vergi hesabatının, mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların təqdim olunması və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi;
3. Nazirlər Kabinetinin qərarı ilə müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddətin sabit qəbz almaqla fərdi qaydada məşğul olan vergi ödəyiciləri tərəfindən əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilməməsi və ödənilmiş vergilərin növbəti dövrlərin ödəmələrinə aid edilməsi.

NK-nin Prezidentin 19 mart tarixli Sərəncamının icrası ilə bağlı 4 aprel 2020-ci ildə qəbul etdiyi Tədbirlər Planında **nəzərdə tutulan fəaliyyətlərin icrası ilə** faktiki məlumatların müqayisəsi əsasında cədvəl hazırlanıb. Cədvəlin nəzərdə tutulan məlumatları 4 aprel 2020-ci il tarixində təsdiq edilmiş Tədbirlər Planı,[12] faktiki məlumatları isə 10 sentyabr 2020-ci tarixinə İqtisadiyyat Nazirliyinin[13] və Maliyyə Nazirliyinin[14] məlumatları əsasında tərtib edilib.

[12] Nazirlər Kabinetinin qərarı, https://cabmin.gov.az/az/document/4367/

[13] Maliyyə Nazirliyi pandemiyadan zərər çəkmiş sahələrə dövlət büdcəsindən 533 milyon manatdan çox maliyyə dəstəyi göstərib http://maliyye.gov.az/news/5459/pandemiyadan-zerer-cekmis-sahelere-dovlet-budcesinden-533-milyon-manatdan-cox-maliyye-desteyi-gosterilib

[14] Koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilir, İqtisadiyyat Nazirliyi tərəfindən 08.09.2020-ci ildə yenilənib. https://www.economy.gov.az/article/koronavirus-covi-d-19-pandemiyasindan-zerer-chekmish-sahibkarlara-dovlet-maliyye-desteyinin-gosterilmesi-davam-etdirilir5/30968

**Cədvəl 3. Tədbirlər Planı üzrə dövlət büdcəsindən sahibkarlara dəstək məqsədilə nəzərdə tutulan və faktiki xərcləmələrin müqayisəsi**

| | Tədbirlər Planı üzrə | | | | Kənarlaşma, + artım, - azalma | |
|---|---|---|---|---|---|---|
| | Nəzərdə tutulan əhatə dairəsi, *nəfərlə* | Faktiki əhatə dairəsi, *nəfərlə* | Nəzərdə tutulan kompensasiya, məbləği, *mln.manatla* | Faktiki xərclənən kompensasiya, məbləği, *mln. manatla* | Saya görə, *nəfərlə* | Məbləğə görə, *mln. manatla* |
| Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi | 300.000 | 216.571 | 215 | 98.9 | -83.429 | -116.1 |
| Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi | 300.000 | 107.256 | 80 | 63.7 | -192.744 | -16.3 |
| Sahibkarlığın İnkişafı Fonduna əlavə vəsaitlərin ayrılması | - | | 50 | 35 | | -15 |
| Güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcminin artırılması | - | | 90 | 40 | | -50 |
| Həyati vacib sərnişindaşıma sahəsinə maliyyə dəstəyinin verilməsi | - | | 280 | 89.5 | | -190.5 |
| Cəmi | | | 725 | 400.25 | | -324.75 |

Mənbə: Nazirlər Kabineti, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi

Tədbirlər Planının icrası zamanı ən böyük qalıq məbləği həyati vacib sərnişindaşıma sahəsinə maliyyə dəstəyinin verilməsi üçün ayrılmış 280 milyon manat vəsaitin yalnız 31,9 faizinin xərclənməsi nəticəsində yaranıb: 190.5 milyon. Bununla yanaşı, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqlarının müəyyən hissəsinin ödənilməsi üçün 215 milyon manatın faktiki olaraq 149.85 milyon manatı və ya 69,7 faizi, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi üçün nəzərdə tutulmuş 80 milyon manatın faktiki olaraq 75,9 milyon manatı və ya 94,8 faizi xərclənib.

## Pandemiyanın işsizlik və yoxsulluğa təsirinin azaldılması ilə bağlı tədbirlərin səmərəliliyi

Tədbirlər Planı üzrə maliyyələşməsi dövlət büdcəsindən nəzərdə tutulan 1 milyard 409 milyon manat vəsaitin 6 ay ərzində 752 milyon manatı xərclənib ki, onun da 400 milyon 25 min manatı sahibkarlığa dəstək proqramlarına yönəldilib. Bu dövrə qalıq vəsaitlərin həcmi 351 milyon 975 min manat təşkil edib. Tədbirlər Planında nəzərdə tutulmuş fəaliyyətlərin icrası zamanı DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmənin verilməsi maddəsi üzrə 333 milyon manat xərclənib. İşsizlərin sayının reallıqda rəsmi statistikada göstəriləndən dəfələrlə çox olması bu istiqamətdə nəzərdə tutulan 70 milyon manatdan 4 dəfə çox - 263 milyon manat vəsait xərclənməsinə səbəb olub.

**Cədvəl 4. Tədbirlər Planı üzrə dövlət büdcəsindən sahibkarlara dəstək məqsədilə nəzərdə tutulan və faktiki xərcləmələrin müqayisəsi**

| | Tədbirlər Planı üzrə | | | | Kənarlaşma, + artım, - azalma | |
|---|---|---|---|---|---|---|
| | Nəzərdə tutulan əhatə dairəsi, *nəfərlə* | Faktiki əhatə dairəsi, *nəfərlə* | Nəzərdə tutulan kompensasiya, məbləği, *mln. manatla* | Faktiki xərclənən kompensasiya, məbləği, *mln. manatla* | Saya görə, *nəfərlə* | Məbləğə görə, *mln. manatla* |
| Haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğunun təmin edilməsi | 50.000 | | 30 | 15 | | -15 |
| DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmənin verilməsi | 200.000 | 600.000 | 70 | 333 | +400.000 | +263 |
| Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi | | | 40 | | | |
| Əhaliyə güzəştli işıq limitinin aprel-may aylarında 100 kvts. həcmində artırılması | | | 10 | | | |
| **Cəmi** | | | **150** | **348** | | **+198** |

Mənbə: Nazirlər Kabineti, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi

Bundan əlavə, Tədbirlər Planında digər mənbələrdən maliyyələşməsi nəzərdə tutulan kompensasiya məbləğləri də təyin edilib. Həmin məbləğlər istiqamətlər üzrə Cədvəl 5-də təqdim olunur.

**Cədvəl 5. Tədbirlər Planı üzrə digər mənbələrdən maliyyələşməsi nəzərdə tutulan xərcləmələr**

| | Əhatə dairəsi, nəfərlə | Maliyyələşməsi digər mənbələrdən nəzərdə tutulan, mln. manatla | |
|---|---|---|---|
| | | İSF, DSMF, Mənbəyi məlum deyildir (MMD) | İcra vəziyyəti |
| Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin (o cümlədən kiçik və orta sahibkarlığın) 2020-ci il 10 mart tarixinə 1 milyard manat həcmində mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması | | 50 (MMD) | |
| İSF, BMT İnkişaf Proqramı və DB ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən özünüməşğulluq proqramının genişləndirilməsi və icrasının sürətləndirilməsi | 11.000 | 70 (İSF) | |
| İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və proaktiv təyinat mexanizminin yaradılması | 20.000 | 20 (İSF) | |
| İşsizlikdən sığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış şəxslərə və peşə hazırlığı kurslarında fasilə yaranmış müdavimlərə xüsusi karantin rejimi dövründə sığorta ödənişinin və təqaüdlərin davam etdirilməsi, əmək haqlarının birgə maliyyələşdirilməsi proqramının təkmilləşdirilməsi | 2.000 | 0,6 (İSF) | |
| Sosial sığorta haqlarının azalması şəraitində kəsirinin bağlanması və əhaliyə sosial ödənişlərin (pensiya və müavinətlər) davamlılığının təmin edilməsi məqsədilə DSMF-nin 2019-cu il üzrə yaranmış 200 milyon manat ehtiyatının istifadə olunması Dekabr | | 200 (DSMF) | |
| Ünvanlı dövlət sosial yardımı xüsusi karantin rejimi dövründə bitən ailələrə (şəxslərə) yardımın verilməsinin xüsusi karantin rejimi bitənədək davam etdirilməsi və bu dövrdə ünvanlı dövlət sosial yardımının təyinatının sadələşdirilməsi | 62.000 | 3 (DSMF) | |
| **Cəmi** | | **343.6** | |

Mənbə: 4 aprel 2020-ci ildə NK, Prezidentin 2020-ci il 19 mart tarixli, 1950 nömrəli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı

Göründüyü kimi 95 min aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün DSMF-nin, İşsizlikdən Sığorta Fondunun və digər mənbələrin hesabına əlavə olaraq 343.6 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Lakin DSMF-nin və İSF-nin 2020-ci il üçün büdcəsinin icrasına dair məlumatlar açıqlanmadığına görə nəzərdə tutulan vəsaitlərin faktiki xərclənmə səviyyəsini müəyyənləşdirmək mümkün olmayıb.

Qeyd edək ki, bu istiqamətdə nəzərdə tutulandan 4,75 dəfə artıq xərcləmə olmasına baxmayaraq, yenə də ayrılmış vəsait işsizlərin hamısının ehtiyaclarını ödəməyib. Belə ki, bu yardımı əldə etmək üçün müraciət edən 635 min nəfərdən çox işsiz şəxsə ƏƏSMN tərəfindən imtina cavabı verilib. ƏƏSMN naziri Sahil Babayev bunu həmin işsizlərin aztəminatlılar qrupuna aid olmaması ilə izah edib.[15] Halbuki Tədbirlər Planında aydın şəkildə bu vəsaitin DMX orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə ödənilməsi nəzərdə tutulmuşdu. Lakin aprelin 7-də Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara görə dövlət qurumlarından aşağıdakı ödənişləri alan işsiz şəxslərə birdəfəlik ödəmə verilmir: "Ünvanlı dövlət sosial yardımı (ÜDSY) alan ailələrin üzvlərinə; əmək pensiyaçılarına; aylıq müavinət alanlara; aylıq təqaüd alanlara; özünüməşğulluğun təşkili proqramı çərçivəsində əmlak verilmiş şəxslərə; işsizlikdən sığorta ödənişi alanlara; peşə hazırlığına görə təqaüd alanlara; 2020-ci ildə kənd təsərrüfatı üzrə subsidiya (KTS) almış şəxslərə; əri və ya arvadı sahibkar olanlara (aktiv VÖEN-i olan) və ya Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək müqaviləsi bildirişi" altsistemində aktiv əmək müqaviləsi bildirişi olanlara; əri və ya arvadı ÜDSY və ya KTS alan şəxslərə."[16]

Beləliklə, Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalarda birdəfəlik ödəmə *Məşğulluq haqqında* qanuna uyğun olaraq işsiz kimi qeydiyyata alınmış və yuxarıda sadalanan kateqoriyaya aid olmayan şəxslərə təyin olunur və ödənilir. Həmin şəxslərə aşağıdakılar aiddir: 2020-ci il 1 aprel tarixinə "Məşğulluq" altsistemində (MAS) işsiz kimi qeydiyyata alınmış şəxslər; pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq edildiyi dövrdə MAS-da işsiz kimi qeydiyyata alınmış şəxslər.

Dövlət Statistika Komitəsinin 2020-ci il martın 1-nə olan məlumatlarına əsasən iqtisadi fəal əhalinin sayı 5188,4 min nəfərdir və onların 4936,8 min nəfərini məşğul əhali təşkil edir. Məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı ölkə üzrə cəmi 90.779 nəfər olmuşdur ki, onlarında da 501 nəfərinə işsizlikdən sığorta ödənişi verilir.[17] İşsizlik statusunun alınması üçün vətəndaşlar *e-sosial* portalında müvafiq xidmətdən istifadə edərək müraciət edirlər. Qubad İbadoğlu bu prosesi ətraflı şəkildə belə izah edir:

Bu zaman MAS tərəfindən şəxsə münasib işin təklif edilməsi mümkün olmadıqda dərhal işsiz statusunun verilməsi haqqında qərar qəbul olunur və MAS tərəfindən işsiz şəx-

[15] Sahil Babayev: "Birdəfəlik ödəmə alanlardan 8 faizi 20 yaşa qədər olanlardır" https://apa.az/az/sosial_xeberler/Sahil-Babayev-Birdflik-odm-alanlardan-8-faizi-20-yasa-qdr-olanlardir-585208

[16] Nazirlər Kabinetinin qərarı, https://cabmin.gov.az/az/document/4371/

[17] Birdəfəlik yardım paketindən hansı kateqoriyalı işsizlər və necə faydalanacaq? https://www.turan.az/ext/news/2020/4/free/analytics/az/123049.htm

sin yuxarıda göstərilən şəxslərə aid olması yoxlanılır. Yoxlama nəticəsində işsiz şəxsin yuxarıda göstərilən şəxsə aid olması müəyyən edildikdə MAS tərəfindən elektron qaydada birdəfəlik ödəmənin verilməsindən imtina olunur. İşsiz şəxsin bu qaydaların yuxarıda göstərilən şəxsə aid olmaması müəyyən edildikdə isə birdəfəlik ödəmənin təyin edilməsi haqqında MAS tərəfindən qərar qəbul olunur. Birdəfəlik ödəmə pandemiya ilə əlaqədar xüsusi karantin rejimi dövründə aylıq həyata keçirilir. Növbəti ay üçün birdəfəlik ödəmə təkrar yoxlama keçirildikdən sonra (əvvəlki ödənişdən 30 gün sonra) verilir... İşsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmənin verilməsində məhdudiyyətlər bilərəkdən artırılıb. Çoxsaylı məhdudiyyətin tətbiqinin başlıca məqsədi ayrılmış vəsaitə çıxış imkanlarının əngəllənməsidir. Əslində, yaşayış minimumu həcmində birdəfəlik ödəmə bütün işsizlərə verilməlidir. Tədbirlər Planında 70 milyon manatlıq birdəfəlik ödəmənin 200 min nəfərə şamil olunması [isə] son nəticədə işsizlər arasından seçim edilməsini şərtləndirib.[18]

Dövlət Statistika Komitəsinin[19] məlumatına görə "5188,4 min nəfər iqtisadi fəal əhalinin yalnız 1641 min nəfəri muzdla işləyənlərdir. Nəzərə alsaq ki, sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri *Məşğulluq* haqqında Azərbaycan qanununun[20] 4.1.3. maddəsinə görə məşğul şəxslərə aiddir və onların da sayı 1750 min nəfərdir, onda belə çıxır ki, yerdə qalan 1797,4 min nəfər əhali ya işsiz, ya da gizli məşğuldur. Hazırda gizli məşğul olanların da işsiz qaldığını nəzərə alsaq və onları da iş axtaranların siyahısına daxil etsək, onda Azərbaycanda faktiki işsizlik səviyyəsi birdəfəlik ödəmə üçün nəzərdə tutulan işsizlərin sayından dəfələrlə çoxdur."[21] Həmçinin *e-sosial* portalının istifadəsində yaranan texniki problemlər və onlayn müraciət sisteminin adekvat qurulmaması vətəndaşların işini daha da çətinləşdirib.

Azərbaycanda əhalinin təxmini 20 faizi gündəlik qazancdan asılıdır və sərt karantin rejimində tətbiq edilən hərəkət məhdudiyyətləri şəraitində bir çox insan gündəlik qazancını demək olar ki, əldə edə bilmirdi. Aprel-may aylarından sonra iyun-iyul aylarında da sərt karantin rejiminin uzadılması bu insanların vəziyyətini daha da pisləşdirdi.

190 manat birdəfəlik yardım alanlar arasında keçirilmiş sorğunun nəticələri göstərib ki, onların 43,4 faizi ümumiyyətlə heç bir gəlirə malik deyil. Bu o deməkdir ki, birdəfəlik yardımsız onlar minimal ehtiyaclarını belə ödəyə bilməzlər. Digər tərəfdən də 190 manatlıq birdəfəlik yardım alanların 90 faizi bildirib ki, onlara ödənilən yardımla maksimum iki həftəlik xərcləri ödəmək mümkündür. Belə ki, sorğuda iştirak edən respondentlərin 42,5 faizi birdəfəlik aylıq yardımın 1 həftə ərzində, 25 faizi 2 həftə, 22,5 faizi isə 3-5 gün ərzində xərcləri ödədiyini bildirib.

[18] Yenə orada

[19] 2019-cu ildə ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri, stat.gov.az/news/macroeconomy.php?page=10

[20] "Məşğulluq haqqında" Azərbaycan qanunu, http://sosial.gov.az/mewqulluqqanunu

[21] Birdəfəlik yardım paketindən hansı kateqoriyalı işsizlər və necə faydalanacaq? https://www.turan.az/ext/news/2020/4/free/analytics/az/123049.htm

190 manatın hansı ehtiyacları ödəməsinə gəlincə, sorğuda iştirak edənlərin 65,9 faizi əldə etdiyi yardımı yalnız ərzağa, 21,2 faizi isə ərzaq və kommunal xərclərə yönəltdiyini bildiriblər. "Yardım kəsiləndən sonra nə edəcəksiniz" sualına sorğuda iştirak edənlərin 44,4 faizi "İş axtaracam", 45,4 faizi isə "Heç bir planım yoxdur" cavablarını veriblər.

Sorğuda iştirak edənlərin 55,06 faizi bildirib ki, onlar ilk dəfədir ki, sosial müavinət alırlar, bu isə o anlama gəlir ki, həmin şəxslər pandemiya ilə əlaqədar olaraq işlərini və qazanclarını itirən şəxslərdir. Sorğuda iştirak edənlərin 77,9 faizinin 190 manat birdəfəlik yardım almaq üçün müraciət etdiyi zaman işsiz kimi qeydiyyata düşməsi onu göstərir ki, pandemiyanın nəticəsində işsizlik səviyyəsi 4-5 dəfə artıb.

Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə "2020-ci il aprel ayının 1-i olan vəziyyətə əsasən məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 100,8 min nəfər olmuş, onların da 36,9 faizini qadınlar təşkil etmişdir. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 309,0 manat olmuşdur. Lakin bu yalnız 510 nəfərə ödənilib."[22]

Pandemiya dövründə məşğulluğa dəstək tədbirlərindən biri kimi ödənişli ictimai iş yerlərinin sayı 38 mindən 90 minə çatdırılıb. DOST İş Mərkəzi vasitəsilə pandemiya dövründə əlavə 23 min şəxs ictimai işlərə cəlb olunub və ictimai işçilərin sayı artıq 61 min nəfərə yüksəlib. 2020-ci il üzrə 12 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi işləri aparılır. Bu ilin ötən dövründə artıq 3500 nəfərdən çox şəxs proqrama cəlb olunub. *Sosial bağlar* layihəsi çərçivəsində müxtəlif rayonlarda son iki ildə 375 ailə üçün bağçılıq təsərrüfatları yaradılıb və prosesə bir sıra banklar da cəlb edilib. [23] Eyni zamanda, DB-nın *Məşğulluğa Dəstək Layihəsi* üzrə DB ilə Azərbaycan hökuməti arasında kredit sazişi imzalanıb.[24] 2020-2025-ci illəri əhatə edən bu layihə üzrə həssas əhali kateqoriyalarından olan 22 min işsiz şəxsin proqrama cəlb edilməsi və kiçik biznesinin yaradılması nəzərdə tutulur. Qeyd edilənlərlə yanaşı, BMT-nin İnkişaf Proqramı ilə birgə layihə üzrə 500 əlilliyi olan şəxsin biznesə çıxışına dəstək verilir.

## NÜMUNƏLƏR VƏ UĞURLU TƏCRÜBƏLƏR

Xarici ölkələrin təcrübəsinin təhlili göstərir ki, COVID-19 pandemiyası dünya ölkələrinin iqtisadiyyatına inkişaf səviyyəsindən asılı olmayaraq birmənalı şəkildə mənfi təsir göstərib. Koronavirus pandemiyası bütün dünyada ilk növbədə işsizlərin sayının artmasına gətirib çıxarıb. Bu və digər neqativ tendensiyalara hökumətlərin cavablarını 3 əsasda qruplaşdıraraq təqdim edirik. 1) inkişaf etmiş ölkələrin hökumətlərinin reaksiyası; 2) inkişaf etməkdə olan, xüsusilə də iqtisadiyyatında resurs gəlirləri yüksək olan ölkələrin hökumətlərinin cavab tədbirləri; 3) Azərbaycanla eyni start vəziyyətində olan qonşu ölkələrin hökumətlərinin iqtisadiyyata dəstək və sosial qayğı tədbirləri.

[22] "2020-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri", https://www.stat.gov.az/news/macroeconomy.php?page=7

[23] "Sosial Bağlar" layihəsi çərçivəsində bu il daha 250 ailə üçün bağ təsərrüfatları salınacaq http://sosial.gov.az/post_360700

[24] Dünya Bankı və Azərbaycan Hökuməti arasında "Məşğulluğa Dəstək Layihəsi" üzrə kredit sazişi imzalanıb http://sosial.gov.az/post_352108

1. Amerika Birləşmiş Ştatlarında (ABŞ) pandemiyanın ilk aylarında işsizlik 4 dəfəyədə**k** daha sürətlə - 3,5[25] faizdən 14,7[26] faizə qədər artıb. Hazırda ABŞ-da **d**övlətin həyata keçirdiyi dəstək proqramları, həmçinin sərt karantin tədbirlərinin aradan qaldırılması nəticəsini göstərməkdədir. Belə ki, ABŞ Əmək Departamentinin avqust ayına olan son hesabatına görə ölkədə işsizlik 8,4 faizə qədər azalıb. Avropa Birliyinin (AB) 27 üzv ölkəsi üzrə orta işsizlik avqust ayında 7,4 faizə qədər artıb. Həmin dövrdə bilavasitə 19 ölkənin daxil olduğu avrozonada isə bu rəqəm 8,1 faiz olub.[27] Avropa Birliyi buna işçiləri dəstəkləməyə yönəlmiş çoxmilyardlı proqramlarla nail olub. Hökumətlər virusun yayılmasının işçilərə təsirini azaltmaq üçün əmək bazarına dəstək proqramlarından istifadə edib. Bu proqramlar işçilərin əmək haqlarının böyük hissəsinin dövlət tərəfindən ödənməsini nəzərdə tutur. Bundan əlavə, işəgötürənlərə – biznesə güzəştli kreditlər təqdim olunur. Avrozonanın ən böyük iqtisadiyyatı olan Almaniyada iyun ayında 6.7 milyon insanın əmək haqqı dövlət dəstək proqramlarından ödənilib.[28] Proqrama əsasən qısa saatlar işləyən işçilərə, ya da heç işləməyənlərə maaşlarının ən azı 60 faizi ödənilir.

Fransada karantin dövründə pandemiyadan əziyyət çəkən şirkətlərin işçilərinin əmək haqlarının 84 faizini dövlət ödəyib.[29] Ümumilikdə, AB-də 40 milyon nəfərdən yuxarı insanın əmək haqqına dövlət yardım edib və iyulun əvvəlinə olan məlumata əsasən işsizliyin artması dayanıb. Avropa Mərkəzi Bankının rəhbəri Kristin Laqard hesab edir ki, artıq ən pis vəziyyət arxada qalsa da, ən çətin və mürəkkəb dövr indi başlayır.[30]

İnkişaf etmiş ölkələrdə koronavirus pandemiyası dövründə həmçinin aztəminatlı vətəndaşlara birbaşa yardımlar da edilib. Məsələn, ABŞ 80 milyon insana 1200 dollarlıq çek göndərib.[31] 17 yaşdan kiçik övladı olanlara hər uşağa görə 500 dollar da əlavə verilib. Kanada hökuməti koronavirusa görə işini itirənlərə 4 ay müddətində hər ay 2000 Kanada

25 "Unemployment rates in 15 states were lower than the 3.5-percent U.S. rate in December 2019" https://www.bls.gov/opub/ted/2020/unemployment-rates-in-15-states-were-lower-than-the-3-point-5-percent-u-s-rate-in-december-2019.htm?view_full

26 "U.S. unemployment rate soars to 14.7 percent, the worst since the Depression era" https://www.washingtonpost.com/business/2020/05/08/april-2020-jobs-report/

27 "Eurostat Uemployment Statistics", https://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Unemployment_statistics

28 Baltic News Network, July 31, 2020, "German economy contracts by record 10% in second quarter", https://bnn-news.com/german-economy-contracts-by-record-10-in-second-quarter-215664

29 Radio France Internationale (RFİ), "France extends programme to protect workers from further COVID-19 related job losses", https://www.rfi.fr/en/france/20200910-france-extends-programme-to-protect-workers-from-further-covid-19-related-job-losses

30 "ECB's Lagarde says the worst of the coronavirus crisis has likely passed, but recovery will be a 'complicated matter'"https://www.businessinsider.com/economic-recovery-outlook-lagarde-worst-crisis-over-recession-complicated-ecb-2020-6

31 "80 million Americans will get their stimulus checks directly deposited into their bank accounts this week, Treasury says" https://www.businessinsider.com/80-million-americans-stimulus-checks-this-week-coronavirus-relief-treasury-2020-4

dolları (1400 ABŞ dolları) ödəyib.[32] Yaponiya 126 milyon vətəndaşın hər birinə 930 dollar nağd pul yardımı edib.[33] Kanadanın neftlə zəngin Alberta əyalətində elektrik və qaz ödənişləri təxirə salınıb.[34] Almaniyada kiçik biznes sahibləri və fərdi sahibkarlara, frilanserlərə və seks işçilərinə orta hesabla 5400 dollar nağd pul yardımı edilib.[35] Avstraliyada 6 milyon aztəminatlı vətəndaşın hər birinə 750 dollar nağd pul ödənilib.[36]

2. İnkişaf etməkdə olan ölkələrə gəlincə, Malayziyada elektrik enerjisinə görə ödəmələrdə endirimlər edilib, ödənişsiz internet, yoxsullara, məmurlara və tələbələrə birbaşa yardımlar həyata keçirilib. Bununla yanaşı, pandemiya dövründə ən çox təsirlənən turist bələdçilərinə 144 dollar, tibbi heyətə aylıq 150 dollar əlavə vəsait ödənilib.[37] Səudiyyə Ərəbistanı[38], Mərakeş[39], Misir,[40] İran[41], Gürcüstan[42] yoxsul ailələrə birbaşa və nağd pul köçürmələri ediblər. Özbəkistanda koronavirusa görə dünyasını dəyişən səhiyyə işçilərinin ailəsinə 10 min dollar birdəfəlik yardım verilib. Qətərdə kiçik və orta sahibkarlar tərəfindən ölkəyə gətirilən qida, tibbi ləvazimatlar və avadanlıqların idxalına görə gömrük güzəştləri verilib, əhali kommunal xidmətlərdən azad edilib və 2.83 milyon nəfər əhalisi olan ölkə 20.6 milyard dollarlıq dəstək paketi elan edib.[43]

[32] BBC News, "Canada backs $75bn coronavirus relief bill", https://www.bbc.com/news/world-us-canada-52022506

